*15. Adıma ilk dəfə kim "şair" dedi,*
*16. Bax, elə o yıxdı mənim evimi!*

*17. Bax, elə o yıxdı mənim evimi!*
*18. Özümü mən elə itirdim o vaxt –*
*19. Quzu boş ovuca aldanan kimi,*
*20. Aldandım...*
*21. Aldatdım niyə özümü, -*
*22. Axı yaşamağa gedirdim o vaxt!*

*23. Özümü gəzirəm əli çıralı,*
*24. Daha mən özümə sahib deyiləm.*
*25. Bəlkə də yüz addım məndən aralı*
*26. Düzlüyü ucundan mənəm döyülən!*

*27. ...Bir elan oxunar cəmi üç sətir:*
*28. "Özünü itirib, yazıq darıxır.*

15. Altın verip yerine bakır da alamam
16. Tacirlik etmeye kudretim mi var?

17. Vatanım yurt olmuyor, yurdum da vatan,
18. Nerede yaşasam da ömrüm gariptir.
19. İyi ki, Yaradan yoluma taş,
20. Gönlümün yoluna halı sermiş.

### KENDİMİ ARIYORUM

1. Her adım bir hüner meydanı imiş,
2. Adım başı taşlara değmiş hünerim.
3. Boyumu doyunca hâlâ görmemiş,
4. Kendimi arıyorum ne vakitten beri.

5. Nerede yitirmişim kendimi,
6. Kim koparmış beni kendimden?
7. Yeller mi savurmuş göğe izimi,
8. Şeytan mı koparmış beni kendimden?

9. Hangi gezegenin hayal koynunda,
10. Hangi okyanusun dibindeyim ben?
11. Talihsiz bir kızın çile suyunda,
12. Yoksa bir haram yiyenin cebindeyim ben?!

13. Benden ne umuyorsun fakir dilenci,
14. Yüz defa her yüzünü çevir cebimin.
15. Adıma ilk defa kim "şair" dedi,
16. Bak, hele o yıktı benim evimi!

17. Bak, o yıktı benim evimi!
18. Kendimi yitirdim o vakit
19. Kuzu boş avuca aldanır gibi,
20. Aldandım...
21. Aldattım niye kendimi,
22. Yaşamaya gidiyordum o vakit!

23. Kendimi arıyorum eli çıralı,
24. Daha ben kendime sahip değilim.
25. Belki de yüz adım benden uzak
26. Doğruluğu yüzünden benim dövülen!

27. Bir ilan okunur hepsi üç satır:
28. "Kendini yitirmiş, yazık bezmiş.

| | |
|---|---|
| *29. Əgər tapan olsa Rafiq Hümməti,* | 29. Eğer bulan olursa Rafig Hümmet'i, |
| *30. Qaytarın özünə... yazıqdır axı!..”* | 30. Döndürün kendine...Yazıktır...” |
| *1987* | |

### *AY MƏNİ DOĞAN (20)* / **AY BENİ DOĞURAN**

| | |
|---|---|
| *1. Mən kimin şərinə düşmüşəm görən,* | 1. Ben kimin şerrine düşmüşüm acaba |
| *2. Kimin qarğışıdı başımdan yağan?* | 2. Kimin kargışıydı başımdan yağan? |
| *3. Nə olsun, hələ ki, gümraham, sağam, -* | 3. Ne olsun, hâlâ ki, mutluyum, sağım, |
| *4. Sən məni neynirdin, ay məni doğan?* | 4. Neden doğurdun ki, ay beni doğuran? |
| | |
| *5. Bu ömür deyilən yel karvanına* | 5. Bu ömür denilen yel kervanına |
| *6. Qoşulub getməyə köçümmü çatar.* | 6. Katılıp gitmeye göçüm mü yeter. |
| *7. Sən məni neynirdin, ay məni doğan,* | 7. Neden doğurdun ki, ay beni doğuran? |
| *8. Mənim yaşamağa gücümmü çatar!?* | 8. Benim yaşamaya gücüm mü yeter!? |
| | |
| *9. Neyniyim, ömrümün yükü ağırdı,* | 9. Ne yapayım, ömrümün yükü ağırdır, |
| *10. Neçə dağ ucalır mənim qoynumda.* | 10. Kaç dağ yükselir benim koynumda. |
| *11. Dəyirman deyiləm, ey qadir Allah,* | 11. Değirmen değilim, ey kadir Allah, |
| *12. Dəyirman daşını düşürt boynumdan.* | 12. Değirmen taşını düşürt boynumdan. |
| | |
| *13. Ölüm yazılmayıb doğulmayana,* | 13. Ölüm yazılmamış doğmayana, |
| *14. Dünyaya gəldinsə, ölümün hazır.* | 14. Dünyaya geldiysen, ölümün hazır. |
| *15. Bizim məzarlıqda bir qara qazma* | 15. Bizim mezarlıkta bir kara kazma |
| *16. İyirmi dörd ildir qəbrimi qazır.* | 16. Yirmi dört yıldır kabrimi kazıyor. |
| | |
| *17. ...Mənim öz əlimdə acalım yoxdu,* | 17. Benim kendi elimde ecelim yoktur, |
| *18. Acalı gələnlər deməsin sağam.* | 18. Eceli gelenler demesin “sağım”. |
| *19. Axı, ölməyə də macalım yoxdu,* | 19. Ah, ölmeye de mecalim yoktur, |
| *20. Sən məni neynirdin, ay məni doğan?..* | 20. Neden doğurdun ki, ay beni doğuran? |
| *1989* | |

### *TƏNHALIQ (21)* / **YALNIZLIK**

| | |
|---|---|
| *1. Sən də yalqızlıqdan utanırsanmı,* | 1. Sen de yalnızlıktan utanır mısın, |
| *2. Səfehləyirsənmi tənha qalanda?* | 2. Garip olur musun yalnız kaldığında? |
| *3. Zümzümə eləyib, fit çalırsanmı* | 3. Usulca şarkılar söylüyor musun |
| *4. Huşuna əcaib sükut dolanda?* | 4. Ruhuna acayip sükut dolduğunda? |
| | |
| *5. Huşuna əcaib sükut dolanda,* | 5. Ruhuna acayip sükut dolduğunda, |
| *6. Gecə uzananda sabahsız kimi,* | 6. Gece uzadığında sabahsız gibi, |
| *7. Rəzil bir xəyala ürcah olub da,* | 7. Rezil bir hayale yakalanıp da, |
| *8. Qəfil tər basırmı səni buz kimi?* | 8. Ani ter basar mı seni buz gibi? |
| | |
| *9. Qəfil xəcalətdən gizlənmək üçün* | 9. Ani bir utançtan sakınmak için |
| *10. Nimdaş xatirənə küfr edirsənmi?* | 10. Eski hatırana küfreder misin? |

*11. Qaçıb pəncərəyə...çölü bir anlıq*
*12. Dəli tək döyüküb seyr edirsənmi?*

*13. ...Bəndə tək qalanda dəliyə dönür,*
*14. Rəzil düşüncələr cana daraşır.*
*15. Özünə yaradıb Tanrı təkliyi,*
*16. Tənhalıq Tanrıya yaman yaraşır...*
*2001*

***MƏN SÖZÜMÜ PIÇILDADIM RÜZGARA (22)***

*1. Qundağima Gün doğmadı, bilirəm,*
*2. Doğularkən alnım üstə Ay qonub.*
*3. Çiynim üstdə mələklərim keyiyib,*
*4. Alnım üstdə heyrətindən Ay donub.*

*5. Qundağima Gün doğmadı, bilirəm,*
*6. Ağlamadım. Ağlamağa üzüm yox.*
*7. Mən sözümü pıçıldadım rüzgara,*
*8. Bəndələrə oxunası sözüm yox.*

*9. Mən sözümü pıçıldadım rüzgara,*
*10. Rüzgar bilər, mən bilərəm, Söz bilər.*
*11. Nə zamansa ağ yellərdən səksənib,*
*12. O söz ilə qucaqlaşan Toz bilər.*

*13. Doğularkən alnım üstə Ay qonub,*
*14. Paralanıb... bir ulduz da tay qonub.*
*15. İki mələk O-ndan mənə pay qonub,*
*16. Qundağima Gün doğmadı, bilirəm.*

*17. Qundağına Gün doğmayan səsəm mən,*
*18. Gün şüası oynayanda oxumam.*
*19. Ay nurunda bir söz çiçək açmasa,*
*20. Min il keçə, mən o sözü qoxumam...*
*2000*

***QÜRBƏT ADAMLARI ŞEİR DİNLƏMƏZ (23)***
*(Dostum şair Mamocoğluna)*

*1. A qərib diyarın tən ortasında*
*2. Vətəni içində gəzdirən adam,*
*3. Gecələr Tanrıdan söz payı alıb,*
*4. Səhərlər rüzgarnan süzdürən adam –*

11. Koşup pencereye...Çölü bir anlık
12. Deli bir bakışla seyreder misin?

13. İnsan tek kalınca deliye dönüyor,
14. Rezil düşünceler cana akışıyor.
15. Kendine yaratmış Tanrı tekliği,
16. Yalnızlık Tanrı'ya çok yakışıyor...

**BEN SÖZÜMÜ FISILDADIM RÜZGARA**

1. Kundağıma güneş doğmadı, biliyorum,
2. Doğarken alnımın üstüne ay konmuş.
3. Omzum üstünde meleklerim sarsılmış,
4. Alnımın üstünde hayretinden ay donmuş.

5. Kundağıma güneş doğmadı, biliyorum,
6. Ağlamadım. Ağlamaya yüzüm yok.
7. Ben sözümü fısıldadım rüzgara,
8. İnsanlara söylenecek sözüm yok.

9. Ben sözümü fısıldadım rüzgara,
10. Rüzgar bilir, ben bilirim, söz bilir.
11. Ne zaman ak yellerden tiksinmiş
12. O söz ile kucaklaşan toz bilir.

13. Doğarken alnımın üstüne ay konmuş.
14. Parçalanmış... Bir yıldız da yanına konmuş
15. İki melek ondan bana pay koymuş,
16. Kundağıma güneş doğmadı, biliyorum.

17. Kundağına güneş doğmayan sesim ben,
18. Güneş ışığı doğduğunda söylemem.
19. Ay nurundan bir söz çiçek açmasa,
20. Bin yıl geçse, ben o sözü koklamam...

**GURBET ADAMLARI ŞİİR DİNLEMEZ**
(Dostum şair Mamocoğlu'na)

1. A garip diyarın fırtına ortasında
2. Vatanı içinde gezdiren adam,
3. Geceleri Tanrı'dan söz payı alıp,
4. Seherleri rüzgardan süzdüren adam

*5. Qürbət adamları şeir dinləməz.*

*6. Qürbət yollarına töküldü hamı,*
*7. Vətəndə dolanmaq müşkül olunca...*
*8. Hamı pul dalınca qaçdı, a qağa,*
*9. Qürbətə kim qaçdı şeir dalınca? –*
*10.Qürbət adamları şeir dinləməz.*

*11. Amma sən qürbətə boyun əymədin,*
*12. Qürbətçi sözünü ötən eylədin.*
*13. Çoxları Vətəndə qərib yaşadı,*
*14. Sən gedib qürbəti Vətən eylədin*
*15. Bir qucaq qürurnan, bir nəfəs söznən.*

*16. Qürbət adamları şeir dinləməz...*
*17. Şeirini küləyə, yelə oxudun,*
*18. Evdə bəslədiyin gülə oxudun,*
*19. Qar basmış yovşanlı çölə oxudun*
*20. Səssiz bir avaznan, yumulu göznən.*

*21. Soyuq Moskvanın tən ortasında*
*22. Sən özün bir isti Vətənsən, qağa,*
*23. Bir qucaq qürurnan, bir nəfəs söznən,*
*24. Səssiz bir avaznan, yumulu göznən*
*25. Borçalı dilində ötənsən, qağa.*
*26. Qürbət adamları şeir dinləməz...*

*2013*

***AY İŞIĞI GECƏLƏRİN KƏFƏNİ (24)***

*1. Ay işığı – gecələrin kəfəni,*
*2. Zinrik gecə ağ kəfənə bürünər.*
*3. Ağ kəfənin ağ nurunda şairlər*
*4. Dizin-dizin Yaradana sürünər.*

*5. Ayın nuru – gecələrin kəfəni,*
*6. Zülmət özü – gecələrin ruhudu.*
*7. Ah çəkənin gündüzünə gün düşməz,*
*8. Hər gündüzüm bir gecəyə yuxudu.*

*9. Ay işığı – gecələrin kəfəni,*
*10. Ay işığı ah çəkənə xoş gələr.*
*11. Ay işığı doğulanda mələklər,*
*12. Hara getsə, şairlərə tuş gələr.*

5. Gurbet adamları şiir dinlemez.

6. Gurbet yollarına döküldü hepsi,
7. Vatanda dolanmak müşkül olunca...
8. Hepsi para ardına kaçtı, a baba,
9. Gurbete kim kaçtı şiir ardına?
10. Gurbet adamları şiir dinlemez.

11. Ama sen gurbete boyun eğmedin,
12. Gurbetçi sözünü geçer eyledin
13. Çokları vatanda garip yaşadı,
14. Sen gidip gurbeti vatan eyledin.
15. Bir kucak gururla, bir nefes sözle.

16. Gurbet adamları şiir dinlemez...
17. Şiirini rüzgara, yele okudun,
18. Evde beslediğin güle okudun,
19. Kar basmış yavşanlı çöle okudun
20. Sessiz bir avazla, yumulu gözle.

21. Soğuk Moskava’nın fırtına ortasında
22. Sen kendin bir sıcak vatansın, baba,
23. Bir kucak gururla, bir nefes sözle,
24. Sessiz bir avazla, yumulu gözle
25. Borçalı dilinde söyleyensin, baba.
26. Gurbet adamları şiir dinlemez...

**AY IŞIĞI GECELERİN KEFENİ**

1. Ay ışığı gecelerin kefeni,
2. Zifiri gece ak kefene bürünür.
3. Ak kefenin ak nurunda şairler
4. Dizin dizin Yaradan’a sürünür.

5. Ayın nuru gecelerin kefeni,
6. Karanlığın kendisi gecelerin ruhudur.
7. Ah çekenin gündüzüne güneş düşmez,
8. Her gündüzüm bir geceye uykuydu.

9. Ay ışığı gecelerin kefeni,
10. Ay ışığı ah çekene hoş gelir.
11. Ay ışığı doğduğunda melekler,
12. Nereye gitse, şairlere rast gelir.

*13. Hər gündüzüm bir gecəyə yuxudu,*
*14. Yaman olur yuxuların qarası.*
*15. Nə müddətdir mənə gündüz olammır*
*16. Gündoğanla Günbatanın arası.*

*17. Ay işığı – gecələrin kəfəni,*
*18. Ay işığı – qaranlığın libası.*
*19. "Gün işığı ah çəkənin olammır",*
*20. Ay nurunu bizə göndər, babası!..*
*2001*

13. Her gündüzüm bir geceye uykuydu.
14. Fena olur uykuların karası.
15. Ne müddettir bana gündüz olamıyor
16. Doğu ile batı arası.

17. Ay ışığı gecelerin kefeni,
18. Ay ışığı karanlığın elbisesi.
19. "Gün ışığı ah çekenin olamıyor",
20. Ay nurunu bize gönder, dedesi!..

### *DARIXIRAM (25)*

*1. Darıxıram... bu da belə yanğıdı,*
*2. Elə bil ki, səhradayam, suyum yox.*
*3. Kəndirim var, kəsənim var, neyləyim, -*
*4. İp kəsilsə, yıxılmağa quyum yox.*

*5. Darıxmaq da ölüm kimi bir şeydi,*
*6. Ya dünyada hamı ölüb, ya da mən.*
*7. Fürsət düşüb – nə istəyir söyləsin,*
*8. Bir kimsə yox; bu Allahdı, bu da mən.*

*9. Darıxmağın bir üzü var – Tənhalıq,*
*10. Tanrı özü tənhalığın Təkidi.*
*11. Bu təklikdən məni qopar, ay Allah,*
*12. Sən ki, varsan... Rafiq Hümmət nəçidi!?*

*13. Darıxıram xəpəng tutmuş qurd kimi,*
*14. Ulartımı dağlar duysa, kar olar.*
*15. İçim yanır od vurulmuş yurd kimi,*
*16. Ah, nə ola, bircə xışma qar ola!*

*17. Darıxıram... sevdam məni oynadır,*
*18. Röyasında buta almış yar kimi.*
*19. Partlayacam içimdəki sevgidən,*
*20. Şirinlikdən parçalanan nar kimi.*

*21. ...Tənhalıq da bir peşəymiş. Sən demə,*
*22. Darıxmaq da yaşamağa çaradı.*
*23. Darıxanda eşq istəyir şairlər,*
*24. Darıxanda – Tanrı bəndə yaradır...*
*1999*

### ÖZLÜYORUM

1. Özlüyorum... bu da böyle alevdir,
2. Sanki sonsuz sahradayım, suyum yok.
3. Halatım var, ipim de var, neyleyim,
4. İp kesilse, yıkılmaya kuyum yok.

5. Özlemek de ölüm gibi bir şeydir,
6. Ya dünyada herkes ölmüş, ya da ben.
7. Fırsat varken  ne istiyor söylesin,
8. Bir kimse yok; bu Allah'tır, bu da ben.

9. Özlemenin bir yüzü var yalnızlık,
10. Tanrı kendisi yanlnızlığın tekidir.
11. Bu yalnızlıktan beni kopar, Allah'ım,
12. Sen ki varsın... Rafig Hümmet necidir!?

13. Özlüyorum kapan tutmuş kurt gibi,
14. Ulumamı dağlar duysa, sağır olur.
15. Yanıyorum od vurulmuş yurt gibi,
16. Ah, ne olur, bir tek avuç kar olsa!

17. Özlüyorum... Aşkım beni oynatır,
18. Rüyasında sevdalanmış yar gibi.
19. Patlayacağım içimdeki sevgiden,
20. Tatlılıktan parçalanan nar gibi.

21. Yalnızlık da bir sanatmış meğerse,
22. Özlemek de yaşamaya çaredir.
23. Özleyince aşk istiyor şairler,
24. Özleyince Tanrı insanı yaratır...

### *İNDƏN BELƏ (26)*

### BUNDAN BÖYLE

*1. Bu dünyada nə yaşadim bəllidi,*
*2. Harda, necə yaşayıram – nə ələm?!*
*3. İndən belə Tanrı verən ömrümü*
*4. Mən nə cürə yaşayacam, bilirəm.*

*5. Bu dünyada nə yaşadim bəllidi,*
*6. İlk ömrümdə yetişməmiş dərildim.*
*7. O dünyanın sirli astanasında*
*8. Öz ruhumla öz canımda dirildim.*

*9. Harda, necə yaşayıram – nə ələm?!*
*10. Bir ömürdü: dadı acı, duzu kəm.*
*11. Bəndələrin nəzərində talesiz,*
*12. Yaradanın hüzurunda xoşbəxtəm.*

*13. İndən belə Tanrı verən ömrümü*
*14. Özgələrə xərcləyəcəm yenə mən.*
*15. Tanrı məni dost seçəndən bu yana,*
*16. Vallah, yağı kəsilmişəm mənə mən.*

*17. Mən nə cürə yaşayacam, bilirəm,*
*18. Yazıq olsun badalaqlı yoldaşa,*
*19. Yazıq olsun iman bilməz qandaşa...*
*20. Dərdini de ya Tanrıya, ya daşa...*
*1998*

### *QƏZA (27)*

*1. Qəzaya uğrayır təyyarə, maşın,*
*2. Neçə ömür biçir, doğrayır hər gün.*
*3. Hələ ölməmişəm...qismətə baxın! –*
*4. Ürəyim qəzaya uğrayır hər gün.*

*5. Ürəyim qəzaya uqrayır hər gün,*
*6. Gündə ürəyimə neçə söz dəyir.*
*7. Güzgüyə baxıram: mən belə çirkin,*
*8. Ay Allah, bəs niyə mənə göz dəyir!?*

*9. Qəzaya uğradı göydə Qaqarin,*
*10. Qəzaya uğradı düz yolda Söyün,*
*11. Qəzaya uğradı Vaqif İbrahim,*
*12. Ürəyim qəzaya uğradı o gün.*

*13. (...İçimdə, çölümdə bir ölüm qəmi,*
*14. Ömürdən küsəndə, gündən küsəndə,*

1. Bu dünyada ne yaşadım bellidir,
2. Nerede, nasıl yaşıyorum ne hâldeyim?!
3. Bundan böyle Tanrı'nın verdiği ömrümü
4. Ben nasıl yaşayacağım, bilirim.

5. Bu dünyada ne yaşadım bellidir,
6. İlk ömrümde hamken toplandım.
7. O dünyanın sırlı eşiğinde
8. Kendi ruhumla kendi canımda dirildim.

9. Nerede, nasıl yaşıyorum ne hâldeyim?!
10. Bir ömürdü: Tadı acı, tuzu eksik.
11. İnsanların gözünde talihsiz,
12. Yaradanın huzurunda mutluyum.

13. Bundan böyle Tanrı'nın verdiği ömrümü
14. Başkalarına harcayacağım yine ben.
15. Tanrı'nın beni dost seçtiğinden bu yana,
16. Vallahi, düşman kesilmişim bana ben.

17. Ben nasıl yaşayacağım, biliyorum.
18. Yazıklar olsun çelme takan yoldaşa,
19. Yazıklar olsun iman bilmez kandaşa...
20. Derdini de ya Tanrı'ya, ya taşa.

### KAZA

1. Kazaya uğruyor uçak, araba,
2. Ne kadar ömür biçiyor, doğruyor her gün.
3. Hâlâ ölmemişim...kısmete bakın!
4. Yüreğim kazaya uğruyor her gün.

5. Yüreğim kazaya uğruyor her gün,
6. Günde kaç defa yüreğime söz değiyor.
7. Aynaya bakıyorum: Ben böyle çirkin,
8. Ay Allah, yeter bana niye göz değiyor!?

9. Kazaya uğradı gökte Kakarin,
10. Kazaya uğradı düz yolda Söyün,
11. Kazaya uğradı Vakıf İbrahim,
12. Yüreğim kazaya uğradı o gün.

13. (...İçimde, çölümde bir ölüm gamı,
14. Ömre küsünce, güne küsünce,

*15. Mən mindiyim maşın, mindiyim gəmi*
*16. Qəzaya uğramır mən istəsəm də).*

*17. Ürəyim dərd ilə toqquşur hər gün,*
*18. Hər gün ürəyimdə qəzadır, Allah!*
*19. Ağrını ürəyim elə çəkir ki,*
*20. Mənim ölümümü uzadır Allah.*

*21. Fələyin məndən çox kor qarıncaya,*
*22. Çivinə, cücüyə yazığı gəlir?*
*23. O çoxdan salardı məni qəzaya,*
*24. Yəqin sürücüyə yazığı gəlir...*
*1991*

15. Benim bindiğim araba, bindiğim gemi
16. Kazaya uğramıyor ben istesem de.)

17. Yüreğim dert ile tokuşuyor her gün,
18. Her gün yüreğimde kazadır, Allah!
19. Ağrını yüreğim öyle çekiyor ki,
20. Benim ölümümü uzatıyor Allah.

21. Feleğin benden çok kör karıncaya
22. Sineğe, civcive acıması geliyor?
23. O çoktan yaptırırdı bana kazayı
24. Fakat sürücüye acıması geliyor...

## *TƏNHA QAYIĞAM (28)*

*1. Mən tənha qayığam, tənha qayığam,*
*2. Yelkən ümidinə, yel ümidinə.*
*3. Qarışıq suların ortasındaca*
*4. Qısılıb qalmışam yer ümidinə.*

*5. Qısılıb qalmışam yer ümidinə,*
*6. Nə sahil görünür, nə də bir ada.*
*7. Mən tənha qayığam, tənha qayığam,*
*8. Ayrı bir qayıq yox bəlkə dəryada.*

*9. Məndən tənhası yox bəlkə dünyada,*
*10. Yalqızlıq taxtının tək sultanıyam.*
*11. Qarışıq suların tən ortasında*
*12. Mən öz sahilimi çətin tanıyam.*

*13. Mən öz sahilimə çətin qovuşam,*
*14. Çətin ki, bu yellər əsə tərsinə.*
*15. Üzürəm, nə bilim, səmtim haraya –*
*16. Düşmən gəmisinə, dost gəmisinə.*

*17. Düşmən gəmisi nə, dost gəmisi nə?..*
*18. Yelkən ümidinə, yel ümidinə,*
*19. Qarışıq suların tən ortasında*
*20. Üzürəm bir arşın yer ümidinə...*
*1998*

## YALNIZ KAYIĞIM

1. Ben yalnız kayığım, yalnız kayığım
2. Yelken ümidine, yel ümidine
3. Karmaşık suların fırtınasında
4. Kısılıp kalmışım yer ümidine.

5. Kısılıp kalmışım yer ümidine,
6. Ne sahil görünüyor, ne de bir ada.
7. Ben yalnız kayığım, yalnız kayığım,
8. Başka bir kayık yok belki deryada.

9. Benden yalnızı yok belki dünyada,
10. Yalnızlık tahtının tek sultanıyım.
11. Karmaşık suların fırtınasında
12. Ben kendi sahilimi zor tanıyorum.

13. Ben kendi sahilime zor kavuşayım,
14. Zor ki, bu rüzgar esse tersine.
15. Bilmem, yüzüyorum semtim nereye
16. Düşman gemisine, dost gemisine?

17. Düşman gemisi ne, dost gemisi ne?
18. Yelken ümidine, yel ümidine,
19. Karmaşık suların fırtınasında
20. Kalmışım bir arşın yer ümidine...

## *CAVİD VƏ MƏN (29)*

*1. Neçə yerə bölünmüşəm, ilahi,*
*2. Neçə yerdə yaşayıram mən yazıq.*

## CAVİD VE BEN

1. Kaç yere bölünmüşüm, ilahi,
2. Kaç yerde yaşıyorum ben yazık.

*3. Daş üstündə gül-çiçəklər bəsləyir,*
*4. Peşqun üstə daş yayıram mən yazıq.*

*5. Tələsirəm, yürüyürəm, qaçıram,*
*6. İzim düşür yeddi yerə bir gündə.*
*7. Əl-ayağım qandalsızdı, azadam,*
*8. Amma ürək çox darıxır sürgündə.*

*9. Ürək üçün sürgün olmaq zülümdü,*
*10. Əl-ayaqdı tez alışan sürgünə.*
*11. Ey Caviddən çox danışan baş yazar,*
*12. Kişisənsə, məni də yaz dərginə.*

*13. Kişisənsə, məni də yaz dərginə,*
*14. Heç olmazsa, bu kövrək səsimdən yaz.*
*15. Ağan qoymaz yaxşılığım açıla,*
*16. Sən də götür tərsinə - pisimdən yaz.*

*17. Peşqun üstə daş yayıram mən yazıq,*
*18. Bu halıma yarım baxıb qəmlənir.*
*19. Xoşbəxtlikdi, faciə ha deyil ki, -*
*20. Gör o daşdan neçə adam yemlənir.*

*21. ...Sən Cavidi sürgün edənlərdən yaz,*
*22. Cavidlərdən mən yazaram dərgimə.*
*23. Ürəyimin şəkilləri üzümdə,*
*24. A baş yazar, tamaşa et sərgimə!..*
*2008*

3. Taş üstünde güller, çiçekler besliyor,
4. Hamur tahtası üstüne taş yayıyorum ben yazık.

5. Telaşlıyım, yürüyorum, kaçıyorum,
6. İzim düşüyor yedi yere bir günde.
7. Elim ayağım zincirsiz, azadım,
8. Ama yürek çok sıkılıyor sürgünde.

9. Yürek için sürgün olmak zulümdür,
10. El ayak tez alışır sürgüne.
11. Ey Cavid'den çok konuşan baş yazar,
12. Adamsan beni de yaz dergine.

13. Adamsan beni de yaz dergine,
14. Hiç olmazsa, bu ağlamaklı sesimden yaz.
15. Ağan izin vermez iyiliğim ortaya çıksın,
16. Sen de götür tersine kötülüğümden yaz.

17. Hamur tahtası üstüne taş yayıyorum ben yazık.
18. Bu hâlime yarim bakıp kederleniyor.
19. Mutluluktur, facia değil ki,
20. Gör o taştan ne kadar adam yemleniyor.

21. Sen Cavid'i sürgün edenlerden yaz,
22. Cavidlerden ben yazarım dergime.
23. Yüreğimin resimleri yüzümde,
24. A baş yazar, temaşa et sergime!..

### *ANAMA (30)*

*1. Göy üzündə bir bulud yox, ay anam,*
*2. Göy üzü də üzün kimi təmizdi.*
*3. Dalğalanan tellərinə baxıram,*
*4. Elə bil ki, ləpələnən dənizdi.*

*5. Gərək deyil, yer üzündə hər nə var,*
*6. Bir Allah var, göy üzü var, durna var.*
*7. Səmadakı qatar-qatar durnalar*
*8. Durna deyil, hərəsi bir kənizdi.*

*9. Oğul dərdi çəkməyənlər yarıdı,*
*10. Sən seçən qız özgəsinin yarıdı.*
*11. Qaraşınlar qara günnən qarıdı,*
*12. Daha qızlar mavi göz, ağ bənizdi.*

### ANAMA

1. Gökyüzünde bir bulut yok, ay anam,
2. Gökyüzü de yüzün gibi temizdir.
3. Dalgalanan tellerine bakıyorum,
4. Sanki çırpınan denizdir.

5. Gerekmez, yeryüzünde ne varsa,
6. Bir Allah var, gökyüzü var, turna var.
7. Semadaki sıra sıra turnalar
8. Turna değil her biri bir cariyedir.

9. Oğul derdi çekmeyenler memnundur,
10. Senin seçtiğin kız başkasının yaridir.
11. Esmerler, kara günden karadır,
12. Şimdi kızlar mavi göz, ak benizdir.

*13. ...Yan-yörəmdə ox tək uçur söz mənim,*
*14. Götürməyir neçə ürək, göz məni.*
*15. Ağırlığım-uğurluğum toz mənim –*
*16. Ləyənə bas, məni özün çimizdir...*
*1996*

13. ...Etrafımda ok gibi uçuyor söz benim,
14. Çekemiyor kaç yürek, göz beni.
15. Ağırlığım uğurluğum toz benim
16. Leğene bas, beni kendin yıka...

***MİLLƏTİN ŞAİRİ OLMAQ ZOR İMİŞ (31)***

*1. Ürəyim şeiri gəzdirmir daha,*
*2. Daha qoruyammır şeiri ürəyim.*
*3. Unudub eşqini...*
*4. Elə hey qovur*
*5. Şeytanı, iblisi, şəri ürəyim.*

*6. Daha gəzdirəmmir şeiri ürəyim,*
*7. Eşqini, gücünü, məhəbbətini*
*8. Haylayıb içindən azdıranların*
*9. Gözləyir zülmünü, məşəqqətini.*

*10. Daha qoruyammır şeiri ürəyim,*
*11. Bir şeir yolunda ömrüm qocalır.*
*12. Çarpılıb gündə bir şərə ürəyim,*
*13. Boylu qadınlar tək şeirini salır.*

*14. Ürəyim yarımçıq şeirlər doğur,*
*15. Sınıq ürəklərdə şeir bəslənməz.*
*16. Bu dünya elə bil şərə nökərdi;*
*17. Şər bəslənən yerdə şeir səslənməz.*

*18. Şeirin də şair tək ömrü yarımçıq,*
*19. Şeirin də şair tək ömrü kor imiş.*
*20. Allahın şairi ola bilənə*
*21. Millətin şairi olmaq zor imiş...*
*1997*

**MİLLETİN ŞAİRİ OLMAK ZOR İMİŞ**

1. Yüreğim şiiri taşıyamıyor artık,
2. Daha koruyamıyor şiiri yüreğim.
3. Unutup aşkını...
4. Daima kovalıyor
5. Şeytanı, iblisi, şeri yüreğim.

6. Daha taşıyamıyor şiiri yüreğim
7. Aşkını, gücünü, sevgini
8. Sızlanıp içinden perişan olanların
9. Bekliyor zulmünü, meşakkatini.

10. Artık koruyamıyor şiiri yüreğim,
11. Bir şiir yolunda ömrüm kocalıyor.
12. Çarpılıp günde bir şiire yüreğim,
13. Hamile kadınlar gibi şiirini düşürüyor.

14. Yüreğimde yarım kalmış şiirler doğuyor,
15. Kırık gönüllerde şiir beslenmez.
16. Bu dünya sanki şerre uşaktır;
17. Şer beslenen yerde şiir seslenmez.

18. Şiirin de şair gibi ömrü yarım,
19. Şiirin de şair gibi ömrü kör imiş.
20. Allah'ın şairi olabilene
21. Milletin şairi olmak zor imiş...

***AĞARIR (32)***

*1. Yerdən üzülürəm get-gedə, babam,*
*2. Ayağım torpaqda duruş gətirmir.*
*3. Ya məni bürüyüb Tanrının eşqi,*
*4. Ya da bəndələrin gözü götürmür.*

*5. Yolumu bəndələr seçə ha bilmir,*
*6. Gedirəm... qar yağır... izim ağarır.*
*7. Daha ağ kağıza sözüm yapışmır,*

**AĞARIYOR**

1. Yerden uzaklaşıyorum gitgide, dedem,
2. Ayağımın toprakta takati yetmiyor.
3. Ya beni bürümüş Tanrı'nın aşkı,
4. Ya da insanlar kıskanıyor.

5. Yolumu insanlar göremiyor,
6. Gidiyorum...Kar yağıyor...İzim ağarıyor.
7. Daha ak kağıda sözüm yapışmıyor,

*8. Qələmdən düşməmiş sözüm ağarır.*

*9. Qar yağır... Tanrının siması kimi,*
*10. Bu həyat ağarır, bu dam ağarır.*
*11. Bu evin içinə qar yağmır...*
*12. amma,*
*13. Bu qara bildiyim adam ağarır.*

*14. Daha dostlarım da görəmmir məni,*
*15. Mən al gözlərimin qarasındayam.*
*16. Yerdən üzülmüşəm, göydə deyiləm,*
*17. Bəlkə yerlə göyün arasındayam.*

*18. Qara günlərimin üz ağlığıdı,*
*19. Bu qara şöhrətim, şanım ağarır.*
*20. Açılır dan üzü...*
*21. Şükür, ilahi,*
*22. Axır ki, mənim də danım ağarır...*
*1992*

8. Kalemden düşmemiş sözüm ağarıyor.

9. Kar yağıyor... Tanrı'nın siması gibi,
10. Bu hayat ağarıyor, bu dam ağarıyor.
11. Bu evin içine kar yağmıyor...
12. Ama,
13. Bu kara bildiğim adam ağarıyor.

14. Şimdi dostlarım da göremiyor beni,
15. Ben al gözlerimin karasındayım.
16. Yerden uzaklaşıyorum, gökte değilim,
17. Belki yerle göğün arasındayım.

18. Kara günlerimin yüz aklığıydı.
19. Bu kara şöhretim, şanım ağarıyor.
20. Açılıyor tan yüzü...
21. Şükür, ilahi,
22. Sonunda, benim de tanım ağarıyor.

## *MƏN ÖLƏRDİM (33)*

*1. Mən ölərdim, amma anam xəstədir,*
*2. Mən ölərdim, amma qızım bəstədir.*
*3. Mən qurtuldum – ölümüm can üstədir,*
*4. - Salam ömür! Demək, hələ sağam mən.*

*5. Mən ölərdim, amma dostlar azalır,*
*6. Mən ölərdim, amma oğlum sozalır.*
*7. Mən qurtuldum – azan səsi ucalır,*
*8. - Salam ömür! Necə bəyaz, ağam mən.*

*9. Mən ölərdim... atam mənsiz durammaz,*
*10. Mən ölərdim... yolum sona varammaz.*
*11. Mən qurtuldum – sağalası yaram az,*
*12. - Salam ömür! Bir ömürlük çağam mən.*

*13. Mən ölərdim, amma Vətən dardadı,*
*14. Mən ölərdim... – bildim Vətən hardadı.*
*15. Mən qurtuldum – Vətən iki yardadı,*
*16. - Salam omür! Bağ içində bağam mən.*

*17. Mən ölərdim... qoymadılar ölməyə,*
*18. Mən ölərdim... güc topladım gülməyə.*
*19. Mən vuruldum "Allah" adlı kəlməyə,*

## **BEN ÖLÜRDÜM...**

1. Ben ölürdüm ama anam hastadır,
2. Ben ölürdüm ama kızım küçüktür.
3. Ben kurtuldum ölümüm ölmek üzere.
4. -Selam ömür! Demek, hâlâ sağım ben.

5. Ben ölürdüm ama dostlar azalıyor,
6. Ben ölürdüm ama oğlum üzülüyor.
7. Ben kurtuldum ezan sesi yükseliyor,
8. -Selam ömür! Nasıl beyaz, akım ben.

9. Ben ölürdüm... Babam bensiz duramaz,
10. Ben ölürdüm... Yolum sona varamaz.
11. Ben kurtuldum sarılası yaram az,
12. -Selam ömür! Bir ömürlük çağım ben.

13. Ben ölürdüm ama vatan dardadır,
14. Ben ölürdüm...Bildim vatan nerdedir.
15. Ben kurtuldum vatan iki yardadır,
16. -Selam ömür! Bağ içinde bağım ben.

17. Ben ölürdüm... Bırakmadılar ölmeye
18. Ben ölürdüm... Güç topladım gülmeye.
19. Ben vuruldum "Allah" adlı kelimeye,

*20. - Salam ömür! Yeddi sütun tağam mən...*
*2011*

20. -Selam ömür! Yedi sütun kubbeyim ben...

***TİFLİSİM ALINMAZ QALAM (34)***

*1. Sən mənim sahilim, mən sənin dalğan,*
*2. Səhərlər yuyunur, siqar yandırır,*
*3. Yemək də yemədən sənə gəlirəm.*
*4. Hər axşam sinəmdən itələyirsən,*
*5. Yeni səhər olur… yenə gəlirəm.*

*6. Hər səhər dalğa tək yönüm sahilə,*
*7. Çırpıla-çırpıla gəlirəm sənə.*
*8. Gecənin yuxusuz yorğunluğundan*
*9. Qurtula-qurtula gəlirəm sənə.*

*10. Bir ayrı şəhərdən gəlirəm sənə,*
*11. Hər səhər sən özün çəkirsən məni.*

*12. Neyniyim, axşamlar bir dolça su tək*
*13. Yenidən yoluna tökürsən məni.*
*14. Səni bu dünyada ölümcül sevən*
*15. Ağıllı da mənəm, vallah, dəli də.*

*16. Dünyanın ən gözəl qızlarını mən*
*17. Sevmişəm prospekt Rustavelidə.*
*18. Hər axşam sakitcə çəkilir səndən,*
*19. Hər səhər dalğa tək qabarıram mən.*
*20. Bütün məni sevən dosta, tanışa*
*21. Səni sevsin deyə, yalvarıram mən.*

*22. Sahilim, ümidim, ləpədöyənim,*
*23. Tiflisim – alınmaz qalamsan mənim.*
*24. Səni sevdiyimi necə deyim ki –*
*25. Atamsan, anamsan, balamsan mənim.*
*2011*

**TİFLİS'İM ALINMAZ KALEM**

1. Sen benim sahilim, ben senin dalgan,
2. Seherler yıkanıyor, sigara yanıyor,
3. Yemek de yemeden sana geliyorum.
4. Her akşam sinemden iteliyorsun,
5. Yine seher oluyor...Yine geliyorum.

6. Her seher dalga gibi yönüm sahile,
7. Çırpına çırpına geliyorum sana.
8. Gecenin uykusuz yorgunluğundan
9. Kurtula kurtula geliyorum sana.

10. Bir ayrı şehirden geliyorum sana,
11. Her seher sen kendin çekiyorsun beni.

12. Neyleyim, akşamlar bir bidon su gibi
13. Yeniden yoluna döküyorsun beni.
14. Seni bu dünyada ölümcül seven
15. Akıllı da benim, vallahi, deli de.

16. Dünyanın en güzel kızlarını ben
17. Sevmişim ben cadde Rustaveli'de.
18. Her akşam sessizce çekiliyor senden,
19. Her seher dalga gibi kabarıyorum ben.
20. Bütün beni seven dosta, tanışa
21. Seni sevsin diye, yalvarıyorum ben.

22. Sahilim, ümidim, dalgakıranım,
23. Tiflis'im alınmaz kalemsin benim.
24. Seni sevdiğimi nasıl diyeyim ki
25. Atamsın, anamsın, yavrumsun benim.

***GÖYDƏ ALLAH (35)***

*1. Ömrüm ola – düşmənimdən öc alam,*
*2. Vətən ulu olanadək qocalam...*
*3. Sinəm altdan ərşə doğru ucalan*
*4. Aha dönüb mələkləşən səsimdi.*

*5. Şair – sözü çiçək kimi qoxlayır,*
*6. Haqq deyəni Tanrı özü saxlayır.*

**GÖKTE ALLAH..**

1. Ömrüm ola düşmanımdan öc alayım,
2. Vatan ulu olana dek kocalayım…
3. Sinemin altından arşa doğru yükselen
4. Aha dönüp melekleşen sesimdir.

5. Şair sözü çiçek gibi kokluyor,
6. Hak diyeni Tanrı kendi koruyor.

*7. Mizrab ilə qucaqlaşıb ağlayır –*
*8. Aman Allah, bu nə teldi, nə simdi!?*

*9. Atam gələ - şırğa vura bu saza,*
*10. Anam gələ - dua deyə, söz yaza...*
*11. Nə müddətdi gedəmmirəm Darvaza,*
*12. Elə bil ki, yolum-izim tilsimdi.*

*13. ...Tənhalaşıb bir gün bezsəm dünyada,*
*14. Dörd tərəfdən əlim üzsəm dünyada,*
*15. Sirrə dönüb, sirdaş gəzsəm dünyada,*
*16. Göydə Allah, yerdə Şahin bəsimdi.*
*2000*

7. Mızrap ile kucaklaşan ağlıyor
8. Aman Allah, bu ne teldir, ne bakır!?

9. Babam gelse nakış vursa bu saza,
10. Anam gelse dua etse, söz yazsa…
11. Ne müddettir gidemiyorum Darvaz'a,
12. Sanki yolum, izim tılsımdır.

13. Yalnızlaşıp bir gün bezsem dünyadan,
14. Dört taraftan elimi çeksem dünyadan,
15. Sırra dönüp, sırdaş gezsem dünyada,
16. Gökte Allah, yerde Şahin yeterdir.

***GÜLÜRLƏR (36)***

*1. ...A dağlının yarı gəlin, ağlama,*
*2. Zurna ha yox; barı, gəlin, ağlama.*
*3. Sən Allah, a sarı gəlin, ağlama, -*
*4. Caz üstündə ağlayana gülürlər.*

*5. ...A bəy, yarın yad quludu, ağlama,*
*6. Dərdin səndən çox uludu, ağlama,*
*7. Sağın-solun qız doludu, ağlama, -*
*8. Qız üstündə ağlayana gülürlər.*

*9. ...Bir qoz üçün ahın nədi, a fağır,*
*10. Günah sənin dilindədi, a fağır.*
*11. Üç badam ki əlindədi, a fağır,*
*12. Qoz üstündə ağlayana gülürlər.*

*13. ...Saz çalınır – nələr gəlir ağlıma,*
*14. Tutur məni bir divanə ağlamaq.*
*15. Sil gözünü, Rafiq Hümmət, ağlama,*
*16. Saz üstündə ağlayana gülürlər...*
*2000*

**GÜLÜYORLAR**

1. A dağlının yari gelin, ağlama,
2. Zurna ha yok; bari gelin ağlama.
3. Sen Allah, a sarı gelin, ağlama,
4. Caz üstüne ağlayana gülüyorlar.

5. A bey, yarin yabancı kuludur, ağlama,
6. Derdin senden çok uludur, ağlama,
7. Sağın solun kız doludur, ağlama,
8. Kız üstüne ağlayana gülüyorlar.

9. Bir ceviz için ahın nedir, a fakir,
10. Günah senin dilindedir, a fakir.
11. Üç badem ki elindedir, a fakir,
12. Ceviz üstüne ağlayana gülüyorlar.

13. Saz çalınıyor  neler geliyor aklıma,
14. Tutuyor beni bir divane ağlama.
15. Sil gözünü, Rafig Hümmet, ağlama,
16. Saz üstüne ağlayana gülüyorlar.

***HƏYAT (37)***

*1. Neçə arzu dustaq olub sinədə,*
*2. Zindan kimi yaşayiram yenə də.*
*3. Bu bulaqdan növbə çatdı mənə də,*
*4. Qabım sındı, suyum yerə calandı.*

*5. Su üstündə od qaladım, sac asdım,*
*6. Dörd divarda kölgə kəsdim, ad asdım.*

**HAYAT**

1. Ne kadar arzu tutsak olmuş sinede,
2. Zindan gibi yaşıyorum yine de.
3. Bu pınardan nöbet geldi bana da,
4. Kabım kırıldı, suyum yere çalındı.

5. Su üstünde ateş yaktım, sac astım,
6. Dört duvarda kahramanlıklarımı yaptım.

*7. Çox üfürmə tütəyini, a dostum,*
*8. Zəmanə öz zurnasını çalandı.*

*9. Gülə-gülə kül üfürdüm gözlərə,*
*10. Çox aldandım yumru-yumşaq dizlərə.*
*11. Layla dedim öpülməmiş qızlara,*
*12. Biləmmədim sevgilimdi, balamdı...*

*13. Zaman bizdən gün qopardan oğrudu,*
*14. Keçmişə bax: əziyyətdi, ağrıdı.*
*15. Künc-bucaqda öpüşməyim doğrudu,*
*16. Kərəm kimi alışmağım yalandı.*
*1989*

7. Çok üfürme kavalını, a dostum,
8. Zaman kendi zurnasını çalandır.

9. Güle güle kül üfürdüm gözlere,
10. Çok aldandım yumru yumuşak dizlere.
11. Leyla dedim öpülmemiş kızlara,
12. Bilemedim sevgilimdi, yavrumdu.

13. Zaman bizden gün kopartan hırsızdır,
14. Geçmişe bak: Eziyettir, ağrıdır.
15. Köşe bucakta öpüştüğüm doğrudur,
16. Kerem gibi tutuştuğum yalandır.

## *QARDAŞIM ƏLİXANIN RUHUNA (38)*

*1. Qardaş ölümünə yazılan şeir –*
*2. Qardaşın qanıyla yazılıb gəlir,*
*3. Ürəyin dibindən süzülüb gəlir,*
*4. Məzar torpağı tək qazılıb gəlir.*

*5. Gərək qardaşını yada salmaya*
*6. Qardaş ölümünə şeir yazanlar,*
*7. Şeirlə özünə quyu qazanlar,*
*8. Hər gecə səksənib yuxu yozanlar.*

*9. Qardaş ölümünə şeir yazılmaz,*
*10. Qardaşın ölümü özü şeirdi,*
*11. Qardaşın sonuncu sözü şeirdi,*
*12. Əbədi yumulan gözü şeirdi.*

*13. Qardaş ölümünə yazdığım şeir –*
*14. Kirpiyimdə donan yaş sağlığıdı,*
*15. Bir məzar başında daş sağlığıdı,*
*16. Dostlar vermədiyi başsağlığıdı...*
*1996*

## KARDEŞİM ALİHAN'IN RUHUNA

1. Kardeş ölümüne yazılan şiir
2. Kardeşin kanıyla yazılıp gidiyor,
3. Yüreğin dibinden süzülüp gidiyor,
4. Mezar toprağı gibi kazılıp gidiyor.

5. Hatırlamak gerek kardeşini
6. Kardeş ölümüne şiir yazanlar,
7. Şiirle kendisine kuyu kazanlar,
8. Her gece ürperip uyku bozanlar.

9. Kardeş ölümüne şiir yazılmaz,
10. Kardeş ölümünün kendisi şiirdir,
11. Kardeşin sonuncu sözü şiirdir,
12. Ebedi yumulan gözü şiirdir.

13. Kardeş ölümüne yazdığım şiir
14. Kirpiğimde donan yaş sağlığıydı,
15. Bir mezar başında taş sağlığıydı,
16. Dostların vermediği başsağlığıydı.

## *ARİF ƏLİYEVİN ƏZİZ XATİRƏSİNƏ (39)*

*1. ...Qəfildən quş kimi qondun baxtıma,*
*2. Tənha şairlərin umudu oldun.*
*3. Qışda donanların Günəşi oldun,*
*4. Yayda yananların buludu oldun.*

*5. Şairi lal olan ucqar diyarda*

## ARİF ALİYEV'İN AZİZ HATIRASINA

1. Aniden kuş gibi kondun bahtıma,
2. Yalnız şairlerin umudu oldun.
3. Kışta donanların güneşi oldun,
4. Yazda yananların bulutu oldun.

5. Şairi lal olan taşra diyarda

| | |
|---|---|
| *6. Sən şair sözünü ötən eylədin.* | 6. Sen şair sözünü geçer eyledin. |
| *7. Qurumuş sözləri bitən eylədin,* | 7. Kurumuş sözleri yeşeren eyledin, |
| *8. Sözü şairlərə vətən eylədin.* | 8. Sözü şairlere vatan eyledin. |
| | |
| *9. Sən mənim ömrümdə üç il yaşadın,* | 9. Sen benim ömrümde üç yıl yaşadın, |
| *10. Üç yüz il, beş yüz il verdin ömrümə.* | 10. Üç yüz yıl, beş yüz yıl verdin ömrüme. |
| *11. Solmayan çiçəklər sərdin ömrümə,* | 11. Solmayan çiçekler serdin ömrüme, |
| *12. Tər-təzə ruh kimi girdin ömrümə.* | 12. Taptaze ruh gibi girdin ömrüme. |
| | |
| *13. Bayrama dönürdü hər görüşümüz,* | 13. Bayrama dönüyordu her görüşümüz, |
| *14. Mən çılğın danışır, sənsə gülürdün,* | 14. Ben çılgın gibi konuşuyor, sense gülüyordun, |
| *15. Ruhumun tozunu tamam silirdin,* | 15. Ruhumun tozunu tamamen siliyordun, |
| *16. Qədrimi Allahdan artıq bilirdin.* | 16. Kadrimi Allah'tan fazla biliyordun. |
| | |
| *17. Səni sağlığında sevməyən - yazıq,* | 17. Seni sağlığında sevmeyene yazık, |
| *18. Sənlə tərs danışıb, tərs dinən ölsün.* | 18. Senle ters konuşan ölsün. |
| *19. Səni sevənlərin yığvalı gülsün,* | 19. Seni sevenlerin talihi gülsün, |
| *20. Sənin yoxluğuna sevinən ölsün.* | 20. Senin yokluğuna sevinen ölsün. |
| | |
| *21. Ürəyin eşqinə xəyanət etdi,* | 21. Yüreğin aşkına ihanet etti, |
| *22. Səni sevən dostlar ürəksiz qaldı.* | 22. Seni seven dostlar yüreksiz kaldı. |
| *23. Yəqin ruhun görür: sən gedən gündən* | 23. Artık ruhun görüyor: Senin gittiğin günden beri |
| *24. Neçə halal adam çörəksiz qaldı.* | 24. Kaç temiz adam ekmeksiz kaldı. |
| | |
| *25. Ürəyin ağrıdı, qoruyammadıq,* | 25. Yüreğin ağrıdı, koruyamadık, |
| *26. Kürəyin ağrıdı, qoruyammadıq,* | 26. Küreğin ağrıdı, koruyamadık, |
| *27. Biz səni qoruyub-qocaldammadıq…* | 27. Biz seni koruyup kocaltamadık... |
| *28. Canlı heykəl idin qoca Tiflisdə,* | 28. Canlı heykel idin koca Tiflis'te, |
| *29. Sənə cansız heykəl ucaldammadıq.* | 29. Sana cansız heykel diktiremedik. |
| | |
| *30. …Tiflisin mən bilən küçələrində* | 30. Tiflis'in bildiğim sokaklarında |
| *31. Heçəmmi – torpaqsız, göysüz yaşayam?* | 31. Hiç miyim topraksız, göksüz yaşasam? |
| *32. Kaş sənin adına bir küçə ola,* | 32. Keşke senin adına bir sokak olsa, |
| *33. Mən də o küçədə öysüz yaşayam.* | 33. Ben de o sokakta evsiz yaşasam. |
| 2012 | |

| | |
|---|---|
| ***DOSTUM VƏ ELOĞLUM PƏRVİZ MİRZALIOĞLUNUN RUHUNA (40)*** | **DOSTUM VE KÖYLÜM PERVİZ MİRZALIOĞLU'NUN RUHUNA** |
| *1. Rəhmət olsun bəyaz üzlü ruhuna,* | 1. Rahmet oslun beyaz yüzlü ruhuna, |
| *2. Lənət olsun başımızı qatana –* | 2. Lanet olsun bizi boşuna uğraştırana |
| *3. Bu dünyadan getdiyini bilmədim,* | 3. Bu dünyadan gittiğini bilemedim, |
| *4. Başsağlığı verəmmədim atana.* | 4. Başsağlığı veremedim babana. |

*5. Başsağlığı verəmmədim atana,*
*6. "Keçmiş olsun!" deyəmmədim balana.*
*7. Sən bilirdin – çox da vurğun deyiləm*
*8. Dünya adlı uydurmaya, yalana.*

*9. Könlün tez-tez tələsirdi Darvaza,*
*10. Səyahət də yasaq idi hey bizə.*
*11. İndi yəqin Göycə üstə dolaşıb,*
*12. Sonra gedib sarılırsan Təbrizə.*

*13. Ölümünü bildirmədi tanışlar,*
*14. Aylar sonra duyub zar-zar ağladım.*
*15. Məzarından çox uzaqdım... içimdə*
*16. Qazıb sənə süslü məzar... ağladım.*

*17. Tabutunu almasam da çiynimə,*
*18. Ürəyimdən rəhmətini pozmadım.*
*19. Əfv et məni – tərifədim dalınca,*
*20. Sağlığında sənə şeir yazmadım.*
*2010*

5. Başsağlığı veremedim babana.
6. "Geçmiş olsun!"diyemedim yavruna.
7. Sen bilirdin çok da vurgun değilim
8. Dünya adlı uydurmaya, yalana.

9. Gönlün acele ederdi Darvaz'a,
10. Seyahat de yasak idi hey bize.
11. Şimdi artık Göyce üstünden dolaşıp
12. Sonra gidip sarılıyorsun Tebriz'e.

13. Ölümünü bildirmedi dostlar,
14. Aylar sonra duyup zır zır ağladım.
15. Mezarından çok uzaktım...İçimde
16. Kazıp sana süslü mezar...Ağladım.

17. Tabutunu almasam da omzuma,
18. Yüreğimde rahmetini bozmadım.
19. Affet beni övdüm ardınca,
20. Sağlığında sana şiir yazmadım.

## *BU ADAM NƏ ÜÇÜN YIXILDI GÖRƏN? (41)*

*1. Ayağı yerində, əli yerində,*
*2. Dodağı yerində, dili yerində,*
*3. Obası yerində, eli yerində,*
*4. Bu adam nə üçün yıxıldı görən?*

*5. Sevinci, kədəri bölə bilirdi,*
*6. Ağlaya bilirdi, gülə bilirdi,*
*7. Qırx il bundan sonra ölə bilərdi,*
*8. Bu adam nə üçün yıxıldı görən?*

*9. Qarşıda oğlunun toyu var idi,*
*10. Qızına atalıq payı var idi,*
*11. İçində dərd oyan quyu var idi?*
*12. Bəlkə o quyuya yıxıldı yazıq.*
*1991*

## BU ADAM NEDEN YIKILDI ACABA?

1. Ayağı yerinde, eli yerinde,
2. Dudağı yerinde, dili yerinde,
3. Obası yerinde, yurdu yerinde,
4. Bu adam neden yıkıldı acaba?

5. Sevinci, kederi bölebilirdi,
6. Ağlayabilirdi, gülebilirdi,
7. Kırk yıl bundan sonra ölebilirdi,
8. Bu adam neden yıkıldı acaba?

9. Karşıda oğlunun düğünü var idi,
10. Kızına babalık payı var idi,
11. İçinde dertten oyulmuş kuyu var idi?
12. Belki o kuyuya yıkıldı zavallı.

## *ƏL ÇALANA BAX (42)*

*1. Hami zəhərlidi, haşa gürzədən,*
*2. Dilini sazlayıb, dil çalana bax!*
*3. Alçala-alçala əl çalmaq asan,*
*4. Əl çala-əl çala alçalana bax.*

## ALKIŞLAYANA BAK

1. Hepsi zehirliydi, haşa engerekten,
2. Dili ile zehirleyene bak!
3. Alçala alçala alkışlamak kolay,
4. Alkışlaya alkışlaya alçalana bak.

*5. Bir şair saraydan, şahdan aralı,*
*6. Umudu Tanrıdı – Ondan pay umur.*
*7. Əlin salavatı üzdən aralı,*
*8. Əl əli çalandan, əl əli yumur.*

*9. Ağıldı, kamaldı, çalıb-çapırıq,*
*10. Daha neyniyirik ağıllı yarı.*
*11. İndi ağıllılar başda oturmur,*
*12. Padşah vəzir seçmir ağıllıları.*

*13. Şahdan gen tuturlar ağıllıları,*
*14. Bizimki quldurnan, qaçaqnan tutur.*
*15. Adaşın az deyil, ay imam Əli,*
*16. Əldən tutmasa da, ayaqdan tutur.*
*1993*

5. Bir şair saraydan, şahdan uzak,
6. Umudu Tanrı'dır. Ondan pay umuyor.
7. Elin salavatı yüzden uzak,
8. El eli alkışlıyor, el eli yıkamıyor.

9. Akıldır, kemaldir, çalınıp çırpılmış,
10. Daha neyleyelim akıllı yari.
11. Şimdi akıllılar başta oturmuyor,
12. Padişah, vezir seçmiyor akıllıları.

13. Şahdan uzak tutuyorlar akıllıları,
14. Bizimki eşkıyayla, kaçaktan yana taraf tutuyor.
15. Adaşın az değil, ey imam Ali,
16. Elden tutmasada da, ayaktan tutuyor.

***OLDULAR (43)***

*1. ...Axşamı da, sabahı da xeyirdi,*
*2. Gəlin gəldi. Ayran olub, ayırdı.*
*3. Parçaladı, bölüşdürdü bu yurdu,*
*4. Yarı qardaş, yarı düşmən oldular.*

*5. Yurdu qoyub, söylədilər sirr daşa,*
*6. Qoymadılar ruzi arta, var daşa.*
*7. "Düş mən minim" – dedi qardaş-qardaşa,*
*8. At üstündə qarı düşmən oldular.*

*9. Öz öyünü, öz yurdunu talayıb,*
*10. Yad öylərdə yad ocağı qalayıb,*
*11. Bərəkəti sağa-sola paylayıb,*
*12. İtirdilər varı, düşmən oldular.*

*13. ...Qadan alım, bu dastanı çal, aşıq:*
*14. Kim ki verdi yad öylərə yaraşıq,*
*15. Dara düşdü, ağladı ki, qardaşıq,*
*16. Uralanıb, sonra peşman oldular...*
*1998*

**OLDULAR**

1. Akşamı da, sabahı da hayırdı,
2. Gelin geldi. Ayran olup ayırdı.
3. Parçaladı, bölüştürdü bu yurdu,
4. Yarı kardeş yarı düşman oldular.

5. Yurdu bırakıp söylediler sırrı taşa,
6. Koymadılar azık artsın, servet çoğala.
7. "Düş ben bineyim" dedi kardeş kardeşe,
8. At üstünde düşman oldular.

9. Kendi evini, yurdunu talan edip,
10. Yad evlerde yad ocağı yakıp,
11. Bereketi sağa sola paylayıp,
12. Yitirdiler varı, düşman oldular.

13. Kurban olayım, bu destanı çal, âşık:
14. Kim ki verdi yad evlere ziynet,
15. Dara düştü, ağladı ki, kardeşiz,
16. Vahlayıp sonra pişman oldular...

***YALAN (44)***

*1. Yalan danışanı hamı dinləyir,*
*2. Yalan danışanın dili uzundu.*
*3. Doğru danışanlar hələ inləyir,*
*4. Yalan danışanlar hər şey qazandı.*

**YALAN**

1. Yalan konuşanı herkes dinliyor,
2. Yalan konuşanın dilin uzun.
3. Doğru konuşanlar hâlâ inliyor,
4. Yalan konuşanlar her şeyi kazandı.

*5. Yalanın yanında düz darda qalır,*
*6. Yalan da yalanla yoxlanır, baba.*
*7. Yalanı uyduran kənarda qalır,*
*8. Onu təkrarlayan haqlanır, baba.*

*9. Doğru danışanlar sözə nökərdi,*
*10. Nökərin həmişə boynu yumruqlu.*
*11. Yalan danışanın dili şəkərdi,*
*12. Baxışı yumşaqdı, sözü qılıqlı.*

*13. Tanrı, qadağa ki yox gözə, dilə,*
*14. Yalançı gördüynü niyə tərs deyir?*
*15. Bizə böhtan atıb ləkələyənlər*
*16. Oturub vicdandan bizə dərs deyir.*

*17. Yalanlar şübhədən taxdırır eynək,*
*18. Böhtanlar hamıya pusdurur bizi.*
*19. Tutsaq yalanını yalan deyənin,*
*20. Başqa bir yalanla susdurur bizi.*

*21. Yalan – bu dünyanın nazi-neməti,*
*22. Düzlük – dilənçidən qalan yeməkdir.*
*23. Yalan – yalançıya düzlük, həqiqət,*
*24. Düzlük – yalançıya yalan deməkdir.*
*1998*

5. Yalanın yanında doğru darda kalıyor,
6. Yalan da yalanla imtihan ediliyor, dede.
7. Yalanı uyduran kenarda kalıyor,
8. Onu tekrarlayan tasdikleniyor, dede.

9. Doğru söyleyenler söze uşaktır,
10. Uşağın her zaman boynu yumruklu.
11. Yalan konuşanın dili şekerdir,
12. Bakışı yumuşaktır, sözü sevimli.

13. Tanrı, yasağı ki yok göze, dile,
14. Yalancı gördüğünü niye ters diyor?
15. Bize iftira atıp lekeleyenler
16. Oturup vicdandan bize ders veriyor.

17. Yalanlar şüpheden taktırıyor gözlük,
18. İftiralar herkese gözetletiyor bizi.
19. Yakalasak yalanını yalan diyenin,
20. Başka bir yalanla susturuyor bizi

21. Yalan bu dünyanın rahatlığı,
22. Dürüstlük dilenciden kalan yemektir.
23. Yalan yalancıya dürüstlük, hakikât,
24. Dürüstlük yalancıya yalan demektir.

## *BU GÜNLƏ YAŞAMA (45)*

*1. Bu günlə yaşama, a yazıq adam,*
*2. Haqqı parçalayan pələngə dönmə.*
*3. Bir azca özündən zodlu önündə*
*4. Çiçəyə çevrilmə, çələngə dönmə –*
*5. Üç gün, beş gün sonra yazıq olarsan.*

*6. Bu günlə yaşama, a yazıq adam,*
*7. Bu günün çevrilib dünənə dönər,*
*8. Bu gün atdığın daş, etdiyin qarğış*
*9. Sabah övladına, nəvənə dönər –*
*10. Onsuz da yazıqsan... yazıq olarsan.*

*11. Bu günlə yaşama, a yazıq adam,*
*12. Günlərin birində gün səni yıxar.*
*13. O boyun əydiyin, qol uzatdığın*
*14. Şeytan səni yıxar, cin səni yıxar,*

## BU GÜNLE YAŞAMA

1. Bu günle yaşama, a zavallı adam,
2. Hakkı parçalayan kaplana dönme.
3. Biraz kendinden güçlü önünde
4. Çiçeğe dönme, çelenge dönme
5. Üç gün, beş gün sonra zavallı olursun.

6. Bu günle yaşama, a zavallı adam,
7. Bugünün çevrilip dününe döner,
8. Bugün attığın taş, ettiğin kargış
9. Sabah evladına, torununa döner
10. Onsuz da zavallısın...Zavallı olursun.

11. Bu günle yaşama, a zavallı adam,
12. Günlerin birinde gün seni yıkar.
13. O boyun eğdiğin, el uzattığın
14. Şeytan seni yıkar, cin seni yıkar,

*15. Bu kinlə yaşama, kin səni yıxar...*
*2013*

15. Bu kinle yaşama, kin seni yıkar...

## *MƏNİM İŞIĞIMDI (46)*

*1. Mən daha kimsədən umub-küsmürəm,*
*2. Mən daha kimsəyə tərəf əsmirəm.*
*3. Mən daha gecələr səhərə kimi*
*4. Özümü fikrimdə asıb-kəsmirəm.*

*5. Gileyə-güzara ixtiyarım yox,*
*6. Misralar dözürsə hələ ahıma.*
*7. Bəlkə də sınaqdı bu saxta dünya*
*8. Tanrıya sarmaşan qəmli ruhuma.*

*9. Yuxumu ömrüm tək kəsə bilirəm,*
*10. Gecəylə gündüzün arasındayam.*
*11. - Ay məni axtaran,*
*12. mən ömrümdəyəm,*
*13. Amma biləmmirəm harasındayam.*

*14. Nəsihət istərsən, ölüm bəsindi,*
*15. Mən şahdan aralı, Tanrıya yaxın.*
*16. Mənim işığımdı, mənim səsimdi,*
*17. Bir az da şeytandan anrıya baxın.*
*1997*

## BENİM IŞIĞIMDI

1. Ben daha kimseye gücenmiyorum,
2. Ben daha kimsenden taraf esmiyorum.
3. Ben geceleri sabahlara dek
4. Kendimi yargılayamıyorum.

5. Şikâyete müsaadem yok,
6. Mısralar sabrediyorsa hâlâ ahıma.
7. Belki de sınavdı bu sahte dünya
8. Tanrı'ya sarmaşan gamlı ruhuma.

9. Uykumu ömrüm gibi bölebilirim,
10. Geceyle gündüzün arasındayım.
11. -Ay beni arayan,
12. ben ömrümdeyim,
13. Ama bilmiyorum neresindeyim.

14. Nasihat istersen, ölüm yeter,
15. Ben şahdan uzak, Tanrı'ya yakın.
16. Benim ışığımdı, benim sesimdi,
17. Biraz da şeytandan tarafa bakın.

## *ARAZ ÇAYI (47)*

*1. Çimdik yad çaylarda, yad dənizlərdə,*
*2. Üzdük yad sularda, boyat sularda.*
*3. Gördük dümağ qızlar... hər şey üzərdə,*
*4. Gördük göz oxşayır həyat sularda.*

*5. Süzdük gözümüzdə nur ətək-ətək,*
*6. Süzdük köksümüzdə vəhşi bir istək*
*7. Açıq sinələri, çılpaq belləri.*
*8. Üzdük akvarium balıqları tək,*
*9. Unutduq bu xalqı döyən əlləri.*

*10. Üzdük yad çayların yad sularında,*
*11. Unutduq: bizim də öz çayımız var.*
*12. Sahildən-sahilə üzə bilməyən,*
*13. Bu çayda boğulan harayımız var.*

*14. ...Biz yaxşı üzürük axına qarşı,*

## ARAS ÇAYI

1. Yıkandık yabancı çaylarda, yabancı denizlerde,
2. Yüzdük yabancı sularda, eski sularda.
3. Gördük bembeyaz kızlar... Her şeyi üzerinde,
4. Gördük iç açıcı hayat sularda.

5. Seyrettik gözümüzde nur etek dolusu
6. Seyrettik göğsümüzde vahşi bir istek
7. Açık sineleri, çıplak belleri.
8. Yüzdük akvaryum balıkları gibi,
9. Unuttuk bu halkı döven elleri.

10. Yıkandık yabancı çayların yabancı sularında,
11. Unuttuk: Bizim de kendi çayımız var.
12. Sahilden sahile yüzemeyen,
13. Bu çayda boğulan feryadımız var.

14. Biz iyi yüzüyoruz akına karşı,

*15. Biz yaxşı üzürük axın boyunca.*
*16. Bu çayı o taya üzmək nə lazım,*
*17. Bu taydan o taya baxın doyunca!*

*18. O taydan bu taya baxın doyunca,*
*19. Bu taydan o taya baxaq doyunca.*
*20. Gedək yad çaylarda yad gözəlləri*
*21. Sıxaq köksümüzə, sıxaq doyunca!*

*22. ...Sən yaxşı çimirsən yad suda, Rafiq,*
*23. Sən yaxşı üzürsən yad dənizlərdə.*
*24. Arazı o taya üzə bilmirsən,*
*25. Boğul dənizlərdə, bat dənizlərdə!..*
*1988*

***BORÇALI (48)***

*1. Bəxtimə atılmış təküzlü zərsən,*
*2. Didərgin ruhumla qoşa gəzərsən.*
*3. Mən – nərə balığı, sən də Xəzərsən,*
*4. Mən ayrı dənizdə yaşaya bilməm.*

*5. Təşnəyəm, bir badə sərin "sağlıq" ver,*
*6. Dərdindən bir udum dərin ahlıq ver.*
*7. Uzaqlarda istər mənə şahlıq ver,*
*8. Hələ qırx kəniz də... yaşaya bilməm.*

*9. Şuşaya, Sulduza qurban gedərəm,*
*10. Göyçəyə, Təbrizə qurban gedərəm,*
*11. O çölə, o düzə qurban gedərəm,*
*12. O çöldə, o düzdə yaşaya bilməm.*

*13. Səndə layla deyir mənə ulduzlar,*
*14. Bir duyğu yazmağa min cür sözüm var.*
*15. Mənim nə yüz üzüm, nə yüz gözüm var,*
*16. Yüz üzdə, yüz gözdə yaşaya bilməm.*
*2000*

***TİFLİS NOSTALJİSİ (49)***
*(Dostum Nəriman Əliyevə)*

*1. Tanrının işıqlı gecələrində,*
*2. Yarlı-yaraşıqlı gecələrində*
*3. Əbədi bir heykəl olmağım gəlir*
*4. Tiflisin mən bilən küçələrində.*

15. Biz iyi yüzüyoruz akın boyunca.
16. Bu çaydan o tarafa yüzmek neye lazım,
17. Bu taraftan o tarafa bakın doyunca!

18. O taraftan bu tarafa bakın doyunca!
19. Bu taraftan o tarafa bakalım doyunca!
20. Gidelim yabancı çaylarda yabancı güzelleri
21. Sıkalım göğsümüze sıkalım doyunca!

22. Sen iyi yüzüyorsan yabancı suda, Rafig,
23. Sen iyi yüzüyorsun yabancı denizlerde.
24. Araz tarafına yüzemiyorsan,
25. Boğul denizlerde, bat denizlerde!...

**BORÇALI**

1. Bahtıma atılmış tek yüzlü altınsın,
2. Avare ruhumla birlikte gezersin.
3. Ben Mersin balığı, sen de Hazar'sın
4. Ben başka denizde yaşayamam.

5. Susamışım, bir bade serin "sağlık" ver,
6. Derdinden bir yudum derin dert ver.
7. Uzaklarda ister bana şahlık ver,
8. Hatta kırk cariye de... Yaşayamam.

9. Şusa'ya, Sulduz'a kurban olurum,
10. Göyçe'ye, Tebriz'e kurban olurum,
11. O çöle, o düzlüğe kurban olurum,
12. O çölde, o düzlükte yaşayamam.

13. Sende ninni söylüyor bana yıldızlar,
14. Bir duygu yazmaya bin çeşit sözüm var.
15. Benim ne yüz yüzüm ne yüz gözüm var,
16. Yüz yüzde, yüz gözde yaşayamam.

**TİFLİS NOSTALJİSİ**
(Dostum Neriman Eliyev'e)

1. Tanrı'nın ışıklı gecelerinde,
2. Huzurlu gecelerinde
3. Ebedi bir heykel olasım geliyor
4. Tiflis'in beni  tanıyan sokalarında.

*5. Tiflisin mən bilən küçələrində*
*6. Ruhum bayquş kimi ulayır indi,*
*7. Tənhalıq könlümü yalayır indi,*
*8. Qanı qanımızda axan babalar*
*9. Yüz ildən başını bulayır indi.*

5. Tiflis'in beni tanıyan sokaklarında
6. Ruhum baykuş gibi uluyor şimdi,
7. Yalnızlık gönlümü sarıyor şimdi,
8. Kanı kanımızda akan dedeler
9. Kaybolmuş yurtlarını arıyor şimdi.

*10. Ruhum bayquş kimi ulayır indi,*
*11. Mənmi yabançıyam, ya bu küçəmi?*
*12. Önümdən keçənə bir dar döngədə*
*13. Yol verib, deyirəm: - Buyur, keç, əmi;*

10. Ruhum baykuş gibi uluyor şimdi,
11. Ben mi yabancıyım, ya bu sokak mı?
12. Önümden geçene bir dar köşede
13. Yol verip, diyorum: - Buyur, geç, emmi;

*14. Anlamır, usdufca yanımdan ötür.*
*15. Allahın işıqlı gecələrində,*
*16. Yarlı-yaraşıqlı gecələrində*
*17. Daha bu küçədən saz səsi gəlmir.*

14. Beni anlamadan yanımdan geçiyor...
15. Allah'ın ışıklı gecelerinde,
16. Huzurlu gecelerinde
17. Daha bu sokaktan saz sesi gelmiyor.

*18. Adı olanların özü bulunmaz,*
*19. Eh, Şeytanbazarın şeytanı qaldı.*
*20. Tiflisin mən bilən bir məhləsində*
*21. Bircə "Ələsgərin meydanı" qaldı.*

18. Adı olanların kendi bulunmaz,
19. Eh, şeytan pazarının şeytanı kaldı.
20. Tiflis'in beni tanıyan sokaklarında
21. Bir tek "Elesger'in meydanı" kaldı.

*22. ...Allahın işıqlı bir gecəsində,*
*23. Yarlı-yaraşıqlı hürr gecəsində,*
*24. Tiflisin eşqli bir küçəsində*
*25. Dönüb özüm boyda bir heykəl olam...*
*1998*

22. Allah'ın ışıklı bir gecesinde,
23. Huzurlu hür gecesinde,
24. Tiflis'in aşk dolu bir sokağında
25. Dönüp kendi boyumda bir heykel olayım...

## *AŞIQMI YERİDİ (50)*

## ÂŞIK ZAMANI MI?

*1. Aşıqmı yeridi, başına dönüm,*
*2. İndi müğənnisiz el-oba yoxdu.*
*3. Bəxtəvər başına Azərbaycanın –*
*4. Daha oxuyanı, çalanı çoxdu.*

1. Âşık zamanı mı, kurban olayım,
2. Şimdi muğannasız el oba yoktur.
3. Talihli Azerbaycan'ın
4. Daha söyleyeni, çalanı çoktur.

*5. Aşıq, balabançı... milli xəzinə,*
*6. Zurnaçı unudur qara zurnanı.*
*7. Qonşumuz dizini qoyub dizinə,*
*8. Çalır düdüyünü Azərbaycanın.*

5. Âşık, davulcu...Millî hazine,
6. Zurnacı unutuyor kara zurnayı.
7. Komşumuz dizini koyup dizine,
8. Çalıyor düdüğünü Azerbaycan'ın.

*9. Əslinin murazı gözündə qaldı,*
*10. Körpəsi əmmədi məmələrindən.*
*11. Yazıq Azərbaycan...Kərəmdən sonra*
*12. Alışdı Əslinin düymələrindən.*

9. Aslı'nın muradı gözünde kaldı,
10. Yavrusu emmedi memelerinden.
11. Zavallı Azerbaycan...Kerem'den sonra
12. Tutuştu Aslı'nın düğmelerinden.

*13. Düymə aça-aça lap ustalaşdıq,*

13. Düğme aça aça çok ustalaştık,

*14. Düymə açanların "dəymə!"si yoxdu.*
*15. Yandı çox ustalar Kərəmdən sonra,*
*16. Gördülər anlayıb-biləndən sonra:*
*17. Yad-yala qızların düyməsi yoxdu.*

*18. ...Aşıqmı yeridi?! – Oynayana bax,*
*19. Özü dimdik durur, yanı oynayır.*
*20. Göbəyin tilsimi özgədi, vallah,*
*21. Adamın başında qanı oynayır.*

*22. Bəstəkar, müğənni, çalğıçı, rəqqas...*
*23. Sinədə sazını sazlardı aşıq.*
*24. Kərəmin vaxtında Əslidən qabaq*
*25. Lələnin yolunu gözlərdi aşıq.*

*26. Aşıqmı yeridi, sazmı yeridi...*
*27. Dastanı uzundu Əsli-Kərəmin.*
*28. Toyu çalınacaq Azərbaycanın –*
*29. Bir Əsli quşu var hələ hərənin...*

*1999*

### *İKİ VƏTƏNİM VAR (51)*

*1. İki vətənim var, a sarı gözəl,*
*2. Mənim təkvətənli bir qiyafəm yox.*
*3. - Əgər xoşbəxtəmsə - iki dəfə çox,*
*4. - Əgər bədbəxtəmsə - iki dəfə çox.*

*5. İki vətənim var, a sarı gözəl,*
*6. Biri – Azərbaycan, biri – Gürcüstan.*
*7. Birində şərab çox, birində çiçək,*
*8. Mən nə şərabçıyam, nə də gülsatan.*

*9. Mənim təkvətənli bir qiyafəm yox,*
*10. Bakıya, Tiflisə qonur yuxum da.*
*11. Sinəmi tək güllə dəlib keçmədi*
*12. Nə Xanın kəndində, nə də Suxumda.*

*13. Əgər xoşbəxtəmsə - iki dəfə çox,*
*14. Nə olsun – orda da, burda da təkəm.*
*15. Mənə Tanrı yazıb: orda İsanın,*
*16. Burda Məhəmmədin dərdini çəkəm.*

*17. Əgər bədbəxtəmsə - iki dəfə çox,*
*18. İkiqat bədbəxtlik Tanrı qatıdır.*

14. Düğme açanların "dokunması"sı yoktur.
15. Yandı çok ustalar Kerem'den sonra,
16. Gördüler anlayıp bildikten sonra:
17. Yabancı kızların düğmesi yoktur.

18. Âşık zamanı mı?! Oynayana bak,
19. Kendi dimdik duruyor, yanı oynuyor.
20. Göbeğin tılsımı başkadır, vallahi,
21. Adamın başında kanı oynuyor.

22. Bestekâr, muğanni, çalgıcı, rakkas...
23. Sinede sazını akort ederdi âşık.
24. Kerem'in zamanında Aslı'dan önce
25. Leyla'nın yolunu gözlerdi âşık.

26. Âşık zamanı mı, saz zamanı mı...
27. Destanı uzundur Aslı ve Kerem'in.
28. Düğünü olacak Azerbaycan'ın
29. Bir Aslı kuşu var hâlâ herkesin...

### **İKİ VATANIM VAR**

1. İki vatanım var, a sarı güzel,
2. Benim tek vatanlı bir kıyafetim yok.
3. Eğer mutluysam iki kat fazla,
4. Eğer mutsuzsam iki kat fazla.

5. İki vatanım var, a sarı güzel,
6. Biri Azerbaycan, biri Gürcistan.
7. Birinde şarap çok, birinde çiçek,
8. Ben ne şarapçıyım ne de gül satan.

9. Benim tek vatanlı bir kıyafetim yok,
10. Bakü'ye, Tiflis'e konuyor uykum da.
11. Sinemi tek mermi delip geçmedi
12. Ne Han'ın köyünde, ne de Suhum'da

13. Eğer mutluysam iki kat fazla,
14. Ne olsun orda da, burda da tekim.
15. Bana Tanrı yazmış: Orada İsa'nın,
16. Burada Muhammed'in derdini çekeyim.

17. Eğer mutsuzsam iki kat fazla.
18. İki kat mutsuzluk Tanrı katıdır.

*19. Bilirəm, həyatım – bir xor içində*
*20. Bircə bəndə sığan bir bayatıdır.*

*21. İki vətənim var, a sarı gözəl,*
*22. Anadan olandan həyəcanlıyam.*
*23. ...Qəfildən özümü tanıtdın mənə -*
*24. Mən iki ruhluyam, iki canlıyam...*
*2011*

19. Biliyorum, hayatım bir boğaz içinde
20. Bir tek bende sığan bir manidir.

21. İki vatanım var, a sarı güzel,
22. Doğduğumdan beri heyecanlıyım.
23. Gafilden kendimi tanıttın bana
24. Ben iki ruhluyum, iki canlıyım...

***OYNAYIR (52)***

*1. Sərxoş qafaların calası adam,*
*2. Qırx qaynar qazana çalası adam,*
*3. Bəkdəsən, dur məni çal, asi adam,*
*4. Özündən xəbərsiz dilin oynayır.*

*5. Mən hardan gəlmişəm, hara gedirəm? –*
*6. Yar məni yaradıb, Yara gedirəm.*
*7. Dardan qurtulmuşam, dara gedirəm,*
*8. Baxırsan, selliyin, selin oynayır.*

*9. Çal, bu pak qanımı zəhərə döndər,*
*10. Zinrik bir elan ver səhərə göndər.*
*11. O qoyub gəldiyim şəhərə göndər,*
*12. Sevin ki, mahalın, elin oynayır.*

*13. Sən – doğma babandan miras, bilirdim,*
*14. Oynandın, uduzdun bir tas, bilirdim.*
*15. Vallahi, mən səni rəqqas bilirdim,*
*16. Amma rəqqasə tək belin oynayır.*
*2002*

**OYNUYOR**

1. Sarhoş kafaların mekânı adam,
2. Kırk kaynar kazana çalınası adam,
3. Bekliyorsun, dur beni çal, asi adam,
4. Kendinden habersiz dilin oynuyor.

5. Ben nereden gelmişim, nereye gidiyorum?
6. Yar beni yaratmış, yara gidiyorum.
7. Dardan kurtulmuşum, dara gidiyorum.
8. Bakıyorsun ağzın sulanıyor.

9. Çal, bu pak kanımı zehre döndür,
10. Zifiri bir ilan ver sehere gönder.
11. O bırakıp geldiğim şehre gönder,
12. Sevin ki, yurdun, vatanın seviniyor.

13. Sen babandan miras, bilirdim,
14. Oynandın, kaybettin, bilirdim.
15. Vallahi, ben seni rakkas bilirdim,
16. Ama rakkase gibi belin oynuyor.

***BU QƏDƏR (53)***

*1. Məni hər gün asıb-kəsən adamlar,*
*2. Kölgəsindən tir-tir əsən adamlar,*
*3. Məndən uman, məndən küsən adamlar,*
*4. Dədənizdən umdunuzmu bu qədər?*

*5. Daş atdınız, kürəyimi qanatdı,*
*6. Ruhum yenə siz tərəfə can atdı.*
*7. Qarı düşmən üzünüzə qan atdı,*
*8. Heç üstünə cumdunuzmu bu qədər?*

*9. Sordunuzmu bircə dəfə halımı,*
*10. Kimlər vurub caladılar dolumu?*

**BU KADAR**

1. Beni her gün asıp kesen insanlar,
2. Gölgesinden tir tir titreyen insanlar,
3. Benden uman, bana küsen adamlar,
4. Babanızdan umdunuz mu bu kadar?

5. Taş attınız, küreğimi kanattı,
6. Ruhum yine sizden tarafa can attı.
7. İnsafsız düşman yüzünüze kan attı,
8. Hiç üstüne saldırdınız mı bu kadar?

9. Sordunuz mu bir defa hâlimi,
10. Kimler vurup döktü dolumu?

*11. Nə zülümnən qoruyuram yolumu –*
*12. Siz o yoldan döndünüzmü bu qədər?..*
*2012*

11. Ne zulümle koruyorum yolumu
12. Siz o yoldan döndünüz mü bu kadar?

***BİR CÜT GÖZ (54)***

*1. Asıb gözlərimi uca çinardan,*
*2. Özümə kənardan baxa bilmədim.*
*3. Keçib bədənimin sərhədlərini,*
*4. Özümü köksümə sıxa bilmədim.*

*5. Nə qədər quldurun tən ortasında*
*6. Başıma nə gəldi, dedilər haqdı.*
*7. Qəmli gözlərimlə iyirmi beş il*
*8. Özüm dura-dura özgəyə baxdım.*
*9. (Qızların gözünü aldatmaq üçün*
*10. Durub saatlarla güzgüyə baxdım).*

*11. Bir cüt iri, qəmli, şahanə gözü*
*12. Uca bir çinardan asa bilmədim,*
*13. Özümü kənardan pusa bilmədim.*
*14. Elə hey qışqırdım, səsim çıxmadı,*
*15. Qışqıra bilmədim, susa bilmədim.*

*16. ...Bir cüt göz çırpınır çinardan ötrü,*
*17. Bir həyat dartınır qumardan ötrü,*
*18. Bir nəfəs ağlayır səmadan ötrü...*
*19. Özümü çinardan asa bilmədim.*
*1989*

**BİR ÇİFT GÖZ**

1. Asıp gözlerimi yüce çınardan,
2. Kendime kenardan bakamadım.
3. Geçip bedenimin serhatlerini,
4. Kendimi göğsüme sığamadım.

5. O kadar eşkıyanın, fırtınanın ortasında
6. Başıma ne geldi, dediler haktı.
7. Gamlı gözlerimle yirmi beş yıl
8. Kendim dura dura başkalarına baktım.
9. (Kızların gözünü aldatmak için
10. Durup saatlerce aynaya baktım.)

11. Bir çift, gamlı, şahane gözü
12. Yüce bir çınardan asamadım.
13. Kendimi kenardan dinleyemedim.
14. Öyle bir bağırdım, sesim çıkmadı,
15. Bağıramadım, susamadım.

16. Bir çift göz çırpınıyor çınardan dolayı,
17. Bir hayat kayboluyor kumardan dolayı,
18. Bir nefes ağlıyor semadan dolayı
19. Kendimi çınardan asamadım.

***ŞEYTAN (55)***

*1. Yenə mən getdiyim yoldadı şeytan,*
*2. Sağımı, solumu aldadır şeytan.*
*3. ...Sözün nə şirindi, bal dadır şeytan,*
*4. Mənim bal yeməyə sərim ha yoxdu.*

*5. Mən Adəm deyiləm, səndən yapışım,*
*6. O qədər dostun var: gedin, tapışın!*
*7. Sənə özgələri tikən papışın*
*8. Üstünə düzməyə zərim ha yoxdu.*

*9. Mən Adəm deyiləm. Adəm – birinci,*
*10. İstər səp yoluma gövhər, zər, inci.*
*11. Bir Rəbb havası var, adı "Zarıncı",*
*12. O da ki, sənin bəd surunda yoxdu.*

**ŞEYTAN**

1. Yine benim gittiğim yoldadır şeytan,
2. Sağımı, solumu aldatıyor şeytan.
3. Sözün ne şirindir, bal akıyor şeytan,
4. Benim bal yemeye hâlim yok.

5. Ben Adem değilim, sana yapışayım,
6. O kadar dostun var: Gidin buluşun!
7. Sana pabucunu ters giydirenlerin
8. Üstüne dizmeye altınım yok.

9. Ben Adem değilim. Adem birinci,
10. İster serp yoluma cevher, altın, inci.
11. Bir Rab havası var, adı "Zarıncı"
12. O da, senin kötü ruhunda yok.

*13. Tanrı verdiyinə dözən bəndəyəm,*
*14. Min ildi özünü gəzən bəndəyəm,*
*15. Gen gəz, mən içimdə - cəhənnəmdəyəm,*
*16. Getməyə bir ayrı yerim ha yoxdu.*
*2000*

13. Tanrı'nın verdiğine sabreden kulum,
14. Bin yıldır kendini arayan kulum,
15. Uzak gez, ben içimde cehennemdeyim,
16. Gitmeye bir başka yerim yok.

***BU KƏNDƏ (56)***

*1. Mən gələndə yağış yağır bu kəndə,*
*2. Dünya görən necə sığır bu kəndə?*
*3. İldırımın tiyəsindən qan damır,*
*4. Sarı köpək ağ yağəşda yalmanır.*
*5. Qara gözlər məni salır kəməndə,*
*6. Mən gələndə yağış yağır bu kəndə.*

*7. Üst-başımın şəhər pası tökülür,*
*8. Qəlbimdəki bağlı qapı sökülür.*
*9. Şimşək göyün gözlərinə qan sağır,*
*10. Belə gündə çim, yüngülləş, a fağır.*
*11. Mən gələndə yağış yağır bu kəndə,*
*12. Mat qalıram bu əmələ, bu fəndə.*

*13. Qıyma-qıyma paylanıram ömrümə,*
*14. Həsrət göylər bənd olurlar bir himə.*
*15. Gec gəlirəm – bu kənd məndən inciyir,*
*16. Bu dağ, bu çay, bu bənd məndən inciyir.*
*17. Hər bu yurda qədəm basıb gələndə,*
*18. Bir şıdırğı yağış yağır bu kəndə.*

*19. ...Bu gəlişim o gəlişə bənzəmir,*
*20. Bu görüşüm o görüşə bənzəmir.*
*21. Bir gözəlçə subaylığa daş atıb,*
*22. Heykəl olub yaddaşımın daş atı.*
*23. Yel səmtində qanad açıb yar-yağış,*
*24. Gecikmişəm...*
*25. Kəndimizə qar yağır...*
*1986*

**BU KENTE**

1. Ben geldiğimde yağmur yağıyor bu köye,
2. Dünya  nasıl sığıyor bu köye?
3. Yıldırımın bıçağından kan damlıyor,
4. Sarı köpek, ak yağmurda dalkavukluk ediyor.
5. Kara gözler beni salıyor kemente,
6. Ben geldiğimde yağmur yağıyor bu kente,

7. Üst başımdan şehrin kiri dökülüyor.
8. Kalbimdeki kilitli kapı sökülüyor.
9. Şimşek göğün gözlerine kan sağıyor,
10. Böyle günde yıkan, hafifleş, a fakir.
11. Ben geldiğimde yağmur yağıyor bu köye,
12. Şaşıp kalıyorum bu emele, bu hileye.

13. Kıyım kıyım bölünürüm ömrüme,
14. Hasret gökler, sanki bekliyorlar bir işaret.
15. Geç geliyorum, bu köy benden inciniyor.
16. Bu dağ, bu çay, bu işaret  benden inciniyor.
17. Her bu yurda ayak basıp geldiğimde,
18. Bir  yağmur yağıyor bu köye.

19. Bu gelişim o gelişe benzemiyor,
20. Bu görüşüm o görüşe benzemiyor.
21. Bir güzel bekarlığa taş atıp
22. Heykel olmuş hatıramın taş atı.
23. Yel semtinde kanat açmış yağmur,
24. Gecikmişim...
25. Köyümüze kar yağıyor...

***SEVDİYİM ADAMLAR (57)***

*1. Mənsiz heç olanlar!*
*2. Budayın məni!*
*3. Bilmirəm nə keçir heç əlinizə.*
*4. Budayım, bir daha budayım sizin*
*5. "Yaxşılığa pilsik!" fəlsəfənizə!*

**SEVDİĞİM ADAMLAR**

1. Bensiz hiç olanlar!
2. Budayın beni!
3. Bilmiyorum ne geçiyor elinize.
4. Budayım, bir daha budayım sizin
5. "İyiliğe kötülük!" felsefenizi!

*6. Siz məni budayın, mən sizi sevim,*
*7. Sizin dərdinizdən ağarsın saçım.*
*8. Siz düşmənlə peyman bağlayın, mənsə*
*9. Sizin dərdinizin dalınca qaçım.*

*10. Tikan ağrısından qorxa-qorxa siz,*
*11. Məni qılınc ilə çapdırın, noolar?*
*12. Birləşin "vəzirin oğullarınnan",*
*13. Məni qazamata atdırın, noolar?*

*14. Nə olsun, yenə də sizi sevirəm,*
*15. Nə olsun, yenə də sizlərnənəm mən.*
*16. Dünyanın düzləri əyildi getdi,*
*17. Əyrisi malalı düzlərnənəm mən.*

*18. Əlçatmaz zirvədə tənha bir ruham,*
*19. Çəkilmir eşqimin dumanı, çəni.*
*20. Mən öz sevgim ilə çox yaşayardım,*
*21. Sevdiyim adamlar öldürdü məni.*

*1989*

6. Siz beni budayın, ben sizi seveyim,
7. Sizin derdinizden ağarsın saçım.
8. Siz düşmanla anlaşma yapın, bense
9. Sizin derdinizin ardından gideyim.

10. Diken ağrısından korka korka siz,
11. Beni kılıçla vurun, ne olur?
12. Birleşin "vezir oğullarıyla"
13. Beni hapishaneye attırın, ne olur?

14. Ne olsun, yine de sizi severim,
15. Ne olsun, yine de sizlerleyim ben.
16. Dünyanın doğruları eğildi gitti,
17. Eğrisini malayla düzletirim ben.

18. El uzanmaz zirvede yalnız bir ruhum,
19. Çekilmiyor aşkımın dumanı, sisi.
20. Ben kendi sevgim ile çok yaşardım,
21. Sevdiğim insanlar öldürdü beni.

### *ƏBƏDİYYƏT (58)*

*1. Bahara eşq olsun,*
*2. rəngi açılıb*
*3. Torpaqdan boy verən tər çiçəklərin.*
*4. Çiçəyi çırtlayır, gözü açılır –*
*5. Bəxtəvər başına kəpənəklərin.*

*6. Bəxtəvər başına kəpənəklərin,*
*7. Gəlimi-gedimi dəli heyrətdi.*
*8. Üç günlük ömürdə tər çiçəkləri*
*9. Öpə-öpə ölmək – əbədiyyətdi.*

*10. Bəxtəvər başına kəpənəklərin,*
*11. Qüssədən bircə an xəyala dalmır.*
*12. Ölür sevə-sevə tər çiçəkləri,*
*13. Ölür...*
*14. Ayrı işə macalı qalmır.*

*1990*

### EBEDİYET

1. Bahar ne mübarek,
2. rengi açılmış
3. Topraktan çıkan taze çiçeklerin.
4. Çiçeği açılıyor, gözü açılıyor,
5. Ne mutlu kelebeklere.

6. Ne mutlu kelebeklere,
7. Gelişi gidişi şaşırtıcıdır.
8. Üç günlük ömürde taze çiçekleri
9. Öpe öpe ölmek ebediyettir.

10. Ne mutlu kelebeklere,
11. Hiçbir zaman kederden hayale dalmıyor.
12. Ölüyor seve seve taze çiçekleri,
13. Ölüyor...
14. Başka işe fırsatı kalmıyor.

### *AY GİDİ DÜNYA (59)*

*(Abbas Abdullaya)*

*1. Dərələrdə asir oldu dumanlar,*

### HEY GİDİ DÜNYA

(Abbas Abdulla'ya)

1. Derelerde esir oldu dumanlar,

| | |
|---|---|
| *2. Hazır oldu, nazir oldu yamanlar,* | 2. Hazır oldu, nazir oldu yamanlar, |
| *3. Tülkülərə nəzir oldu aslanlar,* | 3. Tilkilere adak oldu aslanlar, |
| *4. Ay gidi dünya!* | 4. Hey gidi dünya! |
| | |
| *5. İnləyənlər ilməyinə taxıldı,* | 5. İnleyenler ilmeyine takıldı, |
| *6. Su istəyən ildırıma çaxıldı,* | 6. Su isteyen yıldırıma çakıldı, |
| *7. Neçə iyid kəhərindən yıxıldı,* | 7. Kaç yiğit kahrından yıkıldı, |
| *8. Ay gidi dünya!* | 8. Hey gidi dünya! |
| | |
| *9. Neçə muraz neçə gözdə boğuldu,* | 9. Kaç murat kaç gözde boğuldu, |
| *10. Neçə körpə yad ocaqda doğuldu,* | 10. Kaç körpe yabancı ocakta doğdu. |
| *11. Neçə çeşmə ağlamaqdan soğuldu,* | 11. Kaç pınar ağlamaktan kurudu, |
| *12. Ay gidi dünya!* | 12. Hey gidi dünya! |
| | |
| *13. İnam getdi, iman getdi, din getdi,* | 13. İnanç gitti, iman gitti, din gitti, |
| *14. İnsaf getdi, ruzi getdi, bin getdi,* | 14. İnsaf gitti, rızık gitti, bin gitti, |
| *15. Bu dünyadan şeytan bezdi, cin getdi,* | 15. Bu dünyadan şeytan bezdi, cin gitti, |
| *16. Ay gidi dünya!* | 16. Hey gidi dünya! |
| | |
| *17. Mən kiməm ki, dağ daşımaz bu dağı,* | 17. Ben kimimki, dağ taşımaz bu dağı |
| *18. Nə vecimə? – mən də sənin qonağın.* | 18. Ne vazife? Ben de senin misafirinim. |
| *19. Kişi göstər başında da papağı,* | 19. Adam göster başında da papağı, |
| *20. Ay gidi dünya!* | 20. Hey gidi dünya! |
| *1988* | |

| | |
|---|---|
| ***ÖZÜMÜ DANIRAM (60)*** | **KENDİMİ SAKLIYORUM** |
| | |
| *1. ...Beləcə özümü dana-dana mən,* | 1. Böylece kendimi saklaya saklaya ben, |
| *2. Beləcə içimdə yana-yana mən* | 2. Böylece içimde yana yana ben |
| *3. Qınında yaşayan bağalar kimi,* | 3. Kabuğunda yaşayan kaplumbağalar gibi, |
| *4. Varından-yoxundan əlini üzüb,* | 4. Varından yokundan elini çekip |
| *5. Dərdini gizləyən ağalar kimi,* | 5. Derdini gizleyen ağalar gibi, |
| *6. Özümü danıram, danıram, neynim?* | 6. Kendimi saklıyorum, saklıyorum ne yapayım? |
| | |
| *7. Yollar ayağımın qandalı olub,* | 7. Yollar ayağımın prangası olmuş, |
| *8. Dodağım səsimi kilidləyibdir.* | 8. Dudağım sesimi kilitlemiş. |
| *9. Çox yerdə qapalı dodaqlarıma* | 9. Çok yerde kapalı dudaklarıma |
| *10. Açar əvəzinə kilid dəyibdir,* | 10. Anahtar yerine kilit denmiş, |
| *11. Özüm də danmışam, özgə də məni.* | 11. Kendim de saklamışım, başkası da beni. |
| | |
| *12. Qadınlar yaşlanır, yaşını danır,* | 12. Kadınlar yaşlanıyor, yaşını saklıyor, |
| *13. Keçəl papaq altda başını danır,* | 13. Kel papak altında başını saklıyor, |
| *14. Qanı qarışanlar manqurda dönüb,* | 14. Kanı karışanlar mankurta dönmüş, |
| *15. Öz qan yaddaşını danır,* | 15. Geçmişini saklıyor, |
| *16. Mən isə danıram özüm-özümü.* | 16. Ben ise saklıyorum kendi kendimi. |

*17. Özüm də danıram, özgə də məni,*
*18. Özüm gözlərimi asıb çinardan,*
*19. Özümü kənardan görə bilmərəm,*
*20. Məni görə-görə danmamaq üçün*
*21. Kiməsə sədəqə verə bilmərəm...*
*1990*

17. Kendim de tanıyorum başkası da beni,
18. Gözlerimi asmışım çınardan,
19. Kendimi kenardan göremiyorum,
20. Beni saklamamaları için
21. Kimseye sadaka veremem...

***ADSIZ ŞƏRQİ (61)***

*1. Torpaqdan yarıdım, daşdan yarıdım,*
*2. Ağrıdan yarıdım, yaşdan yarıdım,*
*3. Heyvandan yarıdım, quşdan yarıdım,*
*4. Bir insan gen açıb qol-qucağını,*
*5. Kövrək bir ürəyə sıxmadı məni.*

*6. Hönkürdüm bir çılpaq qaya başında,*
*7. Dərələr dərdimə şərik oldular.*
*8. Quruca bir budaq, tikanlı bir kol,*
*9. Büdrəsəm, əlimdə çəlik oldular.*
*10. Min, milyon adamın arasındasa*
*11. Əllərim havadan asılı qaldı,*
*12. Kimsə boş əlimə baxmadı mənim.*

*13. Çeşmələr dumduru göz yaşlarıyla*
*14. Ağlaya-ağlaya gözümü sildi,*
*15. Əlimi, alnımı, üzümü sildi.*
*16. Bu könül dünyama, bu dərd dünyama,*
*17. Bu cadar dünyama, bu sərt dünyama*
*18. Mənə canı yanan qəmli bir gözdən*
*19. Bircə damla yaşsa axmadı, neynim...*
*1990*

**ADSIZ ŞARKI**

1. Topraktan memnundum, taştan memnundum,
2. Kederden memnundum, gözyaşından memnundum,
3. Hayvandan memnundum, kuştan memnundum,
4. Bir insan açıp kolunu kucağını
5. Dertten anlayan bir yürek sıkmadı beni.

6. Hıçkırdım bir çıplak kaya başında,
7. Dereler derdime ortak oldular.
8. Kuruca bir dal, dikenli bir kol,
9. Tökezlesem, elimde çelik oldular.
10. Bin, milyon insan arasında ise
11. Ellerim havada asılı kaldı,
12. Kimse boş elime bakmadı benim.

13. Pınarlar, dupduru gözyaşlarıyla
14. Ağlaya ağlaya gözümü sildi,
15. Elimi, alnımı, yüzümü sildi.
16. Bu gönül dünyama, bu dert dünyama,
17. Bu çatlak dünyama, bu sert dünyama
18. Banim için canı yanan gamlı bir gözden
19. Bir tek yaşsa akmadı, neyleyim...

***ZAMAN (62)***

*1. Çox ağrını bilməyən, bilən mən,*
*2. İllər ötür... ölməyən, ölən mən.*
*3. Zaman tutub günlərinin əlindən,*
*4. Mənə dəyər-dəyməzinə sırıyır.*

*5. Hara getsən, yumruq tutub, döş döyən,*
*6. "Yandım" deyib, el buğunda bişməyən.*
*7. İsmətinə zərrə ləkə düşməyən*
*8. Əsmər qızlar evdə qalıb qarıyır.*

**ZAMAN**

1. Çok keder bilmeyen, bilen ben,
2. Yıllar geçiyor....Ölmeyen ben, ölen ben.
3. Zaman tutmuş günlerinin elinden,
4. Değerli değersiz geçiyor.

5. Nereye gitsen, yumruk sıkıp döş döğen,
6. "Yandım" deyip, el ateşinde pişmeyen.
7. İsmetine zerre leke düşmeyen
8. Esmer kızlar evde kalıp yaşlanıyor.

*9. Diksinirəm, kefim qaçır qəfildən,*
*10. Pozuqluq var durnaların səfində.*
*11. Nazir oğlu diyar-diyar kefində,*
*12. Muzdur oğlu vətənini qoruyur.*

*13. Yaradanın yerdə nə çox bəndəsi,*
*14. Bir qarın ac, bir qarın tox bəndəsi.*
*15. Mən Allahın üstü açıq bəndəsi,*
*16. Anam hələ yorğanımı sırıyır.*
*1990*

9. Tiksiniyorum, keyfim kaçıyor gafilden,
10. Bozukluk var turnaların safında.
11. Bakan oğlu diyar diyar keyfinde,
12. İşçi oğlu vatanını koruyor.

13. Yaradanın yerde ne çok kulu,
14. Bir karın aç, bir karın tok kulu.
15. Ben Allah'ın üstü açık kulu,
16. Anam hâlâ yorganımı dikiyor.

### *MƏN ÖZ HƏSRƏTİMİ ÇƏKDİM BİR ÖMÜR (63)*

*1. Nə taxt arzuladım, nə də qızıl tac,*
*2. Neyniyim, quruca baxtım olmadı.*
*3. Çox çəkdim özümün həsrətimi mən,*
*4. Sənin həsrətinə vaxtım olmadı.*

*5. Sənin həsrətini çəkə bilmədim,*
*6. Günlərim an ilə ölçüldü mənim.*
*7. Yaşım çoxaldıqca dərdim böyüdü,*
*8. Vaxtım gecə-gündüz kiçildi mənim.*

*9. Zəli doğmalara, yad qohumlara*
*10. Etdim şah ömrümü qul... xərclədim.*
*11. Camaat vaxtını qızıla satdı,*
*12. Mən vaxt qazanmağa pul xərclədim.*

*13. Sənin həsrətini çəkə bilmədim,*
*14. Mən qaçdım, arxamdan şeir qoyladı.*
*15. Kimsə kitabını şaha sırıdı,*
*16. Mən zəlil zümrəyə pulsuz payladım.*

*17. Neyniyim, gözəlim, ziri-zibili*
*18. Konfet kağızına bükə bilmədim.*
*19. ...Mən öz həsrətimi çəkdim bir ömür,*
*20. Sənin həsrətini çəkə bilmədim.*
*2009*

### KENDİ HASRETİMİ ÇEKTİM BİR ÖMÜR

1. Ne taht arzuladım, ne de kızıl taç,
2. Neyleyim,  bahtım olmadı.
3. Çok çektim kendi hasretimi ben,
4. Senin hasretine vaktim olmadı.

5. Senin hasretini çekemedim,
6. Günlerim an ile ölçüldü benim.
7. Yaşım büyüdükçe derdim büyüdü,
8. Vaktim gece gündüz küçüldü benim.

9. Asalak çocuklara, düşman akrabalara
10. Ettim şah ömrümü kul...Harcadım.
11. Cemaat vaktini altına sattı,
12. Ben vakit kazanmaya para harcadım.

13. Senin hasretini çekemedim,
14. Ben kaçtım, arkamdan şiir kovaladı.
15. Birçokları kitabını şaha pahalıya sattı.
16. Ben zelil zümreye hediye ettim.

17. Neyleyim, güzelim, çerçöpü
18. Çikolata kağıdına bükemedim.
19. Kendi hasretimi çektim bir ömür,
20. Senin hasretini çekemedim.

### *XATİRƏLƏR KİRİMİR (64)*

*1. Nə müddətdi ayrılığın quluyuq,*
*2. Mənim kimi sən də intizardasan.*
*3. Mən hardayam – şeirlərim söyləyər,*
*4. Sən özünü nişana ver, hardasan?*

### HATIRALAR SUSMUYOR

1. Ne müddettir ayrılığın kuluyuz,
2. Benim gibi sen de intizardasın.
3. Ben neredeyim şiirlerim söyler,
4. Sen kendinden işaret ver, neredesin?

*5. Məndən oldu, səndən oldu, bilmirəm,*
*6. Kim öldürdü bizim qoşa murazı?*
*7. Neçə ildi röya – görüş yerimiz,*
*8. Könül bir divanə eşqə tamarzı.*

*9. Bilirəm ki, məndən sonra tənhasan,*
*10. Nə yarın var, nə ərin var, nə balan.*
*11. Göy üzündə ağı deyir mələklər, -*
*12. Ahındımı ərşə doğru ucalan?*

*13. Neçə ildi ayrılığın quluyuq,*
*14. Görüşmürük, lal donumuz ərimir.*
*15. Neçə ildi kirimişəm, sakitəm,*
*16. Neçə ildi xatirələr kirimir...*
*1997*

5. Benden oldu, senden oldu bilmiyorum,
6. Kim öldürdü bizim iki muradımızı?
7. Kaç yıldır rüyalar görüşme yerimiz,
8. Gönül divane aşka razı.

9. Biliyorum ki benden sonra yalnızsın,
10. Ne yarin var, ne erin var, ne yavrun.
11. Gökyüzünden ağıt ediyor melekler,
12. Ahın mı arşa doğru yükselen?

13. Kaç yıldır ayrılığın kuluyuz,
14. Görüşmüyoruz, lal donumuz erimiyor.
15. Kaç yıldır sessiz, sakitim,
16. Kaç yıldır hatıralar susmuyor...

## *SORAĞINI EŞİTMİŞƏM (65)*

*1. Sorağını eşitmişəm, gəlmisən,*
*2. Qış ortası çiçəkləyən gülmüsən?*
*3. Hansı qəlbə iz salıbsan, gülüm, sən?*
*4. İzin qar tək ürəyimdə əriyir.*

*5. Bu qış yaman ağır gəlib, lap ağır,*
*6. Göydən yerə cin düyünlü qar yağır.*
*7. İtirdiyin düyünçəni tap, fağır,*
*8. Gözün şərə, ya xeyirə səyriyir?*

*9. Qışmı belə, mənmi belə süsləndim?*
*10. Səni andım, sənli günlər səsləndi.*
*11. Alov söndü, tüstüsündən hisləndim,*
*12. Xatirələr yaddaşımda köyrüyür.*

*13. İllər ötür... nə iynəsən, nə sapsan,*
*14. Bölmə mənə, sənin olsun nə tapsan.*
*15. Sən həyatın ayağında corabsan,*
*16. Məni hələ cəhrəsində əyirir.*
*1988*

## HABERİNİ ALDIM

1. Haberini aldım, gelmişsin,
2. Kış ortasından açan gül müsün?
3. Hangi kalbe iz bırakmışsın, gülüm, sen?
4. İzin kar gibi yüreğimde eriyor.

5. Bu kış ağır gelmiş, çok ağır,
6. Gökten yere cin düğümlü kar yağıyor.
7. Kaybettiğin çıkını bul, fakir,
8. Gözün şerre, ya hayra seğiriyor?

9. Kış mı böyle, ben mi böyle süslendim?
10. Seni andım, senli günler seslendi.
11. Alev söndü, tütsünden islendim,
12. Hatıralar hafızamda tütsülenir.

13. Yıllar geçiyor...Ne iğnesin ne sapsın,
14. Bölme bana, senin olsun ne bulursan.
15. Sen hayatın ayağında çorapsın,
16. Beni çehresinde eğiriyor.

## *KƏPƏNƏK KİMİ (66)*

*1. Yenə incik-incik girdin yuxuma,*
*2. Əlimi uzatdım – yaxın gəlmədin.*
*3. İyirmi yaşımda, a zalım qızı,*
*4. Səni sevə-sevə niyə ölmədim?*

## KELEBEK GİBİ

1. Yine küskün küskün girdin uykuma,
2. Elimi uzattım yaklaşmadın.
3. Yirmi yaşımda, a zalim kızı,
4. Seni seve seve niye ölmedim?

*5. Uzunca bir yolu tutub gedirik,*
*6. Gedirik beş arşın kəfənə kimi.*
*7. Səni sevə-sevə niyə ölmədim*
*8. Çiçəyə sarmaşan kəpənək kimi.*

*9. Çiçəyə sarmaşan kəpənək kimi*
*10. Səndə gizlənmişdim kədər əlindən.*
*11. Otuz beş yaşımda kədər bir yana,*
*12. Mən hara gizlənim qədər əlindən?!*

*13. Gedirəm, nə olsun, qolun-qucağın*
*14. Açmış çiçək kimi gözləmir məni.*
*15. Qonmağa yer gəzən bir kəpənəyəm,*
*16. Qurumuş çiçəklər gizləmir məni.*
*2000*

5. Uzunca bir yol gidiyoruz,
6. Beş arşın kefene gider gibi.
7. Seni seve seve niye ölmedim
8. Çiçeğe sarmaşan kelebek gibi.

9. Çiçeğe sarmaşan kelebek gibi
10. Sende gizlenmiştim keder elinden.
11. Otuz beş yaşımda keder bir yana,
12. Ben nereye gizleneyim kader elinden?!

13. Gidiyorum, ne olsun, kolun kucağın
14. Açmış çiçek gibi beklemiyor beni.
15. Konmaya yer arayan bir kelebeğim,
16. Kurumuş çiçekler gizlemiyor beni.

### *DİVANƏ EŞQ İLƏ (67)*

*1. Divanə eşq ilə sevib ayrıldıq,*
*2. Ayrıldıq. Bir bədən az oldu bizə?*
*3. Tanrı sevgisini bol eyləmişdi,*
*4. Vallah, nə oldusa, düz oldu bizə!*

*5. Sən mənim, mən sənin, dünya – bizimdi,*
*6. Eşqin bolluğuna şıltaqlıq etdik.*
*7. Tanrı istəyini unutduq , fəqət,*
*8. Şeytan istəyinə yaltaqlıq etdik.*

*9. Sevgidən ölmək də şəhidlik imiş,*
*10. Nə eşqi qoruduq, nə şəhid olduq.*
*11. Ayrıldıq. Həsrətin məhkəməsində*
*12. Həm müttəhim olduq, həm şahid olduq.*

*13. İllər fırfıradı...*
*14. Sevgidən uzaq*
*15. Neçə qucaq aldı, neçə qol bizi.*
*16. Bu kiçik şəhərdə, çox istəsək də,*
*17. Tanrı görüşdürmür bircə yol bizi...*
*1992*

### DİVANE AŞK İLE

1. Divane aşk ile sevip ayrıldık,
2. Ayrıldık. Bir beden az oldu bize?
3. Tanrı sevgisini bol eylemişti,
4. Vallahi, ne olduysa, iyi oldu bize!

5. Sen benim, ben senin, dünya bizimdi,
6. Aşkın bolluğuna şımarıklık ettik.
7. Tanrı isteğini unuttuk, fakat,
8. Şeytan isteğine yaltaklık ettik.

9. Sevgiden ölmek de şehitlik imiş,
10. Ne aşkı koruduk, ne şehit olduk.
11. Ayrıldık. Hasret mahkemesinde
12. Hem sanık olduk, hem şahit olduk.

13. Yıllar hızla geçti...
14. Sevgiden uzak
15. Kaç kucak aldı, kaç kol bizi.
16. Bu küçük şehirde, çok istesek de,
17. Tanrı görüştürmüyor bir kez bizi...

### *PAYIZ HAVASI (68)*

*1. Sevgi havasına yaman köklənib,*
*2. Payız yağmurudu, ələyir, könül.*
*3. Ürəyim bir dəli eşqə tamarzı,*

### GÜZ HAVASI

1. Sevgi havaya fena yerleşmiş
2. Güz yağmurudur, yağıyor, gönül.
3. Yüreğim bir deli aşka istekli,

*4. Yetim quzu kimi mələyir, könül.*

4. Yetim kuzu gibi meliyor, gönül.

*5. Payız yağmurudu, həzincə yağır,*
*6. Gödələn günlərə ağlayır bəlkə,*
*7. Eşqi sürgünlərə ağlayır bəlkə,*
*8. Tanrı bizi göyə bağlayır bəlkə.*

5. Güz yağmurudur, hazince yağıyor,
6. Kısalan günlere ağlıyor belki,
7. Aşkı sürgünlere ağlıyor belki,
8. Tanrı bizi göğe bağlıyor belki.

*9. Payız yağmurudu. Nazlı-qəmzəli,*
*10. Ətirli xanımlar yanımdan ötür,*
*11. Çətirli xanımlar yanımdan ötür,*
*12. Dərdimin yaddaşı qanımdan itir.*

9. Güz yağmurudur. Nazlı gamzeli,
10. Itırlı hanımlar yanımdan geçiyor,
11. Şemsiyeli hanımlar yanımdan geçiyor,
12. Derdim aklımdan, kanımdan gidiyor.

*13. Payız yağmurudu.*
*14. Salam sevənlər!*
*15. Qol-qola tutmağın zamanı gəldi,*
*16. Muraza çatmağın zamanı fəldi,*
*17. Dərdi aldatmağın zamanı gəldi...*
*1995*

13. Güz yağmurudur.
14. Selam sevenler!
15. El ele tutmanın  zamanı geldi,
16. Murada ermenin zamanı geldi,
17. Derdi aldatmanın zamanı geldi.

## *SEVMƏYƏ BİR QADIN YOX (69)*

*1. Nə haqqımı qaytaracaq taqətim,*
*2. Nə dövranı silkələyən adım yox.*
*3. Xeyli vaxtdı şeirlərim ah çəkir,*
*4. Xeyli vaxtdı sevməyə bir qadın yox.*

*5. Nə müddətdi su çilənmir eşqimə,*
*6. Daha sevgim çiçəkləmir yaz ağzı.*
*7. Qaraca qız zəhər sorub can verir,*
*8. Ağca qıza şair sevmək yasaqdı.*

*9. Eşq əzilsə gözəlmidir, a Tanrı,*
*10. Zəncir alıb sinəməcə döyümmü?*
*11. Hansı qızı sevməliydim bu bahar*
*12. Bəd düşmənə əsir düşüb, deyimmi?*

*13. Su quruyar, sərhəd itər Arazda,*
*14. "O tay" deyən şairlər də naşıdı.*
*15. Satana da, alana da nələr var,*
*16. Demə, Vətən elə bircə Bakıdı.*

*17. Nə istəsən, bu şəhərdə bularsan,*
*18. Eşqi dadar-doymaz olan gözəl çox.*
*19. Nə müddətdi məni sevmir gözəllər,*
*20. Nə müddətdi sevməyə bir gözəl yox...*

## SEVMEYE BİR KADIN YOK

1. Ne hakkımı arayacak takatim,
2. Ne devranı silkeleyen adım var.
3. Hayli vakittir şiirlerim ah çekiyor,
4. Hayli vakittir sevmeye bir kadın yok.

5. Ne müddettir su serpilmiyor aşkıma,
6. Artık sevgim çiçeklenmiyor bahar ağzı.
7. Kara kız zehir emiyor, can veriyor,
8. Ak kıza şair sevmek yasaktır.

9. Aşk ezilse güzel midir, a Tanrı,
10. Zincir alıp sinemi döveyim mi?
11. Hangi kızı sevmeliydim bu bahar
12. Kötü düşmana esir düşüp, diyeyim mi?

13. Su kuruyor, serhat kaybolur Araz'da,
14. "O taraf" diyen şairler de acemidir.
15. Satana da alana da neler var,
16. Deme, vatan bir tek Bakü'dür.

17. Ne istesen, bu şehirde bulursun,
18. Aşkı tadıp doymayan güzel çok.
19. Ne müddettir beni sevmiyor güzeller,
20. Ne müddettir sevmeye bir güzel yok...

*1997*

***DUMAN SEVGİSİ (70)***

*1. Sevdim səni*
*2. duman dağı sevən tək,*
*3. Sevdim, şəbnəm şehə bələdim səni,*
*4. Odlu misralara çilədim səni,*
*5. Sonra çəkildim getdim*
*6. Dumanam, göylərsiz yaşayammıram.*

*7. Dumanam, göylərsiz yaşayammıram,*
*8. Dumanam, dağlarsız yaşayammıram,*
*9. Hər gün od vursan da alovlanmıram,*
*10. Dumanam, neyniyim, yaxşı yanmıram.*

*11. Sən quru olsaydın, yaxşı yanardım,*
*12. Dumanların şehi göyərdib səni.*
*13. Eh, mənim ömrümə gürşad ələnir*
*14. Çən-duman alanda yaşıl çəməni.*

*15. Dumanam, dağlarsız yaşayammıram,*
*16. Buluda çevrilib yağaydım bir gün*
*17. Dumanlı, çiskinli üstünə sənin.*
*18. Yaxşı yanammadım od-alovuna,*
*19. Barı kor olmayım tüstünə sənin...*

**DUMAN SEVGİSİ**

1. Sevdim seni
2. Dumanın dağı sevdiği gibi,
3. Sevdim, şebneme, çiye buladım seni,
4. Ateşli mısralara çiledim seni,
5. Sonra çekildim gittim
6. Dumanım, göklersiz yaşayamıyorum.

7. Dumanım, göklersiz yaşayamıyorum.
8. Dumanım, dağlarsız yaşayamıyorum.
9. Her gün ateş vursan da alevlenmiyorum,
10. Dumanım, neyleyim, iyi yanmıyorum.

11. Sen kuru olsaydın, iyi yanardım,
12. Dumanların çiyi yeşertmiş seni.
13. Eh, benim ömrüme sağanak yağıyor
14. Sis, duman aldığında yeşil çimeni.

15. Dumanım, dağlarsız yaşayamıyorum.
16. Buluta dönüp yağaydım bir gün
17. Dumanlı, çiseli üstüne senin.
18. İyi yanamadım od alevine,
19. Bari kor olmayım tütsüne senin...

*1989*

***PAYIZ DA GƏLDİ (71)***

*1. Yaz nə zaman gəldi, yay necə keçdi...*
*2. "Bismillah" deməmiş payız da gəldi.*
*3. Mən o ağ çiçəyi yazda gözlədim,*
*4. Amma boynubükük payızda gəldi.*

*5. Külək şırım vurdu solğun üzlərə,*
*6. Xəzan kədər rəsmi çəkdi gözlərə.*
*7. Dağ boyda dərd xəlvət gəldi bizlərə,*
*8. Amma bapbalaca pay üzdə gəldi.*

*9. Nə yaxşı eşq də var... qoymur usanım,*
*10. Aprel çeşməsi tək qaynayır qanım.*
*11. Yay-qışa, bahara nə var ki, canım,*
*12. Vallahi-billahi, payız dəcəldi...*

**SONBAHAR DA GELDİ**

1. Bahar ne zaman geldi, yaz ne zaman geçti...
2. "Bismillah" demeden sonbahar da geldi.
3. Ben ak çiçeği baharda bekledim,
4. Ama boynubükük sonbaharda geldi.

5. Rüzgar, tokat vurdu solgun yüzlere,
6. Hazan, keder resmi çekti gözlere.
7. Dağ boyunda dert gizli geldi bizlere,
8. Ama küçük payımız aşikâr oldu.

9. Ne iyi aşk da var, bırakmıyor usanayım,
10. Nisan çeşmesi gibi kaynıyor kanım.
11. Yaza, kışa, bahara ne var ki, canım,
12. Vallahi billahi, sonbahar şımarıktır.

*2013*

***DƏLİYƏM (72)***

**DELİYİM**

*1. Pıçıltıyla, həzinliklə dediyin*
*2. Sənin ürək sözlərindən dəliyəm.*
*3. Atəşiylə ürəyimə od salan*
*4. Söz gücündən, söz zərindən dəliyəm.*

*5. Sığışmıram bir ürəyə, bir cana,*
*6. Əlac qalıb səndə olan dərmana.*
*7. Ayağıyın gözəlliyi bir yana,*
*8. Naxış-naxış izlərindən dəliyəm.*

*9. Sevgi adlı od-alovda çimirəm,*
*10. Ərimirəm daşam, yoxsa dəmirəm?!*
*11. Gözlərinin baxışını demirəm,*
*12. Baxışının gözlərindən dəliyəm.*
*1982*

1. Fısıltıyla, hazince söylediğin
2. Senin yürek sözlerine deliyim.
3. Ateşiyle yüreğime yangın salan
4. Söz gücüne, söz altınına deliyim.

5. Sığmıyorum bir yüreğe, bir cana,
6. Muhtaç kaldım sende olan dermana.
7. Ayağının güzelliği bir yana,
8. Nakış nakış izlerine deliyim.

9. Sevgi adlı alevde yıkanıyorum,
10. Erimiyorum taşım, yoksa demirim?!
11. Gözlerinin bakışını demiyorum,
12. Bakışının gözlerine deliyim.

### *ŞƏHİD NƏĞMƏSİ (73)*

*1. Mürgü var yerin, göyün*
*2. Nəfəsində, qoxusunda.*
*3. - Yat yavrum. Tanrı dincəlir*
*4. Körpələrin yuxusunda.*

*5. Torpaq hələ oyanmamış,*
*6. Yerə təzə gün dəyəndə*
*7. Ağac ək. Tanrı dincəlir*
*8. Ağaclar çiçəkləyəndə.*

*9. Ananın gözü yol çəkib,*
*10. Qara bağrı qan olanda,*
*11. Yada sal. Tanrı dincəlir*
*12. Hər analar anılanda.*

*13. Məst olma türklər, oğuzlar,*
*14. Qıpçaqlar mədh olunanda.*
*15. Şəhid ol! Tanrı dincəlir*
*16. Yetim yurd fəth olunanda!*
*2001*

### ŞEHİT ŞARKISI

1. Uykusu var yerin, göğün
2. Nefesinde, kokusunda.
3. Yat yavrum. Tanrı dinleniyor
4. Yavruların uykusunda.

5. Toprak henüz uyanmamış,
6. Yere taze güneş değdiğinde,
7. Ağaç dik. Tanrı dinleniyor
8. Ağaçlar çiçeklendiğinde.

9. Ananın gözü yolda kalmış,
10. Kara bağrı kan olduğunda,
11. Aklına getir. Tanrı dinleniyor
12. Her analar anıldığında.

13. Mest olma Türkler, Oğuzlar,
14. Kıpçaklar meth edildiğinde.
15. Şehit ol! Tanrı dinleniyor
16. Yetim yurt fethedildiğinde!

### *MƏNİM DƏ YARIM BAKIYMIŞ (74)*

*1. Evimdə telefon yoxdu,*
*2. Cib telefonu da susur.*
*3. Qazandığım beş-on dostun*
*4. Beşi də, onu da susur.*

### BENİM DE YARİM BAKÜ'YMÜŞ

1. Evimde telefon yok,
2. Cep telefonu da susuyor.
3. Kazandığım beş on dostun
4. Beşi de, onu da susuyor.

*5. Ayrı heç nə eşitmirəm,*
*6. Sükutun səsi ağırmş.*
*7. İşə bax, xəbərim ha yox,*
*8. Göydən yerə daş yağırmış.*

*9. Kim oxuyar mənim kimi*
*10. Tavanda nələr yazılıb,*
*11. Aynaya kimlər çəkilib,*
*12. Divardan nələr pozulub...*

*13. Könüldəki dost adları*
*14. Nədən bir-bir qaralanar?*
*15. Mənim də yarım Bakıymış,*
*16. Yarsız qalan yaralanar.*

*17. Qazandığım beş-on dostun*
*18. Beşi də, onu da susur,*
*19. Yarıya çatdığım yolun*
*20. Önü də, sonu da susur...*
*1985*

5. Başka bir şey işitmiyorum,
6. Sükutun sesi ağırmış.
7. İşe bak, haberim ha yok,
8. Gökten yere taş yağıyormuş.

9. Kim okur benim gibi
10. Tavanda neler yazılmış,
11. Resimde neler çizilmiş,
12. Duvardan neler silinmiş...

13. Gönüldeki dost adları
14. Neden bir bir karalanır?
15. Benim yarim Bakü'ymüş,
16. Yarsız kalan yaralanır.

17. Kazandığım beş, on dostun
18. Beşi de, onu da susuyor,
19. Yarısına geldiğim yolun
20. Önü de, sonu da susuyor...

## *BAYQUŞ (75)*

*1. Yurdun sökülən ucunda*
*2. Qərib bir bayquş oxuyur.*
*3. Gecə-gündüz, axşam-sabah,*
*4. Yaz-payız, yay-qış oxuyur.*

*5. Yurdun didərgin üzündə,*
*6. Kimsəsiz, sürgün üzündə,*
*7. Zorlanmış, çirkin üzündə*
*8. Susub Gün, Ay... quş oxuyur.*

*9. Gör nə deyir bu ulama:*
*10. - Kimin yurdudu talanan?!*
*11. Tənha, yazıq yığvalına*
*12. Axtarır tay, quş oxuyur.*

*13. ...Bu daşın bir adı əhlət,*
*14. Öldürdü bizi bu möhlət.*
*15. Oyyy... bu bayquş bizə nəhlət,*
*16. Yağıya alqış oxuyur...*
*2000*

## BAYKUŞ

1. Yurdun yağmalanan ucunda
2. Garip bir baykuş ötüyor,
3. Gece gündüz, akşam sabah,
4. Bahar güz, yaz kış ötüyor.

5. Yurdun avare yüzünde,
6. Kimsesiz, sürgün yüzünde,
7. Zorlanmış, çirkin yüzünde
8. Susmuş güneş, ay... Kuş ötüyor.

9. Gör ne diyor bu uluma:
10. Kimin yurdu talan edilen?!
11. Yalnız, zavallı talihini
12. Arıyor gibi kuş ötüyor.

13. Bu taşın bir adı ahlat
14. Öldürdü bizi bu mühlet.
15. Oyyy... Bu baykuş bize lanet,
16. Düşmana dua okuyor...

## *OY-OY (76)*

## OY OY

*(Dostum Xanəmirə)*

*1. Mən gülü gülşən eylədim,*
*2. Gülüm şən görünmür, oy-oy.*
*3. Dost dosta hər cür görünür,*
*4. Amma tən görünmür, oy-oy.*

*5. Düz, tala, orman işləyir,*
*6. Xış, kotan xırman işləyir,*
*7. Neçə dəyirman işləyir,*
*8. Bircə dən görünmür, oy-oy.*

*9. Kim yedi ruzini, dandı –*
*10. Tanrı bəndədən usandı.*
*11. Xəmir yoğuran şeytandı,*
*12. Hal və cin görünmür, oy-oy.*

*13. Kimə yetişdim imdada,*
*14. Çoxu verdi məni bada.*
*15. Ya dünya kor olub, ya da*
*16. Məndə mən görünmür, oy-oy.*
*2002*

(Dostum Hanemir'e)

1. Ben gülü gülşen eyledim,
2. Gülüm şen görünmüyor, oy oy
3. Dost dosta her şekil görünüyor,
4. Ama olduğu gibi görünmüyor, oy oy.

5. Düzlük, vadi, orman çalışıyor,
6. Kış, kotan harman çalışıyor,
7. Kaç değirmen çalışıyor,
8. Bir tek buğday görünmüyor, oy oy.

9. Kim yedi rızkı, inkâr etti
10. Tanrı kuldan usandı.
11. Hamur yoğuran şeytandı,
12. Al anası ve cin görünmüyor, oy oy.

13. Kime yetiştim imdada,
14. Çoğu verdi bana eza.
15. Ya dünya kör olmuş, ya da
16. Bende ben görünmüyor, oy oy.

## *SEVİNİR (77)*

*1. Kimi məzar boyda otaq*
*2. Tapsa kirayə, sevinir.*
*3. Kimi də təzə aldığı*
*4. Beş otaq öyə sevinir.*

*5. Hərənin öz tamah yeri,*
*6. Bilinməz dünyanın sirri.*
*7. Biri Kürdən doymaz,*
*8. biri*
*9. Bir fincan suya sevinir.*

*10. Kimiyə Vətən külfəti,*
*11. Yurdunu sevməyi çətin.*
*12. Kimi sevinir xəlvəti,*
*13. Buludsuz göyə sevinir.*

*14. Eh... yağıya qalan torpaq,*
*15. Yağıya su verən bulaq...*
*16. ...Mahnıdan tutulur qulaq,*
*17. Bu millət nəyə sevinir?..*

## SEVİNİYOR

1. Kimi mezar boyunda oda
2. Bulsa kiralık seviniyor.
3. Kimi de yeni aldığı
4. Beş oda eve seviniyor.

5. Herkesin kendi tamah yeri,
6. Bilinmez dünyanın sırrı.
7. Biri Kür'den doymaz,
8. biri
9. Bir fincan suya seviniyor.

10. Kimine vatan külfeti,
11. Yurdunu sevmesi çetin.
12. Kimi seviniyor gizlice,
13. Bulutsuz göğe seviniyor.

14. Eh...Düşmana kalan toprak,
15. Düşmana su veren bulak...
16. Şarkıya veriliyor kulak,
17. Bu millet neye seviniyor?..

*2000*

## *BİZ NƏ QƏDƏR ÇOX OLSAQ DA (78)*

*1. Yürüsək də, yıxılsaq da,*
*2. Gözü-könlü tox olsaq da,*
*3. Biz nə qədər çox olsaq da,*
*4. Bir o qədər azıq-azıq.*

*5. Yoxdu bizim sirr yerimiz,*
*6. His yerimiz, kir yerimiz.*
*7. Ağrımırsa bir yerimiz,*
*8. Bəs niyə belə nasazıq?*

*9. Vallah, mənim ağlım uçur,*
*10. Tər tökürəm puçur-puçur.*
*11. Yad bizə yeməyə qaçır,*
*12. Biz hələ də acıq, acıq.*

*13. Yeyir məni dərdim – itdir,*
*14. Nə topladım, dərdim, itdi.*
*15. Oğul doğdu, dərd böyütdü,*
*16. Eh, məni doğana yazıq.*

## BİZ NE KADAR ÇOK OLSAK DA

1. Yürüsek de, yıkılsak da,
2. Gözü gönlü tok olsak da,
3. Biz ne kadar çok olsak da,
4. Biz o kadar azız azız.

5. Yoktur bizim sır yerimiz,
6. His yerimiz, kirli yerimiz.
7. Ağrımıyorsa bir yerimiz,
8. Yeter niye böyle dağınığız?

9. Vallahi, benim aklım uçuyor,
10. Ter döküyorum damla damla.
11. Yabancı bizim yemeği yemeğe gidiyor,
12. Biz hâlâ da açız, açız.

13. Yiyor beni derdim ittir,
14. Ne topladım, derdim yitti.
15. Oğul doğdu, dert büyüttü,
16. Eh, beni doğurana yazık.

*1988*

## *SALAM, DÜNYANIN YİYƏSİ (79)*

*1. Salam, dünyanın yiyəsi,*
*2. Salam, ay Allah deyilən.*
*3. Gündə min yol yalvarılan,*
*4. Gündə min yol da söyülən.*

*5. Biləmmirəm hara gedir,*
*6. Milyon-milyon dua gedir.*
*7. Durub sənə dua edir*
*8. Durduğu yerdə döyülən.*

*9. Sənin ruzini yeyənlər,*
*10. Sənin bəndəni döyənlər,*
*11. Göz yumub sənə söyəndə*
*12. Az qalır ağzım əyilə.*

*13. Dilimizi qopartdılar,*
*14. Bizi qol-qola çatdılar,*
*15. Sözü də alıb-satdılar,*
*16. Söz də qalmadı deyilə...*

## SELAM DÜNYANIN SAHİBİ

1. Selam, dünyanın sahibi,
2. Selam, ey Allah denilen.
3. Günde bin defa yalvarılan,
4. Günde bin defa da sövülen.

5. Bilemiyorum nereye gidiyor,
6. Milyon milyon dua gidiyor.
7. Durup sana dua ediyor
8. Durduğu yerde dövülen.

9. Senin nimetini yiyenler,
10. Senin kulunu dövenler,
11. Göz yumup sana sövdüğünde
12. Az kalır ağzım eğile.

13. Dilimizi koparttılar,
14. Bizim ellerimizi bağladılar,
15. Sözü de alıp sattılar,
16. Söz de kalmadı denile...

*1997*

***ÇAĞIRIR (80)***

*1. Tozuna ağlayan yoxdu,*
*2. Məni bu yarpaq çağırır.*
*3. Yükünü saxlayan yoxdu,*
*4. Bizi bu torpaq çağırır.*

*5. Bu gələn səs ulamadı,*
*6. Qartaldan qıy alammadım,*
*7. Mən boz qurd olammadım?*
*8. Məni yalquzaq çağırır.*

*9. Dinləyəmməm hər aşığı,*
*10. Dərddi Vətən yaraşığı.*
*11. Kimini Tanrı işığı,*
*12. Kimini duzaq çağırır.*

*13. Tellərimi qara papaq,*
*14. Gözlərimi yaşıl yarpaq,*
*15. Ayağımı siyah torpaq,*
*16. Başımı Allah çağırır...*

*1999*

**ÇAĞIRIYOR**

1. Tozuna ağlayan yoktur,
2. Beni bu yaprak çağırıyor.
3. Yükünü saklayan yoktur,
4. Bizi bu toprak çağırıyor.

5. Bu gelen ses ulumadır
6. Kartaldan ses alamadım,
7. Ben boz kurt olamadım?
8. Beni yalnız kurt çağırıyor.

9. Dinleyemem her âşığı,
10. Derttir vatan süsü.
11. Kimini Tanrı ışığı,
12. Kimini tuzak çağırıyor.

13. Tellerimi kara papak,
14. Gözlerimi yeşil yaprak,
15. Ayağımı siyah toprak,
16. Başımı Allah çağırıyor...

***HAQQ DEYƏNƏ (81)***

*(Dostum Nəriman Əbdülrəhmanlıya)*

*1. Dərdə heyrətim qalmadı,*
*2. Gəlirsə də, əbəs gəlir.*
*3. ...Qulaqlarım tutulmuşdu,*
*4. Allah, nə gözəl səs gəlir!*

*5. Baxginən sözümnən mənə,*
*6. Tanrının gözünnən mənə,*
*7. Ölümün özündən mənə*
*8. Divanə bir həvəs gəlir.*

*9. Məni yenən haqdan yenə,*
*10. Silkələndim Haqdan yenə.*
*11. Min illərdi haqq deyənə*
*12. İmarət yox, qəfəs gəlir.*

*13. Sözmüş məni yeridən də,*
*14. Sözmüş məni yarıdan da,*
*15. Şükür...mənə Yaradandan*

**HAK DİYENE**

(Dostum Neriman Ebdülrehmanlı'ya)

1. Derde hayretim kalmadı,
2. Gelirse de, abes geliyor.
3. Kulaklarım tutulmuştu,
4. Allah, ne güzel ses geliyor!

5. Bak sözümden bana,
6. Tanrı'nın gözünden bana,
7. Ölümün özünden bana
8. Divane bir heves geliyor.

9. Beni yenen haktan yene,
10. Silkelendim Hak'tan yana.
11. Bin yıllardır hak diyene
12. İmaret yok, kafes geliyor.

13. Sözmüş beni yürüten de,
14. Sözmüş beni yücelten de,
15. Şükür... Bana Yaradan'dan

*16. İtirdiyim nəfəs gəlir!*
*1999*

16. Yitirdiğim nefes geliyor!

***SÖZÜ DƏ DƏLİ EYLƏDİK (82)***

**SÖZÜ DE DELİ EYLEDİK**

*1. Dilimə bənd kimi düşüb,*
*2. Di gəl, sözü dildən ayır.*
*3. Hamı ağızdan yapışıb,*
*4. Hamı saqqız oğurlayır.*

*5. Ağzım – dilimin qəfəsi,*
*6. Söz – dilimdə sirdaş kimi.*
*7. Topuğumu qanadır laf*
*8. Daldan atılan daş kimi.*

*9. Qara gözlər gecələyib,*
*10. Baxın, göy gözlər oynayır.*
*11. Sözü də dəli eylədik,*
*12. Qol açıb sözlər oynayır.*

*13. Sözü qəribliyə düşən*
*14. Dilinə sürgün olarmış.*
*15. Bəndə didərgin olanda,*
*16. Söz də didərgin olarmış.*
*1997*

1. Dilime bent gibi düşmüş,
2. Hadi gel, sözü dilden ayır.
3. Hepsi ağıza yapışmış,
4. Hepsi sakız çalıyor.

5. Ağzım dilimin kafesi,
6. Söz dilimde sırdaş gibi.
7. Topuğumu kanatır laf
8. Arkadan atılan taş gibi.

9. Kara gözler gecelemiş,
10. Bakın yeşil gözler oynuyor.
11. Sözü de deli eyledik,
12. El açıp sözler oynuyor.

13. Sözü garipliğe düşen
14. Diline sürgün olurmuş.
15. Kul avare olduğunda,
16. Söz de avare olurmuş.

***BU VƏTƏN YAŞIL GEYİNƏ (83)***

**BU VATAN YEŞİL GİYİNE**

*1. Ömrün harasından gəldik,*
*2. Gəldik, çatdıq harasına.*
*3. Can yarası gedən şeymiş,*
*4. Çarə yox baxt yarasına.*

*5. Yaşamırıq ömrü düzü,*
*6. Didərginlik ömrü üzür,*
*7. Dolanırıq ömrümüzün*
*8. Orasına-burasına.*

*9. O zalımın baxtına bax,*
*10. Hardadı ki, bizdə o baxt?!*
*11. Ya yarımçıq baxtına bax,*
*12. Ya vətənin yarısına!*

*13. Uçaq Allahın göyünə,*
*14. Bəlkə ruhumuz söyünə.*
*15. Bu Vətən yaşıl geyinə,*

1. Ömrün neresinden geldik,
2. Geldik, çattık neresine.
3. Can yarası geçermiş,
4. Çare yok baht yarasına.

5. Yaşamıyoruz ömrü düzgün,
6. Avarelik ömrü yıpratıyor,
7. Dolanıyoruz ömrümüzün
8. Orasına burasına.

9. O zalimin bahtına bak,
10. Nerde ki, bizde o baht?!
11. Ya yarım bahtına bak,
12. Ya vatanın yarısına!

13. Uçalım Allah'ın göğüne,
14. Belki ruhumuz sevinir.
15. Bu vatan yeşil giyine

*16. Biz də onun qarasını...*

*1999*

16. Biz de onun karasını...

## *TÜRK DİLİ (84)*

*1. Of , babamın gözəl dili,*
*2. Min illər o yandan gəlir.*
*3. Qaf boyda bədəndən-candan,*
*4. Dərya-dərya qandan gəlir.*

*5. Ayə kimi dərin dili –*
*6. Of, anamın şirin dili!*
*7. Məğribin, Məşriqin dili*
*8. Sultandan, xaqandan gəlir.*

*9. Ruhu göy kimi qocadı,*
*10. Ahı mələkdən ucadı,*
*11. Cahan ona balacadı,*
*12. Məkan ilə kandan gəlir.*

*13. Bu dil yüz min dildən qabaq,*
*14. Ən uzaq qədimdən qabaq,*
*15. Təriqətdən, dindən qabaq*
*16. Ulu Yaradandan gəlir...*

*2001*

## TÜRK DİLİ

1. Of , babamın güzel dili,
2. Bin yıl evvelden geliyor.
3. Milyon, milyar aziz candan,
4. Derya derya kandan geliyor.

5. Ayet gibi derin dili
6. Of, anamın şirin dili!
7. Batının, doğunun dili
8. Sultandan, hakandan geliyor.

9. Ruhu gök gibi koskoca,
10. Ahı meleklerden yüce.
11. Cihan ona pek küçük
12. Yurt ile kandan geliyor.

13. Bu dil yüz bin dilden önce,
14. En uzak kadimden önce,
15. Tarikattan, dinden önce
16. Ulu Yaradan'dan geliyor...

## *XAN ARAZ ŞƏRQİ SÖYLƏSİN (85)*

*1. Hələ boynubükük qalıb,*
*2. Gülüm Savalan dağında.*
*3. İçim Qafqazda ağlayır,*
*4. Çölüm Savalan dağında.*

*5. Uçurdaq kədəri, qəmi,*
*6. Açaq bəmbəyaz yelkəni.*
*7. Tanrı, yol ver son tikəmi*
*8. Bölüm Savalan dağında.*

*9. Qara yurd yaşıl geyinə,*
*10. "Bəlkə ruhumuz söyünə".*
*11. Çatsın mürşüd ətəyinə*
*12. Əlim Savalan dağında.*

*13. Xan Araz şərqi söyləsin,*
*14. Yağını yoldan əyləsin.*
*15. Yaradan nəsib eyləsin*

## HAN ARAZ ŞARKI SÖYLESİN

1. Hâlâ boynubükük kalmış,
2. Gülüm Savalan Dağ'ında.
3. İçim Kafkas'ta ağlıyor,
4. Çölüm Savalan Dağ'ında.

5. Uçuralım kederi, gamı,
6. Açalım bembeyaz yelkeni.
7. Tanrı, yol ver son parçamı
8. Böleyim  Savalan Dağ'ında.

9. Kara yurt yeşil giyine,
10. "Belki ruhumuz sevine."
11. Çatsın mürşit eteğine
12. Elim Savalan Dağ'ında.

13. Han Araz şarkı söylesin,
14. Düşmanı yoldan eylesin.
15. Yaradan nasip eylesin

*16. Ölüm Savalan dağında!*
*2003*

16. Ölüm Savalan Dağ'ında.

## *MƏN ATİLLANIN RUHUNDA (86)*

*1. Bir günahın arxasında*
*2. Durmuşamsa, qarğasınlar.*
*3. Mən sözümün arxasında,*
*4. Öz gözümün önündəyəm.*

*5. Taleyim düşüb qabağa,*
*6. Sürüyür məni, ay qağa.*
*7. Mən gah altı aylıq çağa,*
*8. Gah ağsaqqal sinnindəyəm.*

*9. ...Gəmi görünmür yaxında,*
*10. Gəmisi batıb Nuhun da?!*
*11. Mən – Atillanın ruhunda,*
*12. Məhəmmədin dinindəyəm.*

*13. Özüm ki, duşam, yuxuyam,*
*14. Gecə keçir, ay yuxu, yan!*
*15. Bilmirmi bunu oxuyan: -*
*16. Mən də onun günündəyəm.*
*1994*

## BEN ATİLLA'NIN RUHUNDAYIM

1. Bir günahın arkasında
2. Durmuşsam, sövsünler.
3. Ben sözümün arkasında,
4. Kendi gözümün önündeyim.

5. Talihim düşmüş öne,
6. Sürüyor beni, ay baba.
7. Ben kâh altı aylık bebek,
8. Kâh aksakal çağındayım.

9. Gemi görünmüyor yakında,
10. Gemisi batmış Nuh'un da?!
11. Ben Atilla'nın ruhunda,
12. Muhammed'in dinindenim.

13. Kendim ki, düşüm, uykuyum,
14. Gece geçiyor, ey uyku, gel!
15. Bilir mi bunu okuyan:
16. Ben de onun günündeyim.

## *YIXACAQ (87)*

*1. Bu vətən güləş meydanı,*
*2. Görən kimi kim yıxacaq?*
*3. Hakim yıxa bilməyəni*
*4. Naşı bir həkim yıxacaq.*

*5. Tanrı, deyilən doğrumu*
*6. Adəm deyilən oğrumu?..*
*7. Bugünkü qoluzorlunu*
*8. Sabahkı sürgün yıxacaq.*

*9. Sözün də var canı-qanı,*
*10. Ah tutammaz söz tutanı.*
*11. Sözü arxadan atanı*
*12. Söz özü bir gün yıxacaq.*

*13. ...Cahan eşqi hədər şeydi,*
*14. İstənənlər ötər şeydi.*
*15. Kin – zinadan betər şeydi,*

## YIKACAK

1. Bu vatan güreş meydanı,
2. Acaba kim kimi yıkacak?
3. Hakimin yıkamadığını
4. Acemi bir hekim yıkacak.

5. Tanrı, denilen doğru mu?
6. Adem denilen hırsız mı?
7. Bugünkü haydutu
8. Sabahki sürgün yıkacak.

9. Sözün de var canı kanı,
10. Ah tutmaz söz tutanı.
11. Sözü arkadan atanı
12. Sözü bir gün yıkacak.

13. Cihan aşkı heder şeydir,
14. İstenenler geçici şeydir.
15. Kin, zinadan beter şeydir,

*16. Yıxsa bizi kin yıxacaq!*
*2000*

16. Yıksa bizi kin yıkacak!

***QOYURUQ (88)***

*1. Nəfəs alırıq hələ də -*
*2. Şükür olsun bu günə də.*
*3. Qəlbi dəyişib sinədə,*
*4. Əvəzinə qəlp qoyuruq.*

*5. Körpəyik, dünya noğuldu,*
*6. Heyif bizlərə, doğulduq.*
*7. Qanı qaynadıb, soğuldub,*
*8. İçimizdə ərp qoyuruq.*

*9. Yıxdıq qaçağı, qulduru,*
*10. Növbədə xeyli qul durub.*
*11. Sözdə Qafqazı qaldırıb,*
*12. Yerindəcə Alp qoyuruq.*

*13. Ağrıya yaxa tanıtdıq,*
*14. Dərdi dərman bilib udduq.*
*15. Qulpdan tutmağı unutduq,*
*16. İndi gözəl qulp qoyuruq.*
*1999*

**KOYUYORUZ**

1. Nefes alıyoruz hâlâ
2. Şükür olsun bu güne de.
3. Kalbi değişip sinede,
4. Yerine sahtesini koyuyoruz.

5. Çocukken, dünya tatlıydı
6. Yazık bizlere, doğduk.
7. Kanı kaynatıp soğutup
8. İçimize pas koyuyoruz.

9. Yıktık kaçağı, haydutu,
10. Nöbette hayli kul duruyor,
11. Sözde Kafkas'ı kaldırıp
12. Yerine Alp koyuyoruz.

13. Ağrıya yakayı tanıttık,
14. Derdi derman bilip yuttuk.
15. Kulptan tutmayı unuttuk,
16. Şimdi kulp buluyoruz.

***DƏRDİNƏ QURBAN, AY VƏTƏN (89)***

*1. Haydan ruhum qıdıqlanır,*
*2. Küy ucalır pərdə-pərdə.*
*3. Ah, yenə bayquş ulayır*
*4. Qurdun uladığı yerdə.*

*5. Qarışıb azan səsinə,*
*6. Elə bil kafir simidi.*
*7. Ah, bu bayquş ulaması*
*8. Tanrıya küfür kimidi.*

*9. Ovçu öldü qurd peşində,*
*10. Bayquş hələ bərədədi.*
*11. Dərdinə qurban, ay Vətən,*
*12. Hər tikən bir dərədədi.*

*13. ...Yaralı qurd ulayırdı,*
*14. Səsi laylaydı – yatırdıq.*
*15. Bayquş ulayan bərədə*

**DERDİNE KURBAN, EY VATAN**

1. Çığlıktan ruhum gıdıklanıyor,
2. Gürültü yükseliyor perde perde.
3. Ah, yine baykuş uluyor
4. Kurdun uluduğu yerde.

5. Karışmış ezan sesine,
6. Sanki kafir müziğidir.
7. Ah, bu baykuş uluması
8. Tanrı'ya küfür gibidir.

9. Avcı öldü kurt peşinde,
10. Baykuş hâlâ pusudadır.
11. Derdine kurban, ey vatan,
12. Her parçan bir derededir.

13. Yaralı kurt uluyordu,
14. Sesi ninniydi yatıyorduk.
15. Baykuşun uluduğu yerde

*16. Biz qurda güllə atırdıq...*
*1999*

16. Biz kurda mermi atıyorduk.

***QOCA TİFLİS (90)***
*(Dostum İslam Əliyevə)*

*1. Qoca Tiflis, Karvansara,*
*2. Hara gedir karvan, hara?*
*3. Belə sarvan karvanlara*
*4. Doğru yolu bularmola?*

*5. Qoca Tiflis, Narınqala,*
*6. Tikildin, ah-zarın qala?..*
*7. Axşam – qala, yarın – qala,*
*8. Düşməyənlər bilərmola?*

*9. Qoca Tiflis, Ortacala,*
*10. Orda – çala, burda – çala.*
*11. Çək məni bu yurda cala,*
*12. Yoxsa üzüm gülərmola?*

*13. Qoca Tiflis, ulu Meydan,*
*14. Tarixlərin qulu Meydan.*
*15. Sorarmısan Quru bəydən,*
*16. Bir də sənə gələrmola?..*
1999

**KOCA TİFLİS**
(Dostum İslam Aliyev'e)

1. Koca Tiflis, Kervansaray,
2. Nereye gidiyor kervan, nereye?
3. Böyle kervanbaşı kervanlara
4. Doğru yolu buldurtur mu?

5. Koca Tiflis, Narınkale
6. Dikildin, iniltin kala?
7. Akşam kale, yarın kale,
8. Düşmeyenler bilir mi?

9. Koca Tiflis, Ortacala
10. Orda çala, burada çala.
11. Çek beni bu yurda bağla,
12. Yoksa yüzüm güler mi?

13. Koca Tiflis, ulu meydan,
14. Tarihlerin kulu meydan
15. Sorar mısın Kuru beyden,
16. Bir de sana gelir mi?

***QUŞMU GÖZƏLDİ, LƏLƏKMİ (91)***

*1. Kədəri obaşdan çıxan,*
*2. Təzəsi nimdaşdan çıxan,*
*3. Ey çörəyi daşdan çıxan,*
*4. Daşmı gözəldi, çörəkmi?*

*5. Alnındakı qırışa bax,*
*6. Yaşamadığın yaşa bax,*
*7. Biləyin boyda huşa bax,*
*8. Huşmu gözəldi, biləkmi?*

*9. Səmti bilinmir küləyin,*
*10. Süzür göylərdə ələyin,*
*11. Bir quşun var, bir lələyin,*
*12. Quşmu gözəldi, ləlləkmi?*

*13. Dünya – gülsifət, gülbədən,*
*14. Öldün, dünyaya gəlmədən.*

**KUŞ MU GÜZELDİR, LEYLEK Mİ**

1. Kederi tan vaktinde çıkan,
2. Yenileri eskilerden çıkan,
3. Ey ekmeği taştan çıkan,
4. Taş mı güzel, çörek mi?

5. Alnındaki kırışığa bak,
6. Yaşamadığın yaşa bak,
7. Elin kadar kalbe bak,
8. Akıl mı güzel, bilek mi?

9. Semti bilinmiyor rüzgarın,
10. Süzüyor göklerde eleğini,
11. Bir kuşun var bir leyleğin,
12. Kuş mu güzel, leylek mi?

13. Dünya gül yüzlü, sevgili
14. Öldün dünyaya gelmeden.

*15. Soruş sonuncu güllədən:*
*16. Başmı gözəldi, ürəkmi?..*
*2002*

15. Sor sonuncu mermiden:
16. Baş mı güzel, yürek mi?

### *DİLƏNÇİ COCUĞA DÖRD BƏND (92)*

*1. Ah, cocuq... yavrum mənim,*
*2. Xətrini xoş edəmmirəm.*
*3. Nə əlimdən bir iş gəlir,*
*4. Nə əkilib gedəmmirəm.*

*5. Gözün Məkkəyə bənzəyir,*
*6. Baxışın – Həcc qapısımı?*
*7. Əlini yaman açmısan,*
*8. Boş ovcun – bac qapısımı?*

*9. Bilməm, səni doğan ana*
*10. Qışmı doğub, yaymı doğub,*
*11. Qundağına gün doğmamış,*
*12. Qurşağına aymı qonub?*

*13. Baxışındakı yalvarış*
*14. Ovcundan daha açıqdı.*
*15. Öləydim... gül üzün hələ*
*16. Neçə günaha açıqdı...*
*2001*

### DİLENCİ ÇOCUĞA DÖRT BENT

1. Ah, çocuk...Yavrum benim,
2. Hatrını hoş edemiyorum.
3. Ne elimden bir iş geliyor,
4. Ne kaçıp gidemiyorum.

5. Gözün Mekke'ye benziyor,
6. Bakışın Hac kapısı mı?
7. Elini fena açmışssın,
8. Boş avucun haraç kapısı mı?

9. Bilmem, seni doğuran ana
10. Kış mı doğurmuş, yaz mı doğurmuş,
11. Kundağına güneş doğmamış,
12. Kuşağına ay mı konmuş?

13. Bakışındaki yalvarış
14. Avcundan daha açıktır.
15. Öleydim...Gül yüzün
16. Kaç günaha açıktır...

### *ÇƏTİNDİ (93)*

*1. Zamanın çərxi hərlənib,*
*2. Göydə Ay da zəhərlənib.*
*3. Ağlayana qəhərlənib,*
*4. Gülənlə gülmək çətindi.*

*5. Sula, yazıq, küçələri,*
*6. Toz tutmasın yekələri.*
*7. Nazir udan tikələri*
*8. Yesirə bölmək çətindi.*

*9. Daha cavan tez qocalır,*
*10. Qısaboylular ucalır,*
*11. Gerçək mollalar azalır,*
*12. Quransız ölmək çətindi.*

*13. Dərd demə dərdi bilməzə,*
*14. Bəndə şeytandan baməzə.*

### ZORDUR

1. Zamanın çarkı dönmüş,
2. Gökte ay da zehirlenmiş.
3. Ağlayana kahırlanıp,
4. Gülenle gülmek zordur.

5. Sula, yazık, sokakları,
6. Toz tutmasın memurları.
7. Nazırın yuttuğu parçaları
8. Esire bölmek zordur.

9. Artık gençler tez yaşlanıyor,
10. Kısa boylular uzuyor,
11. Gerçek mollalar azalıyor,
12. Kuran'sız ölmek zordur.

13. Dert deme derdi bilmeze,
14. Kul şeytandan komik.

*15. Vallah, biz gedər-gəlməzə*
*16. Gedirik, gəlmək çətindi...*
*1985*

15. Vallahi biz gider gelmeze
16. Gidiyoruz, gelmek zordur.

### *TƏZƏ İL GECƏSİ (94)*

*1. Ulduzlar yatmaq istəyir,*
*2. Yatağa güllə atırlar.*
*3. Göydə Ay təzə doğulub,*
*4. Qundağa güllə atırlar.*

*5. İsanın şənlik günüdü,*
*6. Kim deyir, sönük günüdü?!*
*7. Sabah ilin ilk günüdü,*
*8. Sabaha güllə atırlar.*

*9. Atırlar hədəfi tutmur,*
*10. Güllə haqqı ha oyatmır.*
*11. Yaxına gücləri çatmır,*
*12. Uzağa güllə atırlar.*

*13. Kədəri, dərdi boşlayıb,*
*14. Taleni, bəxti daşlayıb,*
*15. Tüfəngi göyə tuşlayıb,*
*16. Allaha güllə atırlar.*
*1985*

### YENİ YIL GECESİ

1. Yıldızlar yatmak istiyor,
2. Yatağa mermi atıyorlar.
3. Gökte ay yeni doğmuş,
4. Kundağa mermi atıyorlar.

5. İsa'nın şenlik günüdür,
6. Kim diyor, sönük gündür?!
7. Sabahın ilk günüdür,
8. Sabaha mermi atıyorlar.

9. Atıyorlar hedef tutmuyor,
10. Mermi hakkı ha uyutmuyor.
11. Yakına güçleri yetmiyor.
12. Uzağa mermi atıyorlar.

13. Kederi derdi boşlayıp,
14. Talihi, bahtı taşlayıp,
15. Tüfeği göğe nişanlayıp,
16. Allah'a mermi atıyorlar.

### *ULAYIR (95)*

*1. Yaranandan qəza çəkir,*
*2. Başım yaza-yaza çəkir,*
*3. Sim sürtülüb cəza çəkir,*
*4. Ağuşda kaman ulayır.*

*5. Millətin şair xəstəsi,*
*6. Canımda səhra istisi,*
*7. İçimdə tütün tüstüsü,*
*8. Qafamda duman ulayır.*

*9. Başlar bağlanıb baş yerə,*
*10. Haçan yağacaq daş yerə?!*
*11. Sevdirib məni boş yerə,*
*12. Məndən ayrılan ulayır.*

*13. Ay ulayan, nə istərsin?*
*14. Sor, cavabın Tanrı desin.*

### ULUYOR

1. Yaratılan azap çekiyor,
2. Başım yazmaktan çekiyor.
3. Tel sürtülüp ceza çekiyor,
4. Kucakta keman uluyor.

5. Milletin şair hastası,
6. Canımda sahra ısısı,
7. İçimde tütün tütsüsü,
8. Kafamda duman uluyor.

9. Başlar bağlanıp baş yere,
10. Ne vakit yağacak taş yere?!
11. Sevdirip beni boş yere,
12. Benden ayrılan uluyor.

13. Ey uluyan, ne istersin?
14. Sor, cevabını Tanrı desin.

*15. Yesə, öz başını yesin,*
*16. Bu bayquş yaman ulayır...*
*1996*

15. Yerse, kendi başını yesin,
16. Bu baykuş fena uluyor.

***YENƏ OD DÜŞÜB DİLİMƏ (96)***

*1. Qağa, saxla salamını,*
*2. Əlim yenə alovlanır.*
*3. Yenə od düşüb dilimə,*
*4. Dilim yenə alovlanır.*

*5. Bu da belə yurd yeridi,*
*6. Tonqal çatdım, yad yeridi.*
*7. İçim çoxdan od yeridi,*
*8. Çölüm yenə alovlanır.*

*9. Yaman zildi bu çal-çağır,*
*10. Səsin yanar yüz də bağır.*
*11. Hər gün başıma qar yağır,*
*12. Telim yenə alovlanır.*

*13. Kimə gözüynən qaş edək*
*14. Yolumuz gözdən qaşadək.*
*15. Yandım ayaqdan başadək,*
*16. Külüm yenə alovlanır...*
*1999*

**YİNE ATEŞ DÜŞMÜŞ DİLİME**

1. Baba, sakla selamını,
2. Elim yine alevleniyor.
3. Yine ateş düşmüş dilime,
4. Dilim yine alevleniyor.

5. Bu da böyle yurt yeridir,
6. Ateş yaktım, yad yeridir.
7. İçim çoktan ateş yeridir,
8. Çölüm yine alevleniyor.

9. Kötü ses bu çalıp oynanan,
10. Sesin yanar yüz defa bağırsan da.
11. Her gün başıma kar yağıyor,
12. Telim yine alevleniyor.

13. Kime kaş göz edelim
14. Yolumuz gözden kaşa dek,
15. Yandım ayaktan başa dek,
16. Külüm yine alevleniyor.

***FIRÇAMI YANA ATIRAM (97)***

*1. Bilirəm ki, dönəmmərəm*
*2. Dünyanın söz pələnginə.*
*3. Yazıq canım... kağız-qələm*
*4. Çəkibdi məni cənginə.*

*5. Vaxtdı gedən... ömür yatır,*
*6. Pərən-pərən qəflə-qatır.*
*7. Dövran yaman divan tutur*
*8. Şairlərin nəhənginə.*

*9. Günaha, qana batıram*
*10. Söz boğub, gorda yatıram.*
*11. Fırçamı yana atıram*
*12. Baxıb dünyanın rənginə.*

*13. Neynim, gözlərim çaş deyil,*
*14. Canım, ürəyim daş deyil,*

**FIRÇAMI YANA ATIYORUM**

1. Biliyorum ki, dönemem
2. Dünyanın söz kaplanına
3. Zavallı canım...Kâğıt kalem
4. Çekmişti beni savaşına.

5. Vakittir geçen...Ömür bitiyor,
6. Dağınık kervanlar.
7. Devran kötü hüküm veriyor
8. Şairlerin büyüğüne.

9. Günaha, kana batıyorum
10. Sözü boğup korda yatıyorum.
11. Fırçamı yana atıyorum
12. Bakıp dünyanın rengine.

13. Neyleyim, gözlerim şaşı değil,
14. Canım, yüreğim taş değil,

*15. Dünya bir yekə baş deyil,*
*16. Sıxam gülləniənginə...*
*1998*

15. Dünya bir büyük baş değil
16. Sıkayım mermiyi engine...

***BƏYAZ XİRQƏLİ MÜRİDLƏR (98)***

*1. Bəyaz xirqəli müridlər,*
*2. Sizdən bizlərə nə qaldı?*
*3. Səmanın rəngini içən*
*4. Nurlu üzlərə nə qaldı?*

*5. Axıb beynimizə dolan,*
*6. Könlümüzə işıq salan,*
*7. Hər ünü bir kitab olan*
*8. Sirli sözlərə nə qaldı?*

*9. Nə gözlədik haqdan başqa,*
*10. İşıqlı sabahdan başqa,*
*11. Sizi ağlamaqdan başqa*
*12. Qara gözlərə nə qaldı?*

*13. Bəyaz xirqəli müridlər,*
*14. Dilimizi dərd kilidlər.*
*15. Sizdən bizə nə var yetər,*
*16. Bizdən sizlərə nə qaldı?...*
*1990*

**BEYAZ HIRKALI MÜRİTLER**

1. Beyaz hırkalı müritler,
2. Sizden bizlere ne kaldı?
3. Semanın rengini içen
4. Nurlu yüzlere ne kaldı?

5. Akıp beynimize dolan,
6. Gönlümüze ışık salan,
7. Her sesi bir kitap olan
8. Sırlı sözlere ne kaldı?

9. Ne aradık haktan başka,
10. Işıklı sabahtan başka,
11. Size ağlamaktan başka
12. Kara gözlere ne kaldı?

13. Beyaz hırkalı müritler,
14. Dilimizi dert kilitler.
15. Sizden bize ne var yeter,
16. Bizden sizlere ne kaldı?

***OĞLUM ANARA (99)***

*1. Dərdə könül vermə, balam,*
*2. Yazıb-oxumağı öyrən.*
*3. Vətənə cuman düşmənə*
*4. Qurd tək şığımağı öyrən*

*5. Dərdlənmə, gözünü sevim,*
*6. Dərdin küləyi əsdimi*
*7. "Allah dərdə dərd yağdırır,*
*8. Dərd dərdin örtür üstünü".*

*9. Yaxanı dərdə tanıtma,*
*10. Dərd yüyürər dərddən betər.*
*11. Məndən qalan dərd mirası*
*12. Nəvə-nəticənə yetər.*

*13. Dağ çəkən ol düşmənlərə,*
*14. Dərd çəkmək bir peşə deyil.*

**OĞLUM ANAR'A**

1. Derde gönül verme, yavrum,
2. Yazıp okumayı öğren.
3. Vatana saldıran düşmana
4. Kurt gibi saldırmayı öğren.

5. Dertlenme, gözünü seveyim,
6. Derdin rüzgarı esti mi
7. "Allah derde dert yağdırıyor,
8. Dert derdin örtüyor üstünü."

9. Yakanı derde tanıtma,
10. Dert gelir dertten beter.
11. Benden kalan dert mirası
12. Torun torbana yeter.

13. Dağlayan ol düşmanları,
14. Dert çekmek bir meslek değil.

*15. ...Burası Vətəndi, yavrum,*
*16. Cırtdan itən meşə deyil.*
*1999*

15. Burası vatandır, yavrum,
16. Masalda kaybolan orman değil.

***YAŞAYIRIQ (100)***

*1. Göy üzünə baxa-baxa,*
*2. Yer üstündə yaşayırıq.*
*3. Altımızda qara torpaq,*
*4. Gor üstündə yaşayırıq.*

*5. Yanmasaq, düşmərik yada,*
*6. Yaman vurulmuşuq oda.*
*7. Qovruluruq çarpayıda,*
*8. Qor üstündə yaşayırıq.*

*9. Deyirlər, ruh göyə gedir,*
*10. Adna günü öyə gedir,*
*11. Nəyə gəlir, nəyə gedir –*
*12. Sirr üstündə yaşayırıq.*

*13. Nə yağış var, nə qar yağır,*
*14. Duamı yazım, a fağır?*
*15. Suçumuz örtüb torpağı,*
*16. Kir üstündə yaşayırıq.*
*1992*

**YAŞIYORUZ**

1. Gökyüzüne baka baka,
2. Yer üstünde yaşıyoruz.
3. Altımızda kara toprak,
4. Kor üstünde yaşıyoruz.

5. Yanmasak, düşmeyiz yada,
6. Fena vurulmuşuz oda.
7. Kavruluyoruz yatakta,
8. Kor üstünde yaşıyoruz.

9. Diyorlar, ruh göğe gidiyor,
10. Cuma günü eve gidiyor.
11. Neye geliyor, neye gidiyor
12. Sır üstünde yaşıyoruz.

13. Ne yağmur var ne kar yağıyor,
14. Dua mı yazayım, a fakir?
15. Suçumuz örtmüş toprağı,
16. Kir üstünde yaşıyoruz.

***OLDU (101)***

*1. Bəndələrin gözləri çaş,*
*2. Baxışı qıyqacı oldu.*
*3. Halal, haram nə yedisə,*
*4. Zəhər oldu, acı oldu.*

*5. Nə deyək belə adama,*
*6. Tüpürdü kişi adına –*
*7. Çevrilib bir şux qadına,*
*8. Beş erkəyin duzu oldu.*

*9. Qalaqlanıb könül tozu,*
*10. Qaçıb ömrün dadı-duzu.*
*11. Dünyanın onda doqquzu*
*12. Qoyun oldu, quzu oldu.*

*13. Yeri, göyü əsdirənlər,*
*14. Hər bucağı kəsdirənlər,*

**OLDU**

1. Kulların gözleri şaşı,
2. Bakışı kötü oldu.
3. Helal, haram ne yediyse,
4. Zehir oldu, acı oldu.

5. Ne diyelim böyle adama,
6. Tükürdü insan adına
7. Çevrilip bir şuh kadına,
8. Beş erkeğin tuzu oldu.

9. Yığılmış gönül tozu,
10. Kaçmış ömrün tadı tuzu.
11. Dünyanın onda dokuzu
12. Koyun oldu, kuzu oldu.

13. Yeri göğü titretenler,
14. Her bucağı kestirenler,

*15. Allaha sırt göstərənlər*
*16. Bəndənin baş tacı oldu.*
*1998*

15. Allah'a sırt gösterenler
16. Kulların baş tacı oldu.

### *HAMI QƏRİBƏDİ (102)*

*1. Hamı qəribədi,vallah,*
*2. Hərə bir şeydən inciyir.*
*3. Biri quzeydən gileyli,*
*4. Biri güneydən inciyir.*

*5. Belə uzun əlin ola,*
*6. Bax çeləcə dilin ola! –*
*7. Toy olmamış gəlin olan*
*8. Toyunda bəydən inciyir.*

*9. Səsi, sözü ötməyənlər,*
*10. Hələ ölüb-itməyənlər,*
*11. Yerə gücü yetməyənlər*
*12. Üz tutub göydən inciyir.*

*13. Kim kimə him-cim elədi?*
*14. Kimin işi him ilədi?*
*15. Nə müddətdi hamilədi,*
*16. Doğammır... Meydan inciyir.*
*1998*

### HEPSİ GARİP

1. Hepsi garip, vallahi,
2. Herkes bir şeyden inciniyor.
3. Biri kuzeyden dertli,
4. Biri güneyden inciniyor.

5. Böyle uzun elin ola,
6. Bak böyle uzun dilin ola!
7. Düğününden önce gelin olan
8. Düğününde beyden inciniyor.

9. Sesi, sözü geçmeyenler,
10. Hâlâ ölüp yitmeyenler,
11. Yere gücü yetmeyenler
12. Göğe bakıp gökten inciniyor.

13. Kim kime kaş göz etti?
14. Kimin işi işaret ile?
15. Ne müddettir hamiledir,
16. Doğamıyor... Meydan inciniyor.

### *AĞ QIZ AÇIB SİNƏSİNİ (103)*

*1. İki qardaş savaşanda,*
*2. Qonşu qaçıb nacaq verir.*
*3. Ağ qız açıb sinəsini,*
*4. Tamarzıya acıq verir.*

*5. Köçdü biz sevən durnalar,*
*6. Nə dost qaldı, nə də ki yar.*
*7. Oğlunu genidən diyar*
*8. Oğulluğa qucaq verir.*

*9. Ala gözləri örtüb qan,*
*10. At da çəkinmir qamçıdan.*
*11. Halva istə dükançıdan,*
*12. Büküb sənə sucuq verir.*

*13. Rüşvət salama sarılır,*
*14. Adamın bağrı yarılır,*

### AK KIZ AÇIP SİNESİNİ

1. İki kardeş savaştığında,
2. Komşu kaçıp balta veriyor.
3. Ak kız açıp sinesini
4. İstekliye eziyet veriyor.

5. Göçtü bizi seven turnalar,
6. Ne dost kaldı ne de ki yar.
7. Oğlunu uzaklaştıran diyar
8. Evlatlığa kucak veriyor.

9. Ala gözleri örtmüş kan,
10. At da çekinmiyor kamçıdan.
11. Helva iste dükkancıdan,
12. Sarıp sana sucuk veriyor.

13. Rüşvet selama sarılıyor,
14. Adamın bağrı yarılıyor.

*15. Daha hamı açıq alır,*
*16. Daha hamı açıq verir.*
*1997*

15. Artık hepsi açık alıyor,
16. Artık hepsi açık veriyor.

## *EYŞ-İŞRƏTİN SONUNDA (104)*

*1. Eyş-işrətin sonunda dərd,*
*2. Təəssüf, acıq qalacaq.*
*3. Yaş ötəcək...*
*4. naz yerinə*
*5. Hikkəli soncuq qalacaq.*

*6. Ulayacaq dəli bir qəm: -*
*7. Nə ömürdü, sevgisi kəm!*
*8. Dünyanın kefini çəkən*
*9. Dünyadan incik qalacaq.*

*10. Doymayacaq nəfs, gödən,*
*11. Gün-gün bürüşəcək bədən.*
*12. Quş südü olan süfrədən*
*13. Ləpəsiz fındıq qalacaq.*

*14. Ah itəcək haraylarda,*
*15. Ün batacaq gur aylarda.*
*16. İzdihamlı saraylarda*
*17. Küçüksüz qancıq qalacaq.*
*2000*

## EĞLENCENİN SONUNDA

1. Eğlencenin sonunda dert,
2. Teessüf, öfke kalacak.
3. Yaş geçecek...
4. Naz yerine
5. Fiyakalı çifte kalacak.

6. Uluyacak deli bir gam:
7. Ne ömürdü, sevgisi eksik!
8. Dünyanın keyfini çeken
9. Dünyaya kırgın kalacak.

10. Doymayacak nefis, karın,
11. Günden güne buruşacak beden.
12. Kuş sütü olan sofradan
13. Kabuksuz fındık kalacak.

14. Ah bitecek feryatlarda,
15. Ses kaybolacak kutsal aylarda
16. İzdihamlı saraylarda
17. Yavrusuz kancık kalacak.

## *APARIR (105)*

*(Əli Cömbərlinin Xatirəsinə)*

*1. Ağıllının yığdığını*
*2. Daha ağlı çaş aparır.*
*3. Bu nə zərdi, nə oyundu*
*4. Yek atanlar şeş aparır.*

*5. Ayaq çapıb, qol yoranlar,*
*6. Buz əridib, sal qıranlar,*
*7. Çiynində daş qaldıranlar*
*8. Zənbilini boş aparır.*

*9. Dil də söz tutmur dinməyə,*
*10. Heymi var, bəndə inləyə...*
*11. Nağıl dinləyə-dinləyə,*
*12. Adamları huş aparır.*

## GÖTÜRÜYOR

(Eli Cömberli'nin Hatırasına)

1. Akıllının biriktirdiğini
2. Şimdi aklı eğri götürüyor.
3. Bu ne altındır, ne oyundur
4. Bir atanlar altı götürüyor.

5. Ayak atıp, el yoranlar,
6. Buz eritip, kaldırım kıranlar,
7. Omzunda taş kaldıranlar
8. Zembilini boş götürüyor.

9. Dil de konuşmaktan aciz,
10. Güç mü var kul inleye...
11. Masal dinleye dinleye,
12. İnsanları uyutuyor.

*13. Bu haqq bizi pusur, atam,*
*14. Min yeyən bir qusur, atam,*
*15. Atalılar susur, atam,*
*16. Atasızlar baş aparır.*
*1991*

13. Bu adalet bizi gözetliyor, atam,
14. Bin yiyen bir kusuyor, atam,
15. Atalılar susuyor, atam,
16. Atasızlar yönetiyor.

### *YÜZ CÜR OYUNDAN ÇIXIRIQ (106)*

*1. Boşluğa uçan ox kimi*
*2. Yerin yayından çıxırıq.*
*3. Dərdi daşımaq vaxtını*
*4. Yuxu payından çıxırıq.*

*5. Saxla içində "tfu!"nu,*
*6. Gizlə ahını-ufunu.*
*7. Canavarın hayıfını*
*8. Quzu-qoyundan çıxırıq.*

*9. Yatmaq olmur bir çimir də,*
*10. Dünya çaşıb səs-səmirdən.*
*11. Göz qırpımlıq bir ömürdə*
*12. Yüz cür oyundan çıxırıq.*

*13. ...Yüz cür oyuna getmişik,*
*14. Quzu-qoyuna getmişik,*
*15. Kimin hoyuna getmişdik,*
*16. Kimin toyundan çıxırıq...*
*2000*

### YÜZ ÇEŞİT OYUNDAN ÇIKIYORUZ

1. Boşluğa uçan ok gibi
2. Yerin yayından çıkıyoruz.
3. Derdi taşıma vaktini
4. Uyku payından çıkıyoruz.

5. Sakla içinde "of" unu,
6. Gizle ahını vahını,
7. Canavarın hayfını
8. Koyun kuzudan çıkıyoruz.

9. Yatmak olmuyor bir uykuda,
10. Dünya şaşmış ses sedadan.
11. Göz kırpımlık bir ömürde
12. Yüz tür oyundan çıkıyoruz.

13. Yüz tür oyuna gitmişiz,
14. Koyun kuzuya gitmişiz,
15. Kimin tarlasına gitmiştik,
16. Kimin düğününden çıkıyoruz...

### *GƏZƏCƏK (107)*

*1. İnsanlar ayıb örtməyə*
*2. Quru bir yarpaq gəzəcək.*
*3. Gün gələcək: kişi, qadın*
*4. Bir yerdə çılpaq gəzəcək.*

*5. Yer yanacaq için-için,*
*6. Göy yanacaq ağ söz üçün,*
*7. Yurdsuzlar bir cüt göz üçün*
*8. Bir ovuc torpaq gəzəcək.*

*9. İsa enəcək çarmıxdan,*
*10. Mehdi var olacaq yoxdan,*
*11. Neçə söz ayılıb haqdan,*
*12. Təmiz bir dodaq gəzəcək.*

### GEZECEK

1. İnsanlar ayıp örtmeye
2. Kuru bir yaprak arayacak.
3. Gün gelecek: Erkek, kadın
4. Bir yerde çıplak gezecek.

5. Yer yanacak için için
6. Gök yanacak ak söz için,
7. Yurtsuzlar bir çift göz için
8. Bir avuç toprak arayacak.

9. İsa inecek çarmıhtan,
10. Mehdi var olacak yoktan,
11. Kaç söz hayat bulup haktan
12. Temiz bir dudak arayacak.

*13. Şaha dönəcək yesirlər,*
*14. Açılacaq gizli sirlər,*
*15. Tənha, kimsəsiz şairlər*
*16. Şeir üçün ah gəzəcək...*
*1998*

13. Şaha dönecek esirler,
14. Açılacak gizli sırlar,
15. Yalnız, kimsesiz şairler
16. Şiir için ah arayacak...

### *KÖRPÜLƏR (108)*

*1. Bizdə qurulan körpülər,*
*2. Yada yar olan körpülər,*
*3. İndi xar olan körpülər*
*4. Bizi bizdən araladı.*

*5. Qaçdıq Tanrının dalınca,*
*6. Ölüb getdik haqq alınca.*
*7. Körpümüz döndü qılınca,*
*8. Bizi böldü, paraladı.*

*9. Bir vaxt qol açıb süzərdik,*
*10. İndi həsrətdən cücərdik.*
*11. Bağı biz əkib-becərdik,*
*12. Yadlar dərib uraladı.*

*13. Dözdük əlsiz əsa kimi,*
*14. Dil-dodaqsız busə kimi,*
*15. Körpü bizi İsa kimi*
*16. Səbrimizə koraladı.*
*1991*

### KÖPRÜLER

1. Bizde kurulan köprüler,
2. Yabancıya yar olan köprüler,
3. Şimdi zavallı olan köprüler
4. Bizi bizden araladı.

5. Kaçtık Tanrı'nın ardınca,
6. Ölüp gittik Hakk alınca.
7. Köprümüz döndü kılıca
8. Bizi böldü, paraladı.

9. Bir vakit el açıp dans ederdik,
10. Şimdi hasretten yeşerdik.
11. Bağı biz ekip büyüttük,
12. Yabancılar gelip topladı.

13. Sabrettik elsiz asa gibi,
14. Dilsiz dudaksız buse gibi,
15. Köprü bizi İsa gibi
16. Sabrımıza çiviledi.

### *HANI ALLAHIN QASİDİ? (109)*

*1. Dost dosta düşmən kəsilib,*
*2. Qardaş qardaşa asidi.*
*3. Hamı içində sızlayır,*
*4. Görən bu kimin yasıdı?*

*5. Düz sözü qəhət eləyib,*
*6. Söznən qəbahət eləyir,*
*7. Tanrıdan qeybət eləyir,*
*8. Bu necə söz yiyəsidi?*

*9. Bəndənin halı dağınıq,*
*10. Hərə bir dərdə sığınıb.*
*11. O qədər nalə yığılıb,*
*12. Min il Tanrının bəsidi.*

### HANİ ALLAH'IN ULAĞI

1. Dost dosta düşman kesilmiş,
2. Kardeş kardeşe asi.
3. Hepsi içinden inliyor,
4. Acaba bu kimin yasıdır?

5. Doğru sözü az söylüyor,
6. Sözle kabahat ediyor,
7. Tanrı'dan gıybet ediyor,
8. Bu nasıl söz sahibidir?

9. İnsanlığın hâli dağınık,
10. Herkes bir derde sığınmış.
11. O kadar feryat yığılmış
12. Bin yıl Tanrı'ya yeterdir.

*13. Solğun üzləri izləyək,*
*14. Vaxtsız ölümü özləyək?*
*15. Bundan artıq nə gözləyək,*
*16. Hanı Allahın qasidi?!*
*1990*

13. Solgun yüzleri izleyelim,
14. Vakitsiz ölümü özleyelim?
15. Bundan başka ne gözleyelim,
16. Hani Allah'ın ulağı?!

***KAFİR GƏLDİ? (110)***

*1. Nə yazsam gəlir başima,*
*2. Düşmüşəm öz qarğışıma.*
*3. Yetib cənnətlik yaşıma,*
*4. Cəhənnəmə səfir gəldim.*

*5. Tənha qaldım bir çətəndə,*
*6. Ölüm xoşdur dərd ötəndə.*
*7. Müsafirdim o vətəndə,*
*8. Buna da müsafir gəldim.*

*9. Mən hardan bilim pusqu nə,*
*10. Karın kor ilə qəsdi nə...*
*11. Halal bildiyim məskənə*
*12. Halal gəldim, bakir gəldim.*

*13. Yenə dili lalmı gəzim?*
*14. Təzə bir mahalmı gəzim?*
*15. Hamı gedən yolmu gəzim?*
*16. Deməyələr kafir gəldi...*
*1998*

**KÂFİR GELDİ?**

1. Ne yazsam geliyor başıma,
2. Düşmüşüm kendi kargışıma.
3. Yetip cennetlik yaşıma,
4. Cehenneme elçi geldim.

5. Yalnız kaldım bir ambarda,
6. Ölüm hoştur dert geçtiğinde.
7. Misafirdim o vatanda,
8. Buna da misafir geldim.

9. Ben nereden bileyim pusu ne,
10. Dilsizin kör ile kastı ne...
11. Helal bildiğim meskene
12. Helal geldim, bakir geldim.

13. Yine dili lal mı gezeyim?
14. Yeni bir mahal mı arayayım?
15. Herkesin gittiği yolu mu arayayım?
16. Demesinler kâfir geldi...

***QİYMƏT (111)***

*1. İki mələk yazan yazı*
*2. Alnıma çoxdan yazılıb.*
*3. Günahı da, savabı da,*
*4. Hamısı Haqdan yazılıb.*

*5. Bu dünya hardan yığılıb?*
*6. Bu dünya hara yox olur?..*
*7. Yox olan – vardan yox olub,*
*8. Var olan – yoxdan yazılır.*

*9. Əvvəlin qan, axırın qan, -*
*10. Atılıb düşürsan, insan!*
*11. Hər ömür bircə imtahan,*
*12. Qiymət Allahdan yazılır.*

**KIYMET**

1. İki meleğin yazdığı yazı
2. Alnıma çoktan yazılmış.
3. Günahı da sevabı da,
4. Hepsi Hak'tan yazılmış.

5. Bu dünya nereden gelmiş?
6. Bu dünya nerede yok oluyor?
7. Yok olan vardan yok olup,
8. Var olan yoktan yazılıyor.

9. Evvelin kan, sonran kan,
10. Hoplayıp zıplıyorsun insan!
11. Her ömür bir imtihan,
12. Kıymeti Allah'tan yazılıyor.

*13. Mizan-tərəzi düzülər,*
*14. Padşah yazanlar pozular...*
*15. ...Tanrı deyən haqq yazılar*
*16. Nalədən, ahdan yazılır.*
*1991*

13. Mahşer kurulur,
14. Padişah yazılanlar bozulur...
15. Tanrı dediği kader yazılır
16. Feryattan, çığlıktan yazılıyor.

***ÇARPILIR (112)***

*1. Hərə bir yerdən yıxılır,*
*2. Hərə bir dərdə çarpılır.*
*3. Kimi kəndin yollarında,*
*4. Kimi şəhərdə çarpılır.*

*5. Dustağıq evdə-eşikdə,*
*6. Dərddi bərk duran keşikdə.*
*7. Daha körpələr beşikdə,*
*8. İgid yəhərdə çarpılır.*

*9. Çalınır "Ağır şərili",*
*10. Haray könlümə sərilir.*
*11. Simdi – dartılıb gərilir,*
*12. Səs – pərdə-pərdə çarpılır.*

*13. Qəza yıxır, qədər yıxır,*
*14. Məni yıxan hədər yıxır –*
*15. Hərəni bir kədər yıxır,*
*16. Hərə bir dərdə çarpılır.*
*1999*

**ÇARPILIYOR**

1. Herkes bir yerden yıkılıyor,
2. Herkes bir derde çarpılıyor.
3. Kimi köyün yollarında,
4. Kimi şehirde çarpılıyor.

5. Tutsağız evde eşikte,
6. Derttir berk duran nöbette.
7. Daha körpeler beşikte,
8. Yiğit eğerde çarpılıyor.

9. Çalınıyor "Ağır Şerili",
10. Feryat gönlüme seriliyor.
11. Tel gerilip kırılıyor,
12. Ses, perde perde çarpılıyor.

13. Kaza yıkıyor, kader yıkıyor,
14. Beni yıkan heder yıkıyor
15. Herkesi bir keder yıkıyor,
16. Herkes bir derde çarpılıyor.

***SÖZDƏN YUXARI (113)***

*1. Biz ona tay olammarıq,*
*2. Gözəldi bizdən yuxarı.*
*3. Şalvarı dizinə kimi,*
*4. Ətəyi dizdən yuxarı.*

*5. Bəndəyə kəlam söyləməz,*
*6. Şeytana yalan söyləməz,*
*7. Tanrıya salam söyləməz,*
*8. Ədası nazdan yuxarı.*

*9. Qırıb eşqin budağını,*
*10. Gün vurub dil-dodağını.*
*11. Gözü seçmir ayağını,*
*12. Baxışı gözdən yuxarı.*

**SÖZDEN YUKARI**

1. Biz ona denk olamıyoruz,
2. Güzeldir bizden yukarı.
3. Şalvarı dizinde
4. Eteği dizden yukarı.

5. İnsana kelam söylemez,
6. Şeytana yalan söylemez,
7. Tanrı'ya selam söylemez,
8. Edası nazdan yukarı.

9. Kırıp aşkın dalını,
10. Güneş vurmuş dil dudağına.
11. Gözü görmüyor ayağını,
12. Bakışı gözden yukarı.

*13. ...Nə qədər üzə dırmaşıb,*
*14. Nə qədər gözə dırmaşıb,*
*15. İndi də sözə dırmaşıb,*
*16. Tanrıdı sözdən yuxarı.*
*1999*

13. Ne kadar yüze tırmanmış,
14. Ne kadar göze tırmanmış,
15. Şimdi de söze tırmanmış,
16. Tanrı'dır sözden yukarı.

***KİMƏ İNANIM? (114)***

*1. Sirrimi kimə söyləyim,*
*2. Dərdimi kimlərdən danım.*
*3. Pərvanəyəm, odlanan çox,*
*4. Hansının oduna yanım.*

*5. Bir ömrüm var qabar-qabar,*
*6. Ağ gün məni haçan tapar?*
*7. Nə sən deyən imkanım var,*
*8. Nə dağ boyda adım-sanım.*

*9. Qocalsana, qarısana!?-*
*10. Ömür çatmır yarısına.*
*11. Bir xəstənin yarasına,*
*12. Hər həkimin öz dərmanı.*

*13. Adəm şeytana uduzdu, -*
*14. Budaqdan bir alma üzdü...*
*15. Babam, hamı gülər üzdü,*
*16. Bilmirəm, kimə inanım.*
*1990*

**KİME İNANAYIM?**

1. Sırrımı kime söyleyim,
2. Derdimi kimlerden saklayım.
3. Pervaneyim, yanan çok,
4. Hangisinin oduna yanayım.

5. Bir ömrüm var nasırlı,
6. Ak gün beni ne zaman bulur?
7. Ne sana söyleyecek imkânım var,
8. Ne dağ boyunda adım sanım.

9. Kocalsana, yaşlansana!?
10. Ömür çatmıyor yarısına.
11. Bir hastanın yarasına,
12. Her hekimin kendi dermanı.

13. Adem şeytana kandı,
14. Daldan bir elma çaldı...
15. Babam, her zaman güler yüzlüydü,
16. Bilmiyorum, kime inanayım.

***MİN İL KEÇSƏ DƏ (115)***

*1. Yenə dan sökülür, yavrum,*
*2. Təzə bir səhər açılır.*
*3. Kənd elə oyanır, sanki*
*4. Kəndirdən kəhər açılr.*

*5. Təzə bir səhər açılır,*
*6. Amma arzular köhnədir.*
*7. Gecənin xam xəyalını*
*8. Gündüzün düzü göynədir.*

*9. Gün çıxır...nə xoruz banı,*
*10. Nə də it hürüşməsi yox.*
*11. İşə bax, Allah, bu kəndin*
*12. Şairləri itindən çox.*

**BİN YIL GEÇSE DE**

1. Yine tan sökülüyor yavrum,
2. Yeni bir seher doğuyor.
3. Köy öyle uyanıyor, sanki
4. İpten at kurtuluyor.

5. Yeni bir seher doğuyor.
6. Ama arzular eskidir.
7. Gecenin ham hayalini
8. Gündüzlerin hakikatı inletir.

9. Gün doğuyor... Ne horoz sesi,
10. Ne de it havlaması var.
11. İşe bak, Allah, bu köyün
12. Şairleri itinden çok.

*13. Şairi xoruzundan çox,*
*14. Şeir – xoruz banı olmaz.*
*15. Min il keçsə də bu kəndin*
*16. Gerçək qəhrəmanı olmaz...*
*2005*

13. Şairi horozundan çok,
14. Şiir, horoz sesi olmaz.
15. Bin yıl geçse de bu köyün
16. Gerçek kahramanı olmaz...

### *SINIQ AYNA (116)*

*1. Ay gözəl doğmur gecələr,*
*2. Gün də gün kimi çıxammır.*
*3. Sınıb dünyanın aynası,*
*4. Durub özünə baxammır.*

*5. Sınıb dünyanın aynası,*
*6. Ayna da yığval kimidi.*
*7. Sözə dırmaşan adamlar*
*8. Şeytannan yağ-bal kimidi.*

*9. Sınıb dünyanın aynası,*
*10. Dağ-daşını görə bilmir.*
*11. Daha mələklər bəndənin*
*12. Göz yaşını görə bilmir.*

*13. Mələklər bir-birinin*
*14. Göz yaşında güzgülənir.*
*15. ...Tanrı aynamı düzəldir?*
*16. İşıq deşir göz giləmi...*
*2001*

### KIRIK CAM

1. Ay güzel doğmuyor geceleri,
2. Güneş de güneş gibi doğamıyor.
3. Kırık dünyanın aynası
4. Durup kendine bakamıyor.

5. Kırık dünyanın aynası,
6. Ayna da talih gibidir.
7. Söze tırmanan adamlar
8. Şeytanla yağ, bal gibidir.

9. Kırık dünyanın aynası,
10. Dağ, taşını göremiyor.
11. Artık melekler insanın
12. Gözyaşını göremiyor.

13. Melekler birbirinin
14. Gözyaşını ayna yapıyorlar.
15. Tanrı ayna mı düzeltiyor?
16. Işık deşiyor göz bebeğimi...

### *ALDI (117)*

*1. Yerdə qazandığım malı*
*2. Ucuz olsun, ya bahalı*
*3. İblisin insan vassalı*
*4. Göz vurub əlimdən aldı.*

*5. Tənhayam, kimnən öyünüm,*
*6. Nə qaldı, nəyə söyünüm?*
*7. Tanrı mənə verdiyini*
*8. Söz vurub əlimdən aldı.*

*9. Məni bu düzdə öldürən,*
*10. Günlü gündüzdə öldürən,*
*11. Səsimi sözdə öldürən*
*12. Sözümü dilimdən aldı.*

### ALDI

1. Yerde kazandığım malı
2. Ucuz olsun ya pahalı
3. İblisin insan uydusu
4. Göz kırpıp elimden aldı.

5. Yalnızım, kimle övüneyim,
6. Ne kaldı, neye sevineyim?
7. Tanrı bana verdiğini
8. Söze kurban edip elimden aldı.

9. Beni bu sahrada öldüren,
10. Güneşli gündüzde öldüren,
11. Sesimi sözde öldüren
12. Sözümü dilimden aldı.

*13. Sevənlər Allahı görər,*
*14. Mən sevdim Allaha görə.*
*15. Tanrım məni neçə kərə*
*16. Öldürüb ölümdən aldı.*
*1997*

13. Sevenler Allah'ı görür,
14. Ben sevdim Allah'a göre.
15. Tanrı'm beni kaç kere
16. Öldürüp ölümden aldı.

***SÜKUT NƏĞMƏSİ (118)***

*1. Şeytan da yuxuya gedib,*
*2. Bu zülmət nurdan incədi.*
*3. Elə bil ki, cənnətdəyəm, -*
*4. Ya Rəbb, nə sakit gecədi!*

*5. Bu zülmət nurdan incədi,*
*6. Bu zülmətdən nur dərirəm.*
*7. Dörd tərəfim yuxu görür,*
*8. Mənsə Allahı görürəm.*

*9. Elə bil ki, cənnətdəyəm,*
*10. Bu dünya məndən aralı.*
*11. Sükuta baxıb sevinir*
*12. Canım yaralı-yaralı.*

*13. Ya Rəbb, nə sakit gecədi,*
*14. Zülmət dümağ nur qoxuyur.*
*15. Mən niyə lal-kar olmadım*
*16. Sükut nə gözəl oxuyur...*
*2005*

**SÜKÛT ŞARKISI**

1. Şeytan da uykuya dalmış,
2. Bu zulüm nurdan incedir.
3. Sanırım ki, cennetteyim,
4. Ya Rab, ne sakin gecedir!

5. Bu zulüm nurdan incedir,
6. Ben zulümden nur topluyorum.
7. Dört yanım rüya görüyor,
8. Bense Allah'ı görüyorum.

9. Sanırım ki, cennetteyim,
10. Bu dünya benden uzak.
11. Sükûta bakıp seviniyor
12. Canım yaralı yaralı.

13. Ya Rab, ne sakin gecedir,
14. Zulüm beyaz nur kokuyor.
15. Neden sağır dilsiz olmadım
16. Sükût ne güzel okuyor...

***QALX ,ÜFÜQ BUCAĞINA BAX (119)***

*1. Sən Günəşin çıxmağına,*
*2. Mən batmağına sevindim.*
*3. Daşdan çörək bulanların*
*4. Xoş yatmağına sevindim.*

*5. Dünyada nə yaraşır ki,*
*6. Şairə sürgündən başqa?*
*7. Məmləkətdə hər şey yasaq*
*8. Gecə ümidindən başqa.*

*9. Gündüzün milyon üzü var,*
*10. Hər üzünün neçə rəngi.*
*11. Bir yüyənə möhtac qalıb*
*12. Cüt maydanla tək üzəngi.*

**KALK UFUĞA BAK**

1. Sen güneşin doğmasına,
2. Ben batmasına sevindim.
3. Taştan ekmek bulanların
4. Hoş yatmasına sevindim.

5. Dünyada ne yakışır ki,
6. Şaire sürgünden başka?
7. Memlekette her şey yasak
8. Gece ümidinden başka.

9. Gündüzün milyon tane yüzü var,
10. Her yüzünün kaç rengi.
11. Bir dizgine muhtaç kalıp
12. Çift dişi at, tek üzengi.

*13. ...Qalx, üfüq bucağına bax,*
*14. Dünya düppədüz oyanır.*
*15. Gün çıxır... bütün gecəni*
*16. Yatan dərdimiz oyanır...*
*2006*

13. Kalk, ufuğa bak,
14. Dünya dümdüz uyanıyor.
15. Güneş doğuyor.. Bütün gece
16. Yatan derdimiz uyanıyor...

**_UÇUNUR (120)_**

*1. Əlim mürid çəliyinə,*
*2. Dilim söz bütövlüyünə,*
*3. Gözüm göyün göylüyünə,*
*4. Könlüm sükuta uçunur.*

*5. Üzə, gözə, qaşa minir –*
*6. Dərd dəli tək coşa bilir.*
*7. Məni üzüyumşaq bilib,*
*8. Canımda qada uçunur.*

*9. ...Adama bənzəyən milçək,*
*10. Sən allah, canımdan əl çək!*
*11. ...Səbrimdən asıb yelləncək,*
*12. Buna bax, bu da uçunur!*

*13. Şair – Vətən parasında,*
*14. Gün umur gün qarasından.*
*15. Yad suların arasında*
*16. Tənha bir ada uçunur.*
*1990*

**İSTİYOR**

1. Elim mürit çeliğini
2. Dilim söz bütünlüğünü,
3. Gözüm göğün maviliğini
4. Gönlüm sükutu istiyor.

5. Yüze, göze, kaşa biniyor
6. Dert deli gibi coşabiliyor.
7. Beni yüzü yumuşak bilip
8. Canımda dert titriyor.

9. İnsana benzeyen sinek,
10. Sen Allah, canımdan el çek!
11. Sabrımdan asıp sallanacak
12. Buna bak, bunu da istiyor!

13. Şair vatan parasında,
14. Gün umuyor gün karasından.
15. Yad suların arasında
16. Yalnız bir ada gibi titriyorum.

**_VURULMAZ (121)_**

*1. Qərib bir ömürdən haşa,*
*2. Nə qaldı ki, könül coşa.*
*3. Aləm yar oldu bayquşa,*
*4. Xana, xaqana vurulmaz.*

*5. Su quşusan – üz dənizdə,*
*6. Tüpürcəklə üz təmizlə.*
*7. Sən o qanı yüz təmizlə,*
*8. Məndəki qana vurulmaz.*

*9. Qımıldayır qurd qafamda,*
*10. Hey ulayır yurd qafamda*
*11. Nifrətimi yırt qafamda, -*
*12. Bu can o cana vurulmaz!*

**VURULMAZ**

1. Garip bir ömürden haşa,
2. Ne kaldı ki, gönül coşa.
3. Alem yar oldu baykuşa,
4. Hana, hakana vurulmaz.

5. Su kuşuysan yüz denizde,
6. Tükürükle yüz temizle.
7. Sen o kanı yüz kere temizle,
8. Bendeki kana vurulmaz.

9. Kımıldıyor kurt kafamda,
10. Hey uluyor yurt kafamda
11. Nefretimi yırt kafamda,
12. Bu can o cana vurulmaz!

| | |
|---|---|
| *13. ...Kiş, kiş!.. gözəlim, uç indi,* | 13. Kış, kış!... Güzelim, uç şimdi, |
| *14. Bu ox – zorumdu, gücümdü,* | 14. Bu ok, zorumdur, gücümdür, |
| *15. Bu ox – bu tarix üçündü,* | 15. Bu ok, bu tarih içindir, |
| *16. Bu oxnan sona vurulmaz.* | 16. Bu okla su kuşu vurulmaz. |
| *1999* | |

| | |
|---|---|
| ***DEMƏSƏYDİM BU DEYİMİ (122)*** | **DEMESEYDİM BU DEYİMİ** |
| *1. Deməsəydim bu deyimi,* | 1. Demeseydim bu deyimi, |
| *2. Yel döyərdi güneyimi,* | 2. Yel döğerdi güneyimi, |
| *3. Ürəyimin gileyini* | 3. Yüreğimin feryadını |
| *4. Torpaq yeyərdi, yeyərdi.* | 4. Toprak yerdi, yerdi. |
| *5. Səni səndən necə danım,* | 5. Seni senden nasıl tanıyayım, |
| *6. Tez dəyişdin öz imzanı.* | 6. Tez değiştirdin kendi imzanı. |
| *7. Daşdan yonulmuş insanı* | 7. Taştan yontulmuş insanı |
| *8. Daş da döyərdi, döyərdi.* | 8. Taş da döverdi, döverdi. |
| *9. Sərt yoxuşun ən dikidi,* | 9. Sert yokuşun en dikidir, |
| *10. Çox ölçüldün, çox çəkildin.* | 10. Çok ölçüldün, çok çekildin. |
| *11. Yeldən güc alan igidi* | 11. Yelden güç alan yiğidi |
| *12. Yel də əyərdi, əyərdi.* | 12. Yel de eğerdi, eğerdi. |
| *13. Barmağını çək çaxmaqdan, -* | 13. Parmağını çek namludan, |
| *14. Nə fərqi, haqq, ya nahaq qan!?* | 14. Farkı ne, hak ya haksız kan!? |
| *15. Göy gözlə göyə baxmaqdan* | 15. Gök gözle göğe bakmaktan |
| *16. Göy də göyərdi, göyərdi...* | 16. Gök de göğerdi göğerdi... |
| *1986* | |

| | |
|---|---|
| ***NƏ MÜDDƏTDİ YAZAMMIRAM (123)*** | **NE MÜDDETTİR YAZAMIYORUM** |
| *1. Nə müddətdi yazammıram...* | 1. Ne müddettir yazamıyorum... |
| *2. Fikir qələmdən ağırdı,* | 2. Fikir kalemden ağırdır, |
| *3. Zikr zülümdən ağırdı,* | 3. Zikir zulümden ağırdır, |
| *4. Şükür ölümdən ağırdı.* | 4. Şükür ölümden ağırdır. |
| *5. Nə müddətdi yazammıram...* | 5. Ne müddettir yazamıyorum... |
| *6. Gülüm – qara gözlü mələk,* | 6. Gülüm kara gözlü melek, |
| *7. Ölüm – qara gözlü mələk,* | 7. Ölüm kara gözlü melek, |
| *8. Ölümmü, qara gözlü mələk?* | 8. Öleyim mi, kara gözlü melek? |
| *9. Nə müddətdi yazammıram...* | 9. Ne müddettir yazamıyorum... |
| *10. Sözümdən qan iyi gəlir,* | 10. Sözümden kan iyi geliyor, |
| *11. Şöhrət, ad-san iyi gəlir,* | 11. Şöhret, ad san iyi geliyor |
| *12. "Sabah yoxsan!" – iyi gəlir.* | 12. "Sabah yoksan!" iyi geliyor. |

| | |
|---|---|
| *13. Nə müddətdi yazammıram...* | 13. Ne müddettir yazamıyorum... |
| *14. Günlər, aylar örtür məni,* | 14. Günler, aylar örtüyor beni, |
| *15. Boş ürəklər çırpır məni,* | 15. Boş yürekler çarpıyor beni, |
| *16. Tanrım, mənə qaytar məni...* | 16. Tanrım, beni döndür bana... |

*1994*

## *ŞEİR ŞAİRİN KƏFƏNİ(124)* / ŞİİR ŞAİRİN KEFENİ

| | |
|---|---|
| *1. Hərə bir cürə oğuldu,* | 1. Herkes bir çeşit oğuldur, |
| *2. Neynim, mən şair doğuldum.* | 2. Neyleyim, ben şair doğdum. |
| *3. Böyüdüm, söznən boğuldum,* | 3. Büyüdüm, sözden boğuldum, |
| *4. Şeir yanmadı oduma.* | 4. Şiir yanmadı oduma. |
| | |
| *5. Bu yığvala pir oldum mən,* | 5. Bu talihe pir oldum ben, |
| *6. Söz üstə yesir oldum mən,* | 6. Söz üstüne esir oldum ben, |
| *7. Adamlar şair oldu, mən* | 7. İnsanlar şair oldu, ben |
| *8. Döndüm şairdən adama.* | 8. Döndüm şairden insana. |
| | |
| *9. (İki vətənim var, o söz* | 9. (İki vatanım var, o söz |
| *10. İki tərəfə baxan göz...* | 10. İki tarafa bakan göz... |
| *11. İki vətənlə vətənsiz,* | 11. İki vatanla vatansız, |
| *12. Yer edir hərdən adama).* | 12. Acı veriyor arada insana.) |
| | |
| *13. Şeir – şairin kəfəni,* | 13. Şiir şairin kefeni, |
| *14. İlana balası qənim.* | 14. Yılana yavrusu düşman. |
| *15. Sağlığında bu vətənin* | 15. Sağlığında bu vatanın |
| *16. Şairi düşmür yadına...* | 16. Şairi gelmiyor aklına... |

*1992*

## *BULUDLAR İSLATDI MƏNİ (125)* / BULUTLAR ISLATTI BENİ

| | |
|---|---|
| *1. Ürəyimdən oğrun idim,* | 1. Yüreğimden gizli idim, |
| *2. Mürgü kimi yorğun idim,* | 2. Uyku gibi yorgun idim, |
| *3. Əl-ayağı durğun idim,* | 3. El ayağı durgun idim, |
| *4. Dalğalar oynatdı məni* | 4. Dalgalar oynattı beni |
| | |
| *5. Gözüm açdım, hamı durub,* | 5. Gözümü açtım herkes durmuş, |
| *6. Bir lövbərsiz gəmi durub,* | 6. Bir lengersiz gemi durmuş, |
| *7. Zaman yağlı qapaz vurub,* | 7. Zaman yağlı şamar vurmuş, |
| *8. Gəmiyə addatdı məni.* | 8. Gemiye geçirdi beni. |
| | |
| *9. Harayım – qulağı kara,* | 9. Sesim kulağı kara, |
| *10. İstəyim – namusa, ara,* | 10. İsteğim namusa, ara, |
| *11. Qulaqlarım yalanlara* | 11. Kulaklarım yalanlara |
| *12. Pul-parasız satdı məni.* | 12. Parasız pulsuz sattı beni. |

*13. Dörd ayaq, dörd əl yeridim,*
*14. Qanad açsaydım, nə dərdim...*
*15. Günəşdən od götürərdim,*
*16. Buludlar islatdı məni.*
*1997*

13. Dört ayak, dört el yürüdüm,
14. Kanat açsaydım, ne derdim...
15. Güneşten od götürürdüm,
16. Bulutlar ıslattı beni.

### *İSTƏMİRƏM (126)*

*1. Bu hava göynədir məni,*
*2. Daha çalmaq istəmirəm.*
*3. Dərddən, qəmdən ürəyimə*
*4. Körpü salmaq istəmirəm.*

*5. Birdən uçar güllə bəri, -*
*6. Elə sıxma güllələri.*
*7. Sən yıxılan pillələri*
*8. Mən ucalmaq istəmirəm.*

*9. Bacarırsan, güldür məni, -*
*10. Səsim yaman zildir mənim.*
*11. Şeirdi, qocaldır məni,*
*12. Mən qocalmaq istəmirəm.*

*13. ...Bu qız da görüşə gəlib,*
*14. Gah ağlayır, gah da gülür.*
*15. Deyir: "Şairlər tez ölür,*
*16. Mən dul qalmaq istəmirəm".*
*1987*

### İSTEMİYORUM

1. Bu hava hüzünlendiriyor beni,
2. Artık çalmak istemiyorum.
3. Dertten, gamdan yüreğime
4. Köprü salmak istemiyorum.

5. Birden uçar mermi geri,
6. Öyle sıkma mermileri.
7. Senin düştüğün merdivenden
8. Ben yükselmek istemiyorum.

9. Becerirsen, güldür beni,
10. Sesim fena zildir benim.
11. Şiirdir, kocatır beni,
12. Ben kocalmak istemiyorum.

13. Bu kız da buluşmaya gelmiş,
14. Kâh ağlıyor, kâh da gülüyor.
15. Diyor: "Şairler tez ölüyor,
16. Ben dul kalmak istemiyorum."

### *MƏNİ QORUYAN TANRIDI (127)*

*1. Yaydı. İçimi boz payız*
*2. Bürüyüb; tutqunam yaman.*
*3. Məni ovundura bilmur*
*4. Nə ney səsi, nə də kaman.*

*5. Könlüm müjdə harayında,*
*6. Bir muştuluq gətirən yox.*
*7. Qovruluram od üstündə,*
*8. Məni oddan götürən yox.*

*9. Tənha, kimsəsiz şairlər*
*10. Hamısı mənə bənzəyir.*
*11. Mən Allahı tanıyandan*
*12. Çox dost düşmənə bənzəyir.*

### BENİ KORUYAN TANRI'DIR

1. Bahardır. İçimi boz sonbahar
2. Bürümüş; tutkunum fena.
3. Beni avutamıyor
4. Ne ney sesi, ne de keman.

5. Gönlüm müjde çığlığında,
6. Bir müjde getiren yok.
7. Kavruluyorum od üstünde,
8. Beni oddan kurtaran yok.

9. Yalnız, kimsesiz şairler
10. Hepsi bana benziyor.
11. Ben Alllah'ı tandığımdan beri
12. Çoğu dost düşmana benziyor.

*13. ...Üzün nə şirindi, şeytan,*
*14. Astarın məni yanıyır.*
*15. Məni qoruyan Tanrıdı –*
*16. Tənha, tənhanı tanıyır...*
*2000*

13. Yüzün ne şirindir, şeytan,
14. Astarın beni yakıyor.
15. Beni koruyan Tanrı’dır.
16. Yalnız, yalnızı tanıyor...

**_ÖLDÜRÜB-TAPMAQ ASANSA (128)_**

*1. Zinrik, qara gecələrdə*
*2. Ulduzlar, Ay baxsın mənə.*
*3. Gündüz, işıqları udar,*
*4. Gecə şimşək çaxsın mənə.*

*5. Fələyə gülə bilmərəm,*
*6. Dərdimi bilə bilmərəm,*
*7. İşıqda ölə bilmərəm,*
*8. Qaranlıqlar boğsun məni.*

*9. Özümü adlayan günü,*
*10. Dizimi qatlayan günü,*
*11. Yetişib çatlayan günü*
*12. Dünya nar tək sıxsın məni.*

*13. İllər belə tez uçansa,*
*14. Ömürün son ucu qansa,*
*15. Öldürüb-tapmaq asansa,*
*16. Başqa ana doğsun məni!..*
*1989*

**ÖLDÜRÜP BULMAK KOLAYSA**

1. Zifiri, kara gecelerde
2. Yıldızlar, ay baksın bana.
3. Gündüz, ışıkları yutar,
4. Gece şimşek çaksın bana.

5. Feleğe gülemiyorum,
6. Derdimi bilemiyorum,
7. Işıkta ölemiyorum,
8. Karanlıklar boğsun beni.

9. Kendimden geçtiğim gün,
10. Gücümün tükendiği gün,
11. Yetişip çatladığı gün,
12. Dünya nar gibi sıksın beni.

13. Yıllar böyle tez uçansa,
14. Ömrün son ucu kansa,
15. Öldürüp bulmak kolaysa,
16. Başka ana doğursun beni!

**_BİLMİR (129)_**

*1. Bu şərbətin dadı adı,*
*2. Dodaqlarım içə bilmir.*
*3. Öz əlim öz qayçım ilə*
*4. Mənə libas biçə bilmir.*

*5. Gözün varsa, di gör bunu,*
*6. Düzəldəmmədi gor bunu.*
*7. Ürəyim keçən körpünü*
*8. Ayaqlarım keçə bilmir.*

*9. İman yoxdu, dini gedir,*
*10. Mini gəlir, mini gedir.*
*11. Dünya görən nə rəngdədir,*
*12. Mənim gözüm seçə bilmir.*

**BİLMİYOR**

1. Bu şerbetin tadı adı,
2. Dudaklarım içemiyor.
3. Kendi elim kendi makasım ile
4. Bana kıyafet biçemiyor.

5. Gözün varsa, di gör bunu,
6. Düzeltemedi kor bunu.
7. Yüreğimin geçtiği köprüyü
8. Ayaklarım geçemiyor.

9. İman yoktu, dini gidiyor,
10. Mini geliyor, mini gidiyor.
11. Dünya ne renktedir,
12. Benim gözüm seçemiyor.

*13. Söz dəyir, sinəm qanıyır,*
*14. Yaxamı ağrı tanıyır.*
*15. Mən kiməm – Tanrı tanıyır,*
*16. Yaşadığım küçə bilmir.*
*1991*

13. Söz değiyor, sinem kanıyor,
14. Yakamı ağrı tanıyor.
15. Ben kimim, Tanrı tanıyor,
16. Yaşadığım sokak bilmiyor.

### *AY MƏNƏ BƏXTƏVƏR DEYƏN (130)*

*1. Ay mənə bəxtəvər deyən,*
*2. Mənim kimi balan olsun.*
*3. Sonra yüz səni istəyən,*
*4. Yüz qadanı alan olsun.*

*5. Qarğamaram özgəsini,*
*6. Öz kimsəmi, öz kəsimi.*
*7. Sevməsəm azan səsini,*
*8. Yurdum-yuvam talan olsun!*

*9. İçimi deşir harayım,*
*10. Yoxdu bir köməyim, payım*
*11. İstər yüz min əmim, dayım,*
*12. Qardaş-bacım, xalam olsun.*

*13. Öz-özümü çətin qanam,*
*14. Bəlkə mən yarım adamam?*
*15. Səni yarıtmasa, anam,*
*16. Rafiq adlı balan ölsün!*
*1988*

### EY BANA ŞANSLI DİYEN

1. Ey bana şanslı diyen,
2. Benim gibi çocuğun olsun.
3. Sonra yüz kere seni isteyen
4. Yüz belanı alan olsun.

5. Lanetlemiyorum başkasını,
6. Kendi insanlarımı
7. Sevmesem ezan sesini,
8. Yurdum yuvam talan olsun!

9. İçimi deşiyor feryadım,
10. Yoktu bir yardım edenim, payım.
11. İster yüz bin emmim, dayım,
12. Kardeş, bacım, halam olsun.

13. Kendi kendimi zor anlarım
14. Belki ben yarım adamım
15. Seni memnun etmese, anam,
16. Rafig adlı yavrun ölsün.

### *YEYİB-DOYDUNMU, ZALIM? (131)*

*1. Yeyib doymadınmı hələ,*
*2. Yenə mənimi yeyirsən?*
*3. Özün kəsdiyin tikədi,*
*4. Qəssabı niyə söyürsən?!*

*5. Yaman iştahla yeyirsən,*
*6. Əti sümükdən sıyırıb,*
*7. Kor şeytan mənim ətimi*
*8. Sənə dərmanmı buyurub?*

*9. Ruhumdan sənə baxıram,*
*10. Üzündə su bulanıqdı.*
*11. Nə oxuyum bəbəyindən?*
*12. Gözlərin zil qaranlıqdı.*

### YİYİP DOYDUN MU ZALİM?

1. Yiyip doymadın mı hâlâ,
2. Yine beni mi yiyorsun?
3. Kendi kestiğin parçadır,
4. Kasabı neden sövüyorsun?!

5. Kötü iştahla yiyorsun,
6. Eti kemikten sıyırıp
7. Kör şeytan benim etimi
8. Sana derman mı buyurmuş?

9. Ruhumdan sana bakıyorum,
10. Yüzünde su bulanıktır.
11. Ne okuyayım bebeğinden?
12. Gözlerin çok karanlıktır.

*13. Yeyib doydunmu, zalım,*
*14. Qanlı-qanlı bu canımı,*
*15. Barı, mundar ağzından*
*16. Yaxala, tüpür qanımı...*
*2001*

13. Yiyip doydun mu, zalim,
14. Kanlı kanlı bu canımı,
15. Bari mundar ağzından
16. Yakala, tükür kanımı....

### *GÖZÜN ÇOX UZUN DİLİ VAR (132)*

*1. Elə sirrə dolaşıb ki,*
*2. Açılmır sözlərim, yavrum.*
*3. Neynim, məni elə verir*
*4. Bu əfəl gözlərim, yavrum.*

*5. Kimin ruhunda cücərdi*
*6. Yüzü BİR-dən aralamaq?*
*7. Yaman dolaşıb, zülümdü*
*8. Sözü sirdən aralamaq.*

*9. Sirr – Tanrının silahıdı,*
*10. Söz – Tanrının can-ciyəri.*
*11. Sözlərə sirr sarmaşanda,*
*12. Vurub yırtır qan...ciyəri.*

*13. ...Bülbüllər yaman oxuyur,*
*14. Hər sirrin bir bülbülü var.*
*15. Yum gözünü, yazıq Rafiq, -*
*16. Gözün çox uzun dili var...*
*2001*

### GÖZÜN ÇOK UZUN DİLİ VAR

1. Öyle sıra dolaşmış ki,
2. Açılmıyor sözlerim yavrum.
3. Neyleyim, beni ele veriyor
4. Bu baygın gözlerim, yavrum.

5. Kimin ruhunda filizlendi
6. Yüzü BİR den aralamak?
7. Fena dolaşmış, zulümdür
8. Sözü sırdan aralamak.

9. Sır Tanrı'nın silahıdır,
10. Söz Tanrı'nın canı ciğeri
11. Sözlere sır sarmaştığında
12. Vurup yırtıyor kan...Ciğeri.

13. Bülbüller fena ötüyor,
14. Her sırrın bir bülbülü var.
15. Yum gözünü, zavallı Rafig,
16. Gözün çok uzun dili var...

### *GİZLƏYİR (133)*

*1. Bəndəyə çatmaz harayı*
*2. Ahdan qurduğum sarayın.*
*3. Siz məni yüz də arayın*
*4. İzimi izim gizləyir.*

*5. Səbirdi hər gün hördüyüm,*
*6. Qış əkdiyim, yay dərdiyim.*
*7. Məni Tanrının verdiyi*
*8. Bir ömür dözüm gizləyir.*

*9. Mən bu gözə kor deyimmi*
*10. Baxır... görmür gördüyünü.*
*11. Bir gözümlə gördüyümü*
*12. O biri gözüm gizləyir.*

### GİZLİYOR

1. İnsana ulaşmaz feryadı
2. Ahtan kurduğum sarayın.
3. Siz beni yüz kere de arayın
4. İzim izimi gizliyor.

5. Sabırdı her gün ördüğüm,
6. Kışın ektiğim, yaz derdiyim.
7. Beni Tanrı'nın verdiği
8. Bir ömür sabır gizliyor.

9. Ben bu göze kör diyeyim mi
10. Bakıyor... Görmüyor gördüğünü.
11. Bir gözümle gördüğümü
12. Öbür gözüm gizliyor.

*13. Sözüm – qılınca qındımı,*
*14. Yoxsa cəllad qılıncımı?*
*15. İlk sözümün qılıncını*
*16. Sonuncu sözüm gizləyir.*
*20011*

13. Sözüm kılıca kın mı?
14. Yoksa cellat kılıcı mı?
15. İlk sözümün kılıcını
16. Sonuncu sözüm gizliyor.

***GÖRƏN ŞAİR ADAMDIMI? (134)***

*1. Gözüm tavana zillənib,*
*2. Dişim qıcanıb dişimə.*
*3. Çağrılmamış qonaq kimi*
*4. Kədər gəlib görüşümə.*

*5. Kədər gəlib görüşümə,*
*6. Heyim ha yox azdırmağa.*
*7. Təkcə dərdin gücü çatır*
*8. Mənə şeir yazdırmağa.*

*9. Dostlarım kef içində,*
*10. Mən dərddən ayıq deyiləm?*
*11. Anam məni şair doğub,*
*12. Mən kefə layiq deyiləm?..*

*13. Dərdi hər adam çəkəmməz,*
*14. Görən şair adamdımı?*
*15. ...Başqasına yaxın getməz,*
*16. Dərd şairə dadandımı.*
*1998*

**ACABA ŞAİR İNSAN MIDIR?**

1. Gözüm tavana dikilmiş,
2. Dişim gıcırdatıyor dişimi.
3. Çağrılmamış misafir gibi
4. Keder gelmiş görüşüme.

5. Keder gelmiş görüşüme,
6. Gücüm yok uzaklaştırmaya.
7. Tek derdin gücü yetiyor
8. Bana şiir yazdırmaya.

9. Dostlarım keyif içinde,
10. Ben dertten ayık değilim?
11. Anam beni şair doğurmuş,
12. Ben keyfe layık değilim?

13. Derdi her insan çekemez,
14. Acaba şair insan mıdır?
15. Başkasına gitmez,
16. Dert şaire dadandı mı.

***İSMARIC (135)***

*1. Gözüm açılmır fikirdən,*
*2. Yahu, dərd batman iləmi?*
*3. Ya babam inciyib məndən,*
*4. Ya anam dua eləmir?*

*5. Ya babam inciyib məndən,*
*6. İş-gücünə yaramıram.*
*7. Ya anam dua eləmir,*
*8. Nə müddətdi aramıram.*

*9. Allah bilir – qəm yeməkdə*
*10. Şairlərin tayı yoxdu.*
*11. Söz üstündə əsənlərin*
*12. Sözdən ayrı payı yoxdu.*

**SİPARİŞ**

1. Gözüm açılmıyor düşünceden,
2. Yahu, dert batman ile mi?
3. Ya babam incinmiş benden,
4. Ya anam dua etmiyor?

5. Ya babam incinmiş benden,
6. İşine gücüne yaramıyorum.
7. Ya annem dua etmiyor,
8. Ne müddettir aramıyorum.

9. Allah biliyor gam çekmekte
10. Şairlerin dengi yoktur.
11. Söz üstünde esenlerin
12. Sözden ayrı payı yoktur.

*13. Tanrı bezib haramlardan,*
*14. Halaldan da üz döndərib.*
*15. ...Odur, anam, ismarlayıb,*
*16. Bir ölümcül söz göndərib...*
*2000*

13. Tanrı bezmiş haramlardan,
14. Helaldan da yüz döndermiş.
15. Odur, anam, ısmarlayıp
16. Bir ölümcül söz göndermiş...

### *YUXULAR YUXUMA QƏNİM (136)*

*1. Yuxular – yuxuma qənim,*
*2. Ayılmışam gecə yarı.*
*3. Çarpayım – beşiyim mənim,*
*4. Çarpayım – ömrümün goru.*

*5. Açılmamış sirrim də yox,*
*6. Səhərədək səbrim də yox,*
*7. Özüm boyda qəbrim də yox,*
*8. Girib rahat yatam barı.*

*9. Təpəmdən çıxan tüstü nə?*
*10. Röyalar durub qəsdimə.*
*11. Tavan yeriyir üstümə,*
*12. Divar qaçır mənə sarı.*

*13. Fikirləri kürümüşəm,*
*14. Yorğanımla bürümüşəm.*
*15. Yuxumda gərdək görmüşəm,*
*16. Allah, məni şərdən qoru!..*
*1988*

### UYKULAR UYKUMA UZAĞIM

1. Uykular, uykuma uzağım,
2. Ayılmışım gece yarısı.
3. Yatağım beşiğim benim,
4. Yatağım ömrümün koru.

5. Açılmamış sırrım da yok,
6. Sehere dek sabrım da yok,
7. Kendi boyumda kabrim de yok,
8. Girip rahat yatayım bari.

9. Tepemden çıkan duman ne?
10. Rüyalar durmuş kastıma.
11. Tavan yürüyor üstüme,
12. Duvar kaçıyor bana doğru.

13. Düşünceleri küremişim,
14. Yorganımla bürümüşüm.
15. Uykumda gerdek görmüşüm,
16. Allah, beni şerden koru!

### *SAZ YUXUSU (137)*

*1. Sazım çıxır köynəyindən,*
*2. Köynəyinə salır məni.*
*3. Bu qara don kəfəndimi? –*
*4. Qara qorxu alır məni.*

*5. Bu gələn səs hansı yandan: -*
*6. Keçmə kökdən, keçmə qandan!*
*7. Kərəm çıxır yer altından,*
*8. Gülə-gülə çalır məni.*

*9. Səs yayılır əzab ilə,*
*10. Bacarırsan – döz, tab elə!*
*11. Qoyma, Allah, mizrab ilə*
*12. Kərəm iki bölür məni.*

### SAZ UYKUSU

1. Sazım çıkıyor örtüsünden,
2. Örtüsüne salıyor beni.
3. Bu kara elbise kefen miydi?
4. Kara korku alıyor beni.

5. Bu gelen ses hangi yandan:
6. Geçme kökten, geçme soydan!
7. Kerem çıkıyor yer altından,
8. Güle güle çalıyor beni.

9. Ses yayılıyor azap ile,
10. Becerirsen dayan, sabır eyle!
11. Koyma, Allah, mızrap ile
12. Kerem ikiye bölüyor beni.

*13. (... Ürcah olma, tərsə, quzu,*
*14. Mən gəlməm o dərsə, quzu.*
*15. ...Min il keçib – tərsa qızı*
*16. Yenə Kərəm bilir məni).*
*1999*

13. (Rast gelme, terse, kuzu,
14. Ben gelmem o derse, kuzu.
15. Bin yıl geçmiş Hristiyan kızı
16. Yine Kerem biliyor beni.)

### *UÇAM GÖYLƏRƏ-GÖYLƏRƏ (138)*

*1. Yerdən yeri görəmmirəm,*
*2. Uçam göylərə-göylərə.*
*3. Könlümün sirr qapısını*
*4. Açam göylərə-göylərə.*

*5. Quru bir nəfəsdi verib,*
*6. Tanrım mənə isti verib.*
*7. Əvəzində tüstü verir*
*8. Bacam göylərə-göylərə.*

*9. Dəni dəyirmanda qalan,*
*10. Xışma-xışma oğurlanan,*
*11. Un gəlməmiş altı yanan*
*12. Sacam göylərə-göylərə.*

*13. İldırımnan çaxım gedim,*
*14. Dəryalarnan axım gedim,*
*15. Burax məni, çıxım gedim,*
*16. Xocam, göylərə-göylərə...*
*1988*

### UÇAYIM GÖKLERE GÖKLERE

1. Yerden yeri göremiyorum,
2. Uçayım göklere göklere.
3. Gönlümün sır kapısını
4. Açayım göklere göklere.

5. Kuru bir nefestir vermiş,
6. Tanrı'm bana sıcaklık vermiş.
7. Karşılığında duman veriyor
8. Bacam göklere göklere.

9. Tohumu değirmende kalan,
10. Avuç avuç çalınan,
11. Un gelmemiş altı yanan
12. Saçayım göklere göklere.

13. Yıldırımdan çakayım gideyim,
14. Deryalardan akayım gideyim,
15. Bırak beni, çıkayım gideyim,
16. Hocam, göklere göklere...

### *FİKİRLƏRİN KƏNDİRİNDƏ (139)*

*1. Uşaqlığım – sevinc seli,*
*2. Axdı sellənə-sellənə.*
*3. Gənclik qayğısız ömrümü*
*4. Yıxdı güllənə-güllənə.*

*5. Ürək yanıb şama döndü,*
*6. Yumşalıb lap muma döndü.*
*7. Bar gözləyən şuma döndü*
*8. Ömrüm bellənə-bellənə.*

*9. Və... mən günlərin birində*
*10. Bişdim ağrı təndirində.*
*11. Fikirlərin kəndirində*
*12. Qaldım yellənə-yellənə...*
*1987*

### FİKİRLERİN HALATINDA

1. Çocukluğum sevinç seli,
2. Aktı sellene sellene.
3. Gençlik kaygısız ömrümü
4. Yıktı güllene güllene.

5. Yürek yanıp muma döndü,
6. Yumuşayıp muma döndü.
7. Mahsül bekleyen toprağa döndü
8. Ömrüm bellene bellene.

9. Ve... Ben günlerin birinde
10. Piştim acı tandırında.
11. Fikirlerin halatında
12. Kaldım yellene yellene...

### *YEM OLMAYIM QURDA-QUŞA (140)*

*1. Eşqimin dəyişib halı,*
*2. Hardasa yıxılıb-qalıb.*
*3. Nifrətimə ilgək salıb,*
*4. Özümü asmağım gəlir.*

*5. Yüz də od vur, yanammıram,*
*6. Bu nə şübhə, qanammıram.*
*7. Gördüyümə inanmıram,*
*8. Gözümü pusmağım gəlir.*

*9. Eşqdi bəbəyimdən daman, -*
*10. Gileylənmə: sevgi hana?*
*11. Göz giləmi bu cahana*
*12. Möhür tək basmağım gəlir.*

*13. Yem olmayım qurda-quşa,*
*14. Mən adamam, məndən haşa!*
*15. Allah, məni döndər daşa,*
*16. Nə yaman susmağım gəlir!..*
*1989*

### YEM OLMAYIM KURDA KUŞA

1. Aşkımın değişmiş hâli,
2. Nerdeyse yıkılmış kalmış.
3. Nefretime düğüm atmış,
4. Kendimi asasım geliyor.

5. Yüz defa od vur, yanamıyorum,
6. Bu ne şüphe kanamıyorum.
7. Gördüğüme inanmıyorum,
8. Gözümü gözetlemem geliyor.

9. Aşktır bebeğimden damlayan,
10. Şikâyetlenme: Sevgi hani?
11. Gözyaşımı bu cihana
12. Mühür gibi basasım geliyor.

13. Yem olmayayım kurda kuşa,
14. Ben adamım, benden haşa!
15. Allah, beni dönder taşa,
16. Ne fena susasım geliyor!

### *TANRIYA GİLEYİM YOXDU (141)*
*(Dostum Eyvaz Əlləzoğluna)*

*1. Tanrıya gileyim yoxdu,*
*2. Mənə nə olur, düz olur.*
*3. Hər gün içimi yandırıb,*
*4. Dilimdə min-min söz ölür.*

*5. Ömrün son ucu ölümsə,*
*6. Barı dünyada gülümsə.*
*7. Körpə beşikdə ölürsə,*
*8. Halal ölür, təmiz ölür.*

*9. Ömür ki, qəbrə yan alır...*
*10. Qandıran yoxdu qanalar*
*11. Ki, bizi doğan analar*
*12. Nə üçün bizdən tez ölür.*

*13. Yaxşıya, yazığa mayıl,*
*14. Ucuzlaşıb, baha deyil,*
*15. Ölüm qəribə ha deyil –*
*16. Aral boyda dəniz ölür...*

### TANRI'YA ŞİKÂYETİM YOK
(Dostum Eyvaz Ellezoğlu'na)

1. Tanrı'ya şikâyetim yok,
2. Bana ne olursa, doğru oluyor.
3. Her gün içimi yakan,
4. Dilimde binlerce söz ölüyor.

5. Ömrün son ucu ölümse,
6. Bari dünyada gülümse.
7. Körpe beşikte ölürse,
8. Helal ölüyor, temiz ölüyor.

9. Ömür ki, kabre yanaşıyor...
10. Kandıran yoktur kansınlar
11. Ki, bizi doğuran analar
12. Ne için bizden tez ölüyor.

13. İyiye, zavallıya meyil,
14. Ucuzlaşmış, pahalı değil,
15. Ölüm garip ha değil
16. Aral boyunda deniz ölüyor.

*1993*

## *ÜMİDİM AY İŞIĞINA(142)*

*1. Yenə yaman kövrəlmişəm,*
*2. İçimdə ölüm qoxusu.*
*3. Ünüm də yetmir anama,*
*4. Bir həzin layla oxusun.*

*5. Yenə yaman kövrəlmişəm,*
*6. Dindirən yox sarı simi.*
*7. Hamıdan pul iyi gəlir*
*8. Dükan daxılları kimi.*

*9. Yenə yaman kövrəlmişəm,*
*10. İçimi qayğı, naz alır.*
*11. Adamlar çoxalıb artır,*
*12. Bəndə günbəgün azalır.*

*13. Yenə yaman kövrəlmişəm*
*14. Dibinə çatan şam kimi.*
*15. Ümidim ay işığına –*
*16. Şamsız qalan axşam kimi.*

*2000*

## ÜMİDİM AY IŞIĞINA

1. Yine fena dolmuşum,
2. İçimde ölüm kokusu.
3. Sesim de yetmiyor anama,
4. Bir hazin ninni okusun.

5. Yine fena dolmuşum,
6. Soran yok sarı teli.
7. Hepsi para kokuyor.
8. Dükkan kasaları gibi.

9. Yine fena dolmuşum,
10. İçimi kaygı, naz alıyor.
11. İnsanlar çoğalıp artıyor,
12. Kul günbegün azalıyor.

13. Yine fena dolmuşum,
14. Dibine gelen mum gibi.
15. Ümidim ay ışığına
16. Mumsuz kalan akşam gibi.

## *İÇİMDƏ BİR OCAQ YANIR (143)*

*1. Bizdən gedir kündə-kündə*
*2. Acı gün də, şirin gün də.*
*3. Dilimin qanı rəngində*
*4. İçimdə bir ocaq yanır.*

*5. Tüstüsü damardan axır,*
*6. Burulub təpəmdən çıxır.*
*7. Gözümdə ildırım çaxır,*
*8. İçimdə bir ocaq yanır.*

*9. İstər buludnan sürünüm,*
*10. İstər Günəşnən ərinim,*
*11. İstər dalğaya sarınım, -*
*12. İçimdə bir ocaq yanır.*

*13. Bu odu çox görüb mənə,*
*14. Su doldurma mis vedrənə;*
*15. Al bıçağı, çax sinəmə,*
*16. Görəcəksən, bıçaq yanır.*

## İÇİMDE BİR OCAK YANIYOR

1. Bizden gidiyor günden güne
2. Acı gün de tatlı günde.
3. Dilimin kanı renginde
4. İçimde bir ocak yanıyor.

5. Dumanı damardan akıyor,
6. Yükselip tepemden çıkıyor.
7. Gözümde yıldırım çakıyor,
8. İçimde bir ocak yanıyor.

9. İster buluta sürüneyim,
10. İster güneşle eriyeyim,
11. İster dalgaya sarınayım,
12. İçimde bir ocak yanıyor.

13. Bu ateşi çok görüp bana,
14. Su doldurma bakır kovana
15. Al bıçağı, çak sineme,
16. Göreceksin, bıçak yanıyor.

1987

## *ASIL MƏNDƏN, GÖY QURŞAĞI (144)*

*1. Bu göy mənim vətənimdir,*
*2. Yer könlümdən çox aşağı.*
*3. Durmağa gücün çatmırsa,*
*4. Asıl məndən, göy qurşağı.*

*5. Asıl məndən, göy qurşağı,*
*6. Göy işini mən bilirəm.*
*7. Ayın dərdini,*
*8. Günəşin*
*9. Gülüşünü mən bilirəm.*

*10. Göy işini mən bilirəm, -*
*11. Gözlərim göydə göyərib.*
*12. Gecəni yerdə uyuyub,*
*13. Açıram göydə səhəri.*

*14. Yazıqsan, yerə düşərsən,*
*15. Tapdalayar yer uşağı,*
*16. Qorxma, sənin göydaşınam,*
*17. Asıl məndən, göy qurşağı.*

## TUTUN BENDEN GÖKKUŞAĞI

1. Bu gök benim vatanımdır,
2. Yer gönlümden çok aşağı.
3. Durmaya gücün yetmiyorsa,
4. Tutun benden, gökkuşağı

5. Tutun benden, gökkuşağı,
6. Gök işini ben biliyorum.
7. Ayın derdini,
8. Güneşin
9. Gülüşünü ben biliyorum.

10. Gök işini ben biliyorum.
11. Gözlerim gökte göğermiş.
12. Geceleri yerde uyuyup,
13. Açıyorum gökte seheri.

14. Yazık olur, yere düşersen,
15. Eziyor yer çocuğu,
16. Korkma, senin göktaşınım,
17. Tutun benden, gökkuşağı.

1982

## *GECƏM NƏ GÖZƏL (145)*

*1. İllər günlərdə əriyir,*
*2. Günlər – saatlar içində.*
*3. Yalqızca göyə baxıram,*
*4. Oturub lal-kar içimdə.*

*5. Həmzələri atlandıqca,*
*6. Qılınc qında paslandıqca,*
*7. Koroğlusu qatlandıqca,*
*8. Yer üzü çatlar içimdə.*

*9. İllərdi – məni teyliyir,*
*10. Bu baxt tutmur güneyliyi?*
*11. Tək göy üzünün göylüyü*
*12. Məni rahatlar içimdə.*

*13. ... Gecəm nə gözəl, nə göyçək,*
*14. Gözüm göydən yığar çiçək.*
*15. Şeir – şampan tıxacı tək,*

## GECEM NE GÜZEL

1. Yıllar günlerde eriyor,
2. Günler, saatler içinde.
3. Yalnız başıma göğe bakarım,
4. Oturmuş sağır, dilsiz içimde.

5. Hamzaları at sahibi oldukça
6. Kılıç kında paslandıkça,
7. Köroğlu katlandıkça,
8. Yeryüzü çatlar içimde.

9. Yıllardır beni yaralıyor,
10. Bu baht tutmuyor güneyliyi?
11. Tek gökyüzünün maviliği
12. Beni rahatlatır içimde.

13. Gecem ne güzel, ne gökçek,
14. Gözüm gökten topluyor çiçek.
15. Şiir, şampanya tıkacı gibi,

*16. Açılıb partlar içimdə...*
*1990*

16. Açılıp patlar içimde....

***OLACAM (146)***

**OLACAĞIM**

*1. Özümü əyib-sıxıram,*
*2. Gözümü döyüb-yıxıram,*
*3. Bu dünyaya tərs baxıram,*
*4. Qoyma, Tanrım, çaş olacam.*

*5. Düz bu boyda, bu biçimdə,*
*6. Qıl körpüsündən keçəndə,*
*7. Mən milyon ölü içində*
*8. Tək özümə tuş olacam.*

*9. O dünyada oda girsəm,*
*10. Min cür ağrı, qada görsəm,*
*11. Dünyanı xaraba görsəm,*
*12. Dirilib bayquş olacam.*

*13. Demə, şair fağırlaşıb,*
*14. Ürək hərdən ağırlaşır,*
*15. Bir gün dərddən ağırlaşıb*
*16. Yerimdəcə daş olacam.*
*1990*

1. Kendimi eğip büküyorum,
2. Bakıyorum, şaşırıyorum
3. Bu dünyaya ters bakıyorum,
4. Yapma, Tanrım, şaşı olacağım.

5. Doğru bu boyda, bu biçimde,
6. Kıl köprüden geçince,
7. Ben milyon ölü içinde
8. Tek kendime rast geleceğim.

9. O dünyada oda girsem,
10. Bin çeşit acı, ceza görsem,
11. Dünyayı harabe görsem,
12. Dirilip baykuş olacağım.

13. Deme, şair fakirleşmiş,
14. Yürek bazen ağırlaşıyor,
15. Bir gün dertten ağırlaşıp
16. Yerimde taş olacağım.

***A XOŞBƏXT OLAN BƏNDƏLƏR (147)***

**A MUTLU OLAN KULLAR**

*1. A xoşbəxt olan bəndələr,*
*2. Mən ki, sizdən xoşbəxt idim.*
*3. A bədbəxt olan bəndələr,*
*4. Mən ki, sizdən bədbəxt idim.*

*5. A xoşbəxt olan bəndələr,*
*6. Yoldu, yolunuznan gedin.*
*7. Sağınızda şeytan olsa,*
*8. Dönün, solunuznan gedin.*

*9. A bədbəxt olan bəndələr,*
*10. Bəndəsən, baxtın yazılıb.*
*11. Üzünü haqdan döndərmə,*
*12. Nahaqqın, haqqın yazılır.*

*13. A xoşbəxt olan bəndələr,*
*14. A bədbəxt olan bəndələr,*
*15. Dünən sağ olan bəndələr,*

1. A mutlu olan kullar,
2. Ben ki, sizden mutlu idim.
3. A mutsuz olan kullar,
4. Ben ki, sizden mutsuz idim.

5. A mutlu olan kullar,
6. Yoldur, yolunuzdan gidin.
7. Sağınızda şeytan olsa,
8. Dönün solunuzdan gidin.

9. A mutsuz olan kullar,
10. Kulsan, bahtın yazılmış.
11. Yüzünü haktan dönme,
12. Hakkın olmayan hakkın yazılıyor.

13. A mutlu olan kullar,
14. A mutsuz olan kullar,
15. Dün sağ olan kullar,

*16. Bu gün yox olan bəndələr...*

*1994*

16. Bugün yok olan kullar...

## *SƏN MƏNİ GƏZƏNƏ KİMİ (148)*

*1. Tanrım mənə səbr verib,*
*2. Dözürəm, dözənə kimi.*
*3. Bir sözə min ah çəkirəm*
*4. Muncuğa düzənə kimi.*

*5. Günəş olub ərinərəm,*
*6. Bulud olub sərilərəm,*
*7. Yüz yol ölüb-dirilərəm*
*8. Bir gülü üzənə kimi.*

*9. Xoflu bəndə əyilər də...*
*10. Sınmaq yaraşıqdı mərdə.*
*11. Bu tarım simli ömürdə*
*12. Sınıram təzanə kimi.*

*13. Tək özümə qul olmuşam,*
*14. Tanrıma layla çalmışam.*
*15. Mən səni çoxdan bulmuşam,*
*16. Sən məni gəzənə kimi...*

*2001*

## SEN BENİ ARAYANA DEK

1. Tanrım bana sabır vermiş,
2. Sabrediyorum, sabırlı gibi.
3. Bir söze bin ah çekiyorum
4. Boncuğa dizer gibi.

5. Güneş olup eririm,
6. Bulut olup serilirim,
7. Yüz yol ölüp dirilirim
8. Bir gülü koparır gibi.

9. Şüpheci kul eğilir de...
10. Kırmak yakışır merde.
11. Sıkı teli ömürde
12. Kırıyorum tezene gibi.

13. Tek kendime kul olmuşum,
14. Tanrı'ma ninni okumuşum.
15. Ben seni çoktan bulmuşum,
16. Sen beni arayana dek.

## *QƏRİB AHI (149)*

*1. Niyə söyülüb-döyüləm,*
*2. Dünyayi-tərki deyiləm.*
*3. Mən hələ türkü deyirəm,*
*4. Kimlər istəsə dinləyər.*

*5. Kim deyir, haqq can üstədi?*
*6. Kim kimdən haqqın istədi?*
*7. Yüz kafiri, min mürtədi*
*8. Doğru iman, düz din əyər.*

*9. Haqqın üzü güldüyü yox,*
*10. Asan ələ gəldiyi yox.*
*11. Mərdi düşmən bildiyi yox,*
*12. Dost bildiyi günüləyər.*

*13. Rəbbimdən diləyib kərəm,*
*14. Məhşərə şahı çəkərəm.*
*15. Bir qərib ahı çəkərəm,*

## GARİP AHI

1. Niye sövülüp dövüleyim,
2. Dünyayı terk edecek değilim.
3. Ben hâlâ türkü söylüyorum,
4. Kim isterse dinler.

5. Kim diyor, hak candan üstedir?
6. Kim kimden hakkını istedi?
7. Yüz kâfiri bin mürtedi
8. Doğru iman, doğru din eğer.

9. Hakkın yüzünün güldüğü yok,
10. Kolay ele geldiği yok.
11. Merdi düşman bildiği yok,
12. Dost bildiği düşman olur.

13. Rabbimden dileyip kerem,
14. Mahşere şahı çekerim.
15. Bir garip ahı çekerim,

*16. Min il bu şəhər inləyər.*

*2002*

16. Bin yıl bu şehir inler.

### *ON DÖRT GECƏLİK AY GÖRDÜM (150)*

*1. Yaşadım, təkcə özümü*
*2. Sonda özümə tay gördüm.*
*3. Tək qazancım sözüm oldu,*
*4. Onu da O-ndan pay gördüm.*

*5. A zalım, say gördüyünü,*
*6. Saysızlıqda gör düyünü,*
*7. Özgələr toy gördüyünü*
*8. Mən öz ömrümdə vay gördüm.*

*9. Ağlayıb-sızlama: pay az,*
*10. Du et, Tanrıdan pay üz.*
*11. Mən yazın içində payız,*
*12. Qışın içində yay gördüm.*

*13. Bu çiçəyi dilim əkib,*
*14. Bu ağrını telim çəkib,*
*15. On üç gecə zülüm çəkib,*
*16. On dörd gecəlik Ay gördüm.*

*2000*

### ON DÖRT GECELİK AY GÖRDÜM

1. Yaşadım, bir tek kendimi
2. Sonunda kendime denk gördüm.
3. Tek kazancım sözüm oldu,
4. Onu da Ondan pay gördüm.

5. A zalim, say gördüğünü,
6. Sayısız gör düğümü,
7. Başkalarının düğün gördüğünü
8. Ben kendi ömrümde ızdırap gördüm.

9. Ağlayıp sızlama: Pay az,
10. Dua et, Tanrı’dan pay al.
11. Ben baharın içinde sonbahar,
12. Kışın içinde yaz gördüm.

13. Bu çiçeği dilim dikmiş,
14. Bu ağrımı telim çekmiş,
15. On üç gece zulüm çekmiş,
16. On dört gecelik ay gördüm.

### *QORXU (151)*

*1. Mən də bezdim bu dünyadan,*
*2. Mənim də tükəndi ahım.*
*3. Hər gecə keşik çəkirəm:*
*4. Birdən açılmaz sabahım.*

*5. Hər gecə keşik çəkirəm,*
*6. Düşmən yox əli silahlı.*
*7. Söz daha namərd gülləsi,*
*8. Hamının dili silahlı.*

*9. Söz daha namərd gülləsi,*
*10. Kürəyimi qoruyan yox.*
*11. İçimi qan alıb gedir,*
*12. Yaylıq alıb sarıyan yox.*

*13. Mərd düşmən üz-üzə gələr,*
*14. Əksim – özümün düşməni,*
*15. Söz – mənim Tanrı qardaşım,*

### KORKU

1. Ben de bezdim bu dünyadan,
2. Benim de tükendi ahım.
3. Her gece nönet tutuyorum:
4. Birden olmaz sabahım.

5. Her gece nöbet tutuyorum,
6. Düşman yok eli silahlı.
7. Söz namert mermisi,
8. Hepsinin dili silahlı.

9. Söz namert mermisi,
10. Arkamı koruyan yok.
11. İçimi kan almış gidiyor,
12. Mendil alıp saran yok.

13. Mert düşman yüz yüze gelir,
14. Aksim düşmanım,
15. Söz benim Tanrı kardeşim,

*16. Mən də - sözümün düşməni.*
*2000*

16. Ben de sözümün düşmanı.

***MƏNİ (152)***

**BENİ**

*1. Batıb qaldım daş səbirdə,*
*2. Yer bulmadım boş qəbirdə.*
*3. Mən də keçdim bu xəlbirdən,*
*4. Yığvalım əlAdi məni.*

1. Batıp kaldım taş sabırda,
2. Yer bulamadım boş kabirde.
3. Ben de geçtim kalburdan,
4. Talihim eledi beni.

*5. Dərdimi mələk də qanmaz,*
*6. Budağıma bir quş qonmaz,*
*7. Ölsəm də heç kim inanmaz,*
*8. Qismətim belədi mənim.*

5. Derdimi melek de anlamaz,
6. Dalıma bir kuş konmaz,
7. Ölsem de hiçkimse inanmaz,
8. Kısmetim böyledir benim.

*9. İynə ilə gor eşirəm,*
*10. Sözü qazıb sirr eşirəm,*
*11. Tez-tez kələyə düşürəm,*
*12. Yan-yörəm tələdi mənim.*

9. İğne ile mezar eşiyorum,
10. Sözü kazıp sır eşiyorum,
11. Sık sık pusuya düşüyorum,
12. Etrafım tuzaktır benim.

*13. Bu dərəyə sığınmazdım,*
*14. Elə bilmə, yolu azdım.*
*15. Baba, vallah, yıxılmazdım,*
*16. Kimsə itələdi məni.*
*1990*

13. Bu dereye sığınmazdım,
14. Sanma, yolumu şaştım.
15. Dede, vallahi, yıkılmazdım,
16. Birisi itekledi beni.

***ÜZÜMDƏKİ SÜKUT DEYİL (153)***
*(Dostum Zal Vəlioğluna)*

**YÜZÜMDEKİ SÜKÛT DEĞİL**
(Dostum Zal Velioğlı'na)

*1. Mənimlə çox maraqlanma,*
*2. Mənə az boylan, qadası.*
*3. İçim həsrət otağıdı,*
*4. Eşiyim onun aynası.*

1. Bana çok heveslenme.
2. Benden yana az bak.
3. İçim hasret odası,
4. Dışım onun aynası.

*5. İçim həsrət otağıdı,*
*6. Yurddan-yuvadan aralı.*
*7. İlıq nəfəsə tamarzı,*
*8. Təmiz havadan aralı.*

5. İçim hasret odası,
6. Yurttan yuvadan uzak.
7. Ilık nefese razı
8. Temiz havadan uzak.

*9. Həsrətin qapısı bağlı,*
*10. Yoxdu gedəni-gələni,*
*11. Yiyəsi ölübmüş kimi,*
*12. Fikrim sərhəddə sülənir.*

9. Hasretin kapısı bağlı,
10. Yoktur geleni gideni,
11. Sahibi ölmüş gibi,
12. Fikrim serhatte dolaşıyor.

*13. Yurdum düşmən hədəfində,*
*14. Kədər könlümü yalayır.*

13. Yurdum düşman hedefinde,
14. Keder gönlümü yalıyor.

*15. Üzümdəki sükut deyil,*
*16. Yaralı qurddu... ulayır.*
*1999*

15. Yüzümdeki sükût değil,
16. Yaralı kurttur...Uluyor.

### *AYRILIQ HAVASI (154)*

*1. Yenə ayrılıq havası,*
*2. Yenə havalanmaq dəmi.*
*3. Döyülən qapım ha deyil,*
*4. Yeldi, çırpır pəncərəmi.*

*5. Yeldi, çırpır pəncərəmi,*
*6. Xəzri-giləvarısı yox.*
*7. Bu yurdda yanan ocağın*
*8. Bacası-buxarısı yox.*

*9. Tüstüsü çıxmaz bacadan,*
*10. Bəlkə şair adam deyil.*
*11. Məni qurd kimi uladan,*
*12. Vallah, mənim qadam deyil.*

*13. Bəlkə səsləyir sərhədə,*
*14. Yeldi, döyür pəncərəmi -*
*15. Mənimdi o susuz dəniz,*
*16. Mənimdi o batan gəmi.*
*1998*

### AYRILIK HAVASI

1. Yine ayrılık havası,
2. Yine öfkelenme demi.
3. Çalan kapım değil,
4. Yeldir, çarpıyor penceremi.

5. Yeldir, çarpıyor penceremi.
6. Yıldız yeli kızıl yel yok.
7. Bu yurtta yanan ocağın
8. Bacası, buharı yok.

9. Dumanı çıkmaz bacadan,
10. Belki şair insan değil.
11. Beni kurt gibi ulutan,
12. Vallahi, benim derdim değil.

13. Belki sesleniyor serhate,
14. Yeldir, dövüyor penceremi
15. Benimdir o sussuz deniz,
16. Benimdir o batan gemi.

### *DƏRDİMİ (155)*

*1. Gündüz – ulduz-ulduz batir,*
*2. Gecə kim saya dərdimi?*
*3. Dünya mələyə dönsə də,*
*4. Deməm kimsəyə dərdimi.*

*5. Tanrı kiridərmi ola,*
*6. Ölüm çürüdərmi ola,*
*7. Günəş əridərmi ola*
*8. Mənim buz-qaya dərdimi.*

*9. Toyunda irişə bilmir,*
*10. Vayına qarışa bilmir,*
*11. Üz-üzə danışa bilmir*
*12. O tay bu taya dərdini.*

*13. Köynək-köynək tər tökmüşəm,*
*14. Karvan-karvan dərd çəkmişəm,*

### DERDİMİ

1. Gündüz, yıldız yıldız batıyor,
2. Gece kim saysın derdimi?
3. Dünya meleğe dönse de,
4. Demem kimseye derdimi.

5. Tanrı susturur mu,
6. Ölüm çürütür mü,
7. Güneş eritir mi
8. Benim buzdan kaya derdimi.

9. Düğününe erişemiyor
10. Vayına karışamıyor,
11. Yüz yüze konuşamıyor
12. O taraf bu tarafla derdini.

13. Gömlek gömlek dert dökmüşüm,
14. Kervan kervan dert çekmişim,

*15. İndən belə dərd əkmişəm,*
*16. Qoy biçsin dünya dərdimi.*
*1998*

15. Bundan böyle dert ekmişim,
16. Koy biçsin dünya derdimi.

***BU GECƏ (156)***

**BU GECE**

*1. Bu gecə uzun gecədir,*
*2. Uzana-uzana gedir.*
*3. Şairlər hələ yatmayıb,*
*4. Bəndələr azana gedir.*

*5. Vurub aldılar azımı,*
*6. Hər şey Tanrıdan yazılı,*
*7. Allahın ağı-qızılı*
*8. Ağlığı pozana gedir.*

*9. Yandım toxa da, aca da,*
*10. Yar yox, dərdimi acıda.*
*11. Bu nalənin bir ucu da*
*12. Bu baxtı yazana gedir.*

*13. Türkünün də odu baha,*
*14. Sazda dərd ərimir daha.*
*15. Ruhum sarmaşır Allaha,*
*16. Əlimdən təzanə gedir.*
*1992*

1. Bu gece uzun gecedir,
2. Uzaya uzaya gidiyor.
3. Şairler hâlâ yatmamış,
4. İnsanlar ezana gidiyor.

5. Vurup aldılar azımı,
6. Her şey Tanrı'dan yazılı,
7. Allah'ın akı, kızılı
8. Aklığı bozana gidiyor.

9. Yandım toka da açа da,
10. Yar yok, derdimi avuta.
11. Bu feryadın bir ucu da
12. Bu bahtı yazana gidiyor.

13. Türkü dinlemek de zor,
14. Saz da dert eritmiyor artık.
15. Ruhum sarılıyor Allah'a,
16. Elimden tezene gidiyor.

***ŞAİR (157)***

**ŞAİR**

*1. Ahdı, çəkə-çəkə ölür,*
*2. Şairin ahı bilinməz.*
*3. Gecə-gündüzü qarışıq,*
*4. Axşam-sabahı bilinməz.*

*5. Yaşayar – dəli sayılar,*
*6. Ölər – heykəli qoyular.*
*7. Öz içinə sürgün olar,*
*8. Günahı-suçu bilinməz.*

*9. Baxtın önündə düz durar.*
*10. Tanrıynan üzbəüz durar,*
*11. Özü öz boynunu vurar,*
*12. Cəlladı-şahı bilinməz.*

*13. Quşdu – budaq üstə ölər,*
*14. Dumandı – dağ üstə ölər,*

1. Ahtır, çeke çeke ölüyor,
2. Şairin ahı bilinmez.
3. Gece gündüzü karışık,
4. Akşamı sabahı bilinmez.

5. Yaşar deli sayılır,
6. Ölür, heykeli konulur.
7. Kendi içine sürgün olur,
8. Günahı suçu bilinmez.

9. Bahtın önünde dürüst durur.
10. Tanrı ile yüz yüze durur,
11. Kendi kendi boynunu vurur,
12. Cellatı şahı bilinmez.

13. Kuştur, dal üstünde ölür,
14. Dumandır, dağ üstünde ölür,

*15. Şair ayaq üstə ölər,*
*16. Ölümü, Yahu, bilinməz.*
*1999*

***DOSTUM ZƏLİMXAN YAQUBA (158)***

*1. Mən öz dərdimi çəkməyə*
*2. Macal tapa bilmirəm ki.*
*3. Yan-yörəmdə qəh-qəh səsi,*
*4. Mən gülürəm?*
*5. Gülmürəm ki.*

*6. Yan-yörəmdə qəh-qəh səsi,*
*7. Dodaq qaçır, göz ağlayır.*
*8. Mən sözə ağlamalıyam,*
*9. Məndən ötrü söz ağlayır.*

*10. Məndən ötrü söz ağlayır,*
*11. Söz sinəmi oyur, lələ.*
*12. Nəsimi deyiləm, məni*
*13. Cəllad niyə soyur, lələ?*

*14. Cəllad niyə soyur məni? –*
*15. Yetimlərə ağlayanam,*
*16. Mən ki, özgə dərdi ilə*
*17. Öz sinəmi dağlayanam.*

*18. Öz bağrımı dağlayıb da,*
*19. Dağ əlindən dağa döndüm.*
*20. Cəllad o dağa dırmandı,*
*21. Gizli bir yarpağa döndüm.*

*22. Şair, görən birləşərmi*
*23. Qırx təriqətin bir yolu?*
*24. ...Yaşıl ağacımın altı*
*25. Saralmış xəzəllə dolu...*
*2005*

***BU YOLA (159)***

*1. Bu yola kölgəsi düşməz*
*2. Halal süd əmmiş uşağın.*
*3. Kimin ki, sözü bahadı,*
*4. Baxtı – topuqdan aşağı.*

*5. Bu yolla yeriyənlərin*

15. Şair ayak üstünde ölür,
16. Ölümü, yahu, bilinmez.

**DOSTUM ZELİMHAN YAKUP’A**

1. Ben kendi derdimi çekmeye
2. Mecal bulamıyorum ki.
3. Etrafımda kahkaha sesi,
4. Ben gülüyorum?
5. Gülmüyorum ki.

6. Etrafımda kahkaha sesi,
7. Dudak gülümsüyor, göz ağlıyor.
8. Ben söze ağlamalıyım,
9. Benden ötürü söz ağlıyor.

10. Benden ötürü söz ağlıyor.
11. Söz sinemi oyuyor.
12. Nesimi değilim, beni
13. Cellat niye soyuyor?

14. Cellat niye soyuyor, beni?
15. Yetimlere ağlayanım,
16. Ben ki, başkasının derdi ile
17. Öz sinemi dağlayanım.

18. Öz bağrımı dağlayıp da,
19. Dağ elinden dağa döndüm.
20. Cellat o dağa tırmandı,
21. Gizli bir yaprağa döndüm.

22. Şair, acaba birleşir mi
23. Kırk tarikatın yolu?
24. Yeşil ağacımın altı
25. Sararmış yaprakla dolu...

**BU YOLA**

1. Bu yola gölgesi düşmez
2. Helal süt emmiş çocuğun.
3. Kimin ki sözü değerli,
4. Bahtı topuktan aşağı.

5. Bu yolda yürüyenlerin

*6. Cin kimi itər izləri,*
*7. Kölgədən, kölədən başqa,*
*8. Bir şey görəmməz gözləri.*

*9. Bu yola kölgə salanın*
*10. Ömrü alovsuz buxarı,*
*11. Qan kimi qırmızı baxtı*
*12. Mələkdən bir boy yuxarı.*

*13. Bu yolda şeytan işığı,*
*14. Daha bu yola gün düşməz.*
*15. Min il getsə də bu yolu,*
*16. Bəndə Tanrıynan görüşməz...*
*1990*

6. Cin gibi yiter izleri,
7. Gölgeden, köleden başka,
8. Bir şey göremez gözleri.

9. Bu yola gölge salanın
10. Ömrü alevsiz soba,
11. Kan gibi kırmızı bahtı
12. Melekten bir boy yukarı.

13. Bu yolda şeytan ışığı,
14. Daha bu yola güneş düşmez.
15. Bin yıl gitse de bu yolu,
16. İnsan Tanrı ile görüşmez...

***ŞAM KİMİ (160)***

*1. Şam kimi alışıb səssiz,*
*2. Pərvanə tək yanan da mən.*
*3. Kimdi qurd təkin ulayan? –*
*4. Sim də mənəm, kaman da mən.*

*5. Yalvaran bu baxta mən,*
*6. O bir cüt dodaqda mənəm.*
*7. Kəsilmiş budaq da mənəm,*
*8. O budağa qonan da mən.*

*9. İşıq düşmür bucağıma,*
*10. Yad qızınır ocağıma,*
*11. Vətənimin bu çağına*
*12. Yanan da mən, yaman da mən.*

*13. İçimdə dördnala çapıb,*
*14. Hər güldən bir busə qapıb,*
*15. Sözü dərman kimi tapıb,*
*16. Başdaşı tək yonan da mən.*
*1998*

**MUM GİBİ**

1. Mum gibi tutuşup sessiz,
2. Pervane gibi yanan da ben.
3. Kimdir kurt gibi uluyan?
4. Tel de benim, keman da ben.

5. Yalvaran bu bahta ben,
6. O bir çift dudak da benim.
7. Kesilmiş dal da benim,
8. O dala konan da ben.

9. Işık düşmüyor bucağıma,
10. Yabancı ısınıyor ocağımda,
11. Vatanımın bu çağına
12. Yanan da ben, yaman da ben.

13. İçimde dört nala koşup,
14. Her gülden bir buse kapıp,
15. Sözü derman gibi bulup,
16. Mezar taşı gibi yontan da ben.

***YAĞIŞ YAĞIR (161)***

*1. Yenə eşqli-eşqli,*
*2. Of, nə gözəl yağış yağır.*
*3. Sanki çoxdan hamiləymiş –*
*4. Göylər torpağa su doğur.*

*5. Yer üzü salavatlanır,*

**YAĞMUR YAĞIYOR**

1. Yine aşklı aşklı,
2. Of, ne güzel yağmur yağıyor.
3. Sanki çoktan hamileymiş
4. Gökler toprağa su doğuruyor.

5. Yeryüzü salavat ediyor,

*6. Yağış yağır şırıl-şırıl.*
*7. Ay özünü adam bilən,*
*8. Adamsansa, yuyun, durul!*

*9. Yağan yağış, soyuq oda,*
*10. Yaşamağın yeni məşqi.*
*11. Başımda bir qız sevdası,*
*12. Ürəyimdə Tanrı eşqi.*

*13. Yenə ərşin lüləyindən*
*14. İçimə rahatlıq axır.*
*15. Gözüm – yağan yağışa yox,*
*16. Çox-çox uzaqlara baxır.*
*1990*

6. Yağmur yağıyor şırıl şırıl.
7. Ay kendini insan bilen,
8. İnsansan, yıkan, durulan!

9. Yağan yağmur, soğuk oda,
10. Yaşamanın yeni meşki.
11. Başımda bir kız sevdası,
12. Yüreğimde Tanrı aşkı.

13. Yine arşın musluğundan
14. İçime rahatlık akıyor.
15. Gözüm yağan yağışa değil,
16. Çok çok uzaklara bakıyor.

***PAYIZ (162)***

*1. Payız da sürdü köçünü,*
*2. Təklik gəmirir içimi.*
*3. Gecələr yaman uzanıb*
*4. Xərçəng xəstəliyi kimi.*

*5. Tənhalıqdanmı ulayır? –*
*6. Külək dönüb yalquzağa.*
*7. Siz allah, yol verin mənə,*
*8. Geniyim burdan uzağa.*

*9. Külək dönüb yalquzağa,*
*10. Gecə - kimsəsiz meşəmi?*
*11. Səhər də açılmaq bilmir,*
*12. Adam təklikdən üşənir.*

*13. Payız da köçünü sürdü,*
*14. Günəş gizləndi ölüm tək.*
*15. Qış yenə də qarsız gəldi*
*16. Duvaqsız köçən gəlin tək.*
*2000*

**SONBAHAR**

1. Sonbahar da sürdü göçünü
2. Yalnızlık kemiriyor içimi.
3. Geceler fena uzamış
4. Kanser hastalığı gibi.

5. Yalnızlıktan mı uluyor?
6. Rüzgar dönmüş yalnız kurda.
7. Siz  yol verin bana,
8. Gideyim burdan uzağa.

9. Rüzgar dönmüş yalnız kurda,
10. Gece kimsesiz orman mı?
11. Seher de doğmak bilmiyor,
12. İnsan yalnızlıktan korkuyor.

13. Sonbahar da göçünü sürdü,
14. Güneş gizlendi ölüm gibi.
15. Kış yine karsız geldi.
16. Duvaksız göçen gelin gibi.

***SÖHBƏT (163)***

*1. Yolun harayadı, yavrum,*
*2. Hardan qayıdırsan bu dəm?*
*3. - Ata belindən sürüşüb,*
*4. Ana bətnindən gəlirəm.*

*5. Yoluna işıq düşürmü,*

**SOHBET**

1. Yolun nereye, yavrum,
2. Nereden dönüyorsun bu dem?
3. -Baba belinden düşüp,
4. Ana karnından geliyorum.

5. Yoluna ışık düşüyor mu,

*6. Aydınlıqmı, qaranlıqmı?*
*7. - İşıq da var, kor zülmət də,*
*8. Dünya elə bir anlıqmı...*

*9. Yolun hamardımı, yavrum,*
*10. Qaçağı, qulduru varmı?*
*11. - Şeytan da bir mələk imiş,*
*12. Yolum quldursuz olarmı...*

*13. Yolunu başladın hardan,*
*14. Haraya gedirsən bu dəm?*
*15. - Ehtirasın qucağından*
*16. Tanrıya doğru gedirəm...*
*2000*

6. Aydınlık mı, karanlık mı?
7. -Işık da var, kör zulüm de,
8. Dünya öyle bir anlık mı...

9. Yolun düz mü, yavrum,
10. Kaçağı, eşkıyası var mı?
11. -Şeytan da bir melek imiş,
12. Yolum eşkıyasız olur mu...

13. Yoluna başladın nereden,
14. Nereye gidiyorsun bu dem?
15. -İhtirasın kucağından
16. Tanrı'ya doğru gidiyorum...

### *TƏKƏM QIRXINCI OTAQDA (164)*

*1. Kim hördü qapı-bacanı,*
*2. Gordumu bu zinrik otaq?*
*3. Fərhadın külüngü hanı,*
*4. Zəlzələ haçan olacaq?*

*5. Düşmüşəm quyu dibinə,*
*6. Ağ qoçu gəzirəm, dədəm.*
*7. Mənim kəndirim kəsilib,*
*8. Yoxsa mən Məlikməmmədəm?*

*9. Təkəm qırxıncı otaqda,*
*10. Bu tilsim açıla bilməz?*
*11. Qardaşı olmayan adam*
*12. Məlikməmməd ola bilməz?*

*13. Kəndiri özgə kəsəmməz,*
*14. Qardaşın bıçağı iti.*
*15. ...Gedim çatım ocağımı,*
*16. Bişsin qara qoçun əti.*
*1998*

### TEKİM KIRKINCI ODADA

1. Kim ördü kapıyı, bacayı,
2. Mezar mı bu zifiri oda?
3. Ferhat'ın kazması hani,
4. Zelzele ne zaman olacak?

5. Düşümüşüm kuyu dibine
6. Ak koçu arıyorum, babam,
7. Benim halatım kesilmiş,
8. Yoksa ben Melikmemmed'im?

9. Tekim kırkıncı odada,
10. Bu tılsım açılamaz?
11. Kardeşi olmayan insan
12. Melikmemmed olamaz?

13. Halatı başkası kesemez,
14. Kardeşin bıçağı keskin.
15. Gidip ulaşayım ocağıma,
16. Pişsin kara koçun eti.

### *QAYIDIŞ (165)*

*1. Bir azar gəlmişdi haqdan,*
*2. Ölüm baxırdı qıraqdan,*
*3. Allah açan ağ işıqdan*
*4. Canım özümə qayıtdı.*

*5. Ölüm uçub getdi hara...*

### DÖNÜŞ

1. Bir hastalık gelmişti Hak'tan,
2. Ölüm bakıyordu kenardan,
3. Allah'ın açtığı ak ışıktan
4. Canım kendime döndü.

5. Ölüm uçup gitti nereye...

*6. Vücudumda dərin yara...*
*7. Gözüm sataşdı divara,*
*8. Rənglər gözümə qayıtdı.*

*9. Beş barmaq "daraq" saçıma.*
*10. Gücüm – qoluma, qıçıma,*
*11. Sözüm – dilimin ucuna,*
*12. Fikrim sözümə qayıtdı.*

*13. Sonmu nəfəs idi, Tanrım,*
*14. Saniyə bəs idi, Tanrım,*
*15. O səs nə səs idi, Tanrım:*
*16. - Canım-gözüm, ee, qayıtdın!..*
*1994*

6. Vücudumda derin yara...
7. Gözüm ilişti duvara,
8. Renkler gözüme döndü.

9. Beş parmak "tarak" saçıma.
10. Gücüm koluma, kıçıma,
11. Sözüm dilimin ucuna,
12. Fikrim sözüme döndü.

13. Son mu nefes idi, Tanrım,
14. Saniye yeter idi, Tanrım,
15. O ses ne ses idi, Tanrım:
16. -Canım gözüm, ee, döndün!

***DİNCƏLİR (166)***

*1. Gedim, qucum dağ daşını,*
*2. Danışım ona duşumu.*
*3. Çiçəklərin göz yaşını*
*4. Günəş siləndə dincəlir.*

*5. Göydən yerə qəm diləmə,*
*6. Yaşlı gözə nəm çiləmə.*
*7. Dərdli insan dərd bilənlə*
*8. Dərdi böləndə dincəlir.*

*9. Məhbus – gözü yol çəkəndə,*
*10. Qoca – xatirə içəndə,*
*11. Ana – göz yaşı tökəndə,*
*12. Körpə - güləndə dincəlir.*

*13. Bu dünyada baxtı yoxdu,*
*14. Quruca bir taxtı yoxdu,*
*15. Sağlığında vaxtı yoxdu,*
*16. Şair öləndə dincəlir.*
*1986*

**DİNLENİYOR**

1. Gideyim, kucaklayım dağ taşı,
2. Anlatayım ona düşümü.
3. Çiçeklerin gözyaşını
4. Güneş sildiğinde dinleniyor.

5. Gökten yere gam dileme,
6. Yaşlı göze nem serpeleme.
7. Dertli insan, dert bilenle
8. Derdi böldüğünde dinleniyor.

9. Mahpus, gözü yol çektiğinde,
10. İhtiyar, hatıra içinde,
11. Ana, gözyaşı döktüğünde,
12. Körpe, güldüğünde dinleniyor.

13. Bu dünyada bahtı yoktur,
14. Kuruca bir tahtı yoktur,
15. Sağlığında vakti yoktur,
16. Şair öldüğünde dinleniyor.

***SU (167)***

*1. Göyün yağışı da sudu,*
*2. Gözlərin göz yaşı da su,*
*3. Bu dünyanın ayağı da,*
*4. Ortası da, başı da su.*

*5. Üzəm tüyünə-tüyünə,*

**SU**

1. Göğün yağmuru da sudur,
2. Gözlerin gözyaşı da su,
3. Bu dünyanın ayağı da,
4. Ortası da, başı da su.

5. Yüzeyim acele acele

*6. Baş vuram dərinliyinə,*
*7. Üz qoyam sərinliyinə,*
*8. Bir az məni üşüdə su.*

*9. Paklanıb təmizləndiyim,*
*10. Nazlanıb əzizləndiyim,*
*11. Üzündə güzgüləndiyim*
*12. Kəhrizin dərdişidi su.*

*13. Doğursam, qanımı yuyar,*
*14. Ölürsəm, canımı yuyar,*
*15. İçirsəm, odum soyuyar,*
*16. Tanrının göz yaşıdı su.*
*1990*

6. Baş vurayım derinliğine,
7. Yüz koyayım serinliğine,
8. Biraz beni üşütsün su.

9. Paklanıp temizlendiğim,
10. Nazlanıp azizlendiğim,
11. Yüzünde aynalandığım
12. Su kuyusunun dert ortağı su.

13. Doğursam, kanımı yıkar,
14. Ölürsem canımı yıkar,
15. İçersem, ateşim söner,
16. Tanrı'nın gözyaşıdır su.

### *GÖZ YAŞI NAHAQ YAZILIB (168)*

*1. Ah, bu yazıq qəmli gözlər –*
*2. Qırx arşınlıq su quyusu.*
*3. Düşmüşəm, çıxa bilmirəm,*
*4. O tayım su, bu tayım su.*

*5. Qolum gücümə hönkürür,*
*6. Yolum dizimə hönkürür,*
*7. Körpə gözümə hönkürür:*
*8. - Ay əmi su, ay dayı su!*

*9. Su ara dərdin ötəndə,*
*10. Su sahili – bu Vətən də.*
*11. Nə tapsan da bu Vətəndə,*
*12. Tapammazsan havayı su.*

*13. Hərəyə bir baxt yazılıb,*
*14. Nə yazılıb – haqq yazılıb.*
*15. Göz yaşı nahaq yazılıb,*
*16. Bu dünyanın üç payı su.*
*1989*

### GÖZYAŞI HAKSIZ YAZILMIŞ

1. Ah, bu zavallı gamlı gözler
2. Kırk arşınlık su kuyusu.
3. Düşmüşüm, çıkamıyorum,
4. O tarafım su, bu tarafım su.

5. Elim gücüme bağırıyor,
6. Yolum dizime bağırıyor,
7. Körpe gözüme bağırıyor:
8. -Ay emmi su, ay dayı su!

9. Su ara derdin geçtiğinde,
10. Su sahili bu vatan.
11. Ne bulsan da bu vatanda,
12. Bulamazsın bedavaya su.

13. Herkese bir baht yazılmış,
14. Ne yazılmış hak yazılmış.
15. Gözyaşı haksız yazılmış,
16. Bu dünyanın üç tarafı su.

### *YAZIQ ADAM (169)*

*1. Sükutuna haray çöküb,*
*2. Allah bilir, nələr çəkir*
*3. Dilini çarmıxa çəkib,*
*4. Sözünü gizləyən adam.*

*5. Ömrünü niyə çeynəyir,*

### ZAVALLI ADAM

1. Sükutuna çığlık çökmüş,
2. Allah biliyor, neler çekiyor
3. Dilini çarmıha germiş,
4. Sözünü gizleyen adam.

5. Ömrünü niye çiğniyor,

*6. Bəxtinə təpikmi dəyib?*
*7. Başını köksünə əyib,*
*8. Özünü gizləyən adam.*

*9. Çox bildiyindən sozalır,*
*10. Bəlkə də səbri azalır.*
*11. Həqiqət gözə yazılır,*
*12. Gözünü gizləyən adam.*

*13. Dərdi dırmaşıb üzünə,*
*14. Sirri yük olub özünə.*
*15. Nə kəfən ölü üzünə,*
*16. Üzünü gizləyən adam!?*
*1987*

6. Bahtına tepik mi değmiş?
7. Başını göğsüne eğmiş,
8. Kendini gizleyen adam.

9. Çok bildiğinden soluyor,
10. Belki de sabrı azalıyor.
11. Hakikat göze yazılıyor,
12. Gözünü gizleyen adam.

13. Derdi tırmanmış yüzüne,
14. Sırrı yük olmuş kendine.
15. Ne kefen ölü yüzüne,
16. Yüzünü gizleyen adam!?

### *ÖLÜMDƏN SONRA (170)*

*1. Allahın ölən bəndəsi*
*2. Çiçək kimi gözəl olur.*
*3. İstər ölsün ya bənnası,*
*4. Ya həkimi... gözəl olur.*

*5. Fikirlərdi baş axıdan,*
*6. Dərd yorulur daşınmaqdan.*
*7. Çox adama yaşamaqdan*
*8. Ölüm hökmü gözəl olur.*

*9. ...Bir anla çox şey devrilir,*
*10. Hər qəlbə sevgi verilir,*
*11. İfritə ölsə, çevrilir,*
*12. Mələk kimi gözəl olur.*

*13. Torpağın yüz adamından*
*14. Bir adamı gözəl olur.*
*15. Hamı gözəl olmasa da,*
*16. Ancaq hamı gözəl ölür...*
*1997*

### ÖLÜMDEN SONRA

1. Allah'ın ölmüş kulu
2. Çiçek gibi güzel oluyor.
3. İster ölsün ya mimarı,
4. Ya hekimi...Güzel oluyor.

5. Fikirlerdir,baş ağrıtan
6. Dert yoruluyor düşünmekten.
7. Çoğu insana yaşamaktansa
8. Ölüm hükmü güzel oluyor.

9. Bir anda çok şey değişiyor,
10. Her kalbe sevgi veriliyor,
11. İfrit ölse, çevriliyor,
12. Melek gibi güzel oluyor.

13. Toprağın yüz insanından
14. Bir insanı güzel oluyor.
15. Hepsi güzel olmasa da,
16. Hepsi güzel ölüyor...

### *YAŞAMAQ (171)*

*1. Tanrı ətəyindən tutub,*
*2. Yaşamaq nə şirin imiş.*
*3. Dərdi, kədəri unudub,*
*4. Yaşamaq nə şirin imiş.*

*5. Yağışa əl aça-aça,*

### YAŞAMAK

1. Tanrı'nın eteğinden tutup,
2. Yaşamak ne tatlı imiş.
3. Derdi kederi unutup,
4. Yaşamak ne tatlı imiş.

5. Yağmura el aça aça,

*6. Alqışa dil aça-aça,*
*7. Düşməyib günaha-suça,*
*8. Yaşamaq nə şirin imiş.*

*9. Bir sevdaya yoldaş olub,*
*10. Gecələrə qardaş olub,*
*11. Dərd üstündə bardaş qurub,*
*12. Yaşamaq nə şirin imiş.*

*13. Əl çırpanda dizimizə,*
*14. Yas qonanda gözümüzə,*
*15. Himləyəndə əcəl bizə,*
*16. Yaşamaq nə şirin imiş.*
*1991*

6. Alkışa dil aça aça,
7. Düşmeyip günaha suça,
8. Yaşamak ne tatlı imiş.

9. Bir sevdaya yoldaş olup,
10. Gecelere kardeş olup,
11. Dert üstüne bağdaş kurup,
12. Yaşamak ne şirin imiş.

13. El vurunca dizimize,
14. Yas konduğunda gözümüze,
15. Göz kırpınca ecel bize,
16. Yaşamak ne tatlı imiş.

***AĞLAYIR (172)***
*(Babam Aşıq Yunusa)*

*1. Kimi öz dərdinə,*
*2. kimi*
*3. Düşüb səs-küyə ağlayır.*
*4. Qocalar son mənzilinə,*
*5. Körpə - beşiyə ağlayır.*

*6. Birisi ağlar acından,*
*7. Birisi ağlar suçundan,*
*8. Ağıllı – ağlı ucundan,*
*9. Dəlilər nəyə ağlayır?*

*10. Qara donu solan saza,*
*11. Öz babamdan qalan saza,*
*12. Barmaqlarım çalan saza*
*13. Ürəyim niyə ağlayır?*
*1986*

**AĞLIYOR**
(Babam Âşık Yunus'a)

1. Kimi kendi derdine,
2. kimi
3. Gürültüye ağlıyor.
4. Yaşlılar son menziline,
5. Körpe, beşiğe ağlıyor.

6. Birisi ağlar acından,
7. Birisi ağlar suçundan,
8. Akıllı aklı yüzünden,
9. Deliler neye ağlıyor?

10. Kara elbisesi solan saza,
11. Öz babamdan kalan saza,
12. Parmaklarımın çaldığı saza
13. Yüreğim niye ağlıyor?

***ƏLİ KƏRİMİN XATİRƏSİNƏ (173)***

*1. Diklənir ömrün dəvəsi,*
*2. İçində karvan həvəsi.*
*3. Pələngin gücü, qüvvəsi*
*4. Hanı qollarda-qollarda?*

*5. Yuxu yatam bircə çimir, -*
*6. Şair olan "yatım" demir.*
*7. Dağ yükünü bir tək ömür*
*8. Çəkir dallarda-dallarda.*

**ALİ KERİM'İN HATIRASINA**

1. Diklenir ömrün devesi,
2. İçinde kervan hevesi.
3. Kaplanın gücü, kuvveti
4. Hani ellerde ellerde?

5. Yattığımda bir küçük uyuklama,
6. Şair olan "yatayım" demiyor.
7. Dağ yükümü bir tek ömür
8. Çekiyor dallarda dallarda.

*9. Gülürəm, gülüşüm laldı,*
*10. Heyrətim ərşə ucaldı.*
*11. Nər tükü ilişib qaldı*
*12. Qara kollarda-kollarda.*

*13. Bu dünyadan məni apar, -*
*14. Qazancı kim tapar, tapar...*
*15. At ayağı daşı çapar*
*16. Polad nallarda, nallarda.*

*17. Tüfəngində giliz hanı? –*
*18. Tutma ovcunda qırmanı.*
*19. Böyük karvanın sarvanı*
*20. Qaldı yollarda-yollarda...*
*1986*

9. Gülüyorum, gülüşüm laldı,
10. Hayretim arşa yükseldi.
11. Deve tüyü ilişip kaldı
12. Kara otlarda otlarda.

13. Bu dünyadan beni götür,
14. Kazancı kim bulur, bulur...
15. At ayağı taşı doğrar
16. Çelik nallarda, nallarda.

17. Tüfeğinde mermi hani?
18. Tutma avucunda saçmayı.
19. Büyük kervanın başı
20. Kaldı yollarda yollarda...

***İSA İSMAYILZADƏNİN XATİRƏSİNƏ (174)***

*1. Gördüyüm kaş yuxu ola,*
*2. Qar yağa, qar ayazıda.*
*3. Nə dar mənzil aldın, ustad,*
*4. Bu boyda Qarayazıda.*

*5. Dərddən qəribsəyən şair,*
*6. Dərddən bezdimi, küsdümü?*
*7. Allah dərdə dərd yağdırır,*
*8. Dərd dərdin örtür üstünü.*

*9. Göz yaşım gözümdə donur,*
*10. Neynim, gecikdim dəfninə.*
*11. Mənə soyuq olar, ustad,*
*12. Bürü məni kəfəninə.*

*13. Bu sükutun fəryadını*
*14. Kim azalda, kim saxlaya?*
*15. Allahın bir bəndəsi yox,*
*16. Məni də sənnən ağlaya...*
*1997*

**İSA İSMAYILZADE'NİN HATIRASINA**

1. Gördüğüm kekşe rüya olsa,
2. Kar yağsa, kar ayazında.
3. Ne dar yol aldın, üstat,
4. Bu boyda Karayazı'da.

5. Derdi garipseyen şair,
6. Dertten bezdi mi, küstü mü?
7. Allah derde dert yağdırıyor,
8. Dert derdin örtüyor üstünü.

9. Gözyaşım gözümde donuyor,
10. Neyleyim, geciktim defnine.
11. Bana soğuk olur, üstat,
12. Bürü beni kefenine.

13. Bu sükutun feryadını
14. Kim azalta, kim saklaya?
15. Allah'ın bir kulu yok,
16. Bana da senle ağlaya...

***YUXUDA SÖHBƏT (175)***

*(Qarabağda itkin düşən qəhrəman eloğlum Telman Qaraoğlu gecələrin birində yuxuma gəldi)*

*1. - Məni tanıdınmı, Rafiq,*

**RÜYADA SOHBET**

(Karabağ'da yitirilen kahraman Telman Garaoğlu gecelerin birinde rüyama girdi.)

1. -Beni tanıdın mı, Rafiq,

*2. Telmanam, Qaranın oğlu.*
*3. - Yüz ildi səni gəzirik,*
*4. Hardasan, viranın oğlu?!*

*5. - Nə var, nə yox Borçalıda,*
*6. Darvaz yenə dumandımı?*
*7. - Sən öz əhvalını söylə,*
*8. Yaxşıdımı, yamandımı?*

*9. - Məni çoxmu özlədilər*
*10. Atam-anam, iki balam?*
*11. - Bu Vətəndə səndən ötrü*
*12. Azmı gözü yolda qalan...*

*13. - Şəhidlər diksinmədimi, -*
*14. Qarabağda duman, çiskin.*
*15. - Məni bağışla, qardaşım,*
*16. Nə şəhidəm, nə də itkin...*
*1999*

2. Telman'ım, Kara'nın oğlu.
3. -Yüz yıldır seni arıyoruz,
4. Nerdesin viranenin oğlu!?

5. -Ne var, ne yok Borçalı'da,
6. Dervaz yine dumanlı mıı?
7. -Sen kendi ahvalini söyle,
8. İyi mi, kötü mü?

9. -Beni çok mu özlediler
10. Babam annem, iki yavrum?
11. -Bu vatanda senden ötürü
12. Az mı gözü yolda kalan...

13. -Şehitler ürpermedi mi,
14. Karabağ'da duman, çise.
15. -Beni bağışla, kardeşim,
16. Ne şehidim, ne de kayıp...

### *GÜLLƏ ÖLÜMÜ (176)*

*1. Boşuna atılan güllə*
*2. Elə boşunaca ölür.*
*3. Uçur... huşunu itirir,*
*4. Yazıq huşunacan ölür.*

*5. Elə boşunaca ölür,*
*6. Göydən ölü yerə düşür.*
*7. İgid kimi gülləyə də*
*8. Ölüm bircə kərə düşür.*

*9. Uçur... huşunacan ölür,*
*10. Damar donur, qan soyuyur.*
*11. Huş – bədənin günəşidi,*
*12. İtən kimi can soyuyur.*

*13. Yazıq – huşunacan ölür,*
*14. Yazıq... boşuna atılır.*
*15. Düşmənə dəyməyən güllə*
*16. Mənim başıma atılır.*
*2002*

### MERMİ ÖLÜMÜ

1. Boşuna atılan mermi
2. Öyle boşuna ölüyor.
3. Uçuyor, aklını yitiriyor,
4. Zavallı aklı ölüyor.

5. Öyle boşuna ölüyor,
6. Gökten ölü yere düşüyor.
7. Yiğit gibi mermiye de
8. Ölüm bir kere düşüyor.

9. Uçuyor... Aklı ölüyor,
10. Damar donuyor, kan soğuyor.
11. Akıl bedenin güneşidir,
12. Yittiği gibi can soğuyor.

13. Zavallı aklı ölüyor,
14. Zavallı... Boşuna atılıyor.
15. Düşmana değmeyen mermi
16. Benim başıma atılıyor.

### *ÖZ ÜZÜNÜ GÖRÜM SƏNİN (177)*

*1. Dəli şeytan, aç niqabın,*

### YÜZÜNÜ GÖREYİM SENİN

1. Deli şeytan, aç duvağını,

*2. Öz üzünü görüm sənin.*
*3. Əyri üzünü çox gördüm,*
*4. Düz üzünü görüm sənin.*

*5. O yellə niyə barışdın?*
*6. O güllə niyə sarışdın?*
*7. O sözlə harda qarışdın? –*
*8. Söz üzünü görüm sənin.*

*9. Gözlərində qatı duman,*
*10. Nə and bilirsən, nə aman.*
*11. Niyə mən yazıq hər zaman*
*12. Boz üzünü görüm sənin?!*

*13. ...Çökür gözümə qaranlıq,*
*14. Yoxsa sənsən bu toranlıq?*
*15. Niqabını aç bir anlıq,*
*16. Döz...üzünü görüm sənin.*
*2001*

2. Yüzünü göreyim senin.
3. Eğri yüzünü çok gördüm,
4. Düz yüzünü göreyim senin.

5. O yelle niye barıştın?
6. O gülle niye sarıldın?
7. O söze nerede karıştın?
8. Söz yüzünü göreyim senin.

9. Gözlerinde katı duman,
10. Ne ant bilirsin ne aman.
11. Niye ben zavallı her zaman
12. Boz yüzünü göreyim senin?!

13. Çöküyor yüzüme karanlık,
14. Yoksa sensin bu alacakaranlık?
15. Duvağını aç bir anlık,
16. Dayan... Yüzünü göreyim senin.

## *BU YÜZ SİFƏTLİ DÜNYAYA (178)*

*1. Bu yüz sifətli dünyaya*
*2. Hərə bir cür gəlib gedir.*
*3. Biri zarıya-zarıya,*
*4. Bir başqası gülüb gedir.*

*5. Biri Allaha vurulur,*
*6. Biri şeytana yar olur,*
*7. Biri dərd, aha sarılır,*
*8. Günü-gündən solub gedir.*

*9. Kim dağ çəkir dosta, yada,*
*10. Öz ömrünü verir bada,*
*11. Sağkən bu qoca dünyada*
*12. Bəlasını bulub gedir.*

*13. Can əritmə kündə-kündə,*
*14. Geri dönmür can gedəndə.*
*15. Sevilməyə layiq bəndə,*
*16. Sevilməsə ölüb gedir.*
*2004*

## BU YÜZ SIFATLI DÜNYAYA

1. Bu yüz sıfatlı dünyaya
2. Herkes bir çeşit gelip gidiyor.
3. Biri ağlaya ağlaya,
4. Bir başkası gülüp gidiyor.

5. Biri Allah'a vuruluyor,
6. Biri şeytana yar oluyor,
7. Biri derde, aha sarılıyor,
8. Günden güne solup gidiyor.

9. Kim dağ çekiyor dosta, düşmana,
10. Kendi ömrünü ediyor berbat
11. Sağken bu koca dünyada
12. Belasını bulup gidiyor.

13. Can eritme topak topak,
14. Geri dönmüyor can gittiğinde.
15. Sevilmeye layık kul,
16. Sevilmese ölüp gidiyor.

## *NƏ ZÜLÜMDÜ OĞUL OLMAQ (179)*

*1. Məni sevdiyim şəhərdən*

## NE ZULÜMDÜR OĞUL OLMAK

1. Beni sevdiğim şehirden

| | |
|---|---|
| *2. Sakitcə sürgün etdilər.* | 2. Sessizce sürgün ettiler. |
| *3. Sözün durulduğu yerdən* | 3. Sözün durulduğu yerden |
| *4. Ayırıb korgün etdilər.* | 4. Ayırıp günlerimi kara ettiler. |
| | |
| *5. Çarı qanun bilməyənlər* | 5. Çarı kanun bilmeyenler |
| *6. Əridi, çürüdü getdi.* | 6. Eridi, çürüdü gitti. |
| *7. Çörək bulub ölməyənlər* | 7. Ekmek bulup ölmeyenler |
| *8. Lal olub, kiridi getdi.* | 8. Lal olup, sustu gitti. |
| | |
| *9. Əziz dostum, doğmadırmı* | 9. Aziz dostum, kardeş midir |
| *10. Şahdağ ilə xan Savalan?* | 10. Şahdağ ile han Savalan? |
| *11. Qalx, Arazın bu tayından* | 11. Kalk, Araz'ın bu tarafından |
| *12. O taya baxıb havalan.* | 12. O tarafa bak çıldır. |
| | |
| *13. Uzun yolların ucunda* | 13. Uzun yolların ucunda |
| *14. Kimsə qalmadı əl edə.* | 14. Kimse kalmadı el sallayacak. |
| *15. Nə zülümdü oğul olmaq* | 15. Ne zulümdür oğul olmak |
| *16. Can bəxş etdiyin millətə.* | 16. Can bahşettiğin millete. |
| | |
| *17. ...Bir şair genidi, getdi,* | 17. Bir şair uzaktı, gitti, |
| *18. Bir oğul daha azaldı.* | 18. Bir oğul daha azaldı. |
| *19. O mənim olan yerə bax,* | 19. O benim olan yere bak, |
| *20. Sən Allah, gör kimə qaldı...* | 20. Sen Allah, gör kime kaldı... |
| *2002* | |

| | |
|---|---|
| ***DÜŞMƏNİ QARDAŞ ELƏYİR (180)*** | **DÜŞMANI KARDEŞ EYLİYOR** |
| | |
| *1. Gizlidən gizli sirləri* | 1. Gizliden gizliye sırları |
| *2. Tanrı açır, faş eləyir.* | 2. Tanrı açıyor ifşa ediyor. |
| *3. Xeyirxaha qapı açır,* | 3. Hayırgâha kapı açıyor, |
| *4. Bədxahları çaş eləyir.* | 4. Bedbahtları sersem eyliyor. |
| | |
| *5. Suç etsən bəndədən xəlvət,* | 5. Suç işlesen insandan gizli, |
| *6. Cəzası gələcək əlbət.* | 6. Cezası gelecek elbet. |
| *7. Tanrı biləndə məsləhət,* | 7. Tanrı verdiğinde nasihat, |
| *8. Düşməni qardaş eləyir.* | 8. Düşmanı kardeş eyliyor. |
| | |
| *9. Zikr içində susanları,* | 9. Zikir içinde susanları, |
| *10. Öz nəfsini pusanları,* | 10. Kendi nefsine pusanları, |
| *11. Rəbbim böyük insanları* | 11. Rabbim büyük insanları |
| *12. Özünə sirdaş eləyir.* | 12. Kendine sırdaş eyliyor. |
| | |
| *13. ... Məst edib, dağ-düyün vurar,* | 13. Mest edip, sineyi dağlar, |
| *14. Qalar bağıra-bağıra,* | 14. Kalır bağıra bağıra, |
| *15. Tanrı, qoyma, bu fağıra* | 15. Tanrı, bırakma, bu fakire |

*16. Boz şeytan göz-qaş eləyir.*
*2004*

16. Boz şeytan kaş göz ediyor.

## *DOSTLAR KÖÇÜR BU DÜNYADAN (181)*

*(Dostum Əlövsət Osmanlının əziz xatirəsinə)*

*1. Dostlar köçür bu dünyadan,*
*2. Ürəyimdə tel qırılır.*
*3. Qalanlar arxasız qalır,*
*4. Könül sınır, bel qırılır.*

*5. Fələk əlinə daş alır,*
*6. Dostların yeri boş qalır...*
*7. Dünya elə bil boşalır,*
*8. Şeir yazan əl qırılır.*

*9. Bir bağrı qan şair yanır,*
*10. Adamlar gülür, hoppanır...*
*11. Daha çiçəklər tapdanır,*
*12. Ayaq altda gül qırılır.*

*13. Dünya – bir qoca şarlatan,*
*14. Dostlar köçür bu dünyadan,*
*15. Şortulara qalır meydan,*
*16. Kişilər qəfil qırılır...*
*2013*

## DOSTLAR GÖÇÜYOR BU DÜNYADAN

(Dostum Elövset Osmanlı'nın Aziz Hatırasına)

1. Dostlar göçüyor bu dünyadan,
2. Yüreğimde tel kırılıyor.
3. Kalanlar desteksiz kalıyor,
4. Gönül kırılıyor, bel kırılıyor.

5. Felek eline taş alıyor,
6. Dostların yeri boş kalıyor...
7. Dünya sanki boşalıyor,
8. Şiir yazan el kırılıyor.

9. Bağrı kan olan bir şair yanıyor,
10. İnsanlar gülüyor, hopluyor...
11. Artık çiçekler çiğneniyor,
12. Ayak altında gül kırılıyor.

13. Dünya, koca bir şarlatan,
14. Dostlar göçüyor bu dünyadan,
15. Ahlaksızlara kalıyor meydan,
16. İnsanlar gafil avlanıyor...

## *SƏSİN CANI NƏFƏSDƏDİ (182)*

*1. Sözüm sənə çatar olsa,*
*2. Kövrəkliyim sənə gəlsin.*
*3. Qəmim səni diksindirsin,*
*4. Qayıdaraq mənə gəlsin.*

*5. O xaraba yurda tuş ol,*
*6. Ula, bircə gün bayquş ol.*
*7. Duaya çevril, alqış ol,*
*8. Gedən ruzin yenə gəlsin.*

*9. Öp sözü, görk etmək üçün,*
*10. Kefini tərk etmək üçün,*
*11. Tanrıya ərk etmək üçün*
*12. Əlinə bəhanə gəlsin.*

*13. Qulağım çoxdan səsdədi,*

## SESİN CANI NEFESTEDİR

1. Sözüm sana ulaşır olsa,
2. Duygusallığım sana gelsin.
3. Gamım seni ürkütsün,
4. Dönerek bana gelsin.

5. O harabe yurda uğra,
6. Ulu, bir tek gün baykuş ol.
7. Dua et, alkış ol,
8. Giden rızkın yine gelsin.

9. Öp sözü, duyurmak için,
10. Keyfini terk etmek için,
11. Tanrı'ya nüfuz etmek için
12. Eline bahane gelsin.

13. Kulağım çoktan sestedir,

*14. Səsin canı nəfəsdədi,*
*15. Şairlər ki, qəfəsdədi,*
*16. Çağırın, məhkəmə gəlsin...*
*2000*

14. Sesin canı nefestedir,
15. Şairler ki, kafestedir,
16. Çağırın mahkeme gelsin...

### *MÜƏMMALI ADAM (183)*

*1. Öz gözündən tökülürsən,*
*2. Nə ağlayır, nə gülürsən.*
*3. Bircə Rəbbimiz bilir: sən*
*4. Ölüsənmi, dirisənmi?*

*5. Yatmırsan...cüt göz al olur,*
*6. Dilində söz gözəl ölür.*
*7. Sükutun nə gözəl olur! –*
*8. Mələksənmi, pərisənmi?*

*9. Baxışın gözdən sakınır,*
*10. Şəstin göylərə toxunur.*
*11. Sən ya şeytanın yaxını,*
*12. Ya bizlərdən birisənmi?*

*13. Bu ucun, o ucun bilinmir,*
*14. Sonun, sonucun bilinmir,*
*15. Günahın, suçun bilinmir –*
*16. Mələklərə cirisənmi?..*
*2000*

### MUAMMALI ADAM

1. Kendi gözünden dökülüyorsun,
2. Ne ağlıyor, ne gülüyorsun.
3. Bir tek Rabbimiz biliyor: Sen
4. Ölü müsün, diri misin?

5. Yatmıyorsan... Çift göz al oluyor,
6. Dilinde söz güzel ölüyor.
7. Sükutunda ne güzel oluyor!
8. Melek misin, peri misin?

9. Bakışın gözden sakınıyor,
10. Boyun göklere dokunuyor.
11. Sen ya şeytanın yakını,
12. Ya bizlerden biri misin?

13. Bu ucun, o ucun bilinmiyor,
14. Sonun, sonucun bilinmiyor,
15. Günahın, suçun bilinmiyor
16. Meleklere düşman mısın?

### *ŞEYTAN TÖRƏMƏLƏRİNƏ (184)*

*1. Qulaq içinə taxılmış*
*2. Tənə də məndən danışır.*
*3.Böcək, milçək, taxtabiti,*
*4. Gənə də məndən danışır.*

*5. O yarğandan nəfəs alan,*
*6. O şeytandan min dərs alan,*
*7. O sevgidən də hirs alan*
*8. Dinəndə məndən danışır.*

*9. Mülkiyə də, polisə də,*
*10. Sağlama da, siflisə də,*
*11. Adama da, iblisə də,*
*12. Cinə də məndən danışır.*

*13. Gedir Azərbaycana da,*

### ŞEYTAN ÇOCUKLARINA

1. Kulağa takılmış
2. Küpe de benden konuşuyor.
3. Böcek, sinek, tahtabiti,
4. Gene benden konuşuyor.

5. O uçurumdan nefes alan,
6. O şeytandan bin ders alan,
7. O sevgiden de hırs alan
8. Söyleyen de benden konuşuyor.

9. Sivile de, polise de,
10. Sağlama da, frengisine de,
11. İnsana da, iblise de,
12. Cine de benden konuşuyor.

13. Gidiyor Azerbaycan’a da,

*14. Qayıdır Gürcüstana da,*
*15. Günəşə də, leysana da,*
*16. Çənə də məndən danışır.*

*17. Ay Allah, bunun dini nə? –*
*18. Gah minir xalqın çiyninə,*
*19. Gah girir toyuq hininə,*
*20. Hinə də məndən danışır.*

*21. Qulu görür, şahı görür,*
*22. Açılan sabahı görür,*
*23. Üstümdə Allahı görür,*
*24. Yenə də məndən danışır.*

*25. Bilmir – məni hər an, hər dəm,*
*26. Rəbbimdir qoruyan şərdən.*
*27. Yazıq... rastlaşanda hərdən,*
*28. Mənə də məndən danışır.*

*2010*

14. Dönüyor Gürcistan'a da,
15. Güneşe de, yağmura da,
16. Çin'e de benden konuşuyor.

17. Ay Allah, bunun dini ne?
18. Kâh biniyor halkın omzuna,
19. Kâh giriyor tavuk kümesine,
20. Kümese de benden konuşuyor.

21. Kulu görüyor, şahı görüyor,
22. Açılan sabahı görüyor,
23. Üstümde Allah'ı görüyor,
24. Yine de benden konuşuyor.

25. Bilmiyor beni her an, her dem,
26. Rabbimdir kouyan şerden.
27. Zavallı... Rastladığında ara sıra,
28. Bana da benden konuşuyor.

## *AĞLIMA HARDAN GƏLDİ (185)*

*1. Ağlıma hardan gəldi:*
*2. Fatma xanımın təndiri,*
*3. Məlikəhmədin bıçağı,*
*4. Məlikməmmədin kəndiri...*

*5. "Fatma xanım təndirdəmi,*
*6. Əl-ayağı kəndirdəmi?"*
*7. ...Boğazın bu kəndir dəmi*
*8. Ağlıma hardan gəldi?*

*9. Ağlıma hardan gəldi:*
*10. Padşahın üç oğlu vardı:*
*11. Biri igid, ağıllı,*
*12. İkisi mərdüməzardı.*

*13. ...Namərd oğul əkən padşah,*
*14. Padşaha güc verən Allah,*
*15. Ağ nərə şartdayan şallaq...*
*16. Ağlıma hardan gəldi?..*

*2006*

## AKLIMA NEREDEN GELDİ...

1. Aklıma nereden geldi:
2. Fatma Hanım'ın tandırı,
3. Melikahmed'in bıçağı,
4. Melikmehmed'in halatı...

5. "Fatma Hanım tandırda mı,
6. Eli ayağı kendirde mi?"
7. Boğazın bu kendir demi
8. Aklıma nereden geldi?

9. Aklıma nereden geldi:
10. Padişahın üç oğlu vardı:
11. Biri yiğit, akıllı,
12. İkisi namertti.

13. Namert oğul iken padişah,
14. Padişaha güç veren Allah,
15. Ak deveye atılan kırbaç...
16. Aklıma nereden geldi?

## *MƏN ÖLÜMDƏN DƏRS ALDIM (186)*

*1. Mən ölümdən dərs aldım,*

## BEN ÖLÜMDEN DERS ALDIM

1. Ben ölümden ders aldım,

*2. Dərs demə mənə, yazıq.*
*3. Sözü dilində burub,*
*4. Tərs demə mənə, yazıq.*

*5. Şərə sən boyun əydin,*
*6. Qoluzorlunu öydün,*
*7. Haqqı deyəni söydün,*
*8. Sus demə mənə, yazıq.*

*9. Vuruldun bu cahana,*
*10. Mülk aldın xana-xana,*
*11. Lirə, dollar bir yana,*
*12. Uydun tümənə, yazıq.*

*13. Çar düdüyü çalırsan,*
*14. Özülsüz ucalırsan.*
*15. Ətrini sən alırsan,*
*16. Çölə, çəmənə yazıq.*

*17. ...Qoynundakı ilandı,*
*18. Halallara dolandı,*
*19. Həm milli qəhrəmandı,*
*20. Belə vətənə yazıq...*

2. Ders deme bana zavallı.
3. Sözü dilinde bürüp,
4. Ters deme bana, zavallı.

5. Şerre sen boyun eğdin,
6. Eşkıyayı övdün,
7. Hakkı diyeni sövdün,
8. Sus deme bana, zavallı.

9. Vuruldun bu cihana,
10. Mülk aldın hane hane,
11. Lira, dolar bir yana,
12. Uydun tümene, zavallı.

13. Çar düdüğü çalıyorsan,
14. Temelsiz yükseliyorsan
15. Itrını sen alıyorsan,
16. Çöle, çimene yazık.

17. Koynundaki yılandı,
18. Helallere dolandı,
19. Hem millî kahramandı,
20. Böyle vatana yazık...

## *TƏZƏ SÖZ DEYƏMMİRƏM (187)*

*1. Təzə söz deyəmmirəm,*
*2. Köhnələr deyib gedib.*
*3. Allahı, peyğəmbəri*
*4. Dahilər öyüb gedib.*

*5. Tac ilə taxta çıxan,*
*6. Dırmanıb baxta çıxan,*
*7. Zamanla gəştə çıxan*
*8. Boynunu əyib gedib.*

*9. Göy əski düyləyənlər,*
*10. Bəd dua söyləyənlər,*
*11. Özgəni çeynəyənlər*
*12. Özünü yeyib gedib.*

*13. ...Dünyaya bildir gəlib,*
*14. Və ya min ildir gəlib –*
*15. Nə qədər şair gəlib,*

## YENİ SÖZ SÖYLEYEMİYORUM

1. Yeni söz söyleyemiyorum,
2. Eskiler deyip gitmiş.
3. Allah'ı, peygamberi
4. Dahiler övüp gitmiş.

5. Taç ile tahta çıkan,
6. Tırmanıp bahta çıkan,
7. Zamanla gezmeye çıkan
8. Boynunu eğip gitmiş.

9. Kötülüğü isteyenler,
10. Beddua söyleyenler,
11. Başkasını çiğneyenler
12. Kendini yiyip gitmiş.

13. Dünyaya geçen yıl gelmiş,
14. Veya bin yıl önce gelmiş
15. Ne kadar şair gelip geçmiş,

*16. Bəxtini söyüb gedib.*

*1992*

16. Bahtını sövüp gitmiş.

### *ÇİLİKLƏNMİŞ GÜZGÜYƏM (188)*

*1. Özümü görəmmirəm*
*2. Bu səhrada, bu çöldə,*
*3. Çiliklənmiş aynayam,*
*4. Hər qırığım bir əldə.*

*5. Hər qırığım bir əldə,*
*6. Baxanlar güzgülənir,*
*7. A cəllad, aynaya bax,*
*8. Çıxartma göz giləmi.*

*9. Aynayam qırıq-qırıq,*
*10. Hara baxım mən fağır?*
*11. Sulara boylanıram,*
*12. Ona da yağmur yağır.*

*13. Çiliklənmiş aynayam,*
*14. Hər qırığım bir əldə.*
*15. Çiliklənmiş tikəmi*
*16. Çilikləyin bir əl də...*

*2001*

### PARÇALANMIŞ AYNAYIM

1. Kendimi göremiyorum
2. Bu sahrada, bu çölde,
3. Parçalanmış aynayım,
4. Her kırığım bir elde.

5. Her kırığım bir elde,
6. Bakanlar kendini görüyor.
7. A cellat aynaya bak,
8. Çıkartma gözbebeğimi.

9. Aynayım kırık dökük,
10. Nereye bakayım ben fakir?
11. Sulara uzanıyorum,
12. Ona da yağmur yağıyor.

13. Parçalanmış aynayım,
14. Her kırığım bir elde.
15. Parçalanmış parçamı
16. Yapıştırın bir elde...

### *XAHİŞ (189)*

*1. Heykəl tək dolan başına,*
*2. Mənim eşqimi büt elə.*
*3. Bir dəstə qərənfil gətir,*
*4. Amma sayını cüt elə.*

*5. Hifz et mənim son adımı,*
*6. Göy üzünə yon adımı.*
*7. Görsən bəyaz qanadımı,*
*8. Qumru dilində fit elə.*

*9. Sinədə bir ah çırpınır,*
*10. Sudan çıxıb, Nuh çırpınır.*
*11. Qara donda ruh çırpınır,*
*12. Soyundur onu, lüt elə.*

*13. ...Bu dünya sənin yerindi,*
*14. Qımışdın dişin göründü.*
*15. Mənim ətim şipşirindi,*

### DİLEK

1. Heykel gibi dolan başına,
2. Benim aşkımı put eyle.
3. Bir deste karanfil getir
4. Ama sayısını çift eyle.

5. Ezberle benim son adımı,
6. Gökyüzüne kazı adımı.
7. Görürsen beyaz kanadımı,
8. Kumru dilinde ıslık eyle.

9. Sinede bir ah çırpınıyor,
10. Sudan çıkmış, Nuh çırpınıyor.
11. Kara elbisede ruh çırpınıyor,
12. Soy onu, çıplak eyle.

13. Bu dünya senin yerindi,
14. Gülümsedin dişin göründü.
15. Benim etim taptalıydı,

*16. Bir az duz artır, şit elə.*
*2000*

16. Biraz tuz at, tatsız eyle.

## *BİZ Kİ, BİR CAHANDA İDİK (190)*

*1. Biz bir zaman birdik, yarım,*
*2. Bir ətdə, bir qanda idik.*
*3. Yaşayırdıq bir bədəndə,*
*4. İkimiz bir canda idik.*

*5. Mən səndəydim, sən də məndə,*
*6. Ömür keçmirdi sürgündə.*
*7. Bəxtimiz şəfəq rəngində,*
*8. Özümüz ağ donda idik.*

*9. Bilə-bilə Allah haqdı,*
*10. Biz eşqin cızından çıxdıq.*
*11. Dönüb yan-yörəyə baxdıq,*
*12. Hərəmiz bir yanda idik.*

*13. ...Ruhumuz çəkildi göyə,*
*14. Döndük yiyəsiz dəliyə:*
*15. - Qovuşmadıq görən niyə,*
*16. Biz ki, bir cahanda idik!?*
*1993*

## BİZ Kİ, BİR CİHANDAYDIK

1. Biz bir zaman birdik, yarim,
2. Bir ette, bir kanda idik.
3. Yaşıyorduk bir bedende,
4. İkimiz bir canda idik.

5. Ben sendeydim, sen de bende,
6. Ömür geçmiyordu sürgünde.
7. Bahtımız şafak renginde,
8. Kendimiz ak elbisede idik.

9. Bile bile Allah haktı,
10. Biz aşkın çizgisinden çıktık.
11. Dönüp etrafa baktık,
12. Hepimiz bir yanda idik.

13. Ruhumuz çekildi göğe,
14. Döndük sahipsiz deliye:
15. -Kavuşamadık acaba niye,
16. Biz ki, bir cihanda idik!?

## *BU QIZ (191)*

*1. Karı sevdi, koru sevdi,*
*2. Cəhənnəmi, goru sevdi.*
*3. Cavan sevdi, qarı sevdi,*
*4. Bu qız məni sevəmmədi.*

*5. Sulara yuxu danışdı,*
*6. Baxdı göylərə, qımışdı,*
*7. Axdı qanıma qarışdı,*
*8. Bu qız məni sevəmmədi.*

*9. Dərd olub qəlbimə girdi,*
*10. Sevgisini kimə verdi?*
*11. Bu nə tilsim, bu nə sirdi –*
*12. Bu qız məni sevəmmədi?!*

*13. Güləndə gülmədim deyə,*
*14. Eşqini bölmədim deyə,*
*15. Dərdindən ölmədim deyə,*

## BU KIZ

1. Sağırı sevdi, körü sevdi,
2. Cehennemi, koru sevdi.
3. Genci sevdi, yaşlıyı sevdi,
4. Bu kız beni sevmedi.

5. Sulara rüya anlattı,
6. Baktı göklere, gülümsedi,
7. Aktı kanıma karıştı,
8. Bu kız beni sevmedi.

9. Dert olup kalbime girdi,
10. Sevgisini kime verdi?
11. Bu ne tılsım, bu ne sırdı
12. Bu kız beni sevmedi?!

13. Güldüğünde gülmedim diye,
14. Aşkını bölmedim diye,
15. Derdinden ölmedim diye,

*16. Bu qız məni sevəmmədi.*

*1988*

16. Bu kız beni sevmedi.

### *NƏ QALASI (192)*

*1. Mən də bu əsrin övladı,*
*2. Mən də bu dövrün balası.*
*3. Sağılıb-çürümüş südəm,*
*4. Tanrım, məni kim çalası?*

*5. Ölümdü bəxtin son payı,*
*6. Xərcləndi ömrüm havayı.*
*7. Bir büküm dərddən savayı*
*8. Məndən sizə nə qalası?*

*9. Bir sonu var min günahın,*
*10. Kaş tutmaya məni ahın.*
*11. Nə bilmək olur, Allahın*
*12. Çoxdu xatası-balası.*

*13. Bir gün fələk məni yıxsa,*
*14. Mənsizlik ruhunu sıxsa,*
*15. Məzarımdan tüstü çıxsa,*
*16. Torpağıma su cala, su.*

*1990*

### NE KALESİ

1. Ben de bu asrın evladı,
2. Ben de bu devrin yavrusu.
3. Sağılıp çürümüş sütüm,
4. Tanrım, beni kim mayalasın?

5. Ölümdür bahtın son payı,
6. Harcandı ömrüm havadan.
7. Bir tomar dertten başka
8. Benden size ne kalsın?

9. Bir sonu var bin günahın,
10. İnşallah tutmaz beni ahın.
11. Bilinmez, Allah'ın
12. Çoktur belası.

13. Birgün felek beni yıksa,
14. Bensizlik ruhunu sıksa,
15. Mezarımdan duman çıksa,
16. Toprağıma su çal, su.

### *O GÖZLƏR (193)*

*1. Çox baxıram gözlərinə,*
*2. Baxıram... öləsim gəlir.*
*3. Ölüb – o gözlərdən ötrü*
*4. Dünyaya gələsim gəlir.*

*5. O gözlərin giləsində*
*6. Bəxtimin rəngi görünür.*
*7. Baxırsan... çıl-çılpaq ömrüm*
*8. Titrək bir eşqə bürünür.*

*9. Aynamıza yazı yazır*
*10. Apreli sevən yağışlar.*
*11. Biz sussaq da, pıçıldaşır*
*12. Lal bildiyimiz baxışlar.*

*13. Səndən uzaqlarda olsam,*
*14. Sanma yüzünə baxıram.*
*15. Qapayıb öz gözlərimi,*

### O GÖZLER

1. Çok bakıyorum gözlerine,
2. Bakıyorum… Ölesim geliyor.
3. Ölüp o gözlerden ötürü
4. Dünyaya gelesim geliyor.

5. O gözlerin bebeğinde
6. Bahtımın rengi görünüyor.
7. Bakıyorsun…Çırılçıplak ömrüm
8. Titrek bir aşka bürünüyor.

9. Aynamıza yazı yazıyor
10. Nisanı seven yağmurlar.
11. Biz sussak da, fısıldaşıyor
12. Lal bildiğimiz bakışlar.

13. Senden uzaklarda olsam,
14. Sanma yüzüne bakıyorum.
15. Kapayıp gözlerimi,

*16. Sənin gözünə baxıram.*

*17. O gözlərdə görürəm mən,*
*18. Gözüm qalan mirasını,*
*19. Eşq içində sehrlənmiş*
*20. Qan daman ehtirasını...*
*2010*

16. Senin gözlerine bakıyorum.

17. O gözlerde görüyorum ben,
18. Arzu ettiğim güzellikleri,
19. Aşk içinde sihirlenmiş
20. Kan damlayan ihtirasını…

***AYRILDIQ (194)***

*1. Yer ayrılmır, yerə girəm,*
*2. Səni görüb göynəyirəm.*
*3. Sözlərini çeynəyirəm*
*4. Qonşunun çörəyi kimi.*

*5. Bu hava qar havasıdı,*
*6. Yazla qışın davasıdı,*
*7. Ürəyin sirr yuvasıdı,*
*8. Şeytanın ürəyi kimi.*

*9. Xatirələr – göz dağımız,*
*10. Bir deyilmiş torpağımız.*
*11. Saldın neçə yarpağımı*
*12. Sən, payız küləyi kimi.*

*13. Ayrıldıq... yanaq yaşlandı,*
*14. Başlandı... dava başlandı.*
*15. Gözün gözümə tuşlandı*
*16. Tüfəngin lüləyi kimi.*
*1989*

**AYRILDIK**

1. Yer ayrılmıyor, yere gireyim,
2. Seni görüp içleniyorum.
3. Sözlerini çiğniyorum
4. Komşunun ekmeği gibi.

5. Bu hava kar havasıdır,
6. Baharla kışın davasıdır.
7. Yüreğin sır yuvasıdır,
8. Şeytanın yüreği gibi.

9. Hatıralar göz dağımız,
10. Bir değilmiş toprağımız
11. Saldın kaç yaprağını
12. Sen, sonbahar rüzgarı gibi.

13. Ayrıldık...Yanak yaşlandı,
14. Başladı...Dava başladı.
15. Gözün gözüme dikildi
16. Tüfeğin namlusu gibi.

***İLAN NƏĞMƏSİ (195)***

*1. İlanmı gülləyə uçur,*
*2. Gülləmi ilana sarı?*
*3. İlan mənə dolanammaz,*
*4. Sən məni ilana sarı!*

*5. İlan mənə dolanammaz,*
*6. Doğuşum İlan ilində.*
*7. Zalım qızı, sarmaş mənə,*
*8. Oxuyum ilan dilində.*

*9. Qollarımı açıq saxla,*
*10. Əl yeri əylə belində.*
*11. Sarmaş mənə, mən oxuyum,*

**YILAN ŞARKISI**

1. Yılan mı mermiye uçuyor
2. Mermi mi yılana doğru?
3. Yılan bana dolanamaz,
4. Sen beni yılana sar!

5. Yılan bana dolanamaz,
6. Doğumum yılan yılında
7. Zalim kızı, sarıl bana,
8. Konuşayım yılan dilinde.

9. Kollarımı açık bırak
10. Elime yer aç belinde.
11. Sarıl bana, ben konuşayım,

*12. Oxuyum ilan dilində.*

*13. İlan gülləyə şığıyır,*
*14. Şair olan sözə sarı.*
*15. Sən məni ilan dilində*
*16. Oxunan son sözə sarı!*
*2000*

12. Konuşayım yılan dilinde.

13. Yılan mermiye saldırıyor,
14. Şair olan söze doğru.
15. Sen beni yılan dilinde
16. Söylenen son söze sar!

***SON GÖRÜŞ (196)***

*1. Baxdım...*
*2. Sanki bu son baxış*
*3. Sevgimizin əynidir.*
*4. Gözümüzüm rəngi ayrı,*
*5. Göz yaşımız eynidir.*

*6. Dönüb-dönüb bir də baxdım,*
*7. Sanki son dəfə sənə.*
*8. İstədim deyəm ki, məni*
*9. Kəfənə bələsənə.*

*10. Demədim.*
*11. Sözüm soyudu,*
*12. Dilimdə buza döndü.*
*13. Yanağımda yaş da dondu,*
*14. Səssiz ulduza döndü.*

*15. Demədim.*
*16. Hər şey lal oldu –*
*17. Yer də, göy də, hava da.*
*18. ...Üç quş yaşaya bilməz ki*
*19. İki quşluq yuvada...*
*1988*

**SON BAKIŞ**

1. Baktım...
2. Sanki bu son bakış
3. Sevgimizin elbisesidir.
4. Gözümüzün rengi başka,
5. Göz yaşımız aynıdır.

6. Dönüp bir de baktım,
7. Sanki son kere sana.
8. İstedim ki diyeyim, beni
9. Kefene sarsana.

10. Demedim.
11. Sözüm soğudu,
12. Dilimde buza döndü.
13. Yanağımda yaş da dondu,
14. Sessiz yıldıza döndü.

15. Demedim.
16. Her şey lal oldu
17. Yer de, gök de, hava da.
18. Üç kuş yaşayamaz ki
19. İki kuşluk yuvada...

***HAMIDAN ALDIN MƏNİ (197)***

*1. Dünyada bir mən, bir sən,*
*2. Tanrı tək sən də birsən.*
*3. Müəmma, sehr, sirsən,*
*4. Səni qavraya bilməm.*

*5. Dəli bir yağmur yağır,*
*6. İçimdə şimşək çaxır,*
*7. Gözün gözümə baxır,*
*8. Qəlbin haraya, bilməm.*

**HEPSİNDEN ALDIN BENİ**

1. Dünyada bir ben, bir sen,
2. Tanrı gibi sen de birsin.
3. Muamma, sihir, sırsın,
4. Seni kavrayamadım.

5. Deli bir yağmur yağıyor,
6. İçimde şimşek çakıyor,
7. Gözün gözüme bakıyor,
8. Kalbin nereye, bilmem.

*9. Aradın, buldun məni,*
*10. Hamıdan aldın məni,*
*11. Nə hala saldın məni...*
*12. Aşkar, ya röya, bilməm.*

*13. İstəyin soğur məni,*
*14. Qolların boğur məni,*
*15. Tapıbsan fağır məni,*
*16. Ya dəli, deyə bilməm.*
*1988*

9. Aradın, buldun beni,
10. Hepsinden aldın beni,
11. Ne hâle saldın beni...
12. Aşikâr, ya rüya, bilmem.

13. İsteğin soğutuyor beni,
14. Ellerin boğuyor beni,
15. Bulmuşsun fakir beni,
16. Ya deli, diyemem.

### *QARANLIQ (198)*

*1. Yenə söndü işıqlar,*
*2. Yenə uzandı gecə.*
*3. Səmada çiçəklədi*
*4. Ulduzlar bircə-bircə.*

*5. Yenə işıqlar söndü,*
*6. Yenə zaman dayandı.*
*7. Bu milyonluq şəhərdə*
*8. Beş-onca lampa yandı.*

*9. Yenə işıqlar söndü,*
*10. Bir dəqiqəlik sükut...*
*11. Oyan, milyonluq şəhər,*
*12. Zaman dayanıbdı, tut!*

*13. Yenə söndü işıqlar,*
*14. Küçə - yalquzaq çölü.*
*15. - Gecə işıq sönmüşdü...*
*16. - Nə bilirsən, ay dəli?..*
*1992*

### KARANLIK

1. Yine söndü ışıklar,
2. Yine uzandı gece.
3. Semada çiçeklendi
4. Yıldızlar bir bir.

5. Yine ışıklar söndü,
6. Yine zaman durdu.
7. Bu milyonluk şehirde
8. Beş on lamba yandı.

9. Yine ışıklar söndü,
10. Bir dakikalık sükut...
11. Uyan milyonluk şehir,
12. Zaman durmuş, tut!

13. Yine ışıklar söndü,
14. Sokak, yalnız kurt çölü.
15. -Gece ışık sönmüştü...
16. -Ne biliyorsun, ey deli?

### *ETİRAF (199)*

*1. Səni canım qədər sevdim,*
*2. Bircə şeir yazmadım.*
*3. Səni ürəyimə yazdım,*
*4. Amma ordan pozmadım.*

*5. Sellər də cumdu bizə,*
*6. Yellər də cumdu bizə,*
*7. Dəyib lal sevgimizə,*
*8. Qanadları qırıldı.*

### İTİRAF

1. Seni canım kadar sevdim,
2. Bir tek şiir yazmadım.
3. Seni yüreğime yazdım,
4. Ama oradan bozamadım.

5. Seller de geldi bize,
6. Yeller de geldi bize,
7. Değip lal sevgimize,
8. Kanatları kırıldı.

*9. Fələkdən neçə dəfə*
*10. Qəfil zərbələr yedik,*
*11. Yenə Tanrını öyüb,*
*12. Ona nəğmələr dedik.*

*13. Səni canım qədər sevdim,*
*14. Salmadım dil-ağıza.*
*15. Səni ürəyimə yazdım,*
*16. Qısqandım ağ kağıza...*
*2004*

9. Felekten kaç defa
10. Gafil darbeler yedik,
11. Yine Tanrı'yı övüp
12. Ona türküler söyledik.

13. Seni canım kadar sevdim,
14. Salmadım dile ağıza.
15. Seni yüreğime yazdım,
16. Kıskandım ak kâğıttan...

### *ŞAİR ÖMRÜ (200)*

*1. Şair ömrü dəm-dəsgaha uyğunlaşmır ki,*
*2. Şair olan öz dərdini özüylə bölür.*
*3. İşdir, ürək birdən dərdə tab gətirməsə,*
*4. Ay nurunda çiçəkləmiş sözüylə bölür.*

*5. Şair ömrü xana-şaha uyğunlaşmır ki,*
*6. Dövran var ki, qul şah olur, şah da didərgin.*
*7. Bir ömürdə neçə şaha vurulsun şair –*
*8. Şah var adil, şah var göyçək, şah da var çirkin.*

*9. Şair ömrü hər günaha uyğunlaşmır ki,*
*10. Hər günahın arxasında bir zalım durur.*
*11. Mən neyniyim, anam mənim, yalın əlimlə*
*12. Kimi çəkib qaldırıram, bir zalım vurur.*

*13. Şair ömrü hər gün aha uyğunlaşmır ki,*
*14. Ahdı, çəkir, çəkir, çəkir...*
*15. Ah ki, tükənmir.*
*16. Öz içində ölüm ilə vuruşur şair,*
*17. Deyirlər ki, bir balaca dərdi çəkəmmir.*

*18. Şair ömrü dəm-dəsgaha uyğunlaşmır ki,*
*19. Bizlər onsuz da çox uyduq dəsgaha, baba.*
*20. Cah-cəlalı sevən kəslər çox gözəl bilir:*
*21. Səsi heç vaxt çatmayacaq sabaha, baba...*
*2001*

### ŞAİR ÖMRÜ

1. Şair ömrü düzene uymuyor ki,
2. Şair olan derdini kendisiyle bölüşüyor.
3. Eğer, yürek derde dayanmasa,
4. Ay nurunda çiçeklenmiş sözüyle bölüşüyor.

5. Şair ömrü hana, şaha uymuyor ki,
6. Devran ki, kul şah oluyor, şah da avare.
7. Bir ömürde kaç şaha vurulsun şair
8. Şah var adil, şah var gökçek, şah da var çirkin.

9. Şair ömrü her günaha uymuyor ki,
10. Her günahın arkasında bir zalim duruyor.
11. Ben neyleyim, anam benim, yalın elimle
12. Kimi çekip kaldırısam, bir zalim vuruyor.

13. Şair ömrü her gün aha uymuyor ki,
14. Ahtır, çekiyor, çekiyor, çekiyor...
15. Ah ki, tükenmiyor.
16. Kendi içinde ölüm ile vuruşuyor şair,
17. Diyorlar ki, küçücük bir derdi çekemiyor.

18. Şair ömrü düzene uymuyor ki,
19. Bizler onsuz da çok uyduk düzene, dede.
20. Azameti seven kimseler çok güzel biliyor:
21. Sesi hiçbir vakit ulaşmayacak sabaha, dede...

### *SÖZÜMLƏ DANIŞIRAM (201)*

*1. Bəxtim yol tək açılır – düşəndə zinrik gecə,*
*2. Mən Ay-ulduzla deyil, özümlə danışıram.*
*3. Uçub qonsa aynama narın yağmur damcısı,*
*4. O damcını söz edib, sözümlə danışıram.*

### SÖZÜMLE KONUŞUYORUM...

1. Bahtım yol gibi açılıyor düştüğünde zifiri gece,
2. Ben ay yıldızla değil, kendimle konuşuyorum.
3. Uçup konsa camıma narin yağmur damlası,
4. O damlanın sözünü edip sözümle konuşuyorum.

*5. Gecə düşür... gündüzün rəngi-ruhu saralır,*
*6. Yan-yörəmdə şeytanın yeri-yurdu daralır.*
*7. Görsəm ki, həmdəmim yox, dərd sinəmə sarılır*
*8. Dizimi qucaqlayıb, dizimlə danışıram.*

*9. Dışarıdan bürüyür pəncərəmi qaranlıq,*
*10. Pəncərəm ayna olur – yaxın düşmür haramlıq.*
*11. O ayna qənşərində yarım anlıq, bir anlıq*
*12. Qaşımla, kirpiyimlə, gözümlə danışıram.*

*13. Bir gilə nar dənəsi mənə nardan genişdi,*
*14. Ay-illə ölçülürsə, dünya hardan genişdi?!*
*15. Bu dar odam gecələr səhralardan genişdi,*
*16. Çox məni bulmasa da, azımla danışıram.*
*2001*

5. Gece iniyor...Gündüzün rengi ruhu sararıyor,
6. Etrafımda şeytanın yeri yurdu daralıyor.

7. Görsem ki dostum yok, dert sineme sarılıyor.
8. Dizimi kucaklayıp, dizimle konuşuyorum.

9. Dışarıdan bürüyor penceremi karanlık,

10. Pencerem ayna oluyor yakın düşmüyor haram.
11. O ayna karşısında yarım anlık, bir anlık
12. Kaşımla, kirpiğimle, gözümle konuşuyorum.

13. Bir küçük nar tanesi bana nardan büyüktür,
14. Ay yılla ölçülürse, dünya nereden büyüktür?!
15. Bu dar odam geceleri sahralardan büyüktür,
16. Çok beni bulmasa da, azımla konuşuyorum.

## *UÇUNARMI? (202)*

*1. Nə müddətdi toy çalınır,*
*2. Kif canda kin oynayır;*
*3. Qırx şaqqaya parçalanıb,*
*4. Hər yanda din oynayır;*
*5. Ac-yalavac quzuya bax –*
*6. Gözündə cin oynayır;*
*7. Tayası yanan çəmənlik*
*8. Savaba uçunarmı?*

*9. Könlü ləşkər havasında*
*10. Ləşkərindən gen düşən;*
*11. Gedə-gedə yarıyolda*
*12. Saçlarına dən düşən;*
*13. Mələk sanıb, qismətinə*
*14. Bir iynəli cin düşən;*
*15. Cihad edib narda yanan*
*16. Cihada uçunarmı?*

*17. Əyrilər yüz kəkələsin,*
*18. Sən düz elə, düzdə çaş;*
*19. Ömrü yarımçıq eləmə,*
*20. Doxsana çıx, yüzdə çaş;*
*21. O tavana yüz nəzər sal,*
*22. Yüz heyrətlən, yüz də çaş –*
*23. Kəndiri kəsilən boğaz*

## **İSTER Mİ?**

1. Ne müddettir düğün oluyor,
2. Keyifli canda kin oynuyor;
3. Kırk parçaya bölünmüş,
4. Her yanda din oynuyor;
5. Aç susuz kuzuya bak
6. Gözünde cin oynuyor;
7. Otu yanan çimenlik
8. Sevabı ister mi?

9. Gönlü asker havasında
10. Askerinden uzak düşen;
11. Gide gide yarı yolda
12. Saçlarına ak düşen;
13. Melek sanıp kısmetine
14. Bir iğneli cin düşen;
15. Cihat edip ateşte yanan
16. Cihadı ister mi?

17. Eğriler yüz kekelesin,
18. Sen doğruyu yap, doğruda şaş;
19. Ömrü yarım eyleme,
20. Doksana çık, yüzde şaş;
21. O tavana yüz kere bak,
22. Yüz hayretlen, yüz de şaş
23. Halatı kesilen boğaz

*24. Havada uçunarmı?*

*25. İçi müjdə harayında,*
*26. Hey muştuluq gözləyən;*
*27. Qarı düşmən sınırından*
*28. Qan-qışqırıq gözləyən;*
*29. Gözü tacir süfrəsində*
*30. Qalıq-quluq gözləyən;*
*31. Sülh içində canı çıxan*
*32. Davaya uçunarmı?*

*33. Ağ at yalın ayağınnan*
*34. Baxar nala, cavab yox;*
*35. Alim olan – daş altında*
*36. Ölüb qala, cavab yox;*
*37. Hər cavaba min sual var,*
*38. Hər suala cavab yox,*
*39. Min il açılmayan düstur*
*40. Cavaba uçunarmı?..*
*2002*

24. Havada sallanabilir mi?

25. İçi müjde çığlığında,
26. Hey müjde bekleyen;
27. Eski düşman sınırından
28. Kan kavga bekleyen;
29. Gözü tacir sofrasında
30. Döküntü bekleyen;
31. Sulh içinde canı çıkan
32. Davayı ister mi?

33. Ak at yalın ayağından
34. Bakar nala, cevap yok;
35. Alim olan  taş altında
36. Ölüp kalsa, cevap yok;
37. Her cevaba bin sual var,
38. Her suale cevap yok,
39. Bin yıl açılmayan düstur
40. Cevabı ister mi?

## *BAXIŞINI MƏNDƏN  DÖNDƏR (203)*

*1. Canım tayqa boranında, könlüm Sibir sürgünü,*
*2. Öz içimin işığında qızınmaqdan doymuram.*
*3. Mən ruhumun libasıyam, sözlərim də eşqimin,*
*4. Eşqimi sözlərə büküb, üşüməyə qoymuram.*

*5. Gün nar odu saça-saça, yay niyə sazaq oldu?*
*6. Yurd içində yaşayana yurd niyə uzaq oldu?*
*7. Sürüsündən ayrı düşüb qurd da yalquzaq oldu,*
*8. Daha nələr, nələr oldu... dil tutulur, saymıram.*

*9. Bu dağınıq yığval ilə bir nizamın yiyəsi,*
*10. Bir ölçünün, bir meyarın, bir mizanın yiyəsi,*
*11. Öz içində özü üçün qır qazanın yiyəsi –*
*12. Özgə fikri oxusam da, özgə beyni oymuram.*

*13. Mən mey içdiyim piyalə nə şüşədi, nə saxsı,*

## BAKIŞINI BENDEN ÇEVİR

1. Canım tundra boranında, gönlüm Sibirya sürgünü,
2. Kendi içimin ışığında yanmaya doymuyorum.
3. Ben ruhumun elbisesiyim, sözlerim de aşkımın,
4. Aşkımı sözlere büküp, üşümeye bırakmıyorum.

5. Güneş ateşi saça saça, yaz niye ayaz oldu?
6. Yurt içinde yaşayana yurt niye uzak oldu?
7. Sürüsünden ayrı düşüp kurt da yalnız kurt oldu,
8. Daha neler, neler oldu...dil tutuluyor, saymıyorum.

9. Bu dağınık talih ile bir nizamın sahibi,
10. Bir ölçünün, bir düzenin, bir terazinin sahibi,
11. Kendi içinde kendin için kır kazanın sahibi
12. Başka düşünceleri okusam da, başka beyni oymuyorum.

13. Benim şarap içtiğim kadeh ne şişe, ne saksı,

*14. Yol gedirəm, nə olsun ki, arxa oddu, qabaq su.*
*15. Baxışını məndən döndər, a qaramat dabbaxçı,*
*16. Dərisi soyulan mənəm, mən ha dəri soymuram.*

*2001*

***YADINDAMI? (204)***

*1. Yadındamı, mən canımı sənə fəda eylədim,*
*2. Sənin dərdini teylədim, öz dərdimi əylədim.*
*3. A zavallı, açıq söylə, söylə, sənə neylədim,*
*4. Söylə, sənə neylədim ki,Yalıncığa döndün sən?*

*5. Yadındamı, bir ahına min dəfə ah çəkərdim,*
*6. Günah sənin ola-ola mən də günah çəkərdim.*
*7. Sənin o dunux rəsmini pozub, Allah çəkərdim,*
*8. Əngin səmalar var ikən, niyə yerə endin sən?*

*9. Yadındamı, sənin üçün qızıl alma gəzirdim,*
*10. Kölgəsində dincəlməyə bir cüt palma gəzirdim.*
*11. Nə biləydim, sən özünə o vaxt çalma gəzirdin,*
*12. O çalmanı örtən kimi ular-ular dindin sən.*

*13. Özünə bax, sözünə bax, sonra da özgəyə bax,*
*14. Hərənin öz siması var: türkə bax, ləzgiyə bax.*
*15. Biri haqda söz deyəndə öncə dön güzgüyə bax,*
*16. O kəsdiyin budaq söylər ona necə mindin sən...*

*2010*

***GERÇƏK (205)***

*1. Külək çırpan qapıların dəstəyi olmaz,*
*2. Yel vurub yengələr oynar fağır evində.*
*3. Min il keçə... qəhqəhəyə dönməz gülüşün,*
*4. Otur canım, otur gözüm, ağır... evində.*

14. Yol gidiyorum, ne olsun ki, arkası ateşti, önü su.
15. Bakışını benden çevir, a uğursuz tabakçı,
16. Derisi soyulan benim, ben ha deri soymuyorum.

**AKLINDA MI?**

1. Aklında mı, ben canımı sana feda eyledim,
2. Senin derdini alıp, kendi derdim eyledim.
3. A zavallı, açıkça söyle, söyle, sana neyledim,
4. Söyle, sana neyledim ki Yalıncık'a döndün sen?

5. Aklında mı, bir ahına bin defa ah çekerdim,
6. Günah senin olsa ben de günah çekerdim.
7. Senin o zavallı resmine bakar Allah'ı hatırlardım,
8. Engin semalar var iken, niye yere indin sen?

9. Aklında mı, senin için kızıl elma arıyordum,
10. Gölgesinde dinlenmeye bir çift palmiye arıyordum.
11. Nereden bilirdim, sen kendine o vakit başörtüsü arıyordun,
12. O başörtüyü örttüğün gibi hemen değiştin sen.

13. Kendine bak, sözüne bak, sonra da başkasına bak,
14. Herkesin kendi siması var,Türk'e bak, Lezgi'ye bak.
15. Biri hakkında söz söylediğinde önce dön aynaya bak,
16. O kestiğin budak söyler ona nasıl bindin sen...

**GERÇEK**

1. Rüzgarın çarptığı kapıların desteği olmaz,
2. Yel vurup yengeler oynar fakir evinde.
3. Bin yıl geçse...Kahkahaya dönmez gülüşün,
4. Otur canım, otur gözüm, ağır...Evinde.

*5. Tanrı özü möhür basır – kimə nə verir,*
*6. Hər bəndənin öz yasası, öz yapısı var.*
*7. Hamı cahanda ağadır; sən ağanın da*
*8. Söz bağçası, söz sarayı, söz qapısı var.*

5. Tanrı kendi mühür basıyor, kime ne veriyor,
6. Her insanın kendi yasası, kendi yapısı var.
7. Hepsi cihanda ağadır; senin ağanın da
8. Söz bahçesi, söz sarayı, söz kapısı var.

*9. Min il keçə... qəhqəhəyə dönməz gülüşün,*
*10. Qəhqəhənin sirdaşıdı şeytan avazı.*
*11. Çıxart yasdan – qara dondan, görk elə, göstər,*
*12. Cinə iynə göstərən tək – şeytana sazı.*

9. Bin yıl geçse... Kahkaya dönmez gülüşün,
10. Kahkahanın sırdaşıdır şeytan sesi.
11. Çıkart yastan, kara elbiseden, duyur, göster,
12. Cine iğne gösterir gibi şeytana sazı.

*13. Ah eləmə yer üzünün sərvəti üçün,*
*14. Yer üzünün varı-halı ahına düşmür.*
*15. Bu dünyanın on üzündən doqquzu göyçək,*
*16. O doqquzdan biri sənin ruhuna düşmür.*

13. Ah etme yeryüzünün serveti için,
14. Yeryüzünün zenginliği ahına düşmüyor.
15. Bu dünyanın on yüzünden dokuzu güzel,
16. O dokuzdan biri senin ruhuna düşmüyor.

*17. Külək çırpan qapıların dəstəyi olmaz,*
*18. Yel vurub yengələr oynar fağır evində.*
*19. Bax, bayırda daş yağsa da, a yazıq, sənin*
*20. Əlçim-əlçim nurlu işıq yağır evində...*
*2002*

17. Rüzgarın çarptığı kapıların desteği olmaz,
18. Yel vurup yengeler oynar fakir evinde.
19. Bak, bayırda taş yağsa da, a zavallı, senin
20. Tutam tutam nurlu ışık yağıyor evinde...

## *BİR DÜNYA İKİ DÜNYA(206)*

*1. Bir dünyada iki dünya yaşamağı bacardım,*
*2. Mənə çatan bu ömürdə həm ölü, həm diriyəm.*
*3. İnsan ölür – nəfsi ölür; mən nəfsimi öldürdüm,*
*4. Kimsədən bir şey ummayan ölülərdən biriyəm.*

*5. Bir qələmnən iki yavrum bu dünyada qazancım,*
*6. Malım-mülküm yoxdu deyə, nə ağrım var, nə sancım.*
*7. Yüz özümü öldürsəm də, bircə O-dur inancım,*
*8. Kimləri əzbər bilirəm, mən onların sirriyəm.*

*9. Bu dünyadan lap rahatca o birinə gedirəm,*
*10. Yalnız halal söz gəzəndə çox dərinə gedirəm,*
*11. Dərdi çəkə bilməyənin dərd yerinə gedirəm,*
*12. Özgələrə yana-yana öz canıma ciriyəm.*

## BİR DÜNYA, İKİ DÜNYA

1. Bir dünyada iki dünyayı yaşamayı becerdim,
2. Bana verilen bu ömürde hem ölü, hem diriyim.
3. İnsan ölüyor nefsi ölüyor; ben nefsimi öldürdüm,
4. Kimseden bir şey ummayan ölülerden biriyim.

5. Bir kalemle, iki yavrum bu dünyada kazancım,
6. Malım mülküm yok diye, ne ağrım var, ne sancım.
7. Yüz kere kendimi öldürsem de, bir O'dur inancım,
8. Kimleri ezbere biliyorum, ben onların sırrıyım.

9. Bu dünyadan çok rahat öbürüne gidiyorum,
10. Yalnız helal söz aradığımda çok derine gidiyorum.
11. Dert çekemeyenin dert yerine gidiyorum,
12. Başkalarına yana yana kendi canıma düşmanım.

*13. Gecə-gündüz oyaq qalmaq mənim üçün peşədi,*
*14. Qaynar, ölü səhralar da mənə sərin meşədi.*
*15. Dözüm, səbr olan yerdə yoxluq kefdi, nəşədi,*
*16. Həm sağam, həm salamatam – Yaradanın sehriyəm.*

13. Gece gündüz uyanık olmak benim için sanattır,
14. Kaynar, ölü sahralar da bana serin ormandır.
15. Dayanayım, sabrın olduğu yerde yokluk keyif, neşedir,
16. Hem sağım hem selametim Yaradan'ın sihriyim.

*17. O dünyanın həm behişti, həm də narı məndədi,*
*18. Bu dünyanın az tapılan düz ilqarı məndədi,*
*19. Söz eşqinin həm qıfılı, həm açarı məndədi,*
*20. Boz şeytanın düzməsi yox, mən Rəbbimin şeiriyəm.*
*2002*

17. O dünyanın hem cenneti, hem de ateşi bendedir,
18. Bu dünyanın az bulunan düz ilgarı bendedir,
19. Söz aşkının hem kilidi hem anahtarı bendedir,
20. Boz şeytanın hilesi yok, ben Rabb'imin şiiriyim.

## *ÜST-BAŞIMI SÜZƏN ADAM (207)*

## ÜST BAŞIMI SÜZEN ADAM

*1. Zil qaranlıq hücrələrdə ömrümü şam etmişəm,*
*2. Eşqimi də, hirsimi də toplayıb ram etmişəm.*
*3. Yaradanın izni ilə əlifi lam etmişəm,*
*4. Məni yerdə gəzən adam,*
*5. Mən sənin çiynindəyəm.*

1. Zifiri karanlık hücrelerde ömrümü mum etmişim,
2. Aşkımı da, hırsımı da toplayıp ehlileştirmişim.
3. Yaradan'ın izni ile elifi lam etmişim,
4. Beni yerde arayan adam,
5. Ben senin omzundayım.

*6. Qat-qarışıq yuxulara ibrət olan ömrüm var,*
*7. Məndən keçib, yad daşlara dəyib solan ömrüm var,*
*8. Mən bilirəm – Yaradandan nə fərmanım, əmrim var,*
*9. Üst-başımı süzən adam,*
*10. Mən sənin əynindəyəm.*

6. Karman çorman uykulara ibret olan ömrüm var,
7. Benden geçip, yabancı taşlara değip solan ömrüm var,
8. Ben biliyorum Yaradan'dan ne fermanım, emrim var,
9. Üst başımı süzen adam,
10. Ben senin bedenindeyim.

*11. Mən özüm bir hökmdaram – qəriblərin padşahı,*
*12. Xəzinəmdə nə dinar var, nə abbası, nə şahı.*
*13. Kürəyimə tuşladığın qılıncı sal aşağı,*
*14. A boynumu üzən adam,*
*15. Mən sənin dinindəyəm.*

11. Ben kendim hükümdarım gariplerin padişahı,
12. Hazinemde ne dinar var, ne abbası, ne şahı.
13. Küreğime nişanladığın kılıcı indir aşağı,
14. A boynumu yüzen adam,
15. Ben senin dinindenim.

*16. Nə babanı qəhrəman bil, nə özünü dahi say,*
*17. Adamsansa, sənin üçün mən çəkdiyim ahı say.*

16. Ne babanı kahraman bil, ne kendini dahi say,
17. Adamsan, senin için benim çektiğim ahı say.

*18. Otur, yazıq, gecə-gündüz etdiyin günahı say,*
*19. Gözündən sirr sızan adam,*
*20. Mən sənin beynindəyəm...*
*2001*

18. Otur, zavallı, gece gündüz ettiğin günahı say,
19. Gözünden sır sızan adam,
20. Ben senin beynindeyim...

***AZ MƏNƏ NAZ EYLƏYİR (208)***

*1. Mən şəhid nəğməsiyəm, oxuyanım çox azdı,*
*2. Bir qurulu xanayam, toxuyanım çox azdı.*
*3. Millətlər yer dəyişib: az, çox olub, çox – azdı,*
*4. Az mənə yaxın durur, çox mənə naz eyləyir.*

*5. Bəndələri sevib də bad olmağı bilirəm,*
*6. Ac görsəm, son tikəmə yad olmağı bilirəm,*
*7. Tox görsəm, toxluğuna şad olmağı bilirəm,*
*8. Ac mənə yaxın durur, tox mənə naz eyləyir.*

*9. Rəbbin eşqindən özgə heç nəyə sarılmadım,*
*10. Varlı oldum, var-hala elə də vurulmadım.*
*11. Yoxsul oldum, yoxluqdan əyilib qırılmadım,*
*12. Var mənə yaxın durur, yox mənə naz eyləyir.*

*13. Ən şirin sözlərimi əsən yelə söylədim,*
*14. Vaxtla ötəşə durub, teyim-teyim teylədim,*
*15. Dərdimi kef, kefimi çevirib ah eylədim,*
*16. Kef mənə yaxın durur, ah mənə naz eyləyir.*
*2002*

**AZ BANA NAZ EDİYOR**

1. Ben şehit türküsüyüm, okuyanım çok azdır,
2. Bir kurulu tezgahım, dokuyanım çok azdır.
3. Milletler yer değişmiş: Az çok olmuş, çok azdır.
4. Az bana yakın duruyor, çok bana naz eyliyor.

5. İnsanları sevip de fedakâr olmayı biliyorum,
6. Aç görsem, son lokmama yabancı olmayı biliyorum,
7. Tok görsem, tokluğuna şad olmayı biliyorum,
8. Aç bana yakın duruyor, tok bana naz eyliyor.

9. Rabb'in aşkından başka bir şeye sarılmadım,
10. Zengin oldum, zenginliğe vurulmadım.
11. Yoksul oldum, yokluktan eğilip kırılmadım,
12. Var bana yakın duruyor, yok bana naz eyliyor.

13. En tatlı sözlerimi esen yele söyledim,
14. Zamanla yarışa girip onu adım adım takip ettim.
15. Derdimi keyif, keyfimi çevirip ah eyledim,
16. Keyif bana yakın duruyor, ah bana naz eyliyor.

***GÖZLƏRİMİN QABAĞINDA (209)***

*1. Hər günü - bir göz qırpımı, tutub əlindən,*
*2. Bizə dəyər-dəyməzinə sırıyır zaman.*
*3. Gözlərimin qabağında qocalır atam,*
*4. Gözlərimin qabağında əriyir anam.*

*5. Bu dünyanın zər libası gəlmir əynimə,*
*6. Mən bu ömrü ömür kimi yaşayammıram.*
*7. Özgələrin atəşidi yandıran məni,*
*8. Mən özümün atəşimə yaxşı yanmıram.*

*9. Üzü soyuq adamlarda daş nəfəsi var,*
*10. Üzü soyuq adamlardan küsməyim çətin.*

**GÖZLERİMİN ÖNÜNDE**

1. Her gün, bir göz kırpımı, tutup elinden,
2. Günlerimiz yok pahasına geçiyor.
3. Gözlerimin önünde yaşlanıyor babam,
4. Gözlerimin önünde eriyor anam.

5. Bu dünyanın altın elbisesi gelmiyor bedenime,
6. Ben bu ömrü, ömür gibi yaşamıyorum.
7. Başkalarının ateşidir yakan beni,
8. Ben kendi ateşime iyi yanmıyorum.

9. Yüzü soğuk adamlarda taş nefesi var,
10. Yüzü soğuk adamlarla küsmem zor.

*11. Söz üstündə yarpaq kimi əsirəm, anam,*
*12. Niyə sənin başın üstdə əsməyim çətin?!*

*13. Görən, kimi isitməyə doğuluruq biz,*
*14. Bəlkə dünya bizi yaxan bir buxarıdır?*
*15. Boş əllərim yerdə-göydə ömür axtarır,*
*16. Ömrüm məndən ya aşağı, ya yuxarıdır.*

*17. Tanrı verən bir ömürdü, mənim ha deyil –*
*18. Ya doğmama bağışlayam, ya yada satam.*
*19. Gözlərimin qabağında əriyir anam,*
*20. Gözlərimin qabağında qocalır atam.*

*1989*

11. Söz üstünde yaprak gibi esiyorum, anam,
12. Niye senin başının üstünde esmem zor?!

13. Acaba, kimi ısıtmaya doğduk biz,
14. Belki  dünya bizi yakan bir sobadır?
15. Boş ellerim yerde, gökte ömür arıyor,
16. Ömrüm benden ya aşağı, ya yukarıdır.

17. Tanrı'nın verdiği bir ömürdür, benim ha değil
18. Ya kardeşime bağışlayım, ya yabancıya satayım.
19. Gözlerimin önünde eriyor anam,
20. Gözlerimin önünde yaşlanıyor babam.

## *O MİLLƏT Kİ (210)*

*1. O millət ki – damarında Türk qanı axır,*
*2. Qırx bir yerə bölünsə də, qırxı çıxammaz.*
*3. O millət ki – Türk soyuna qaralar yaxır,*
*4. Yüz çaydan su götürsə də, arxı axammaz.*

*5. O millət ki – yer üzünün əşrəfi olub,*
*6. Okeanlar qurusa da, suyu soğulmaz.*
*7. O millət ki – cövhərinə kin-kifir dolub,*
*8. Min anadan bircə oğlu halal doğulmaz.*

*9. O millət ki – Allahından muştuluq alıb,*
*10. Peyğəmbərin müjdəsində alilik onun.*
*11. O millət ki – tək kilsəyə təfriqə salıb,*
*12. Şeytanların çarlığında valilik onun.*

*13. O millət ki – Tanrısını ilkin tanıyıb,*
*14. Tanrısından ənamını alacaq hər vaxt.*
*15. O millət ki – şeytan kimi bizi yanıyıb,*
*16. Yerdə-göydə başıburax qalacaq bir vaxt.*

*17.  O millət ki – haqq-ədalət yaşam yasası,*
*18. Allah ona tapşırıbdır fani dünyanı.*
*19. O millət ki – lənətlənib... sözün qısası,*
*20. Şeytanlaşıb, qucaqlayır cani dünyanı.*

*21. Ey Türk oğlu, ey Türk qızı, özünə qayıt,*
*22. Unutma ki, adil olmaz özündən qaçan.*
*23. Böyük Çöldə mürgü basmış o nuru ayılt,*

## O MİLLET Kİ

1. O millet ki damarında Türk kanı akıyor,
2. Kırk bir yere bölünse de, kırkı çıkamaz.
3. O millet ki Türk soyuna karalar yakıyor,
4. Yüz çaydan su götürse de, suyu akamaz.

5. O millet ki yeryüzünün eşrefi olmuş,
6. Okyanuslar kurusa da, suyu soğumaz.
7. O millet ki mayası kin nefretle mayalanmış.
8. Bin anadan bir tek helal oğlan doğmaz.

9. O millet ki Allah'tan müjde almış,
10. Peygamber müjdesinde alilik onun.
11. O millet ki kiliseye tefrika salmış,
12. Şeytanların çarlığında valilik onun.

13. O millet ki Tanrı'sını ilk tanımış,
14. Tanrı'sından lütfunu alacak her vakit.
15. O millet ki şeytan gibi bizi korkutmuş,
16. Yerde gökte başıboş kalacak bir vakit.

17. O millet ki  hak adalet yaşam yasası,
18. Allah ona bahşetmiş fani dünyayı.
19. O millet ki lanetlenmiş... Sözün kısası,
20. Şeytanlaşıp kucaklıyor cani dünyayı.

21. Ey Türk oğlu, ey Türk kızı, özüne dön,
22. Unutma ki adil olmaz kendinden kaçan.
23. Büyük çölde uyku basmış o nuru ayılt,

*24. Bəlkə elə ay-ulduzdu gözündən qaçan...*
*2005*

24. Belki ay yıldızdır gözünden kaçan...

### *VƏTƏN (211)*

*1. Vətən, sənmi yatmısan, ya bizmi yuxudayıq? –*
*2. Nədən hey səksəkədə, şübhədə, qorxudayıq...*
*3. Hələ çoxmu dinləyək torpaq haqda nağıllar,*
*4. Boşunamı gediblər şəhid gedən oğullar?*
*5. Yenə şeirmi yazaq, yenə nəğməmi qoşaq,*
*6. Tapdaq yurdlar adına şadlıq evimi açaq?*
*7. Bu torpaq azmı keçib ahdan, alovdan, oddan –*
*8. Namus qorumaq üçün izinmi alaq yaddan?*
*9. Ya biryolluq bit, qurtar, silin xəritələrdən,*
*10. Ya da öz yerini tut qədim xəritədə sən!..*
*2006*

### VATAN

1. Vatan, sen mi yatmıyorsun, ya biz mi uykudayız?
2. Neden kuşkuda, şüphede, korkudayız...
3. Hâlâ mı dinleyelim toprak hakkında masallar,
4. Boşuna mı gitmişler şehit olan oğullar?
5. Yine şiir mi yazalım, yine mi türkü mü söyleyelim,
6. Çiğnenmiş yurtlar adına mutluluk evi mi açalım?
7. Bu toprak az mı geçmiş ahtan, alevden, ateşten
8. Namus korumak için izin mi alalım yabancıdan?
9. Ya bir yolluk bit, kurtar, silin haritalardan,
10. Ya da kendi yerini tut kadim haritada sen!...

### *MƏN BAŞA DÜŞƏNDƏ (212)*

*1. Mən başa düşəndə ki:*
*2. Yazı deyiləm, yuyulam,*
*3. Quzu deyiləm, yeyiləm,*
*4. Dəmir deyiləm, döyüləm –*
*5. Yaşamaqdan ayrı çarəm qalmadı.*

*6. Dəsmalımı yelə atdım,*
*7. Göz yaşımı qurutdum,*
*8. Ovcumu Günəşə tutdum,*
*9. Ovcumda su qurumadı.*

*10. Və...*
*11. Mənə baxanlar dedilər:*
*12. "- Bunun ki hər şey varıdı,*
*13. Bu hara baxtavarıdı!?"*
*14. Mən hamıdan yarıdım,*
*15. Kimsə məndən yarımadı.*

*16. Yummağa gözüm olmadı,*
*17. Susmağa sözüm olmadı,*
*18. Getməyə izim olmadı,*
*19. Yarıb ürəyimdən getdim.*

*20. Ürəyimdən keçən kimi çevrilib*

### ANLADIM

1. Ben anladım ki:
2. Yazı değilim, silineyim,
3. Kuzu değilim, yiyeleyim,
4. Demir değilim, dövüleyim
5. Yaşamaktan başka çarem kalmadı.

6. Mendilimi yele attım,
7. Gözyaşımı kuruttum,
8. Avucumu güneşe tuttum,
9. Avucumda su kurumadı.

10. Ve...
11. Bana bakanlar dediler:
12. "-Bunun ki her şeyi vardı
13. Bu nerenin bahtiyarı?
14. Ben herkesten razı oldum,
15. Kimse benden razı olmadı.

16. Yummaya gözüm olmadı,
17. Susmaya sözüm olmadı,
18. Gitmeye izim olmadı,
19. Yarıp yüreğimden gittim.

20. Yüreğimden geçen gibi dönüp

*21. Dəniz, Sahil, Dalğa oldum.*
*22. Gündüz – Günü çimizdirdim,*
*23. Gecələr ulduzla doldum.*

*24. ...İndi Rafiq dənizində*
*25. Rafiq adlı bir dəliqanlı dalğa*
*26. Rafiq sahilinə çırpır özünü,*
*27. Yorur, yumruqlayır, yırtır özünü.*

*28. Bilmir ki, ömür – bir damcı,*
*29. Damcı - ələkdən asılı.*
*30. Dalğaya fələk nə gərək,*
*31. Hər şey küləkdən asılı...*
*1998*

***UZUN BİR ÖMÜR (213)***

*1. Mən heç kimi qınaya bilmədim ki.*
*2. Yanamağa da çalışmadım,*
*3. kimi isə*
*4. qorxutmaq ağlımdan belə keçmədi.*

*5. Elə acılar yaşadım,*
*6. Elə ağrılar gördüm ki,*
*7. Çoxunu bir Allah bildi, bir də mən.*
*8. Uzun...uzuuun bir ömür yaşadım*
*9. Qəbir tək dar evdə mən,*
*10. Ev kimi qəbirdə mən,*
*11. Aşkarda mən, sirdə mən.*

*12. Kürəyimə daş atanı bağışladım,*
*13. Üst-üstündən beş atanı bağışladım,*
*14. Gözlərini mənə tərəf tüfəng edib*
*15. Dolu, ya da boş atanı bağışladım.*

*16. Quyudan mən çıxardım*
*17. Mənə quyu qazanları,*
*18. Qara çərçivəyə almadım*
*19. Ağ rəsmimi pozanları,*
*20. Hər yerdə qalib etdim*
*21. Hər gün mənə uduzanları.*

*22. Kimsəni qınaya bilmərəm ki –*
*23. Dünya adamla dolu,*
*24. Dünya heyvanla dolu,*

21. Deniz, sahil, dalga oldum.
22. Gündüz güneşi yıkadım,
23. Geceleri yıldızla doldum.

24. Şimdi Rafig denizinde
25. Rafig adlı bir delikanlı dalga
26. Rafig sahilinde çırpıyor kendisini,
27. Yoruyor, yumrukluyor, yırtıyor kendini.

28. Bilmiyor ki, ömür bir damla,
29. Damla eleğe bağlı.
30. Dalgaya felek ne gerek
31. Her şey rüzgara bağlı...

**UZUN BİR ÖMÜR**

1. Ben hiç kimseyi kınayamadım ki.
2. Korkutmakla da uğraşmadım,
3. Kimini ise
4. Korkutmak aklımdan geçmedi.

5. Öyle acılar yaşadım,
6. Öyle ağrılar gördüm ki,
7. Çoğunu bir Allah bildi, bir de ben.
8. Uzun... Uzun bir ömür yaşadım
9. Kabir gibi dar evde ben,
10. Ev gibi kabirde ben,
11. Aşikârda ben, sırda ben.

12. Sırtıma taş atanı bağışladım,
13. Üstümden beş atanı bağışladım,
14. Gözlerini benden taraf tüfek edip
15. Dolu ya da boş atanı bağışladım.

16. Kuyudan ben çıkardım
17. Bana kuyu kazanları,
18. Kara çerçeveye almadım
19. Ak resmimi bozanları,
20. Her yerde galip ettim
21. Her gün bana sataşanları.

22. Kimseyi kınayamıyorum ki
23. Dünya insan dolu,
24. Dünya hayvanla dolu,

*25. Dünya şeytanla dolu...*
*1998*

25. Dünya şeytanla dolu...

## *KOMMUNİZM OXŞAYIRDI ÖZÜNƏ (214)*

*1. İki əsrin qovşağında yaşadım,*
*2. İkisi də bəlkə puçdu – bilmirəm.*
*3. Kommunuzm oxşayırdı özünə,*
*4. Amma bu nə quruluşdu – bilmirəm.*

*5. Kommunuzm oxşayırdı özünə,*
*6. Xəstəyə dərman verirdi,*
*7. Yoxsula əppək.*
*8. Fəhləyə maşın verirdi,*
*9. Kəndliyə eşşək.*
*10. Eşşəyə saman verirdi,*
*11. Arıya pətək.*

*12. Kommunuzm oxşayırdı özünə,*
*13. Adı da, şöhrəti də,*
*14. Lütfü də, hörməti də,*
*15. Ən yağlı dilimi də,*
*16. Sürgünü də, ölümü də*
*17. Öncə şairlərə verirdi dövlət.*

*18. Kommunuzm oxşayırdı özünə,*
*19. Zülümdən keçirdi gerçək şairlər,*
*20. Ölümdən keçirdi gerçək şairlər,*
*21. Elə ölə-ölə böyüyürdülər.*

*22. Amma bu nə quruluşdu – bilmirəm,*
*23. Sözü olmayanın özü böyüyür,*
*24. Sifəti böyüyür, üzü böyüyür,*
*25. Şeirdən yüz fərsəng aralı olan*
*26. Şair olub, yeyir bizi…böyüyür.*

*27. …Sürgünsüz saralır şair olanlar,*
*28. Gülləsiz qırılır şair olanlar,*
*29. Sınır, sındırılır şair olanlar –*
*30. Allahın SÖZÜ də zorlanardımı?..*
*2012*

## KOMÜNİZM BENZİYORDU KENDİNE

1. İki asrın kavşağında yaşadım,
2. İkisi de belki boştu bilmiyorum.
3. Komünizm benziyordu kendine,
4. Ama bu ne kuruluştu bilmiyorum.

5. Komünizm benziyordu kendine,
6. Hastaya derman veriyordu,
7. Yoksula ekmek.
8. İşçiye araba veriyordu,
9. Köylüye eşek.
10. Eşeğe saman veriyordu,
11. Arıya petek.

12. Komünizm benziyordu kendine,
13. Adı da, şöhreti de,
14. Lütfü de, hürmeti de,
15. En yağlı dilimi de,
16. Sürgünü de, ölümü de
17. Önce şairlere veriyordu devlet.

18. Komünizm benziyordu kendine,
19. Zulümden geçiyordu gerçek şairler,
20. Ölümden geçiyordu gerçek şairler,
21. Öyle öle öle büyüyorlardı.

22. Ama bu ne kuruluştu bilmiyorum.
23. Sözü olmayanın kendi büyüyor,
24. Sıfatı büyüyor, yüzü büyüyor,
25. Şiirden yüz fersah uzak olan
26. Şair olup yiyor bizi...Büyüyor.

27. Sürgünsüz sararıyor şair olanlar,
28. Mermisiz kırılıyor şair olanlar,
29. Kırıyor, kırılıyor şair olanlar
30. Allah'ın sözü de taciz edilir mi?

## *BU DÖRD BOZ DİVAR (215)*

*1. Gözümə dırmaşan göy baxışların,*
*2. Şeytan baxışların, döy baxışların*

## BU DÖRT BOZ DUVAR

1. Gözümü tırmalayan gök bakışların,
2. Şeytan bakışların, ifrit bakışların

*3. Qafamın içində məzarlığı var.*

*4. Kəsdirib qapımı kaftar ifritə,*
*5. Harayım – kiliddi, sükutum – cəftə.*
*6. Görənim kor olub, eşidənim kar.*

*7. Gecənin zülməti yarır bağrımı,*
*8. A millət, mən necə alım ağrını? –*
*9. Mənim məzarımdı bu dörd boz divar.*

*10. Saraldım bu sarı qovaqnan, dədəm,*
*11. Göylərin yeddinci qatında bu dəm*
*12. Tutqun şairlərin göy qovağı var...*

*1995*

## *OXUNMAQ DƏRDİM YOK Kİ MƏNİM (216)*

*1. Şeirdə həyat anladılmır ki, dostum...*
*2. Mən sənə nəyi anladım, nədən danışım?*
*3. Yeddi uşağın ən ərköyünü olmağım,*
*4. Gecələr Ay işığında kitab oxumağım,*
*5. Əmoğlum Nəsib öləndə*
*6. Çöllərdə zar-zar ağlamağım,*
*7. Duyğusuzların daim duyğularımı sömürməyi,*
*8. Arxa bildiyim qardaşımın qucağımda can verməyi...*
*9. Bütün bunlar sənə maraqlı olarmı, nə bilim...*
*10. Mən romançı deyiləm ki, dostum –*
*11. Bəzəkli həyatlardan qalın kitablar bağlayam,*
*12. Proloqda bədbəxt olanları*
*13. Epiloqda xoşbəxtliyə qovuşduram,*
*14. Romanım olsun deyə möhtəşəm*
*15. Yüz cür olay uyduram, min cür fənd fikirləşəm... –*
*16. Sonunadək oxunmaq dərdim yox ki mənim.*
*17. Mən yığvalımı yazıram, dostum, yığvalımı,*
*18. O yığvalı ki –*
*19. Xanəndələrin toylarda oxuması,*
*20. Müğənnilərin klip çəkdirməsi,*
*21. Yanşaqların dastanvari bəzəməsi,*
*22. Haramxor müdirlərin baş əyməsi...*

3. Kafamın içinde mezarlığı var.

4. Kapatıp kapımı sırtlan ifrite,
5. Çığlığım kilitti, sükutum sürgü.
6. Görenim kör olmuş, işitenim sağır.

7. Gecenin zulmü yarıyor bağrımı,
8. A millet, ben nasıl alayım ağrını?
9. Benim mezarımdı bu dört boz duvar.

10. Sarardım bu sarı kavakla, babam,
11. Göklerin yedinci katında bu dem
12. Tutkun şairlerin gök kavağı var...

## OKUNMAK GİBİ BİR DERDİM YOK BENİM

1. Şiirde hayat anlatılmıyor ki, dostum...
2. Ben sana neyi anlatayım, neden bahsedeyim?
3. Yedi çocuğun en şımarığı olmam
4. Geceleri ay ışığında kitap okumam,
5. Emmoğlum Nasib öldüğünde
6. Çöllerde zır zır ağlamam,
7. Duygusuzların daima duygularımı sömürmesi,
8. Desteğim olan kardeşimin kucağımda can vermesini...
9. Bütün bunlar ilgini çeker mi, ne bileyim...
10. Ben romancı değilim ki, dostum
11. Süslü hayatlardan kalın kitaplar çıkarayım,
12. Prologda mutsuz olanları
13. Epilogda mutluluğa kavuşturayım,
14. Romanım olsun diye muhteşem
15. Yüz çeşit olay uydurayım, bin çeşit oyun düşüneyim...
16. Sonuna dek okunmak gibi derdim yok ki benim.
17. Ben talihimi yazıyorum, dostum, talihimi
18. O talih ki
19. Şarkıcıların düğünlerde okuması,
20. Mugannilerin klip çekmesi,
21. Ozanların destanvari bezemesi,
22. Haram yiyen müdürlerin baş eğmesi...

*23. Bircə qınnaq da eyninə deyil.*
*24. Şeirdə şah öyülməz, dostum,*
*25. Şeirdə düşmən söyülməz, dostum,*
*26. Şair təlxək kimi əyilməz, dostum...*
*27. Mən savabımdan çox günahımı,*
*28. Sevgimdən daha çox ahımı,*
*29. Gözəlliyimdən çox ayıbımı,*
*30. Çarəsizliyimdən yüz qat artıq*
*31. Umudumu yazdım, dostum, umudumu.*
*32. Şeirdə həyat anladılmır ki...*
*33. Mən taleyini yazdım Rafiq Hümmətin,*
*34. Böyük bir Çölün, sonsuz bir Köçün*
*35. Yalnız Haqq üçün.*
*36. Oxunmaq dərdim yox ki, mənim...*
*2006*

## *TORPAQ (217)*

*(Birinci şeir)*

*1. Vətəndən qürbətə,*
*2. Qürbətdən vətənə*
*3. ilanabənzər*
*4. yorulmaz yolları yorana kimi*
*5. yazıq Aşıq Qərib özü nə çəkib!..*
*6. Hələbdən Qarsa bir addım atıb,*
*7. Qarsdan Tiflisə bir ana çatıb,*
*8. Yolların dizini cırana kimi,*
*9. Torpağın gözünü qırana kimi*
*10. Torpağın sinəsi, üzü nə çəkib!...*

*11. ...Yaxşı ki, yolları yolda itirib,*
*12. Yaxşı ki, özünü tezcə yetirib,*
*13. Yaxşı ki, bir ovuc torpaq gətirib,*
*14. Kor olmuş ananın gözünə çəkib.*

*(İkinci şeir)*

*15. Yoxuşlarda, enişlərdə*
*16. Dəvənin dizi nə çəkir?*
*17. Hər karvanda yüz dəvə var,*
*18. Torpağın üzü nə çəkir?*

*19. Dəvəni ağır yük əzər,*
*20. Buna torpaq necə dözər?*

23. Hiç umrunda değil.
24. Şiirde şah övülmez, dostum,
25. Şiirde düşman sövülmez, dostum,
26. Şair soytarı gibi eğilmez, dostum...
27. Ben sevabımdan çok günahımı,
28. Sevgimden çok ahımı,
29. Güzelliğimden çok ayıbımı,
30. Çaresizliğimden yüz kat fazla
31. Umudumu yazdım, dostum, umudumu.
32. Şiirde hayat anlatılmıyor ki...
33. Ben talihini yazdım Rafig Hümmet'in,
34. Büyük bir çölün, sonsuz bir göçün
35. Yalnız Hak için
36. Okunmak derdim yok ki, benim...

## TOPRAK

(Birinci şiir)

1. Vatandan gurbete,
2. Gurbetten vatana
3. Yılana benzer
4. Yorulmaz yollar varana kadar
5. Yazık Âşık Garip kendi ne çekmiş!
6. Halep'ten Kars'a bir adım atmış,
7. Kars'tan Tiflis'e bir anda ulaşmış,
8. Yolların dizini yırtar gibi,
9. Toprağın gözünü korkutmuş gibi
10. Toprağın sinesi, yüzü ne çekmiş!..

11. İyi ki yolları yolda yitirmiş,
12. İyi ki kendini çabuk ulaştırmış,
13. İyi ki bir avuç toprak getirmiş,
14. Kör olmuş ananın gözüne çekmiş.

(İkinci şiir)

15. Yokuşlarda, inişlerde
16. Devenin dizi ne çekiyor?
17. Her kervanda yüz deve var,
18. Toprağın yüzü ne çekiyor.

19. Deveyi ağır yük ezer,
20. Buna toprak nasıl dayanır?

*21. Sarvan, - yorulsa qoca nər,*
*22. Qamçını dizinə çəkər.*

*23. Nərlə qalxar bu dağları*
*24. Adamların şallaqları.*
*25. Allah bizə bu dağları*
*26. Çəkir, lap düzünə çəkir.*

*(Üçüncü şeir)*

*27. Əlimdə olubsa şallaq,*
*28. Sən məni bağışla, Allah!*
*29. Mən bilmirdim düzü, vallah,*
*30. Dünyada bizi nə çəkir.*

*31. Arşın-arşın yerimizi,*
*32. Dəvəmizi, kəlimizi,*
*33. Doğulanda dirimizi,*
*34. Boğulanda ölümüzü*
*35. Bilmirdim düzü, nə çəkir.*

*36. Torpağa bax! Torpağa bax! –*
*37. Kor olan gözünə çəkir,*
*38. Yorulan dizinə çəkir,*
*39. Sağ olanlar – ayağına,*
*40. Ölənlər üzünə çəkir!*

*41. ...Anam torpaq uça bilmir,*
*42. Arxamızca qaça bilmir,*
*43. Sağkən bizi quca bilmir,*
*44. Öləndə özünə çəkir.*

*1988*

21. Kervanbaşı, yorulsa koca deve,
22. Kamçıyı dizine çeker.

23. Deve ile geçer bu dağları
24. İnsanların kamçıları.
25. Allah bize bu dağları
26. Veriyor hakettiğimiz için veriyor.

(Üçüncü şiir)

27. Elimde olmuşsa kamçı,
28. Sen beni bağışla, Allah!
29. Ben bilmiyordum doğruyu, valla
30. Dünyada bizi ne çekiyor.

31. Arşın arşın yerimizi,
32. Devemizi, kelimizi,
33. Doğduğumuzda dirimizi,
34. Boğulduğumuzda ölümüzü
35. Bilmiyordum doğruyu, ne çekiyor.

36. Toprağa bak! Toprağa!
37. Kör olan gözüne çekiyor,
38. Yorulan dizine çekiyor,
39. Sağ olanlar ayağına,
40. Ölenler yüzüne çekiyor!

41. Anam toprak uçamıyor,
42. Arkamızca kaçamıyor,
43. Sağken bizi kucaklamıyor
44. Öldüğümüzde kendine çekiyor.

## *BAYIRDA PAYIZ KÜLƏYİ (218)*

*1. Bayırda payız küləyi*
*2. Silkələyir səni, alma ağacı.*
*3. Sənin yarpağın tökülür,*
*4. Mənim saçım.*

*5. Bayırdakı qara yeldən*
*6. Yaman vurnuxursan, balaca sərçə,*
*7. Sən boşluğa ilişirsən,*
*8. Mən səsə.*

## BAYIRDA GÜZ RÜZGARI

1. Bayırda güz rüzgarı
2. Silkeliyor seni, elma ağacı.
3. Senin yaprağın dökülüyor,
4. Benim saçım.

5. Bayırdaki kara yelden
6. Fena kaçışırsın, küçük serçe,
7. Sen boşluğa ilişirsin,
8. Ben sese.

*9. Bayırda külək inləyir,*
*10. Zəncir gəmirirsən, dördayaq Bozdar,*
*11. Səni azadlıq çəkir,*
*12. Məni ulduzlar.*

*13. Canıma yellər daraşır,*
*14. İşıqlan, işıqlan, açıl, sabahım,*
*15. Səni qaranlıq yıxır,*
*16. Məni ahım.*
*1986*

***BEZDİM ALDANMAQDAN (219)***

*1. Gecə səhərədək öz içimdəcə*
*2. Elə hey qışqırıram,*
*3. Elə hey qeybət qırıram,*
*4. Özümü asıb-kəsirəm.*
*5. İçimdə yellər oynayır,*
*6. Mən də yel kimi əsirəm.*
*7. Gendən baxanların*
*8. Göz xoşbəxtiyəm.*

*9. Bezdim aldanmaqdan*
*10. Mehdən əsən çiçək tək,*
*11. Hələ sonra əsəcək*
*12. Doqquz bal gücündə külək...*
*13. Yazıq sənə, ay çiçək!*

*14. Şair qardaşım susur*
*15. "Başını saxlamaq üçün".*
*16. Mən də baş saxlayıram,*
*17. Ürəyimdə Şamaxı zəlzələsi.*

*18. Zibillikdə şeytanların tələsi,*
*19. Tələ qarmağında bir tikə çörək,*
*20. Sərçə dimdiyində vurnuxan ölüm,*
*21. Və...bu yerdə aldı görək:*

*22. Siz Allah, yol verin saza,*
*23. Asta çalın balabanı.*
*24. Ümidlərdi bir-bir ölən,*
*25. İçim – şəhid xiyabanı...*
*1990*

***BULUDLARIN SEVGİSİ (220)***

9. Bayırdaki rüzgar inliyor,
10. Zincir kemirirsin, dar ağacı Bozdar
11. Seni azatlık çekiyor,
12. Beni yıldızlar.

13. Canıma yeller üşüşüyor,
14. Işıklan, ışıklan, açıl, sabahım,
15. Seni karanlık yıkıyor,
16. Beni ahım.

**BEZDİM ALDANMAKTAN**

1. Gece sehere dek kendi içimde
2. Öyle sürekli bağırıyorum.
3. Öyle sürekli gıybet ediyorum.
4. Kendimi asıp kesiyorum.
5. İçimde yeller esiyor,
6. Ben de yel gibi esiyorum.
7. Uzaktan bakanların
8. Gözünde mutluyum.

9. Bezdim aldanmaktan
10. Meltemden esen çiçek gibi,
11. Biraz sonra esecek
12. Dokuz kanat gücünde rüzgar...
13. Yazık sana, ey çiçek!

14. Şair kardeşim susuyor
15. "Başını kurtarmak için."
16. Ben de yaşıyorum,,
17. Yüreğimde Şamahı zelzelesi.

18. Çöplükte şeytanların kapanı,
19. Kapanın telinde bir lokma ekmek,
20. Serçe gagasına koşuşan ölüm,
21. Ve... Bu yerde aldı görelim:

22. Siz Allah, yol verin saza,
23. Yavaş çalın davulu.
24. Ümitleri bir bir ölen,
25. İçim şehit bulvarı...

**BULUTLARIN SEVGİSİ**

*1. Göy üzündə iki bulud ağlayır,*
*2. Binəvalar bir-birinə yürüyür,*
*3. Hər kisi damcı-damcı əriyir.*

*4. İki bulud bircə ruhda sarmaşır,*
*5. Bu nə cürə sevişməkdi, ilahi, -*
*6. Mələklərin gözü bir an qamaşır.*

*7. Bu vüsaldan su buludlar alışır,*
*8. Ömür verir ildırım tək gözələ.*
*9. Varmı görən yerdə, göydə başqa bir*
*10. İldırım tək tez doğulub, tez ölən...*
*2000*

1. Gökyüzünde iki bulut ağlıyor,
2. Çaresizler birbirine yürüyor,
3. Her ikisi de  damla damla eriyor.

4. İki bulut bir ruhta sarılıyor,
5. Bu nasıl sevişmekti, ilahi,
6. Meleklerin gözü bir an kamaşıyor.

7. Bu vuslattan su, bulutlar yanıyor,
8. Ömür veriyor yıldırım gibi güzele.
9. Var mı acaba yerde, gökte başka bir
10. Yıldırım gibi tez doğup, tez ölen...

***ŞİRİNDİMİ? (221)***

*1. Ruhu kölgəsində ulayan şair,*
*2. Kölgəsi torpağı yalayan şair,*
*3. Torpağın qusduğu qan şirindimi?*

*4. Ayın sükutundan kar olan şair,*
*5. Üfüqə baxmaqdan kor olan şair,*
*6. Zülmət bitməyəndə, dan şirindimi?*

*7. Yeri – günahlardan daralan şair,*
*8. Göyü – göy ahlardan saralan şair,*
*9. Məkan xarabadır... kan şirindimi?*

*10. Şahın qəfəsində quş öyən şair,*
*11. Dinməyib, xar tutdan döşəyən şair,*
*12. Susmaq qızıldımı... can şirindimi?...*
*1995*

**TATLI MIYDI?**

1. Ruhu gölgesinde uluyan şair,
2. Gölgesi toprağı yalayan şair,
3. Toprağın kustuğu kan, tatlı mı?

4. Ayın sükutundan lal olan şair,
5. Ufuğa bakmaktan kör olan şair,
6. Zulüm bitmediğinde, tan tatlı mı?

7. Yeri günahlardan daralan şair,
8. Göğü gök ahlardan sararan şair,
9. Mekân harabedir... Kan tatlı mı?

10. Şahın kafesinde kuş öven şair,
11. Susmayıp, har duttan yiyen şair,
12. Susmak altın mı...Can tatlı mı?

***ÇƏKMƏSİLƏN COCUQ (222)***

*1. Əli fırçaya,*
*2. Gözü paraya,*
*3. Könlü yaraya alışmış*
*4. Çəkməsilən cocuq.*

*5. Okuldan, məktəbdən,*
*6. Fatehdən, Babəkdən,*
*7. Şeytandan, mələkdən*
*8. xəbərin yox.*

*9. Annən varmı, baban varmı,*

**AYAKKABI BOYAYAN ÇOCUK**

1. Eli fırçaya,
2. Gözü paraya,
3. Gönlü yaraya alışmış
4. Boyacı çocuk.

5. Okuldan, mektepten,
6. Fatih'ten, Babek'ten,
7. Şeytandan, melekten
8. Haberin yok.

9. Annen var mı, baban var mı,

*10. Yerin-yurdun, odan varmı,*
*11. Qalamağa soban varmı? –*
*12. Xəbərim yox.*

*13. Mən sənə həmşərim,*
*14. İşıqlı səhərim,*
*15. Qələbəm, zəfərim*
*16. deyəmməm.*

*17. Çəkməsilən cocuq,*
*18. Zorla gülən cocuq,*
*19. Bir çəkməlik ağuşun,*
*20. Yetim-yesir duruşun,*
*21. O tərtəmiz baxışın*
*22. Haramım olsun!*
*1992*

10. Yerin yurdun, odan var mı,
11. Isınmaya soban var mı?
12. Haberim yok.

13. Ben sana hemşehriyim,
14. Umutlu seherim,
15. Galibim, zaferim
16. diyemem.

17. Çizme silen çocuk,
18. Zorla gülen çocuk,
19. Bir çizmelik ağuşun,
20. Öksüz sefil duruşun,
21. O tertemiz bakışın
22. Haramım olsun!

## *ÖZGƏ ƏMƏYİ YEYƏNLƏRƏ (223)*

*1. Heç yavrun ac qaldımı,*
*2. Çörək istədimi səndən,*
*3. İmrənib kabab iyinə,*
*4. Ürək istədimi səndən?*

*5. Ayaqqabısı yırtılanda*
*6. Məktəbiini buraxdımı,*
*7. Aynadan qəmli-qəmli baxıb,*
*8. Məhbus kimi darıxdımı?*

*9. Sabahkı ruzisi üçün*
*10. Axşam-axşam dərd çəkdimi,*
*11. Əməyini özgə yesə,*
*12. Sənə qoşulub tər tökdümü?*

*13. Bir yeri ağrıyanda*
*14. Ağrısını dandımı,*
*15. Bir qırıq səvi ikən*
*16. İblisi, mələyi qandımı?*

*17. ...Sənin yavrun bilirmi, -*
*18. Əməllər YARINındır,*
*19. Yeyib-geydiyinin yarısı*
*20. Başqa bir yavrunundur?..*
*2000*

## BAŞKASININ EMEĞİNİ YİYENLERE

1. Hiç yavrun aç kaldı mı,
2. Ekmek istedi mi senden,
3. İmrenip kebap kokusuna,
4. Yürek istedi mi senden?

5. Ayakkabısı yırtıldığında
6. Mektebini bıraktı mı,
7. Aynadan gamlı gamlı bakıp
8. Mahpus gibi üzüldü mü?

9. Sabahki azığı için
10. Akşamları dert çekti mi,
11. Emeğini başkası yese
12. Sana koşup ter döktü mü?

13. Bir yeri ağrıdığında
14. Ağrısını sakladı mı,
15. Ufak bir çocukken
16. İblisi, meleği tanıdı mı?

17. Senin yavrun bilir mi,
18. Emeller YARINındır,
19. Yiyip, giydiğinin yarısı
20. Başka bir yavrunundur?

## *QURTULUŞ (224)*

## KURTULUŞ

*1. Dostum, Ay necə batırsa,*
*2. Gün də eləcə doğacaq.*
*3. Tapdaq fikirlər*
*4. intihar*
*5. edib özünü boğacaq.*

*6. Çörəyi göydə axtaran*
*7. Bir gün açacaq gözünü,*
*8. Qardaşını güllələyən*
*9. qardaş*
*10. asacaq özünü.*

*11. Ölümsüz darıxacaq*
*12. İntiharçı naqanları,*
*13. O uca mərtəbələrin*
*14. Aynaları, eyvanları.*

*15. ...Tapdaq fikirlərin intihar anı –*
*16. Yetim könüllərin qurtuluş günü.*
*17. Həsrətdən öləcək hər axşam-səhər*
*18. Bir boğaz kəndirnən bir udum zəhər...*
*1992*

1. Dostum, ay nasıl batıyorsa
2. Güneş de öyle doğacak.
3. Köhne fikirler
4. İntihar
5. Edip kendini boğacak.

6. Ekmeği gökte arayan
7. Bir gün açacak gözünü
8. Kardeşine mermi atan
9. Kardeş
10. Asacak kendini.

11. Ölümsüz ölümü özleyecek
12. İntiharcı tabancaları,
13. O yüce mertebelerin.
14. Aynaları, eyvanları.

15. Köhne fikirlerin intihar anı
16. Yetim gönüllerin kurtuluş günü.
17. Hasretten ölecek her akşam seher
18. Bir boğaz halatla bir yudum zehir...

### *NƏDƏN MUTLU OLUM Kİ (225)*

*1. Daha nə qaldı ki, üzülməli...*
*2. Dost xəyanətinə də, düşmən nifrətinə də*
*3. alışdım.*
*4. Nə çayların axınına, nə yellərin səmtinə*
*5. qoşuldum,*
*6. Mən öz fırtınamda boğuldum, öz sularıma*
*7. qarışdım.*
*8. Nədən mutlu olum ki...*
*9. Qarabağda şəhid olammadım,*
*10. Təbrizdə xoca.*
*11. O millət ki uca, o millət ki qosqoca –*
*12. Bu gün onu bulammadım.*
11. Tek paran olsun gülüm,
12. İstersen aydan toprak al.

*13. Azadlıq nə gözəl imiş,*
*14. Azad baş asan qatılır.*
*15. Məhləmizdəki bulağın*
*16. Suyu da pulnan satılır.*

*17. Hər yer necə gözəlləşir,*
*18. Günü-gündən başqalaşır,*
*19. Azadlıq nə gözəl imiş,*
*20. Hər şey azad bahalaşır.*

*21. ...Amma sözü alan yoxdu,*
*22. Şair ağılsızdı, gülüm,*
*23. Bircə ölüm ucuzlaşıb,*
*24. Bir də dərd pulsuzdu, gülüm...*
*2013*

13. Azatlık ne güzel imiş,
14. Azat baş kolay kandırılır.
15. Mahallemizdeki bulağın
16. Suyu da parayla satılıyor.

17. Her yer nasıl güzelleşiyor,
18. Günden-güne başkalaşıyor,
19. Azatlık ne güzel imiş.
20. Her şey azat pahalılaşıyor.

21. Ama sözü alan yoktu,
22. Şair akılsızdır, gülüm,
23. Bir tek ölüm ucuzlaşmış,
24. Bir de dert parasızdı, gülüm...

### *ÇUĞULLARA (250)*

*1. Nə durmusunuz pusquda,*
*2. Yığışın, asdırın məni.*
*3. Əgər gücünüz çatmasa,*
*4. Zindana basdırın məni.*

*5. Yığışın asdırın məni, -*
*6. Sizi tərif edəmmirəm*
*7. Zindana basdırın məni, -*
*8. Sizin yolnan gedəmmirəm.*

*9. Sevginizin əsli – riya,*
*10. Eşqinizin əsli – nizə.*
*11. Tfu, şortu əslinizə,*
*12. Tfu, iblis nəslinizə!..*

### CASUSLARA

1. Niye durmuşsunuz pusuda,
2. Toplanın, astırın beni.
3. Eğer gücünüz yetmezse,
4. Zindana attırın beni.

5. Toplanın, astırın beni,
6. Sizi tarif edemiyorum
7. Zindana attırın beni,
8. Sizin yoldan gidemiyorum.

9. Sevginizin aslı, riya,
10. Aşkınızın aslı, mızrak.
11. Tü, ahlaksız aslınıza,
12. Tü, iblis neslinize!

### *XIX YÜZİL QOŞMASI (251)*

*1. Tarix yarpağını səpələ bir-bir, -*
*2. Zəfər şeypurunu çalan yurda bax!*
*3. Yeddi məmləkətə, yetmiş oymağa*
*4. Zəlzələ, vəlvələ salan yurda bax!*

*5. Yağını, namərdi yollarda yoran,*
*6. Xandan, pristavdan haqq-hesab soran,*
*7. Keçmişə sinəsi qalxıb-qabaran,*
*8. Bu günə gözləri dolan yurda bax!*

### 19. YÜZYIL KOŞMASI

1. Tarih yaprağını aç bak bir bir,
2. Zafer borazanını çalan yurda bak!
3. Yedi memlekete, yetmiş oymağa
4. Zelzele, velvele salan yurda bak!

5. Düşmanını, namerdi yollarda yoran,
6. Handan, komiserden hak hesap soran,
7. Geçmişe sinesi kalkıp kabaran,
8. Bugüne gözleri dolan yurda bak!

*9. İgid deyilənin dostu kəhərdi,*
*10. İndi əlindəki boş bir yəhərdi,*
*11. Barmaqla sananır comərdi, mərdi,*
*12. Satqını, şərçisi kalan yurda bax!*

*13. Şarlatan lağ edir alim dərsinə,*
*14. Millətə dərs keçir ağ bud, tər sinə...*
*15. Bir rükət namazı üzü tərsinə,*
*16. Abdəstsiz, qibləsiz qılan yurda bax.*

*17. Götür bu şeiri də, suka, tax işə,*
*18. Oğraşı qəhrəman... işə bax, işə!*
*19. Quldurun altında pozğun, fahişə,*
*20. Alimin belində palan yurda bax!*

*21. Şairlər baş əyməz yekə sərlərə,*
*22. Arvaddan yoğrulmuş yumşaq ərlərə.*
*23. Cırımağızlara, kəlpeysərlərə,*
*24. Çuğundur üzlərə qalan yurda bax!*

9. Yiğit denilenin dostu dorudur,
10. Şimdi elindeki boş bir eyerdir,
11. Parmakla sayılır cömerti, merti,
12. Alçağa, şerre kalan yurda bak!

13. Şarlatan alay ediyor alim dersine,
14. Millete ders veriyor ak but, taze sine...
15. Bir rekat namazı yüzü tersine,
16. Abdestsiz, kıblesiz kılan yurda bak.

17. Götür bu şiiri de, casus, ihbar et,
18. Hırsızı kahraman...İşe bak, işe!
19. Eşkıyanın altında ahlaksız, fahişe,
20. Alimin belinde palan yurda bak!

21. Şairler baş eğmez büyük başlara,
22. Avrattan yoğrulmuş yumuşak erlere.
23. Büyük ağızlılara, kel kafalara,
24. Casus yüzlere kalan yurda bak!

### *GÖZLƏMƏ BAZAR GÜNÜNÜ (252)*

*1. Gözləmə bazar gününü,*
*2. Şənbə günü gəl, gülüm.*
*3. Gəl, eşqinlə bəslədiyim*
*4. Pənbə gülü dər, gülüm.*

*5. Uzaqlarda ah çəkirsən,*
*6. Hər ahda bir günah var.*
*7. Gözləmə bazar gününü,*
*8. Hələ bazara çox var.*

*9. Gözləmə bazar gününü,*
*10. Ruhum solar, saralar.*
*11. Sevgi də sular kimidir,*
*12. Axa-axa durular.*

*13. Gözləmə bazar gününü,*
*14. Şənbə günü gəl, gülüm.*
*15. Sonra yenə gözləyərəm,*
*16. İstərsən yüz il, gülüm...*

### BEKLEME PAZAR GÜNÜNÜ

1. Bekleme pazar gününü,
2. Cumartesi günü gel, gülüm.
3. Gel, aşkınla beslediğim
4. Pembe gülü topla, gülüm.

5. Uzaklarda ah çekersin,
6. Her ahda bir günah var.
7. Bekleme pazar gününü,
8. Henüz pazara çok var.

9. Bekleme pazar gününü,
10. Ruhum solar, sararır.
11. Sevgi de sular gibidir,
12. Aka aka durulur.

13. Bekleme pazar gününü,
14. Cumartesi günü gel, gülüm.
15. Sonra yine beklerim,
16. İstersen yüzyıl, gülüm.

### *MƏNİ ŞUŞAYA GÖNDƏRİN (253)*

### BENİ ŞUŞA’YA GÖNDERİN

*1. Yağıb-yağıb boşalmışdım,*
*2. Bulud tək dolmağa gəldim.*
*3. Mən dilimin yaddaşında*
*4. Söz olub qalmağa gəldim.*

*5. Zikr etdim həsrət ötəndə,*
*6. Könlüm murada yetəndə.*
*7. O Vətəni bu Vətəndə*
*8. Xəyala dalmağa gəldim.*

*9. A yurddaş, a qardaş-bacı,*
*10. Baxmayın mənə qıyqacı! –*
*11. Mən ağ gündə çiçək açıb,*
*12. Boz gündə solmağa gəldim.*

*13. Xəstə könlümü dindirin,*
*14. Sıcaq söznən sevindirin,*
*15. Məni Şuşaya göndərin,*
*16. Mən şəhid olmağa gəldim...*
*1997*

1. Yağıp yağıp boşalmıştım,
2. Bulut gibi dolmaya geldim.
3. Ben dilimin aklında
4. Söz olup kalmaya geldim.

5. Zikrettim hasret geçtiğinde,
6. Gönlüm murada erdiğinde.
7. O vatanı bu vatanda
8. Hayale dalmaya geldim

9. A yurttaş, a kardeş bacı,
10. Bakmayın bana kötü!
11. Ben ak günde çiçek gibi açıp,
12. Boz günde solmaya geldim.

13. Hasta gönlümü susturun,
14. Sıcak sözle sevindirin,
15. Beni Şuşa'ya gönderin
16. Ben şehit olmaya geldim...

## *GÖRÜRƏM (254)*

*1. Ağaca yox, meşəni görürəm,*
*2. Şüanı yox, şüşəni görürəm,*
*3. Damlanı yox, dənizi görürəm,*
*4. Ooff, adamlar, içinizi görürəm.*

*5. Oxu yox, kamanı görürəm,*
*6. Ayı yox, səmanı görürəm,*
*7. O çayı yox, o dənizi görürəm,*
*8. Ooff, adamlar, içinizi görürəm.*

*9. Dağı yox, dumanı görürəm,*
*10. Yeri yox, zamanı görürəm,*
*11. Mələyi yox, iblisi görürəm,*
*12. Ooff, adamlar, içinizi görürəm.*

*13. Adamı yox, Tanrını görürəm,*
*14. Həyatı yox, anrını görürəm,*
*15. Şeytanı yox, sizi, sizi görürəm,*
*16. Ooff, adamlar, içinizi görürəm...*
*2014*

## GÖRÜYORUM

1. Ağacı değil, ormanı görüyorum,
2. Güneş ışığını değil, camı görüyorum.
3. Damlayı değil, denizi görüyorum,
4. Ooff  insanlar, içinizi görüyorum.

5. Oku değil, kemanı görüyorum,
6. Ayı değil, semayı görüyorum,
7. O çayı değil, o denizi görüyorum,
8. Ooff insanlar, içinizi görüyorum.

9. Dağı değil, dumanı görüyorum,
10. Yeri değil, zamanı görüyorum,
11. Meleği değil, iblisi görüyorum,
12. Ooff insanlar, içinizi görüyorum.

13. İnsanı değil, Tanrı'yı görüyorum,
14. Hayatı değil, sonrasını görüyorum,
15. Şeytanı değil, sizi, sizi görüyorum,
16. Ooff insanlar, içinizi görüyorum.

## *26 FEVRAL – XOCALI BİZİM (255)*

## 26 ŞUBAT HOCALI BİZİM

*1. Hərlənim boyuna, sevgili millət,*
*2. Dolanım başına, qadanı alım.*
*3. Mənə dua eylə - beş-on adamnan*
*4. Ağlaya-ağlaya Ağdamı alım.*

*5. Mənə dua eylə - yığım beş adam,*
*6. Yanvarda, fevralda yaxşı ağlayım,*
*7. Soyuq Xocalıda can verənlərin*
*8. Yasını hamıdan yaxşı saxlayım.*

*9. Yığışaq, ağlayaq və... cəsurlaşaq,*
*10. Zəncirli-zəncirsiz sinəyə döyək.*
*11. Yezidi söyürük min ildən çoxdu,*
*12. Yığışaq bir az da "hayları" söyək.*

*13. Nə lazım Şuşanın xarıbülbülü,*
*14. Bəslə qərənfili, sev gülü, millət.*
*15. Borda manısları tox toğlu kimi,*
*16. Yaxşı burcutsunlar, sevgili millət.*

*17. ...Basdır torpaq deyib poz verənləri,*
*18. Dəfn elə cavanlı-qocalı bizi.*
*19. Üç yüz altmış dörd gün şıllaq atırıq,*
*20. İyirmi altı fevral – Xocalı bizim!..*

1. Dolanayım boynuna, sevgili millet,
2. Dolanayım başına, kurban olayım.
3. Bana dua et, beş, on adamla
4. Ağlaya ağlaya Ağdam'ı alayım.

5. Bana dua et yığayım beş adam,
6. Ocakta, şubatta iyi ağlayayım,
7. Soğuk Hocalı'da can verenlerin
8. Yasını herkesten iyi tutayım.

9. Toplanalım, ağlayalım ve cesurlaşalım,
10. Zincirli zincirsiz sineyi dövelim.
11. Yezidi sövüyoruz bin yıldan fazla,
12. Toplanalım biraz da "hayları" sövelim.

13. Ne lazım Şuşa'nın harıbülbülü,
14. Besle karanfili, sev gülü, millet.
15. Besle yeteneksiz müzisyenleri tok koyun gibi,
16. İyi kıvırsınlar, sevgili millet.

17. Def et toprak deyip poz verenleri,
18. Defnet genç, yaşlı bizi.
19. Üç yüz altmış beş gün şamar atıyoruz,
20. 26 Şubat Hocalı bizim!..

## *ÇİANUR ÇALAN GÜRCÜ QIZINA (256)*

*1. A kor qadın, işıq olum gözünə,*
*2. Çianurun simlərini ağlatma.*
*3. Mən onsuz da cezvəli tək susqunam,*
*4. Olan-qalan nitqimi də bağlatma.*

*5. Baxışına bulaşmayıb çirkinlik,*
*6. A kor qadın, sən bir gürcü gözəli.*
*7. Sənin qədər gözəlini görmədim,*
*8. Mən əlimi gözəllərdən üzəli.*

*9. Tanrı özü bilə-bilə, gözəlim,*
*10. Doğulan tək işığını keçirib.*
*11. O işığı sənin yanıq səsində*
*12. Tiflis boyda bir şəhərə köçürüb.*

*13. Səsin axır qərib dağ çeşməsi tək,*
*14. Mən fağır da qərib dolça bürcüyəm.*

## ÇİANUR ÇALAN GÜRCÜ KIZINA

1. A kör kadın, ışık olayım gözüne,
2. Çianurun tellerini ağlatma.
3. Ben onsuz da âşık gibi suskunum,
4. Kalan nutkumu da bağlatma.

5. Bakışına bulaşmamış çirkinlik,
6. A kör kadın, sen bir Gürcü güzeli.
7. Senin kadar güzelini görmedim,
8. Ben elimi güzellerden çekeli.

9. Tanrı'nın kendisi bile bile güzelim,
10. Anadan doğma kör yaratmış.
11. O ışığı senin yanık sesinde
12. Tiflis boyunda bir şehre göçürmüş.

13. Sesin ahir garip çeşmesi gibi,
14. Ben fakir garip bir kova burcuyum.

*15. Göz yaşımı tutammıram, gözəlim,*
*16. Göz yaşlarım elə bilir gürcüyəm...*
*2014*

15. Gözyaşını tutamıyorum, güzelim,
16. Gözyaşlarım sanıyor ki Gürcü'yüm...

***TƏSADÜFİ GÖRÜŞ (257)***

*1. Qəribə təsadüf, gözlənməz görüş –*
*2. Baxışın dalğa tək oynatdı məni.*
*3. Qaranlıq səhnədə qəfil işıq tək*
*4. Ekran xatirəmi oyatdı mənim.*

*5. İlk görüş yerini yad edirsənmi?*
*6. Mən səni köksümə sıxmışam orda.*
*7. Nə ev, nə ailə eynimə deyil,*
*8. Bəlkə də evimi yıxmışam orda.*

*9. Bir dünya eşqimi yığdın ovcuna,*
*10. Qaladın özünçün boranda, çəndə.*
*11. Sevgim barmağında nişanlanıbdır,*
*12. Hansı qız sevgidən pay umsun məndən?..*

*13. Sənə əvvəlkitək baxa bilmirəm,*
*14. Baxışım qəlbini sıxar, qorxuram.*
*15. Haçansa nişanlın sevən bir xanım*
*16. Mənim qismətimə çıxar, qorxuram.*

*17. Çalış bütöv olsun bu məhəbbətin*
*18. Təzə nişanlına, təzə sevginə.*
*19. Bir vaxt qardaşına "Rafiq" deyirdin,*
*20. Çaşıb nişanlına "Rafiqim" demə...*
*1988*

**TESADÜFİ BAKIŞ**

1. Garip tesadüf, beklenmez bakış
2. Bakışın dalga gibi oynattı beni.
3. Karanlık sahnede gafil ışık gibi
4. Hafızamı uyandırdı benim.

5. İlk buluşma yerini hatırlıyor musun?
6. Ben seni göğsüme sıkmışım orada.
7. Ne ev, ne aile umrumda değil,
8. Belki de evimi yıkmışım orada.

9. Bir dünya aşkımı yığdın avcuna,
10. Yaktın kendin için boranda, siste.
11. Sevgim parmağında nişanlanmıştır,
12. Hangi kız sevgiden pay umsun benden?

13. Sana önceki gibi bakamıyorum,
14. Bakışım kalbini sıkar, korkuyorum.
15. Ne zaman senin nişanlının sevdiği bir hanım
16. Benim kısmetime çıkar, korkuyorum.

17. Çalış bir bütün olsun aşkın
18. Taze nişanlına, taze sevgine.
19. Bir vakit kardeşine "Rafig" diyordun,
20. Şaşırıp nişanlına "Rafig'im" deme...

***YOLDAŞ OLUR (258)***

*1. Ayaqlarım yorulanda,*
*2. Dilim mənə yoldaş olur.*
*3. Çəmənlər çəkmir nazımı,*
*4. Kilim mənə yoldaş olur.*

*5. Qiymətim var qanqal kimi,*
*6. Ürəyim var manqal kimi.*
*7. Odlanıram tonqal kimi,*
*8. Külüm mənə yoldaş olur.*

*9. Ey görüşə gələn sənəm,*
*10. De görüm, nə gözləyirsən?*

**YOLDAŞ OLUYOR**

1. Ayakların yorulunca,
2. Dilim bana yoldaş oluyor.
3. Çimenler çekmiyor nazımı,
4. Kilim bana yoldaş oluyor.

5. Kıymetim var diken gibi,
6. Yüreğim var mangal gibi.
7. Yanıyorum odun gibi,
8. Külüm bana yoldaş oluyor.

9. Ey buluşmaya gelen senem,
10. De göreyim, ne arıyorsun?

*11. Ürəyini gizləyirsən,*
*12. Belin mənə yoldaş olur.*

11. Yüreğini gizliyorsun,
12. Belin bana yoldaş oluyor.

*13. ...Bu körpüyə çatan – adlar,*
*14. Anam adlar, atam adlar.*
*15. Ey məzarda yatan yadlar,*
*16. Ölüm... mənə yoldaş olun!..*
*1987*

13. Bu köprüye ulaşan atlar
14. Anam atlar, babam atlar.
15. Ey mezarda yatan yabancılar,
16. Ölüm... Bana yoldaş olun!

***TƏNHA QADIN (259)***

**YALNIZ KADIN**

*1. Çarəsiz günahların –*
*2. Mələk günahı kimi.*
*3. Oxuyuram səni, gülüm,*
*4. Yozmuram yuxu kimi.*

1. Çaresiz günahların
2. Melek günahı gibi.
3. Okuyorum seni, gülüm,
4. Yorumlamıyorum rüya gibi.

*5. Bilirəm boz yığvalın*
*6. Üzün tək ağ olmayıb.*
*7. Payın qara yaylıq olub,*
*8. Qara papaq olmayıb.*

5. Bilirim kara talihin
6. Yüzün gibi ak olmamış.
7. Payın kara türban olmuş,
8. Kara papak olmamış.

*9. Qorxma, söykən çiynimə,*
*10. Başla acı nağıla...*
*11. Hönkürtünü kəsmə, gülüm,*
*12. Ağla, doyunca ağla.*

9. Korkma, yaslan omuzuma,
10. Başla acı masala...
11. Ağlamanı kesme, gülüm,
12. Ağla, doyunca ağla.

*13. ...Solmamış çiçək kimisən,*
*14. Qoxlamağa adam çox.*
*15. Məndən başqa yanında*
*16. Ağlamağa adam yox...*
*2004*

13. Solmamış çiçek gibisin,
14. Koklamaya insan çok.
15. Benden başka yanında
16. Ağlamaya insan yok...

***VAY VAY (260)***

**VAY VAY**

*1. ...Elə ki gördülər sözün ötəndi,*
*2. elə ki gördülər ünün yetəndi,*
*3. elə ki bildilər dərdin-azarın*
*4. yaralı millətdi, bölük vətəndi...*
*5. vay-vay...ulaşacaq it oğulları,*
*6. vəzirin, vəkilin g.t oğulları*
*7. öncə kəsəcəklər sözünü sənin...*

1. Öyle ki gördüler sözü geçendin,
2. Öyle ki gördüler sesi yetendin,
3. Öyle ki bildiler derdin sıkıntın
4. Yaralı milletti, bölük vatandı...
5. Vay vay...ulaşacak it oğulları
6. Vezirin, vekilin g.t oğulları
7. Önce kesecekler sözünü senin...

*8. Elə ki gördülər həvəsin təmiz,*
*9. elə ki gördülər nəfəsin təmiz,*
*10. elə ki bildilər içində hər gün*
*11. bülbül tək ötdüyün qəfəsin təmiz...*

8. Öyle ki gördüler hevesin temiz,
9. Öyle ki gördüler nefesin temiz,
10. Öyle ki bildiler içinde her gün
11. Bülbül gibi öttüğün kafesin  temiz...

| | |
|---|---|
| *12. vay-vay... dəlirəcək gic oğulları,* | 12. Vay vay... Delirecek kıç oğulları, |
| *13. saxta knyazların bic oğulları* | 13. Sahte prenslerin piç oğulları |
| *14. kəsəcək çörəyni, duzunu sənin...* | 14. Kesecek ekmeğini, tuzunu senin... |
| | |
| *15. Və...illər üstünə illər gələndə,* | 15. Ve... Yıllar üstüne yıllar geçince |
| *16. tufanlar qopanda, sellər gələndə,* | 16. Tufanlar kopunca, seller gelince, |
| *17. dönüb özün boyda heykəl olanda,* | 17. Dönüp kendi boyunda heykel olunca, |
| *18. ayağın altına güllər gələndə...* | 18. Ayağın altına güller gelince... |
| *19. vay-vay... o biclərin bic nəvələri,* | 19. Vay vay... O piçlerin piç torunları, |
| *20. yaltaq nəvələri, gic nəvələri* | 20. Yaltak torunları, kıç torunları |
| *21. ya ölüm günündə, ya ad günündə* | 21. Ya ölüm gününde ya doğum gününde |
| *22. yüyürüb siləcək tozunu sənin...* | 22. Yürüyüp silecek tozunu senin... |

| | |
|---|---|
| ***ELƏ DƏ BİLİRDİM (261)*** | **ÖYLE SANIYORUDUM...** |
| | |
| *1. ...Elə də bilirdim, sən gələcəksən,* | 1. Öyle sanıyorum ki sen geleceksin, |
| *2. Bu dəfə qəmli yox, şən gələcəksən...* | 2. Bu defa gamlı değil, şen geleceksin... |
| *3. Dolayıb boynuma ağ qollarını,* | 3. Dolayıp boynuma ak kollarını, |
| *4. Güləcək, güləcək və güləcəksən.* | 4. Gülecek, gülecek ve güleceksin. |
| | |
| *5. Elə də bilirdim...ayrı yol ha yox,* | 5. Öyle sanıyordum... Ayrı yol ha yok, |
| *6. Mənə dolanmağa ayrı qol ha yox...* | 6. Bana dolanmaya ayrı kol ha yok... |
| *7. Sənsən xəstəliyim, çarəsizliyim,* | 7. Sensin hastalığım, çaresizliğim, |
| *8. Özgəni sevməyə məndə hal ha yox.* | 8. Başkasını sevmeye bende hâl ha yok. |
| | |
| *9. Elə də bilirdim, qəfildən gəlib,* | 9. Öyle sanıyorum, aniden gelip |
| *10. Hıçqıran könlümü kiridəcəksən.* | 10. Hıçkıran gönlümü susturacaksın, |
| *11. Qaynar qucağına sıxaraq məni,* | 11. Kaynar kucağına sıkarak beni, |
| *12. Buzlaşmış dərdimi əridəcəksən.* | 12. Buzlaşmış derdimi eriteceksin. |
| | |
| *13. ...Dözülməz istidə lap təntimişdim,* | 13. Dayanılmaz sıcakta fenalık geçirmiştim, |
| *14. Bir az mutsuz idim, bir az səy idim.* | 14.  Biraz mutsuz idim, biraz deli idim. |
| *15. Sevgili qucağın necə də xoşdur,* | 15. Sevgili kucağın ne kadar da hoştur, |
| *16. Xoş gəldin, a mənim salxım söyüdüm!..* | 16. Hoş geldin, a benim salkım söğüdüm! |

| | |
|---|---|
| ***ŞÜKRANLIQ (262)*** | **ŞÜKÜR** |
| | |
| *1. Şükür sənə, şükür, Tanrım,* | 1. Şükür sana, şükür, Tanrım, |
| *2. Yenə səhər gül qoxudu,* | 2. Yine seher gül kokuyor, |
| *3. Yenə yolların dirildi,* | 3. Yine yolların dirildi, |
| *4. Yenə quşların oxudu.* | 4. Yine kuşların ötüyor. |
| | |
| *5. Yenə bir yazıq gecəni* | 5. Yine bir aciz geceyi |
| *6. Umudlu səhər elədin.* | 6. Umutlu seher eyledin. |

*7. Şükür, Tanrım, ölü yurdu*
*8. Ayıldıb şəhər elədin.*

*9. Dan üzündə Günəş doğdu,*
*10. Ləçəklər yarpağa döndü.*
*11. Arılar gül-çiçəyinə,*
*12. Kəndlilər torpağa döndü.*

*13. Şükür sənə, şükür, Tanrım,*
*14. Ölünü diri elədin.*
*15. Məni şairdən çevirib,*
*16. Hər kəsdən biri elədin...*
*2014*

7. Şükür, Tanrım, ölü yurdu
8. Ayıltıp şehir eyledin.

9. Ufuklarda güneş doğdu,
10. Tomurcuk yaprağa döndü.
11. Arılar gül çiçeğine,
12. Köylüler toprağa döndü.

13. Şükür sana, şükür, Tanrım,
14. Ölüyü diri eyledin.
15. Beni şairden çevirip,
16. Herkesten biri eyledin...

### *MƏN SƏNƏ NƏ DEYİM (263)*

*1. Mən sənə nə deyim... hardan başlayım?*
*2. Sən özün dərd ilə böyüdün, gülüm.*
*3. İşığı kəsilib, suyu bağlanıb*
*4. Mənim tək cəngavər iyidin, gülüm.*

*5. Yayda buz oluram, qışda yanıram,*
*6. Mən yayı qışladım, qışı yayladım.*
*7. Sən axı məndən də yaxşı bilirsən –*
*8. Mən öz son payımı necə payladım.*

*9. Sən axı məndən də yaxşı bilirsən, -*
*10. Məni ehtiyacla necə döyüblər.*
*11. Ölümdən, sürgündən qorxmuram deyə,*
*12. Məni dar otağa kilidləyiblər.*

*13. ...Mən sənə nə deyim, hardan başlayım?*
*14. Məni çox qınama, sən canın, gülüm.*
*15. Sonunda bir qara qəpiyə dəyməz,*
*16. Satım anasını dünyanın, gülüm...*

### BEN SANA NE DİYEYİM...

1. Ben sana ne diyeyim... Nereden başlayayım?
2. Sen dert ile büyüdün, gülüm.
3. Işığı kesilmiş, suyu bağlanmış
4. Benim gibi cengaver yiğidin, gülüm.

5. Yazda buz oluyorum, kışta yanıyorum,
6. Ben yazı kışladım, kışı yazladım.
7. Sen benden iyi biliyorsun
8. Ben kendi son payımı nasıl payladım.

9. Sen benden iyi biliyorsun
10. Beni hırsla nasıl dövmüşler.
11. Ölümden, sürgünden korkmuyorum diye,
12. Beni dar odaya kilitlemişler.

13. Ben sana ne diyeyim, nereden başlayayım?
14. Beni çok kınama, lütfen, gülüm.
15. Sonunda bir kara kapıya değmez,
16. Satayım anasını dünyanın, gülüm..

### *QINAMA ÖZÜNÜ ŞAİR (264)*

*1. ...Qınama özünü bu qədər, şair,*
*2. İncitmə, onsuz da hamı incidir.*
*3. Otur öz küncündə, hesab elə ki,*
*4. Hamı ləl-gövhərdi, hamı incidi...*

*5. Otur öz küncündə, Tanrınla danış,*
*6. O bilir qapını niyə bağlayıb.*

### KINAMA KENDİNİ ŞAİR

1. Kınama kendini bu kadar, şair,
2. İncitme, onsuz da herkes incitir.
3. Otur kendi sokağında, hesap et ki,
4. Hepsi mücevher, hepsi incidir.

5. Otur kendi sokağında, Tanrı'nla konuş,
6. O bilir kapını niye bağlamış.

*7. O bilir bu qədər quldur içində,*
*8. Hələ də səni sağ niyə saxlayıb...*

*9. İncitmə özünü bu qədər, şair,*
*10. Bu qədər öyrətmə özünü aha.*
*11. Asan yaşamağın eşqi ucuzdu,*
*12. Şükür, söykəmisən sözünü aha.*

*13. ...Sənə nə, hərənin neçə yarı var,*
*14. Kimlər hansı yarın altından çıxır?*
*15. ...Bu qış da bitəcək, buz əriyəcək, -*
*16. Tər çiçək buz-qarın altından çıxır...*
*2014*

7. O bilir bu kadar eşkıya içinde,
8. Hele de seni sağ niye bırakmış...

9. İncitme kendini bu kadar, şair,
10. Bu kadar cezalandırma kendini aha.
11. Kolay yaşamanın aşkı ucuzdur,
12. Şükür, yaslamıyorsun sözünü aha.

13. Sana ne, herkesin kaç yari var,
14. Kimler hangi yarin altından çıkıyor?
15. Bu kış da bitecek, buz eriyecek,
16. Taze çiçek, buzun karın altından çıkıyor...

***ÖZLƏDİ (265)***

*1. Canım tamam sıxıldı,*
*2. Ruhum səni özlədi.*
*3. İçin-için çəkdiyim*
*4. Ahım səni özlədi.*

*5. Mənim son bahar gülüm,*
*6. De, sənsiz necə gülüm?*
*7. Yuxuma gəl, sevgilim,*
*8. Yuxum səni özlədi.*

*9. Qəlbini qırmaz olum,*
*10. Ölüm... ruhuna dolum.*
*11. Tacım, qurbanın olum,*
*12. Şahın səni özlədi.*
*2014*

**ÖZLEDİ**

1. Canım tamamen sıkıldı,
2. Ruhum seni özledi.
3. İçin için çektiğim
4. Ahım seni özledi.

5. Benim sonbahar gülüm,
6. De, sensiz nasıl güleyim?
7. Rüyama gel, sevgilim,
8. Rüyam seni özledi.

9. Kalbini kırmaz olayım,
10. Öleyim...Ruhuna dolayım.
11. Tacım, kurbanın olayım,
12. Şahın seni özledi.

***ÜSYAN (266)***

*1. Yay da bitdi. Gələn getdi. Yapayalnızam,*
*2. Bir xanım, bir oğul, bir qız...Verənə şükür.*
*3. Bütün yayı it-pişiyə hər gün su verdim,*
*4. Gizlincə...*
*5. Səy saymasınlar.*
*6. Görənə şükür.*

*7. Bütün yayı quru çörək mənlə vuruşdu,*
*8. Kim bilir ki alacağım imarət eylər.*
*9. Dünya budur: sən işlərsən gecə və gündüz,*
*10. Qəhbələrin oğlu səni hey qarət eylər.*

**İSYAN**

1. Yaz da bitti. Gelen gitti. Yapayalnızım,
2. Bir hanım, bir oğul, bir kız...Verene şükür.
3. Bütün yaz köpeğe kediye her gün su verdim,
4. Gizlice...
5. Deli saymasınlar.
6. Görene şükür.

7. Bütün yaz kuru ekmek benimle vuruştu,
8. Kim bilir ki alacaklarım imaret eyler.
9. Dünya budur: Sen çalışırsan gece ve gündüz,
10. Kahpelerin oğlu seni hey yağmalar.

*11. Bütün yayı göyə baxıb, dualar etdim,*
*12. Yay da bitdi. Guya bu il yazımı gördüm!?*
*13. Mən bilirdim Yalıncığa divan tutmağı,*
*14. Amma, neynim, hara baxdım, qızımı gördüm.*

*15. Dünya budur: sevdiyimiz uca Allah da,*
*16. Yeri-göyü daraldana göy bağışlayır.*
*17. Mən yarımın ad gününə gül alammadım,*
*18. Kimsə yarının yarına öy bağışlayır.*

*19. Aç qapımı. Görməz olma bunca sən məni,*
*20. Gecə-gündüz yol gözləyir anam, Allahım.*
*21. İki sevda çəkənlərə cəza verirsən,*
*22. İyirmi min başkəsənə ənam, Allahım...*
*2014*

11. Bütün yaz göğe bakıp, dualar ettin,
12. Yaz da bitti. Güya bu yıl baharı mı gördüm!?
13. Ben bilirdim Yalıncık'a cezasını vermeyi
14. Ama, neyleyim, nereye baksam kızımı gördüm.

15. Dünya budur: Sevdiğimiz yüce Allah da,
16. Yeri göğü daraltana gök bağışlıyor.
17. Ben yarimin doğum gününe gül alamadım,
18. Kimisi yarinin yarine ev bağışlıyor.

19. Aç kapımı. Görmez olma bunca sen beni,
20. Gece gündüz yol gözlüyor anam, Allah'ım.
21. İki sevda çekenlere ceza verirsin,
22. Yirmi bin cellada lütuf, Allah'ım.

### *SALAM (267)*

*1. Salam, anam. Bir az da döz,*
*2. Bir az səbrini bərk elə.*
*3. Görməyən gözünə qurban,*
*4. Ruhunla məni dərk elə.*

*5. Salam, gülüm. Yanındakı*
*6. Yalıncıqları tərk elə.*
*7. Könlündə sıxıntı varsa,*
*8. Gəl mənə söylə, ərk elə.*

*9. Salam, Tanrım. Sinirlərim*
*10. Yenə doludur ərk ilə.*
*11. Haqsızamsa məni öldür,*
*12. Ya da haqsıza görk elə...*
*2014*

### SELAM

1. Selam anam. Biraz dayan,
2. Biraz sabrını arttır.
3. Görmeyen gözüne kurban,
4. Ruhunla beni anla.

5. Selam gülüm. Yanındaki
6. Yalıncakları terk eyle.
7. Gönlünde sıkıntı varsa,
8. Gel bana söyle, paylaş.

9. Selam Tanrım. Sinirlerim
10. Yine dolu güç ile.
11. Haksızsam beni öldür,
12. Ya da haksıza üstün eyle...

### *ŞAİRLƏR (268)*

*1. Gündə bir eşşəyə palan daşıyan,*
*2. Gündə yüz adama yalan danışan,*
*3. Ömründə bir qadın sevə bilməyən,*
*4. Gündə bir qəhbənin belinə minən,*
*5. Siz Allah, siz deyin, şair olarmı?*

*6. Şair dəli kimi sevər, vurular,*
*7. Şair fəhlə kimi işlər, yorular...*
*8. Bircə gecəni də oyaq qalmayan,*

### ŞAİRLER

1. Günde bir eşeğe palan taşıyan,
2. Günde yüz insana yalan söyleyen,
3. Ömründe bir kadın sevemeyen,
4. Günde bir kahpenin beline binen,
5. Siz Allah, siz deyin, şair olur mu?

6. Şair deli gibi sever, vurulur,
7. Şair işçi gibi çalışır, yorulur...
8. Bir tek gece uyanık kalmayan,

*9. Son quruşu ilə sevdiyi qıza*
*10. Çiçəyə bənzəyən nəsə almayan,*
*11. Siz Allah, siz deyin, şair olarmı?*

*12. Şairi çox zaman padşah öldürər,*
*13. Ya da köksündəki min ah öldürər.*
*14. Darğaya əyilməz, xana qul olmaz,*
*15. Bala önündəki günah öldürər.*
*16. Hər əyyaş görəndə göz edirsiniz,*
*17. Siz hansı şairdən söz edirsiniz?*

*18. Dünyada heç nəyi olmasa belə,*
*19. Şairi şöhrəti-adı öldürər.*
*20. Nə vaxtsa cəlladlar qıymasalar da,*
*21. Gün gələr sevdiyi qadın öldürər...*
*2014*

9. Son kuruşu ile sevdiği kıza
10. Çiçeğe benzeyen bir şey almayan,
11. Siz Allah, siz deyin, şair olur mu?

12. Şairi çoğu zaman padişah öldürür,
13. Ya da göğsünde bin ah öldürür.
14. Bakana eğilmez, hana kul olmaz,
15. Çocuk önünde günah öldürür.
16. Her ayyaş gördüğünüzde işaret ediyorsunuz,
17. Siz hangi şairden söz ediyorsunuz?

18. Dünyada hiçbir şeyi olmasa bile,
19. Şairi şöhreti, adı öldürür.
20. Ne vakit cellatlar kıymasa da,
21. Gün gelir sevdiği kadın öldürür...

## ***ETİRAF (269)***

*1. Ah, sevgili qarım, fədakar yarım,*
*2. Hər zaman başıma dolandın mənim.*
*3. Ötürsəm köksümü sinəmdən çıxan*
*4. Ahımın oduna qalandın mənim.*

*5. Ah, sevgili qarım, fədakar yarım,*
*6. Mənə dözərdimi bir ayrı qadın?*
*7. Gecələr rahatmı yatıram deyə*
*8. Məni süzərdimi bir ayrı qadın?*

*9. Ah, sevgili qarım, fədakar yarım,*
*10. Atama-anama qızlıq eylədin.*
*11. Sən mənə bətnində uşaq gəzdirdin,*
*12. Mən gedib o qiza şeir söylədim.*

*13. Ah, sevgili qarım, fədakar yarım,*
*14. Sanma ki bilmirəm nə dediyimi, -*
*15. Hər yeni qadından sonra anladım*
*16. Mən səni nə qədər çox sevdiyimi.*

*17. Ah, sevgili qarım, fədakar yarım,*
*18. Mən sənin eşqinlə bu günə gəldim.*
*19. Mən sənin eşqinlə çox şeyə dözdüm,*
*20. Mən sənin eşqinlə sürgünə gəldim.*

*21. Ah, sevgili qarım, fədakar yarım,*

## **İTİRAF**

1. Ah, sevgili karım, fedakâr yarim,
2. Her zaman başıma dolandın benim.
3. İç çeksem sinemden çıkan
4. Ahımın oduna yandın benim.

5. Ah, sevgili karım, fedakâr yarim,
6. Bana sabreder miydi bir başka kadın?
7. Geceleri rahat yatıyor muyum diye
8. Beni süzer miydi bir başka kadın?

9. Ah, sevgili karım, fedakâr yarim,
10. Babama anama kızlık ettin.
11. Sen bana karnında çocuk gezdirdin,
12. Ben gidip o kıza şiir söyledim.

13. Ah, sevgili karım, fedakâr yarim,
14. Sanma ki bilmiyorum ne dediğimi,
15. Her yeni kadından sonra anladım
16. Ben seni ne kadar çok sevdiğimi.

17. Ah, sevgili karım, fedakâr yarim,
18. Ben senin aşkınla bu güne geldim.
19. Ben senin aşkınla çok şeye dayandım,
20. Ben senin aşkınla sürgüne geldim.

21. Ah, sevgili karım, fedakâr yarim,

*22. İki balam üçün gözünü sevim.*
*23. Sən bunca onları gözəl böyütdün,*
*24. Gözünü, sözünü, özünü sevim.*

*25. ...Soyuq palatada uzun bir qışı,*
*26. Ayağım altında oturan yarım,*
*27. Aylarla Tanrıya dua eyləyib,*
*28. Məni bu dünyaya qaytaran yarım,*
*29. Bəlkə də üzümə vurmadın mənim,*
*30. Bəlkə bilərəkdən qırmadın məni -*
*31. ...Bir tənha qadına sahib çıxarkən,*
*32. Mən sənin eşqini ikiyə böldüm...*
*2014*

22. İki çocuğum için gözünü seveyim.
23. Sen bunca onları güzel büyüttün,
24. Gözünü, sözünü, özünü seveyim.

25. Soğuk odada uzun bir kış boyunca,
26. Ayağım altında oturan yarim,
27. Aylarca Tanrı'ya dua edip
28. Beni bu dünyaya dönderen yarim,
29. Belki de yüzüme vurmadın benim,
30. Belki bilerek kırmadın beni
31. Bir yalnız kadına sahip çıkarken
32. Ben senin aşkını ikiye böldüm...

### *SEVMƏ (270)*

*1. Özü sənə yalmanmış qadını sevmə, kasıb adam,*
*2. Səndən xəbərsiz səni sevəni sevmə;*
*3. Hər dəfəsində bir bəhanə bularaq*
*4. Cəsarətlə sənə zəng edəni sevmə.*
*5. Sevmə o məsum pıçıltıların sahibini,*
*6. Sevmə o gecə-gündüz ağlayan qadını,*
*7. Elə ki sındırdı sınmaz inadını,*
*8. Elə ki eşqindən daddı...*
*9. Səni üzüqoylu buraxar da gedər, heeeç acımaz.*
*10. Sevmə gözüyaşlı qadınları,*
*11. Vurulma zar-zar ağlayanlara,*
*12. Üstəlik kasıbsansa, halalsansa,*
*13. Boş ver qara şal bağlayanlara...*
*14. Qoy onları zənginlər sevsin,*
*15. Varlılar onlara bağ alsın, öy alsın,*
*16. Gərəkirsə Ayda yer alsın,*
*17. Lap elə Ayın altında göy alsın...*
*18. Sənsə, kasıb adam,*
*19. Qadınsız qal, yaralı qal,*
*20. Amma*
*21. Qara şallı qadınlardan aralı qal!..*
*22. Şıltaq qadınları sev,*
*23. Gülən qadınları sev,*
*24. Taleyinə gülə-gülə*
*25. Gələn qadınları sev!..*
*2014*

### SEVME

1. Kendi sana yapışmış kadını sevme, fakir adam,
2. Senden habersiz seni seveni sevme
3. Her defasında bir bahane bularak
4. Cesaretle sana işaret edeni sevme.
5. Sevme o masum fısıltıların sahibini,
6. Sevme o gece gündüz ağlayan kadını,
7. Öyle ki kırdı kırılmaz inadını,
8. Öyle ki aşkından tattı...

9. Seni yüzükoyun bırakır da gider, hiç acımaz.
10. Sevme gözüyaşlı kadınları,
11. Vurulma zır zır ağlayanlara,
12. Üstelik fakirsen, helalsen,
13. Boşver kara şal bağlayanlara...
14. Bırak onları zenginler sevsin,
15. Zenginler onlara bağ alsın, ev alsın,
16. Gerekirse ayda yer alsın,
17. Ayın altında gök alsın...
18. Sense, fakir adam,
19. Kadınsız kal, yaralı kal,
20. Ama
21. Kara şallı kadınlardan uzak kal!
22. Kaprisli kadınları sev,
23. Gülen kadınları sev,
24. Talihine güle güle
25. Gelen kadınları sev!

### *GİLEY (271)*

### ŞİKÂYET

*1. Hər şey üst-üstə gəldi ya...*
*2. Hamı eyni anda qandırmağa,*
*3. Eyni anda yandırmağa başladı məni.*
*4. Tək bir zəng də gəlmir ürəkaçan*
*5. İstər dost-tanışdan, istər qardaş-bacıdan...*
*6. Hamı ağlayır-sızlayır,*
*7. Hamı bayquş kimi ulayır.*
*8. Bu qədər ağlaşmalara necə dözüm ya?*
*9. Sözləşib qəsdiməmi durubsunuz, adamlar,*
*10. Bircə dəfə sormazmısınız mənim nə dərdim var?..*

*2014*

1. Her şey üst üste geldi ya...
2. Hepsi aynı anda kandırmaya
3. Aynı anda yakmaya başladı beni.
4. Tek bir ses de gelmiyor yürek açan
5. İster dost tanıştan, ister kardeş bacıdan...
6. Hepsi ağlanıyor sızlanıyor,
7. Hepsi baykuş gibi uluyor.
8. Bu kadar ağlaşmalara nasıl dayanayım ya?
9. Sözleşip kastıma mı durmuşsunuz, insanlar,
10. Bir defa sormaz mısınız benim ne derdim var?

***QORXU (272)***

*1. Hər şey gözəldirsə,*
*2. Bütün işlərin yolunda gedirsə,*
*3. Zövqün eşqinlə sarmaş-dolaşsa,*
*4. Təbəssümünü qoymağa yer azlıq edirsə,*
*5. Qorx!..*

*6. Hamıdan razısansa,*
*7. Hər kəs səndən razıdırsa,*
*8. Qışın sönük günəşi də*
*9. Soyuq üzünü qızdırırsa,*
*10. Qorx!*

*11. Bütün yolların bağlanıbsa,*
*12. Sonuncu ümiddən tutmusansa,*
*13. Sonuncu sandığın gecəni*
*14. Haqqa sığınıb yatmısansa,*
*15. Qorxma!..*

*2014*

**KORKU**

1. Her şey güzelse,
2. Bütün işlerin yolunda gidiyorsa
3. Zevkin aşkınla sarmaş dolaşsa,
4. Tebessümü koymaya yer yetmiyorsa,
5. Kork!

6. Herkesten razıysan,
7. Herkes senden razıysa,
8. Kışın sönük güneşi de
9. Soğuk yüzünü ısıtıyorsa,
10. Kork!

11. Bütün yolların bağlanmışsa,
12. Sonuncu ümide de tutunamıyorsan
13. Sonuncu sandığın gecede
14. Hakka sığınıp yatmıyorsan,
15. Korkma!

***BİR YAŞILCA VADI OLA (273)***

*1. Bir yaşilca vadi ola,*
*2. Çayı da lap sakit axa.*
*3. Susub özündən gedəsən,*
*4. Göy üzünə baxa-baxa.*

*5. Eləcə göyə baxasan,*
*6. Çayın səsi layla çala,*
*7. Ehtirasın ölüb gedə,*
*8. Nəfsin kiçilə, alçala.*

**BİR YEŞİLCE VADİ OLSA**

1. Bir yeşilce vadi olsa,
2. Çayı da çok sessiz aksa.
3. Susup kendinden geçsen
4. Gökyüzüne baka baka.

5. Öylece göğe baksan,
6. Çayın sesi ninni çalsa,
7. İhtirasın ölüp gitse,
8. Nefsin küçülse, alçalsa.

*9. Anadangəlmə soyunub,*
*10. Yarpaq geyəsən əyninə.*
*11. Çəkinmədən uçub qona*
*12. Quşlar hər iki çiyninə.*

*13. "A" deyəsən – Allah gülə,*
*14. "E" deyəsən – Eşqin gələ,*
*15. Bir yaşılca vadi ola –*
*16. Oxuyasan ölə-ölə...*
*2014*

***DUA (274)***

*1. İlahi, o qadını sən çıxardın qarşıma,*
*2. Mən də sənin xətrinə ona qol-qanad oldum.*
*3. İslandım hər görüşdə onun göz yaşlarından,*
*4. Buludlarla sarmaşıb sirli kainat oldum.*

*5. İlahi, o qadının dözdüm hər əzabına,*
*6. O, susmadı, ağladı, ağladı, hey ağladı.*
*7. Neçə dəfə az qala göz yaşından boğulam,*
*8. Amma o göndərdiyin mələk məni saxladı.*

*9. İlahi, nələr çəkib o qadın bu dünyada,*
*10. Hər dəfə taleyini danışdı və sustaldı.*
*11. Neçə dəfə mən onu bu dünyaya qaytardım,*
*12. O da bütün dünyanın heyfini məndən aldı.*

*13. İlahi, özün gördün, qəhrini az çəkmədim,*
*14. Səkkiz milyard quldurun biri ola bilmədim.*
*15. Keç günahımdan mənim, yarımçıq müsəlmanam,*
*16. Onun kişisi oldum, əri ola bilmədim.*

*17. İlahi, ayrılıq da ölüm kimi bir şeydir,*
*18. Hər həsrətə dözərəm mən sənin adın ilə.*
*19. Heç cür ayrılammıram, heç cür unudammıram*
*20. Sən onu mənim üçün adi bir qadın eylə...*

*21. Sənə mutluluk diləyirəm, gülüm,*
*22. Əgər o mutluluğun mənsiz olsa belə...*

*23. Sadəcə mutluluğunu istədim,*

9. Anadan olma soyunup,
10. Yaprak giyesin üstüne.
11. Çekinmeden uçup konsa
12. Kuşlar her iki omzuna.

13. "A" diyesin, Allah gülse,
14. "E" diyesin, Aşkın gelse,
15. Bir yeşilce vadi olsa
16. Türkü söyleyesin öle öle...

**DUA**

1. İlahi, o kadını sen çıkardın karşıma,
2. Ben de senin hatrına ona kol kanat oldum.
3. Islandım her görüşmede onun gözyaşlarından,
4. Bulutlarla sarmaşıp sırlı kainat oldum.

5. İlahi, o kadının sabrettim her azabına,
6. O, susmadı, ağladı, ağladı, hey ağladı.
7. Kaç defa az kaldı gözyaşından boğulmama,
8. Ama o gönderdiğin melek beni korudu.

9. İlahi, neler çekmiş o kadın bu dünyada,
10. Her defasında talihini konuştu ve fenalaştı.
11. Kaç defa ben onu bu dünyaya dönderdim,
12. O da bütün dünyanın intikamını benden aldı.

13. İlahi, kendin gördün, kahrını az çekmedim,
14. Sekiz milyar haydutun biri olamadım.
15. Geç günahımdan benim, yarım müslümanım,
16. Onun erkeği oldum, eşi olamadım.

17. İlahi, ayrılık da ölüm gibi bir şeydir,
18. Her hasrete dayanırım ben senin adın ile.
19. Hiçbir şekilde ayrılamıyorum, hiçbir şekilde unutamıyorum
20. Sen onu benim için sıradan bir kadın eyle...

21. Sana mutluluk diliyorum, gülüm,
22. Eğer o mutluluğun bensiz olursa böyle...

23. Sadece mutluluğunu istedim,

*24. Gülməni, gülümsəməni istədim,*
*25. Başqa nə istədim ki!?*

*26. Mutlu ol, gülüm, mutlu,*
*27. Ömrünü yaşa gülə-gülə,*
*28. Tək diləyim sənin mutluluğundur*
*29. O mutluluğun mənsiz olsa belə...*
*2014*

24. Gülmeni, gülümsemeni istedim,
25. Başka ne istedim ki!?

26. Mutlu ol, gülüm, mutlu,
27. Ömrünü yaşa güle güle,
28. Tek dileğim senin mutluluğundur
29. O mutluluğun bensiz olursa böyle...

**_YOXDU (275)_**

*1. Şükür, ayaqlarım var,*
*2. Adi arabam yoxdu.*
*3. Kiçicik bir daxmam var,*
*4. Böyük xarabam yoxdu.*

*5. Alnımda – bəxt şilləsi,*
*6. Yoldu... sonsuz çiləsi...*
*7. Belimdə dərd şələsi,*
*8. Çanta, çamadan yoxdu.*

*9. Könlüm geniş, odam dar,*
*10. Sakit, səssiz qadam var,*
*11. Səkkiz milyard adam var,*
*12. Amma bir adam yoxdu.*
*2014*

**YOK**

1. Şükür, ayaklarım var,
2. Arabam yok.
3. Küçücük bir barakam var,
4. Büyük sarayım yok.

5. Alnımda baht sillesi,
6. Yoldur... Sonsuz çilesi...
7. Belimde dert yükü,
8. Çanta, valiz yok.

9. Gönlüm geniş, odam dar,
10. Sakit, sessiz derdim var,
11. Sekiz milyar insan var,
12. Ama bir insan yok.

**_BİR ÖLÜMCÜL YERİŞ YERİ (276)_**

*1. Bu kimdi – alnıma baxan,*
*2. Bu nə nəğmədi oxuyur...*
*3. - Öpəmməm siyah saçından,*
*4. Qorxuram, ölüm qoxuyur.*

*5. Çoxdan ulduzlar içində*
*6. Səssiz bir qəbir qazılır...*
*7. - Gözlərindən oxuduğum*
*8. Mənim çiynimdə yazılı.*

*9. Sevgi də bir yurd yeriymiş,*
*10. Yurdu qoyub getmək ağır...*
*11. - Yum gözünü, yaş quruyub,*
*12. Gözündən ildırım yağır.*

*13. Zövqü, eşqi dadar-doymaz,*
*14. Bu dünya – bir görüş yeri.*

**BİR HÜZÜNLÜ YÜRÜYÜŞ YERİ**

1. Bu kimdir alnıma bakan,
2. Bu ne türküdür söylüyor...
3. Öpemem siyah saçından,
4. Korkuyorum, ölüm kokuyor.

5. Çoktandır yıldızlar içinde
6. Sessiz bir kabir kazılıyor...
7. Gözlerinden okuduğum
8. Benim omzumda yazılı.

9. Sevgi de bir yurt yeriymiş,
10. Yurdu bırakıp gitmek ağır...
11. Yum gözünü, yaş kurumuş,
12. Gözünden yıldırım yağıyor.

13. Zevki, aşkı tadar doymaz,
14. Bu dünya bir müsabaka yeri.

*15. - Ölüm, sənə baxa-baxa,*
*16. Bir ölümcül yeriş yeri...*

15. Ölüm, sana baka baka,
16. Bir hüzünlü yürüyüş yeri...

***QARA SEVDALIM (277)***

*1. Köksünü ötürdün yenə,*
*2. Ahın – quyudan gələn səs.*
*3. Vallah bizi yandıracaq*
*4. Sinəndən püskürən nəfəs.*

*5. Ah çək, a qara sevdalım,*
*6. A qara yığvallım, ah çək.*
*7. Sən yan; közün düşən kimi,*
*8. Məni közündə kabab çək.*

*9. Əl-üzümüz salavatlı,*
*10. Ağ gün bizə naxoş gəlir.*
*11. Ah çək, a qara sevdalım,*
*12. Ahın Tanrıya xoş gəlir.*

*13. Ahın – quyudan gələn səs,*
*14. Eşqin kəsilib kəndiri.*
*15. Ah çək, a qara sevdalım, -*
*16. Tanrı aha eşq göndərir...*
*2015*

**KARA SEVDALIM**

1. İçini çektin yine,
2. Ahın, kuyudan gelen ses.
3. Vallahi bizi yakacak
4. Sinenden püsküren nefes.

5. Ah çek, a kara sevdalım,
6. A kara talihlim, ah çek.
7. Sen yan; köz gibi,
8. Beni közünde kebap yap.

9. Elimiz yüzümüz salavatlı,
10. Ak gün bize nahoş geliyor.
11. Ah çek, a kara sevdalım,
12. Ahın Tanrı'ya hoş geliyor.

13. Ahın kuyudan gelen ses,
14. Aşkın kesilmiş halatı.
15. Ah çek, a kara sevdalım,
16. Tanrı aha aşk gönderiyor...

***MƏSLƏHƏT (278)***

*1. Tut yaxamdan, silkələ,*
*2. Gözünü dik gözümə;*
*3. Özümdən ayrılmışam,*
*4. Məni qaytar özümə.*

*5. Əsəbinlə, dərdinlə*
*6. Məni eylə yarımcan,*
*7. Başqası islanmasın*
*8. Sənin göz yaşlarından.*

*9. Hikkəni tök üstümə,*
*10. Daşa dönsün gileyim;*
*11. Sən mənə ağı söylə,*
*12. Mən sənə layla deyim.*

*13. Bax beləcə hər zaman,*
*14. A cezvəli, a dəcəl,*

**NASİHAT**

1. Tut yakamdan, silkele,
2. Gözünü dik gözüme;
3. Kendimden ayrılmışım,
4. Beni döndür kendime.

5. Asabınla, derdinle
6. Ben can çekişeyim,
7. Başkası ıslanmasın
8. Senin gözyaşlarından.

9. Öfkeni dök üstüme,
10. Taşa dönsün derdim;
11. Sen bana ağıt söyle,
12. Ben sana ninni söyleyim.

13. Bak böyle her zaman,
14. A âşık, a şımarık,

*15. Sinirlərin qızanda,*
*16. Mənim üzərimə gəl.*

*17. ...Əsəbinlə, dərdinlə*
*18. Məni eylə yarımcan,*
*19. Başqası islanmasın*
*20. Sənin göz yaşlarından...*

15. Sinirlerin bozulduğunda,
16. Benim üzerime gel.

17. Asabınla, derdinle
18. Ben can çekişeyim,
19. Başkası ıslanmasın
20. Senin gözyaşlarından....

## *...XƏTRİMƏ (279)*

*1. Kədərli oyanma, nolar,*
*2. Bir az gül mənim xətrimə.*
*3. Yanağında donan yaşı,*
*4. Gülüm, sil mənim xətrimə.*

*5. Bağışla, mən uzaqdayam,*
*6. Ruhum ki səninlə yatır.*
*7. Bu qədər ah çəkmə, gülüm,*
*8. Son ahın sinəmdə yatır.*

*9. Bax ha, sağ-sola boylanma –*
*10. Sağda cindir, solda şeytan.*
*11. Sağ çiynindəki mələyəm,*
*12. İnan, gülüm, mənə inan.*

*13. ...Yaxanı aha tanıtma,*
*14. Gülüm, gül mənim xətrimə.*
*15. Bir gün məzarda sızlasam,*
*16. Nolar, öl mənim xətrimə...*
*2014*

## HATRIMA

1. Kederli uyanma, ne olur,
2. Biraz gül benim hatrıma.
3. Yanağında donan yaşı,
4. Gülüm, sil benim hatrıma.

5. Bağışla, ben uzaktayım,
6. Ruhum ki seninle yatıyor.
7. Bu kadar ah çekme, gülüm,
8. Son ahın sinemde yatıyor.

9. Bak ha, sağ sola uzanma
10. Sağda cindir, solda şeytan.
11. Sağ omzundaki meleğim,
12. İnan, gülüm, bana inan.

13. Yakanı derde tanıtma,
14. Gülüm, gül benim hatrıma.
15. Bir gün mezarda sızlasam,
16. Ne olur, öl benim hatrıma...

## *SEVGİ (280)*

*1. Giley-güzar ha etmirəm,*
*2. Hər şey öz qismətimdi.*
*3. Nifrət etməyim də zülüm,*
*4. Sevməyim də çətindi.*

*5. Kim nifrətə açıqdırsa,*
*6. Ondan uzaq gəzərəm.*
*7. Ya tək-tənha ulayaram,*
*8. Ya yalquzaq gəzərəm.*

*9. Pornax sevən adamların*
*10. Yeri olmaz yanımda.*

## SEVGİ

1. Şikâyet etmiyorum,
2. Her şey kendi kısmetimdir.
3. Nefret etmem de zulüm,
4. Sevmem de çetindir.

5. Kim nefret saçıyorsa,
6. Ondan uzak gezerim.
7. Ya tek başıma uluyorum,
8. Ya yalnız kurt gibi gezerim.

9. Porno seven adamların
10. Yeri olmaz yanımda

*11. Ağrı duymayan kəslərin*
*12. Ruhu gəzməz canımda.*

*13. Sevdiyimi bürcüm kimi,*
*14. Qalam kimi sevərəm;*
*15. Atam-anam, qardaş-bacım,*
*16. Balam kimi sevərəm.*

*17. ...Nə olsun, imarətim yox,*
*18. Bir az kiçikdi evim –*
*19. Siz məni bircə gün sevin,*
*20. Sizi ömürlük sevim...*
*2014*

11. Acı duymayan kişilerin
12. Ruhu gezmez canımda.

13. Sevdiğimi burcum gibi,
14. Kalem gibi severim
15. Babam, anam, kardeş, bacım,
16. Yavrum gibi severim.

17. Ne olsun, imaretim yok,
18. Biraz küçük evim
19. Siz beni bir tek gün sevin,
20. Sizi ömürlük seveyim...

## *GÜLÜMSƏ (281)*

*1. Oxu bu şeirimi, gülüm,*
*2. Dərdi, qəmi küçümsə.*
*3. Özün üçün çətindirsə,*
*4. Mənim üçün gülümsə.*

*5. Bilirəm qucaqlayırsan*
*6. Sinəndəki dağını,*
*7. Oturanda dizlərini,*
*8. Yatanda yastığını.*

*9. Sanma özünü dünyada*
*10. Bədbəxt, talesiz bunca.*
*11. Bəlkə Tanrı da diksinir*
*12. Hər ahını duyunca.*

*13. Düşün o uca Tanrını –*
*14. Sevdiyindən doyarmı,*
*15. O qədər dərd verdiyinə*
*16. Bir eşqi suç sayarmı?..*

*17. ...Bir dəfə də etmədiyin*
*18. Günah üçün gülümsə,*
*19. Nə olar, Allah eşqinə,*
*20. Allah üçün gülümsə...*
*2014*

## GÜLÜMSE

1. Oku bu şiirimi, gülüm,
2. Derdi, gamı küçümse.
3. Kendin için çetinse,
4. Benim için gülümse.

5. Biliyorum kucaklıyorsun
6. Sinendeki dağını,
7. Oturduğunda dizlerini,
8. Yattığında yastığını.

9. Sanma kendini bu dünyada
10. Bedbaht, talihsiz bunca.
11. Belki Tanrı da ürperiyor
12. Her ahını duyunca.

13. Düşün o yüce Tanrı'yı
14. Sevdiğinden doyar mı,
15. O kadar dert verdiğine
16. Bir aşkı suç sayar mı?

17. Bir defa da etmediğin
18. Günah için gülümse,
19. Ne olur, Allah aşkına,
20. Allah için gülümse...

## *HƏRƏNİN ÖZ ZƏİFİ VAR(282)*

*1. Hərənin bir zəifi var,*

## HERKESİN ZAYIF BİR TARAFI VAR

1. Herkesin  zayıf bir tarafı var,

*2. Xeyli zəifəm mən də.*
*3. Susanda da dinləyirəm*
*4. Səni, sən dinəndə də.*

*5. Yüz mil aralı olsan da,*
*6. Mən tək yaxınsan mənə.*
*7. Şeytana bax, bic-bic gülür*
*8. Sənin qəmli qəmzənə.*

*9. Üzərində hakim olmaq*
*10. Neynim, mənə yasaqdır...*
*11. Gizləsən də, mən bilirəm –*
*12. O şeytandan uzaq dur!*

*13. Sənə demirəm könlünü*
*14. Çalan oğrunu söylə;*
*15. Ölüm xəbərim olsa da,*
*16. Mənə doğrunu söylə.*

*17. ...Heç beləcə dirigözlü*
*18. Ölməmişdim haçandı;*
*19. Rafiqi öldürmək, gülüm,*
*20. Aldatmaqdan asandı...*
*2014*

2. Hayli zayıfım ben de.
3. Sustuğunda da dinliyorum
4. Seni, sen konuştuğunda da.

5. Yüz mil uzak olsan da,
6. Ben gibi yakınsın bana.
7. Şeytana bak, kıs kıs gülüyor
8. Senin gamlı gamzene.

9. Sana hâkim olmak
10. Neyleyim, bana yasaktır...
11. Gizlesen de, ben biliyorum.
12. O şeytandan uzak dur!

13. Sana demiyorum gönlünü
14. Çalan hırsızı söyle,
15. Ölüm haberim olsa da,
16. Bana doğruyu söyle.

17. Hiç böyle canlı
18. Ölmemiştim ne zamandır,
19. Rafig'i öldürmek, gülüm,
20. Aldatmaktan kolaydır...

### *ÜRƏYİNİ ÜŞÜTMƏ (283)*

*1. Mənsiz çoxmu darıxırsan*
*2. O buz üzlü uzaqda?*
*3. Çoxmu üşüyürsən, gülüm,*
*4. Bu soyuqda-sazaqda?*

*5. Tanrı da dəyişik salır*
*6. Ayları, fəsilləri,*
*7. Qış payızı itələyib,*
*8. Onun yerinə gəlir.*

*9. Qəmlidir...bu il yarpaqlar*
*10. Tez soldu, xəzəl oldu.*
*11. Amma, gülüm, min şükür, sən*
*12. Hamıdan gözəl oldun.*

*13. A yayda da üşüyənim,*
*14. İndi necədi halın?*
*15. Əllərinə əlcək geyin,*

### YÜREĞİNİ ÜŞÜTME

1. Bensiz çok mu üzülüyorsun
2. O buz yüzlü uzakta?
3. Çok mu üşüyorsun, gülüm,
4. Bu soğukta ayazda?

5. Tanrı da değişik yaratıyor
6. Ayları, mevsimleri,
7. Kış, güzü iteleyip
8. Onun yerine geliyor.

9. Gamlıdır... Bu yıl yapraklar
10. Tez soldu, hazal oldu.
11. Ama gülüm, bin şükür, sen
12. Herkesten güzel oldun.

13. A yazda da üşüyenim,
14. Şimdi nasıl hâlin?
15. Ellerine eldiven giyin,

*16. Əynini eylə qalın.*

*17. ...Məndən ayrı bir kimsəni*
*18. Nolar, bu qış eşitmə.*
*19. Eşqim ilə ört sinəni,*
*20. Ürəyini üşütmə...*

*2014*

***SEVƏNLƏR ÜÇÜN (284)***

*1. Vurula bildinsə, Allaha şükür -*
*2. Səni yıxmayacaq kədərin, qadan.*
*3. Sevmək yaşamağa çarə deyilmi,*
*4. Niyə üzülürsən, a sevən adam?*

*5. Əgər sevirsənsə, sevilirsənsə,*
*6. Nəyinə lazımdır o saray, o dam?*
*7. Get çıxart dadını beş günlük ömrün,*
*8. Niyə üzülürsən, a sevən adam?*

*9. Sevdinsə içində can verər kinin,*
*10. Hamıya xoş üzlə baxarsan müdam.*
*11. Kinsizlik Allahın lütfü deyilmi,*
*12. Niyə üzülürsən, a sevən adam?*

*13. Ruhun uçunursa pərvanə kimi,*
*14. Gözün yol çəkirsə tərli aynadan,*
*15. Bir azdan qapıdan yar girəcəksə,*
*16. Niyə üzülürsən, a sevən adam?*

*17. Tüpür ayrılığa, vaz keçmə eşqdən,*
*18. Dua et Tanrına hər səhər-axşam.*
*19. Yaşa sevə-sevə, öl sevə-sevə,*
*20. Niyə üzülürsən, a sevən adam?..*

*2014*

***OVQAT (285)***

*1. Qızın ərə gedəcək,*
*2. Oğlun arvad alacaq,*
*3. Nə vaxtsa danışmağa*
*4. Heç kimin qalmayacaq.*

*5. Səni məndən alanlar*
*6. Gedəcək öz işinə,*
*7. Oxuyacaqsan lənət*

16. Üstüne giy kalın.

17. Benden başka bir kimseyi
18. Ne olur, bu kış işitme.
19. Aşkım ile ört sineni,
20. Yüreğini üşütme....

**SEVENLER İÇİN**

1. Vurulabildinse, Allah'a şükür,
2. Seni yıkmayacak kederin, tasan.
3. Sevmek yaşamaya çare değil mi,
4. Niye üzülüyorsun, a seven adam?

5. Eger seviyorsan, seviliyorsan,
6. Neyine lazımdır o saray, o dam?
7. Git çıkar tadını beş günlük ömrün,
8. Niye üzülüyorsun, a seven adam?

9. Sevdiysen içinde can verir kinin,
10. Herkese hoş yüzle bakarsın sürekli.
11. Kinsizlik Allah'ın lütfu değil mi,
12. Niye üzülüyorsun, a seven adam?

13. Ruhun titriyorsa pervane gibi,
14. Yol gözlüyorsan terlemiş camdan,
15. Birazdan kapıdan yar girecekse,
16. Niye üzülüyorsun, a seven adam?

17. Tükür ayrılığa, vazgeçme aşktan,
18. Dua et Tanrı'na her sabah akşam.
19. Yaşa seve seve, öl seve seve,
20. Niye üzülüyorsun, a seven adam?

**VAKİT**

1. Kızın ere gidecek,
2. Oğlun eş alacak,
3. Ne vakit konuşmaya
4. Hiçkimsen kalmayacak.

5. Seni benden alanlar
6. Gidecek kendi işine,
7. Okuyacaksın lanet

*8. Tərk etmək vərdişinə.*

*9. Qadınımı qınama,*
*10. Səni bütə çevirdi.*
*11. Məni sevdiyin üçün*
*12. O da səni sevirdi.*

*13. ...Yamanca təntimisən,*
*14. Ehtirasdan doy hələ,*
*15. On üç cüt qərənfil al,*
*16. Mən ölən gün toy elə...*

8. Terk etmek âdetine.

9. Kadınımı kınama,
10. Seni puta çevirdi.
11. Beni sevdiğin için
12. O da seni seviyordu.

13. Epey isteklisin,
14. İhtirastan doy hele,
15. On üç çift karanfil al,
16. Benim öldüğüm gün düğün yap...

***XƏBƏRİN YOX (286)***

*1. Özün itələdin məni,*
*2. Daha mən tək sipərin yox.*
*3. Namərdlərə tab etməyə*
*4. Qüvvətin yox, təpərin yox.*

*5. Canı yandı mən ustanın,*
*6. Dilə düşdümü dastanın,*
*7. Uralandımı bostanın?.. –*
*8. Hasarın yox, çəpərin yox.*

*9. ... Söyləmişdim dönə-dönə:*
*10. Könül vermə özgəsinə!*
*11. Off... yenə qayıtdın mənə,*
*12. Mən ölmüşəm, xəbərin yox...*

*2014*

**HABERİN YOK**

1. Kendin uzaklaştırdın beni,
2. Artık ben gibi siperin yok.
3. Namertleri itaat ettirmeye
4. Kuvvetin yok, gücün yok.

5. Canı yandı benim gibi ustanın,
6. Dile düştü mü destanın,
7. Yağmaladın mı bostanın?
8. Hasarın yok, çitin yok.

9. Söylemiştim döne döne:
10. Gönül verme başkasına!
11. Off... Yine döndün bana,
12. Ben ölmüşüm, haberin yok.

***HƏSRƏT (287)***

*1. Könlüm Sibir sürgünüdür,*
*2. Ooff... donur, sevgilim, donur.*
*3. Dərd sulu qar tək sinəmə,*
*4. Ooff... qonur, sevgilim, qonur.*

*5. De, axtarım çəndə kimi?*
*6. Arayırsan sən də kimi?*
*7. Həsrət məni rəndə kimi,*
*8. Ooff... yonur, sevgilim, yonur.*

*9. Sənsizliyə dözüm necə?!*
*10. Zil qaranlıqdı bu gecə.*
*11. Sonuncu şam əlimdəcə,*

**HASRET**

1. Gönlüm Sibirya sürgünüdür,
2. Off... Donuyor, sevgilim, donuyor.
3. Dert sulu kar gibi sineme,
4. Ooff... Konuyor, sevgilim, konuyor.

5. Söyle, arayayım dumanda kimi?
6. Arıyorsun sen de kimi?
7. Hasret beni rende gibi,
8. Ooff...Yontuyor, sevgilim, yontuyor.

9. Sensizliğe dayanayım nasıl?!
10. Zifiri karanlıktı bu gece.
11. Sonuncu mum elimde,

*12. Ooff... sönür, sevgilim, sönür...*

*2014*

12. Ooff...Sönüyor, sevgilim, sönüyor...

***SƏN GETDİN (288)***

*1. Leysan yağışı tək yağır içimə,*
*2. Haraya sığdırım bu kədəri mən?*
*3. Küçələr qəfildən tamam boşaldı,*
*4. Sən getdin, neynirəm bu şəhəri mən?*

*5. Ulduzlar batmadan canım çıxaydı,*
*6. Kaş heç görməyədim bu səhəri mən.*
*7. Üstünə qəfildən qaranlıq çökdü,*
*8. Sən getdin, neynirəm bu şəhəri mən?*

*9. Astmadan təntimiş xəstə kimiyəm,*
*10. Evəmi aparım bu qəhəri mən?*
*11. Off...mən bu şəhəri necə sevirdim!*
*12. Sən getdin, neynirəm bu şəhəri mən?*

*13. Dəli tək gəzirəm boş küçələrdə,*
*14. Bir eşq dilənçisi, bir sərsəri mən.*
*15. ...Qayıt, sinəm üstə üç qərənfil qoy,*
*16. Qayıt, təzdən sevim bu şəhəri mən...*

*2014*

**SEN GİTTİN**

1. Nisan yağmuru gibi yağıyor içime,
2. Nereye sığdırayım bu kederi ben?
3. Sokaklar aniden boşaldı.
4. Sen gittin, neyleyim bu şehri ben?

5. Yıldızlar sönmeden canım çıkaydı,
6. Keşke görmeseydim bu seheri ben.
7. Üstüne aniden karanlık çöktü,
8. Sen gittin, neyleyim bu şehri ben?

9. Astımdan yorulmuş hasta gibiyim,
10. Eve mi götüreyim bu kahrı ben?
11. Off..Ben bu şehri nasıl seviyordum!
12. Sen gittin, neyleyim bu şehri ben?

13. Deli gibi geziyorum boş sokaklarda,
14. Bir aşk dilencisi, bir serseri ben.
15. Dön, sinem üstüne üç karanfil koy,
16. Dön, tezden seveyim bu şehri ben...

***DEYİRLƏR EŞQ YALAN ŞEYDİ (289)***

*1. Nə yaxşı, səhər açıldı,*
*2. Nə yaxşı, şəhər oyandı –*
*3. Sükutun dözülməz səsi*
*4. Şəfəqdən hürküb dayandı.*

*5. Vurğunuydum gecələrin,*
*6. Mən ki gecə aşiqiydim.*
*7. Sən yoxsan... gecələr məni*
*8. Parçalayır didim-didim.*

*9. Beşulduz konyak kimisən,*
*10. İçməsəm ruhum ulayır.*
*11. ...Nə biçim xəstəsən deyir*
*12. Həkim, başını bulayır.*

*13. Nə bilim, bəlkə ölmüşəm,*
*14. Ruh geri cana dolammır.*
*15. Sən hamısan mənim üçün,*

**DİYORLAR AŞK YALAN ŞEY**

1. Ne güzel, seher oldu,
2. Ne güzel, şehir uyandı.
3. Sükutun dayanılmaz sesi
4. Şafaktan ürküp durdu.

5. Vurgunuyum gecelerin,
6. Ben ki gece aşığıydım.
7. Sen yoksan...Geceler beni
8. Parçalıyor dilim dilim.

9. Beş yıldız konyak gibisin,
10. İçmesem ruhum uluyor.
11. Ne biçim hastasın diyor
12. Hekim, başını sallıyor.

13. Ne bileyim, belki ölmüşüm,
14. Ruh geri cana girmiyor.
15. Sen hepsisin benim için,

*16. Amma heç kəs sən olammır.*

*17. Uzaqlarda bəxtəvər ol,*
*18. Mənsizlik xoşuna gəlsin.*
*19. ...Deyirlər eşq yalan şeydi,*
*20. Kim deyir başına gəlsin...*
*2014*

16. Ama hiç kimse sen olamıyor.

17. Uzaklarda bahtiyar ol,
18. Bensizlik hoşuna gitsin.
19. Diyorlar aşk yalan şey,
20. Kim diyorsa başına gelsin...

**...*YARALI DURNAM (290)***

*1. Eheyy! Eheyy!.. Eheyy...*
*2. Yaralı durnam...*
*3. Mən səni uçurtdum masmavi göyə,*
*4. Sən niyə qondun ki o namərd köyə?..*

*5. Eheyy! Eheyy!.. Eheyy...*
*6. Yaralı durnam...*
*7. Sənə daş atanın qolu qurusun,*
*8. Sağı iflic olsun, solu qurusun!..*

*9. Eheyy! Eheyy!.. Eheyy...*
*10. Yaralı durnam...*
*11. Sənin bu halına mən necə dözüm?*
*12. Çəkinmə, birtəhər sinəm üstə qon,*
*13. Qanlı qanadını sarıyım özüm...*
*2014*

**YARALI TURNAM**

1. Eheyy! Eheyy!.. Eheyy...
2. Yaralı turnam...
3. Beni uçurdum masmavi göğe,
4. Sen niye kondun ki o namert köye?

5. Eheyy! Eheyy!.. Eheyy...
6. Yaralı turnam...
7. Sana taş atanın kolu kurusun,
8. Sağı felç olsun, solu kurusun!...

9. Eheyy! Eheyy!.. Eheyy...
10. Yaralı turnam...
11. Senin bu hâline ben nasıl dayanayım?
12. Çekinme, şöyle sinem üstüne kon,
13. Kanlı kanadını sarayım kendime...

***SƏNƏMİ YAZILIB O ŞEİR, GÜLÜM? (291)***

*1. Ulayır bayquştək sənsizəm deyə,*
*2. Sənəmi vurulub o şair, gülüm?*
*3. Nidası ah olub yapışır göyə,*
*4. Sənəmi yazılıb o şeir, gülüm?*

*5. Sanıram istəyin ondan yan durur,*
*6. O da qan ağlayır, qəm yeyir, gülüm.*
*7. Nöqtəsi, vergülü səni andırır,*
*8. Sənəmi yazılıb o şeir, gülüm?*

*9. Yoxsa mənə görə atıbsan onu,*
*10. O da yığvalını çox söyür, gülüm.*
*11. Nolar, düzünü de, sən mənim canım,*
*12. Sənəmi yazılıb o şeir, gülüm?*

*13. ...Sanki səni sevir dünyada hamı,*

**SANA MI YAZILMIŞ O ŞİİR, GÜLÜM?**

1. Uluyor baykuş gibi sensizim diye,
2. Sana mı vurulmuş o şair gülüm?
3. Nidası ah olmuş yapışıyor göğe,
4. Sana mı yazılmış o şiir, gülüm?

5. Sanırım isteğin ondan yana duruyor,
6. O da kan ağlıyor, gam çekiyor, gülüm.
7. Noktası, virgülü seni andırıyor,
8. Sana mı yazılmış o şiir, gülüm?

9. Yoksa bana göre atmışsın onu,
10. O da talihini çok sövüyor, gülüm.
11. Ne olur, doğrusunu de, sen benim canım,
12. Sana mı yazılmış o şiir, gülüm?

13. Sanki seni seviyor dünyanın hepsi,

*14. Amma eşqin məni süsləyir, gülüm.*
*15. Dəliyəm...*
*16. mənə nə, başqasınamı,*
*17. Sənəmi yazılıb o şeir, gülüm?..*
*2014*

14. Ama aşkın beni süslüyor, gülüm.
15. Deliyim...
16. Bana ne, başkasına mı,
17. Sana mı yazılmış o şiir, gülüm?

### *ALIN YAZIM (292)*

*1. Sən mənim alın yazımsan,*
*2. Yüz əzbərlə, hecala...*
*3. Bu yazını pozmaq üçün*
*4. Vur, alnımı parçala.*

*5. Sən sinəmdən çıxammayan*
*6. Ən sonuncu ahımsan.*
*7. Tövbə edə bilmədiyim*
*8. Ən əziz günahımsan.*

*9. Hələ tam dərk edəmmirsən,*
*10. Səcdədə imamınam.*
*11. Lövbər sala biləcəyin*
*12. Sonuncu limanınam.*
*2014*

### ALIN YAZIM

1. Sen benim alın yazımsın,
2. Yüz defa ezberle, hecele...
3. Bu yazını bozmak için
4. Vur, alnımı parçala.

5. Sen sinemden çıkmayan
6. En sonuncu ahımsın.
7. Tövbe edemediğim
8. En aziz günahımsın.

9. Hâlâ tam anlamıyorsan,
10. Secdede imanınım.
11. Lenger salabileceğin
12. Sonuncu limanınım.

### *DAN ÜZÜNÜN ŞEİRİ (293)*

*1. Uyuyur o kənd, bu şəhər,*
*2. Yuxuda şeir oxuyur.*
*3. Sevdiklərim, səhər-səhər*
*4. Yeni bir şeir oxuyun.*

*5. Yuxudan xoşbəxt oyanın,*
*6. Şair ruhlu çiçək olun.*
*7. Oxuyun, eşqə boyanın,*
*8. Dan üzü tək göyçək olun.*

*9. Unutmayın – gizlin, aşkar,*
*10. Hərə bir cür xiffət edir.*
*11. Neçə-neçə milyonçu var,*
*12. Sağı-solu nifrət edir.*

*13. Siz yaşayın – mən dözərəm,*
*14. Qoy qayğınız yada olsun.*
*15. Bir canım var, beş-on şeirim,*
*16. O da sizə fəda olsun.*

### TAN VAKTİNİN ŞİİRİ

1. Uyuyor bu köy, bu şehir,
2. Uykuda şiir okuyor.
3. Sevdiklerim, sabahları
4. Yeni bir şiir okuyun.

5. Uykudan mutlu uyanın.
6. Şair ruhlu çiçek olun.
7. Okuyun, aşka boyanın,
8. Tan vakti gibi güzel olun.

9. Unutmayın gizli, aşikâr,
10. Herkes bir çeşit azap ediyor.
11. Ne kadar milyoner var,
12. Sağdan soldan nefret ediyor.

13. Siz yaşayın ben sabrederim.
14. Kaygılarınız başkalarına olsun.
15. Bir canım var, beş on şiirim,
16. O da size feda olsun.

*17. Mənəm o sonuncu işıq,*
*18. O əriyən son şam mənəm.*
*19. Bu cür mələk kimi aşiq*
*20. Son şair, son adam mənəm.*

*21. ...Siz bəlkə də şeir üçün*
*22. Bu qədər yordunuz məni;*
*23. Bitişdirib, ertəsi gün*
*24. Təzədən qırdınız məni...*

*2015*

17. Benim o sonuncu ışık,
18. O eriyen son mum benim.
19. Bir melek gibi âşık
20. Son şair, son insan benim.

21. Siz belki de şiir için
22. Bu kadar yordunuz beni;
23. Bitiştirip ertesi gün
24. Yeniden kırdınız beni.

## *SƏNƏ NƏ, ADAM? (294)*

*1. Otur bax beləcə – əlin üzündə...*
*2. Otur – öz-özünə tamaşa elə.*
*3. Bu dünya başlayıb tamaşa ilə,*
*4. Bu dünya bitəcək tamaşa ilə.*

*5. Nədən üzülürsən? Sənə nə, adam? –*
*6. Kim kimi aldadır, kim kimi satır;*
*7. Kim kimə qoz verir, kim kimə badam,*
*8. Harda kim oyanır, harda kim yatır...*

*9. Dünyadır – nuru az, qaranlığı çox,*
*10. Ayı da, Günü də adamı sevmir.*
*11. Adammı? – Adam çox, adamlıqsa yox,*
*12. O damda böyüyən o damı sevmir.*

*13. Üzül!.. Üzülməyin qorxusu azdı,*
*14. Cana ziyandısa, qidadı ruha.*
*15. Nə olsun, bir zalım kefini pozdu,*
*16. Pozulan kefini göndər Allaha.*

*17. Yuyar gözlərindən yağan yağışlar*
*18. Qara ahları da, ağ ahları da.*
*19. Sən yalvar Tanrıya – bəlkə bağışlar*
*20. O sənə edilən günahları da.*

*21. ...Gördünmü şeirmiş bu çəkdiyin ah,*
*22. Ahı çəkdirənə təşəkkür eylə.*
*23. Səni sevgi ilə böyüdüb Allah,*
*24. Otur Allahına min şükür eylə...*

*2015*

## SANA NE ADAM?

1. Otur bak öylece elin yüzünde
2. Otur kendi kendini izle.
3. Bu dünya başlamış oyun ile
4. Bu dünya bitecek oyun ile.

5. Neden üzülüyorsun? Sana ne adam?
6. Kim kimi aldatıyor, kim kimi satıyor;
7. Kim kime ceviz veriyor, kim kime badem,
8. Nerede kim uyanıyor, nerede kim yatıyor…

9. Dünyadır nuru az, karanlığı çok.
10. Ayı da, güneşi de insanı sevmiyor.
11. İnsan mı? İnsan çok, insanlıksa yok,
12. O damda büyüyen o damı sevmiyor.

13. Üzül! Üzülmenin korkusu azdır.
14. Cana ziyansa, gıdadır ruha.
15. Ne olacak, bir zalim keyfini bozsa
16. Bozulan keyfini Allah'a yolla.

17. Yıkar gözlerinden yağan yağmurlar
18. Kara ahları da, ak ahları da.
19. Sen yalvar Tanrı'ya belki bağışlar
20. O sana yapılan günahları da.

21. Gördün mü şiirmiş bu çektiğin ah,
22. Ahı çektirene teşekkür et.
23. Seni sevgi ile büyütmüş Allah,
24. Otur Allah'ına bin şükür et.

## *DE, SƏNƏ NƏ OLUB, FİKİRLİ ADAM? (295)*

## SÖYLE, SANA NE OLDU GAMLI ADAM

*1. De, sənə nə olub, fikirli adam,*
*2. Nə yarı görürsən, nə Yaradanı.*
*3. Aldın qadasını hey onun-bunun,*
*4. Heç alan yoxdumu sənin qadanı?*

*5. Heç alan yoxdumu sənin qadanı,*
*6. Qadan ürəyində çiçək açırmı?*
*7. Son damla suyundan dirilən hanı? –*
*8. Adın gələn kimi, uzaq qaçırmı?..*

*9. De, sənə nə olub, fikirli adam,*
*10. Dərini sonadək soymadılarmı?*
*11. Qanla aşıb-daşır o qədəh, o cam,*
*12. Vampirlər qanından doymadılarmı?*

*13. De, sənə nə olub, fikirli adam,*
*14. Şortular yoluna tikanmı əkib?*
*15. Sənin zəmindirmi o qaralmış şum, –*
*16. Şeytana qoşulmuş kotanmı əkib?*

*17. Yaşa öz ömrünü... bürün sevgiyə,*
*18. Səni öz adınla öyən azdımı?*
*19. Cavidi, Cavadı öldürənlərə*
*20. Hər gün lənət edib, söyən azdımı?*

*21. Hələ Meydan qalıb,Mirzə Cəlilə*
*22. Zulum verənlərin nəvələrinə.*
*23. El qanı əmənlər istər yüz ölə,*
*24. Sərvəti yüklənməz dəvələrinə...*

*25. De, sənə nə olub, fikirli adam,*
*26. Bu gün yalqız qalan sabah xoşbəxtdir.*
*27. Sənin hey içdiyin dərd dolu parç, cam,*
*28. Vallahi, billahi, ağ gün, xoş bəxtdir...*
*2016*

1. Söyle, sana ne oldu gamlı adam,
2. Ne yari görüyorsun, ne yaratanı.
3. Dert ortağı oldun ona buna,
4. Senin derdine ortak olan yok mu?

5. Senin derdine ortak olan yok mu?
6. Derdin yüreğinde çiçek açıyor mu?
7. Son damla suyundan dirilenler hani?
8. Adın söylendiğinde uzağa mı kaçıyorlar?

9. Söyle, sana ne oldu gamlı adam,
10. Derini sonuna dek soymadılar mı?
11. Kanla dolup taşar o kadeh, o bardak,
12. Vampirler kanından doymadılar mı?

13. Söyle, sana ne oldu gamlı adam,
14. Utanmazlar yoluna diken mi ekti?
15. Senin tarlan mı o sürülmüş toprak
16. Şeytan pamuk mu ekmiş?

17. Yaşa ömrünü...Bürün sevgiye,
18. Seni kendi adınla öven az mı?
19. Cavid'i, Cevad'ı öldürenlere
20. Her gün lanet edip, söven az mı?

21. Hâlâ meydan kalmış, Mirza Celil'e
22. Zulüm verenlerin torunlarına.
23. El kanı emenler ister yüz kere ölsün,
24. Serveti yüklenmez develerine...

25. Söyle, sana ne oldu gamlı adam,
26. Bu gün yalnız kalan sabah bahtiyardır.
27. Senin içtiğin dert dolu kadeh, bardak,
28. Vallahi billahi, ak gün, bahtiyardır.

## *SƏHƏRİN ÜZÜ BUZ KİMİ (296)*

*1. Bu gecəm də hədər getdi,*
*2. Şeirsiz soldu çiçəklər.*
*3. Qızarmış gözümə baxıb,*
*4. Məni sərxoş biləcəklər.*

*5. Bu gecəm də boşa axdı,*

## SEHERİN YÜZÜ BUZ GİBİ

1. Bu gecem de heder oldu.
2. Şiirsiz soldu çiçekler.
3. Kızarmış gözüme bakıp,
4. Beni sarhoş sanacaklar.

5. Bu gecem de boşa aktı.

*6. Almadım sözünü ahını.*
*7. Ay özünə Günəş doğdu,*
*8. Gecə doğdu sabahını.*

*9. Bu gecəm də duman oldu,*
*10. Boşaldı, doldu külqabı.*
*11. Qəhr olsun ayrılıqları –*
*12. Hər yan kül ətri, kül dadı.*

*13. Gecəynən əridim... sanki,*
*14. Səhradayam susuz kimi.*
*15. Bəyi danlayan yengətək*
*16. Səhərin üzü buz kimi.*

6. Almadım sözün ahını.
7. Ay kendisine güneşi doğurdu
8. Gece doğurdu sabahını.

9. Bu gecem de duman oldu,
10. Boşaldı, doldu kültablası.
11. Kahrolsun ayrılıklar
12. Her yan kül kokusu, kül tadı.

13. Geceyle eridim sanki,
14. Sahradayım susuz gibi.
15. Beyi azarlayan yenge gibi
16. Seherin yüzü buz gibi.

## *SƏSSİZ DUA HAVASI (297)*

*1. Adam hərdən içindəcə*
*2. Özünə həbs olub qalır.*
*3. Asılır baxışlarından,*
*4. Sirli bir xəyala dalır.*

*5. Canında təpəri olmur,*
*6. Ümiddən sipəri olmur,*
*7. Özündən xəbəri olmur,*
*8. Əl atıb, saçını yolur.*

*9. Yaralı qurdtək uluyur,*
*10. Bədən donur, baş quruyur,*
*11. Gözlərində yaş quruyur,*
*12. Səssiz doluxsunur, dolur.*

*13. Bir dərdi yüz yerə bölür,*
*14. Bir dərddən yüz kərə ölür,*
*15. Hərdən dəli kimi gülür,*
*16. Susuz çiçək kimi solur.*

*17. ...Ana quşun yuvasına,*
*18. Bir xəstənin şəfasına,*
*19. Səssiz dua havasına*
*20. Tanrı şirin layla çalır...*

## SESSİZ DUA HAVASI

1. İnsan bazen içine
2. Kendisine hapsolup kalıyor.
3. Süzülüyor bakışlarından,
4. Sırlı bir hayala dalıyor.

5. Canında gücü olmuyor,
6. Ümitten siperi olmuyor,
7. Kendisinden haberi olmuyor,
8. El atıp saçını yoluyor.

9. Yaralı kurt gibi uluyor,
10. Beden donuyor, baş kuruyor.
11. Gözlerinde yaş kuruyor.
12. Sessiz hüzünleniyor, doluyor.

13. Bir derdi yüz yere bölüyor,
14. Bir dertten yüz kere ölüyor.
15. Bazen deli gibi gülüyor,
16. Susuz çiçek gibi soluyor.

17. Ana kuşun yuvasına,
18. Bir hastanın şifasına,
19. Sessiz dua havasına
20. Tanrı tatlı ninni çalıyor...

## *YENİ İLİN İLK ŞEİRİ (298)*

*1. Bu da yeni il... cezvəli*

## YENİ YILIN İLK ŞİİRİ

1. Bu da yeni yıl...âşık

*2. At ilini yaşadım.*
*3. Amma köhnə ümidləri*
*4. Yeni ilə daşıdım.*

*5. Daha özümü özümə*
*6. Tanıtmağı öyrəndim.*
*7. Nankorları mümkün qədər*
*8. Unutmağı öyrəndim.*

*9. Könlüm yenə çoxlarına*
*10. Yuva oldu, yol oldu.*
*11. Çox əskiyim oldu, amma*
*12. Şükür, sevgim bol oldu.*

*13. Bir daha əmin oldum mən,*
*14. Yaxşı tüfəng atırıq.*
*15. Tüfəng yoxsa, eyləmə qəm,*
*16. Min cür fişəng atırıq.*

*17. Bu da yeni il... bilmirəm,*
*18. Kədərlənək, sevinək...*
*19. Bir az ad-san artır, lələm,*
*20. Möhlət azalır, neynək.*

*21. ...Siz, eyy, çılğın sevdiklərim,*
*22. Yol ha yox məndən anrı.*
*23. ...Təzə heç nə istəmirəm,*
*24. Köhnəmi qoru, Tanrı!*

*2015*

2. At yılını yaşadım.
3. Ama eski ümitleri
4. Yeni yıla taşıdım.

5. Daha çok kendimi kendime
6. Tanıtmayı öğrendim.
7. Nankörleri olabildiğince
8. Unutmayı öğrendim.

9. Gönlüm yine çoklarına
10. Yuva oldu, yol oldu.
11. Çok eksiğim oldu ama
12. Şükür, sevgim bol oldu.

13. Bir daha emin oldum ben,
14. İyi tüfek atıyoruz.
15. Tüfek yoksa, gamlanma
16. Bin çeşit fişek atıyoruz.

17. Bu da yeni yıl, bilmiyorum,
18. Kederlenelim, sevinelim.
19. Biraz şöhret artıyor
20. Mühlet azalıyor, neyleyelim.

21. Siz, ey çılgın sevdiklerim,
22. Yol yok benden sonra.
23. Yeni hiçbir şey istemiyorum.
24. Eskimi koru, Tanrı!

## *GECƏLƏR QƏBRİNƏ BÜKÜLDÜ ADAM (299)*

*1. Hər səhər, hər axşam, hər gecə, hər gün*
*2. Qolları qandalsız, ürəyi sürgün*
*3. Bir adam Allaha dua eylədi,*
*4. İçində gizlənib, çölünə baxdı,*
*5. Hər təzə dərdinə salam söylədi.*

*6. İçində gizlənib, çölünə baxdı,*
*7. Gördü ey-vah... dünya əlləmayaqdı.*
*8. Allahım, özün gör, özün seç dedi.*
*9. ...Qəfil xatırladı o ayüzlünü,*
*10. Bircə günahm var, ondan keç dedi.*

## GECELERİ KABRİNE BÜRÜNDÜ İNSAN

1. Her sabah, her akşam, her gece, her gün
2. Elleri prangasız, yüreği sürgün
3. Bir insan Allah'a dua etti.
4. İçinde gizlenmiş çölüne baktı.
5. Her yeni derdine selam söyledi.

6. İçinde gizlenmiş çölüne baktı.
7. Gördü eyvah dünya kalleşti.
8. Allah'ım, kendin gör, kendin anla dedi.
9. Aniden hatırladı o ay yüzlüyü,
10. Bir tek günahım var, ondan geç dedi.

*11. Neçə çarəsizə əl tutdum axı,*
*12. Neçə yol özümü unutdum axı,*
*13. Könlümü xalça tək çox sərdim dedi,*
*14. Köməksiz quşlara, ac köpəklərə*
*15. Dörd fəsil su verdim, yem verdim dedi.*

*16. Gecələr qəbrinə büküldü adam,*
*17. Gündüzlər səbrinə büküldü adam.*
*18. Zənglər də seyrəldi, baş çəkənlər də,*
*19. Hərdən aradılar kefqom aşnalar,*
*20. Başları hardasa düşəndə dərdə.*

*21. ...Bir şənbə özünü verdi kafeyə,*
*22. "Palmal" tüstüsünü sərdi kafeyə.*
*23. Tina pivə süzdü, balıq gətirdi.*
*24. – Süz,Tina, – söylədi, – birini də süz,*
*25. Bəlkə məni bura Xaliq gətirdi...*

*26. Düzəltdi kefini, dəmini pivə,*
*27. Bir az unutdurdu qəmini pivə.*
*28. Qəfildən ruhunu xəcalət sardı –*
*29. Allahım, sən məni bağışla dedi, –*
*30. Pivə içə-içə sənə yalvardım.*

*31. ...Gecə yuxusunda o ayüzlünü,*
*32. Bir də eşq rəngində günahı gördü,*
*33. Bir də təzələnmiş sabahı gördü,*
*34. Bir də gülümsəyən Allahı gördü...*
*2015*

11. Çaresizce kaç el tuttum,
12. Kaç defa kendimi unuttum.
13. Gönlümü halı gibi çok serdim dedi.
14. Susuz kuşlara, aç köpeklere
15. Dört fasıl su verdim, yem verdim dedi.

16. Geceleri kabrine büründü insan
17. Gündüzleri sabrına büründü insan.
18. Arayanlar seyreldi, hatır soranlar da,
19. Bazen aradılar ehli keyifler, tanıdıklar
20. Başları nerede düşse derde.

21. Bir perşembe gitti kafeye
22. Palmal sigarasını serdi kafeye.
23. Tina bira doldurdu, balık getirdi.
24. Doldur, Tina dedi bir daha doldur
25. Belki beni buraya Halık getirdi.

26. Düzeltti keyfini, hâlini bira,
27. Biraz unutturdu gamını bira.
28. Aniden ruhunu utanma sardı
29. Allah'ım sen beni bağışla dedi,
30. Bira içe içe sana yalvardım.

31. Gece uykusunda o ay yüzlüyü,
32. Bir de aşk renginde günahı gördü,
33. Bir de tazelenmiş sabahı gördü,
34. Bir de gülümseyen Allah'ı gördü...

## *RUHUM SIZLAR KİÇİK ÇÖLDƏ (300)*

*(Nurafizə)*

*1. Nə vaxt sevgilər tən olar,*
*2. Nə vaxt dost dosta düz gələr –*
*3. Eynimə olmaz, göylərdən*
*4. Daş ələnər, ya buz gələr.*

*5. Yol alsam həsrət dağına,*
*6. Qırov düşər budağıma,*
*7. Gözlərimin qabağına*
*8. Bir cüt ağlayan göz gələr.*

*9. Ruhum sızlar Kiçik Çöldə,*
*10. Ətrim əriyər bir güldə,*

## RUHUM SIZLAR KÜÇÜK ÇÖLDE

(Nurafiz'ə)

1. Ne vakit sevgiler samimi olur,
2. Ne vakit dost dosta doğru olur.
3. Umrumda olmaz, göklerden
4. Taş dökülür, ya buz gelir.

5. Yol alsam hasret dağına,
6. Kırağı düşer dalıma,
7. Gözlerimin önüne
8. Bir çift ağlayan göz gelir.

9. Ruhum sızlar Küçük Çöl'de,
10. Kokum erir bir gülde,

*11. Son ümidim ölhaöldə,*
*12. Əllərimə üç tuz gələr.*

*13. Lala dönsəm bu dünyada,*
*14. Dil qapatsam dosta, yada,*
*15. Ya dağdan can dostum, ya da*
*16. Bakıdan Nurafiz gələr.*

11. Son ümidim öl ha öl de,
12. Ellerime üç as gelir.

13. Lâla dönsem bu dünyada,
14. Konuşmasam dosta, düşmana,
15. Ya dağdan can dostum, ya da
16. Bakü'den Nurafiz gelir.

***DƏLİ ŞEİR (301)***

*1. Vay bə... Anasını satım dünyanın –*
*2. Qanına susayır qan verdiklərin.*
*3. Şöhrətin artdıqca quruyur canın –*
*4. Canına oxuyur can verdiklərin.*

*5. Vay bə... Mənmi dedim bunu özümə? –*
*6. Uzaqlaş hamıdan, qaya ol, daş ol!*
*7. Ayın günlərini çox irdələmə,*
*8. Get, günsüz aylara dost ol, yoldaş ol.*

*9. Vay bə... Heç özümə mən gəzmədim dərd,*
*10. Dərd sevgi donunda yoluma çıxdı.*
*11. Aç bağlı yolları, sevgili namərd,*
*12. Təkcə cəhənnəmə yolum açıqdı.*

*13. Vay bə... Belə illər, anlar olurmuş,*
*14. Üstünə cumurmuş dost da, düşmən də.*
*15. Gedib vəzirlə bir taxtda oturmuş*
*16. Xidməti çox olan sənin düşməndə.*

*17. Vay bə... doğru olmaq nə yekə suçmuş,*
*18. Sözünü deməmiş kəsilir sözün.*
*19. Məni gənc dostların ahımı tutmuş –*
*20. Onlara hey dedim: "səbr edin, dözün!".*

*21. Vay bə... Zəng edirsən, susur umduğun –*
*22. Az sonra: – "yatırdım!.." – tonu yüksəlir.*
*23. Bir də baxırsan ki, səsi-sorağı*
*24. Ölkənin o biri ucundan gəlir.*

*25. Vay bə... neçə dəfə oldu bu işlər,*
*26. Mən yenə özümü əzdim, xışladım.*
*27. Nədən yaraladı məni o kəslər,*
*28. Nədən mən onları hey bağışladım?.*

**DELİ ŞİİR**

1. Vay be… Anasını satayım dünyanın
2. Kanına susuyor kan verdiklerin.
3. Şöhretin arttıkça kuruyor canın
4. Canına okuyor can verdiklerin.

5. Vay be.. Ben mi dedim bunu kendime?
6. Uzaklaş hepsinden, kaya ol, taş ol!
7. Ayın günlerini çok irdeleme,
8. Git, günsüz aylara dost ol, yoldaş ol.

9. Vay be… Hiç kendime aramadım dert,
10. Dert, sevgi kılığında yoluma çıktı.
11. Aç kapalı yolları, sevgili namert,
12. Bir tek cehenneme yolum açıktır.

13. Vay be… Böyle yıllar, anlar olurmuş,
14. Üstüne saldırırmış dost da, düşman da.
15. Gidip vezirle bir tahtta oturmuş
16. Hizmeti çok olan senin düşmende.

17. Vay be… Doğru olmak da ne büyük suçmuş,
18. Sözünü söylemeden kesiliyor sözün.
19. Beni genç dostların ahı mı tutmuş
20. Onlara dedim: "Sabredin, dayanın."

21. Vay be… Arıyorsun, susuyor umduğun
22. Az sonra: "Yatıyordum" sesi yükseliyor.
23. Bir de bakıyorsun ki, sesi soluğu
24. Ülkenin öbür ucundan geliyor.

25. Vay be… Kaç defa oldu bu işler,
26. Ben yine kendimi ezdim, sürdüm.
27. Neden yaraladı beni o kişiler,
28. Neden ben onları bağışladım?

*2015*

***OLUR (302)***

*(Afiq Muxtaroğluna)*

*1. Hər insanın həyatında*
*2. Bunaldığı vaxtlar olur.*
*3. Doğmalar, yadlar içində*
*4. Tək qaldığı vaxtlar olur.*

*5. Oxlar uçuşur izinə,*
*6. Sipər olur öz-özünə,*
*7. Alçaqların əvəzinə*
*8. Alçaldığı vaxtlar olur.*

*9. Elə bilir solub son gül,*
*10. Didilir, dağılır könül.*
*11. Beş-on gündə beş il, on il*
*12. Qocaldığı vaxtlar olur.*

*13. Sanki can verir röyada –*
*14. Kimsəsi olmur oyada...*
*15. Uçub sıldırım qayadan,*
*16. Ucaldığı vaxtlar olur.*

*2015*

**OLUYOR**

(Afiq Muhtaroğlu'na)

1. Her insanın hayatında
2. Bunaldığı vakitler oluyor.
3. Kardeşler, yabancılar içinde
4. Tek kaldığı vakitler oluyor.

5. Oklar uçuşuyor ardına,
6. Siper oluyor kendi kendine,
7. Alçakların yerine
8. Alçaldığı vakitler oluyor.

9. Sanki solmuş son gül,
10. Didiliyor, dağılıyor gönül.
11. Beş, on günde beş yıl, on yıl
12. Yaşlandığı vakitler oluyor.

13. Sanki can veriyor rüyada
14. Kimsesi olmuyor uyandıracak…
15. Uçup sarp kayadan,
16. Yüceldiği vakitler oluyor.

***SƏBR (303)***

*1. Hərə bir cür zülüm çəkir,*
*2. Hərə bir cür sızlayır.*
*3. Qış da yaman ağır gəlib,*
*4. Yeri-göyü buzlayır.*

*5. Bəlkə də ayrılıq bu dəm*
*6. İş-gücünə yarıyır.*
*7. Nə müddətdir dörd yanında*
*8. Hamı xəstə... zarıyır.*

*9. Əgər adamsansa, yüz gün,*
*10. Min gün həsrət... dözərsən.*
*11. Nə Eşqindən çəkinərsən,*
*12. Nə səbrindən bezərsən.*

*13. Heç yarımçıq sevəmmədim,*
*14. Sevdim Allaha görə.*
*15. Allahım da məni sevir*

**SABIR**

1. Herkes bir şekilde zulüm çekiyor
2. Herkes bir şekilde sızlıyor,
3. Kış da kötü geliyor.
4. Yeri göğü buzlandırıyor.

5. Belki de ayrılık bu dem
6. İşine gücüne yarıyor.
7. Ne müddettir dört yanında
8. Herkes hasta... İnliyor.

9. Eğer insansan, yüz gün,
10. Bin gün hasret… Çekersin.
11. Ne aşkından çekinirsin,
12. Ne sabrından bezersin.

13. Hiç yarım sevemedim,
14. Sevdim Allah’a kadar.
15. Allah’ım da beni seviyor.

*16. Bir Eşq-günaha görə.*

*17. Şeytana bax... ayyy, şərəfsiz...*
*18. Məni hələ pus da, yan.*
*19. Mən İsanın yoldaşıyam,*
*20. Məhəmmədin dostuyam.*

*21. Daha təlxək şahı deyil,*
*22. Şah təlxəyi güldürür.*
*23. Bir şaircik elə bilir*
*24. Bir şairi öldürüb...*

*25. Nə olsun ki... su da donur,*
*26. Gün çıxır, aşıb-daşır.*
*27. Nazik buz qatı üstündə*
*28. Göyərçinlər oynaşır...*

16. Bir aşk, günaha kadar.

17. Şeytana bak… Ayy, şerefsiz…
18. Beni hele pusuya düşür de yan.
19. Ben İsa'nın yoldaşıyım,
20. Muhammed'in dostuyum.

21. Artık soytarı şahı değil,
22. Şah, soytarıyı güldürüyor.
23. Bir şaircik sanki
24. Bir şairi öldürmüş…

25. Ne olsun ki… Su da donuyor,
26. Güneş doğuyor, aşıp taşıyor.
27. Nazik buz katı üstünde
28. Güvercinler oynaşıyor.

### *YAVRU QURDUM (304)*

*1. Duydunmu bu məsəli, yavru qurdum? –*
*2. Rüzgarlar nə qədər ağır olsa belə,*
*3. Qağayılar öz dənizlərini tərk etməzmiş.*
*4. Qartallar öz zirvələrini,*
*5. Qurdlar öz meşələrini,*
*6. Sərçələr öz həyətlərini*
*7. Cənnət misal yaylaqlara dəyişməzmiş...*

*8. Kişilər də belədir, yavru qurdum –*
*9. Aclığa da, səfalətə də,*
*10. Nankorluğa da, xəyanətə də,*
*11. Kinə də, nifrətə də,*
*12. İçinə qan sızan zəhmətə də*
*13. Əqidəsinə və sevgisinə bürünüb dözər...*

*14. Qağayıların,*
*15. Qartalların,*
*16. Qurdların,*
*17. Sərçələrin,*
*18. Kişilərin bircə adı olur, yavru qurdum!..*

### YAVRU KURDUM

1. Duydun mu bu masalı, yavru kurdum?
2. Rüzgarlar ne kadar ağır olsa da böyle,
3. Martılar denizlerini terk etmezlermiş.
4. Kartallar  zirvelerini,
5. Kurtlar ormanlarını,
6. Serçeler hayatlarını
7. Cennet misali yaylalara değişmezlermiş.

8. İnsanlar da böyledir, yavru kurdum
9. Açlığa da, sefalete de,
10. Nankörlüğe de, ihanete de,
11. Kine de, nefrete de,
12. İçine kan sızan zahmete de
13. İnancına ve sevgisine sığınıp dayanır.

14. Martıların,
15. Kartalların,
16. Kurtların,
17. Serçelerin
18. İnsanların bir tek adı oluyor, yavru kurdum!

### *NƏLƏR YALAMADI O DİL, O DODAQ (305)*

*1. Salam taxta adam, saxta arxadaş,*

### NELER YALAMADI O DİL, O DUDAK…

1. Selam tahta adam, sahte arkadaş,

| | |
|---|---|
| *2. İçində, çölündə məni şərləmə.* | 2. İçinde bana kötülük düşünme. |
| *3. Oyan, mənəm atan o lal arxa daş,* | 3. Uyan, benim o dilsiz kanala taş atan |
| *4. Boylan mənə tərəf, amma tərləmə.* | 4. Uzan bana doğru ama terleme. |
| | |
| *5. Boylanma hürkərək, baxma bürüşük,* | 5. Uzanma bağırarak, bakma buruşuk, |
| *6. Yoxsa gözlərində çox kiçilmişəm?* | 6. Yoksa gözlerinde çok mu küçülmüşüm? |
| *7. Biclik sınağına bir çəkilmişik,* | 7. Hile imtahına çekilmişiz, |
| *8. Sən əla almısan, mən kəsilmişəm.* | 8. Sen geçmişsin, ben kalmışım. |
| | |
| *9. Yeddi rəngə çalır zatıqırıqlar,* | 9. Yedi renge benziyor dalavereciler, |
| *10. Bənizi saralmır, yanağı solmur.* | 10. Benizleri sararmıyor, yanakları solmuyor. |
| *11. Bir günlə yaşayır çapovulçular,* | 11. Bir günle yaşıyorlar soyguncular, |
| *12. Oğrunun, quldurun sabahı olmur.* | 12. Hırsızın, eşkıyanın sabahı olmuyor. |
| | |
| *13. Salam, güc aşiqi, qüvvət kölgəsi,* | 13. Selam, güç aşığı, kuvvet gölgesi, |
| *14. Bəd surun hər zaman işıq güdəcək.* | 14. Kötü kalen her zaman ışık bekleyecek. |
| *15. Elə bu gündəcə qalacaq səsin,* | 15. Öyle bu günde kalacak sesin, |
| *16. Sözün özündən də qabaq gedəcək.* | 16. Sözün kendinden önce gidecek. |
| | |
| *17. Nələr yalamadı o dil, o dodaq,* | 17. Neler yalamadı o dil, o dudak. |
| *18. Söylə, yenə həmin zəncirdəsənmi?* | 18. Söyle, yine şimdi zincirde misin? |
| *19. Qaya qaşındasan, nolsun, qaşqaldaq,* | 19. Kaya altındasın, ne olsun, kuş, |
| *20. Yəni sən qartaldan hündürdəsənmi?* | 20. Yani sen kartaldan yüksekte misin? |
| | |
| *21. Ömür fırfıradır, həyat – məngənə,* | 21. Ömür geçicidir, hayat mengene, |
| *22. Gözünü fırlatma, qaşını əymə.* | 22. Gözünü dikme, kaşını eğme. |
| *23. Sakit pıçıldadım beş-on söz sənə,* | 23. Sessiz fısıldadım beş, on söz sana, |
| *24. Bir də tumanını başına geymə.* | 24. Bir de örtünü başına atma. |
| *2016* | |

| | |
|---|---|
| ***MƏN ÖLÜRDÜM... SƏNSƏ KEFİNDƏ İDİN (306)*** | **BEN ÖLÜYORDUM… SENSE KEYFİNDEYDİN** |
| | |
| *1. Qarış-qarış qapanırdı yollarım,* | 1. Karış karış kapanıyordu yollarım, |
| *2. Bir yaralı durna səfində idim.* | 2. Bir yaralı turna safında idim. |
| *3. Sinəmdəcə quruyurdu qollarım,* | 3. Sineme kadar kuruyordu kollarım, |
| *4. Mən ölürdüm... sənsə kefində idin.* | 4. Ben ölüyordum… Sense keyfindeydin. |
| | |
| *5. Günortalar xəstə ziyarətində,* | 5. Öğlenleri hasta ziyaretinde, |
| *6. Axşam toyda, səhər dəfndə idin.* | 6. Akşam düğünde, sabah cenazedeydin. |
| *7. Sıxılmışdım bir dalanda, bir tində,* | 7. Sıkılmıştım bir kenarda, bir köşede, |
| *8. Mən ölürdüm... sənsə kefində idin.* | 8. Ben ölüyordum… Sense keyfindeydin. |
| | |
| *9. Səfərlərin çoxalırdı durmadan,* | 9. Seferlerin çoğalıyordu durmadan, |
| *10. Bilmirəm ki... – bəlkə Pekində idin.* | 10. Bilmiyorum ki… Belki Pekin'deyin. |

*11. Vaxt tapmırdın toplamadan, vurmadan,*
*12. Mən ölürdüm... sənsə kefində idin.*

*13. Mən sevgidən özgə bir dil bilmirdim,*
*14. Sənin dilin uqorda-fində idi.*
*15. Aylar ötür, güləmmirdim, gülmürdüm,*
*16. Mən ölürdüm... sənsə kefində idin.*

*17. Dörd yanında çeşid-çeşid dost vardı,*
*18. Hardan bilim – kimin səfində idin?*
*19. Bu gen dünya mənim başıma dardı,*
*20. Mən ölürdüm... sənsə kefində idin.*

*21. Zəng edirdim, telefonun susurdu,*
*22. Cavabın da: – "sorma, pis gündə idim".*
*23. Cəllad məni boğazımdan asırdı,*
*24. Mən ölürdüm... sənsə kefində idin.*

*25. Boz maşında önümdəncə keçirdin,*
*26. Deyirdin ki, qızın sinfində idin.*
*27. Yalanını zəhər kimi içirdim,*
*28. Mən ölürdüm... sənsə kefində idin.*

*29. Məni gedər-gəlməz yola salırdın,*
*30. Amma özün almaz rəfində idin.*
*31. Onun-bunun qadasını alırdın,*
*32. Mən ölürdüm... sənsə kefində idin.*

*33. Mən almışdım səni dərdin əlindən,*
*34. İndi özüm dərdin dibində idim.*
*35. Sirr doluydu piçıltın da, zilin də,*
*36. Mən ölürdüm, sənsə kefində idin.*

*37. Sənin bu dar, bu dolanbac yolunda*
*38. Mən ölürdüm... sənsə kefində idin.*
*39. Mən dirildim... amma sən xəyalımda*
*40. Sarı xallı bəyaz kəfəndə idin...*

*2016*

11. Vakit bulamıyordun para hesaplamaktan,
12. Ben ölüyordum… Sense keyfindeydin.

13. Ben sevgiden başka bir dil bilmiyordum,
14. Senin dilin yabancıların diliydi.
15. Aylar geçiyor, gülemiyordum, gülmüyordum.
16. Ben ölüyordum… Sense keyfindeydin.

17. Dört yanında çeşit çeşit dost vardı,
18. Nereden bileyim kimin yanındaydın?
19. Bu geniş dünya benim başıma dardı,
20. Ben ölüyordum… Sense keyfindeydin.

21. Arıyordum, telefonun susuyordu,
22. Cevabın da: " Sorma kötü gündeydim."
23. Cellat beni boğazımdan asıyordu,
24. Ben ölüyordum… Sense keyfindeydin

25. Beyaz araba ile önümden geçiyordun,
26. Diyordun ki kızın okulunda idim.
27. Yalanını zehir gibi içiyordum,
28. Ben ölüyordum… Sense keyfindeydin.

29. Beni gider gitmez gönderiyordun,
30. Ama kendin elmas kıymetindeydin.
31. Onun bunun derdini gideriyordun,
32. Ben ölüyordum… Sense keyfindeydin.

33. Ben almıştım seni derdin elinden,
34. Şimdi kendim derdin dibindeyim.
35. Sır doluydu fısıltın da, sesin de,
36. Ben ölüyordum… Sense keyfindeydin.

37. Senin bu dar, bu dolambaç yolunda
38. Ben ölüyordum… Sense keyfindeydin.
39. Ben dirildim ama sen hayalimde
40. Sarı lekeli beyaz kefendeydin.

## *BƏLKƏ DƏ BILMİRDİ (307)*

*1. Amma o bilmirdi...*
*2. Bəlkə də bilmək istəmirdi*
*3. Dünyanın ən iri şeytanına,*
*4. İblisin ən xain sərkərdəsinə*

## BELKİ DE BİLMİYORDU

1. Ama o bilmiyordu…
2. Belki de bilmek istemiyordu
3. Dünyanın en büyük şeytanı,
4. İblisin en hain komutanı ile

*5. Ürcah olduğunu.*
*6. Bilmirəm bilirdi-bilmirdi –*
*7. Sonda çörəksiz-duzsuz qalacağını,*
*8. Günəşin qibtə etdiyi*
*9. Ulduzsuz qalacağını,*
*10. Ən qorxulusu –*
*11. Sevgisiz-sığalsız qalacağını*
*12. Qızsız-oğulsuz qalacağını,*
*13. Hamı tərəfindən atılacağını*
*14. Bəlkə bilirdi,*
*15. Bəlkə də bilmirdi...*
*2014*

5. Karşılaştığını.
6. Bilmiyorum, biliyordu bilmiyordu
7. Sonunda ekmeksiz susuz kalacağını,
8. Güneşin gıpta ettiği
9. Yıldızsız kalacağını,
10. En korkuncu
11. Sevgisiz kalacağını
12. Çoluk çocuksuz kalacağını,
13. Herkes tarafından atılacağını
14. Belki biliyordu
15. Belki de bilmiyordu…

***İKİCƏ GÖZÜNƏ İNAN (308)***
*(Əsəd Təhləliyə)*

*1. Heç kimə inanma, qaqam,*
*2. Dağılan dizinə inan.*
*3. Özün açdığın yollara,*
*4. Saldığın izinə inan.*

*5. Düz sözün mar dadar sənin,*
*6. Adamlar aldadar səni,*
*7. Xəyanətlər didər səni.*
*8. İkicə gözünə inan.*

*9. Tanrı sevdiyini yaxar,*
*10. Sakitcə yanana baxar.*
*11. Dost donlular səni yıxar,*
*12. Özünə, özünə inan.*
*2015*

**İKİ GÖZÜNE İNAN**
(Esed Tehleli'ye)

1. Heç kimseye inama, babam,
2. Dağılan dizine inan.
3. Kendi açtığın yollara,
4. Bıraktığın izlere inan.

5. Doğru sözün zehir tadar senin
6. İnsanlar aldatır seni,
7. İhanetler dider seni.
8. İki gözüne inan.

9. Tanrı sevdiğini yakar,
10. Sessizce yanana bakar.
11. Dost görünümlüler seni yıkar,
12. Kendine, kendine inan.

***DUA (309)***

*1. Tanrım!*
*2. Səhər tezdən dəli qonşumun*
*3. Üzünə baxıb gülümsədimmi?*
*4. – Gülümsədim.*
*5. Salam verib sevindirdimmi?*
*6. – Sevindirdim.*

*7. Səhərin intizarlı ayazında*
*8. Aynamın açılmasını gözləyən*
*9. Vəfalı cılız sərçələrə,*
*10. Sığalsız küçə itlərinə,*
*11. Hürkək məhlə pişiklərinə yem verdimmi?*

**DUA**

1. Tanrım!
2. Sabah erkenden deli komşumun
3. Yüzüne bakıp gülümsedim mi?
4. Gülümsedim.
5. Selam verip sevindirdim mi?
6. Sevindirdim.

7. Sabahın intizarlı ayazında
8. Camımın açılmasını bekleyen
9. Vefalı cılız serçelere,
10. Sevgisiz sokak köpeklerine
11. Ürkek mahalle kedilerine yem verdim mi?

*12. – Verdim.*

*13. Səhərdən axşamadək*
*14. Yeriyə-yeriyə, yürüyə-yürüyə,*
*15. Qaça-qaça, uça-uça,*
*16. Danışa-danışa, susa-susa,*
*17. Sənə dualar etdimmi?*
*18. – Etdim!*

*19. Şər qarışıb...*
*20. Hələ də içimdəcə aram-aram,*
*21. Səninlə danışıram...*
*22. Dünyada nə qədər həkim var,*
*23. Hamısına qüdrətindən pay ver,*
*24. Qoy xəstələr yox, xəstəliklər solsun,*
*25. Bütün xəstələrin sağalsın, Tanrım!..*

12. Verdim.

13. Sabahtan akşama dek
14. Adım ata ata, yürüye yürüye,
15. Kaça kaça, uça uça,
16. Konuşa konuşa, susa susa,
17. Sana dualar ettim mi
18. Ettim!

19. Şer karışmış…
20. Hâlâ içimden hazin hazin
21. Seninle konuşuyorum…
22. Dünyada ne kadar hekim var,
23. Hepsine kudretinden pay ver,
24. Bırak hastalar değil, hastalıklar solsun,
25. Bütün hastaların iyileşsin, Tanrım!

***ATA EŞQİ (310)***
*(Coşqun Cəfərə)*

*1. İznindəydi ürəyimin səngəri,*
*2. O səngərdən bir-bir itdi adamlar.*
*3. Sən atanı qoyub gedəndən bəri,*
*4. Atanı da çox incitdi adamlar.*

*5. Bilirdinmi, bilmirdinmi – bilmirəm,*
*6. Mən heç səni Anarımdan seçmədim.*
*7. Hələ həmən o dağınıq yerdəyəm,*
*8. Dedim, birdən axtararsan... – köçmədim.*

*9. ...Deyirlər ki, ana daha çox sevər,*
*10. Neyniyək ki – ata eşqi lal, dinməz.*
*11. Balaların yanlışları tükənər,*
*12. Ataların məhəbbəti tükənməz.*

*13. Mən beləyəm – bəlkə suçdur, günahdır,*
*14. Dağ çəksə də sevdiyimdən keçmədim.*
*15. Yad belindən gələn oğul-qızları*
*16. Öz belimdən gələnlərdən seçmədim.*

*17. Halal eşqdən haram nifrət cücərməz,*
*18. Ya çürüyər, ya da yaşıl boy verər.*
*19. Oğul hərdən ata eşqini görməz,*
*20. Öz eşqini gedər yada pay verər.*

**BABA AŞKI**
(Coşgun Cefer'e)

1. Hizmetindeydi yüreğimin kalesi
2. O kalede bir bir yok oldu insanlar.
3. Sen babanı bırakıp gittiğinden beri,
4. Babanı da çok incitti insanlar.

5. Biliyor muydun, bilmiyor muydun bilmiyorum,
6. Ben seni hiç Anar'ımdan ayırmadım.
7. Hâlâ o dağınık yerdeyim,
8. Dedim, birden ararsan… Göçmedim.

9. Diyorlar ki ana daha çok sever,
10. Neyleyelim ki baba aşkı lal, konuşmaz.
11. Çocukların yanlışları tükenir,
12. Babaların sevgileri tükenmez.

13. Ben böyleyim belki suçtur, günahtır.
14. Dağ çekse de sevdiğimden geçmedim.
15. Yabancıdan doğan oğulları, kızları
16. Kendimden olanlardan ayırmadım.

17. Helal aşktan, haram nefret yeşermez,
18. Ya çürür ya da yeşil boy verir.
19. Oğul bazen baba aşkını görmez,
20. Kendi aşkına gider ya da hediye eder.

*21. ...Gedənləri saxlamağa gücüm yox,*
*22. Qayıdanı genitməyə nifrətim.*
*23. Mən bilirəm – üzülmürəm elə çox –*
*25. Geri dönər mənim olan sərvətim...*

***DOSTLAR BAĞIŞLASIN (311)***
*(Zərgər Musanın Xatirəsinə)*

*1. Mən yoxam... toplaşıb qullar qol çəkir...*
*2. Atam bu gün mənsiz qan verir, gülüm.*
*3. Anamın görməyən gözü yol çəkir,*
*4. Dostum önümdəcə can verir, gülüm.*

*5. Hər kəs öz işində, öz qeybətində,*
*6. Kimə nə – harası ağrıyır kimin...*
*7. Son ümid – ölümün səltənətində,*
*8. Döyüm qapısını hansı həkimin?..*

*9. Hər gün bir imtahan, hər gün bir sınaq,*
*10. Bir-bir qapıları bağlayır Allah.*
*11. Bəlkə də bu saat mənə baxaraq,*
*12. Göydə hönkür-hönkür ağlayır Allah.*

*13. Dostlar bağışlasın – başqa nə yazım?*
*14. Mən saxta təbəssüm göndərəmmirəm.*
*15. Axı mənim kimi dost nəyə lazım? –*
*16. Bir tərsi düzünə döndərəmmirəm.*

*17. ...Zalım ayrılığı bunca sevməyin,*
*18. Dərdi torpaq ilə bölməyin, dostlar.*
*19. Mənə nifrət edin, daş atın, söyün,*
*20. Amma yalvarıram, ölməyin, dostlar.*

*21. ...Mən yoxam... tap məni, özündə saxla,*
*22. Qoy elə səndəcə gizlənim, gülüm.*
*23. Çətindi yaşamaq bu qədər ahla,*
*24. Qoyma ölümlərə özlənim, gülüm...*
*2015*

***AZADLIĞIN DÜSTURU (312)***

*1. Allahın yasaq etmədiyini*
*2. Dövlət yasaqlayır.*
*3. Dövlətin yasaq etmədiyini*

21. Gidenleri saklamaya gücüm yok,
22. Döneni uzaklaştırmaya nefretim,
23. Ben biliyorum üzülmüyorum öyle çok
24. Geri döner benim olan servetim.

**DOSTLAR BAĞIŞLASIN**
(Zerger Musa'nın Hatırasına)

1. Ben yokum… Toplanıp kullar sözleşiyor.
2. Babam bu gün bensiz kan kaybediyor, gülüm.
3. Anamın görmeyen gözü yol gözlüyor.
4. Dostum önümde can veriyor, gülüm.

5. Herkes kendi işinde, kendi gıybetinde,
6. Kime ne neresi ağrıyorsa birinin…
7. Son ümit, ölümün saltanatında,
8. Çalayım kapısını hangi hekimin?

9. Her gün bir imtahan, her gün bir sınav,
10. Bir bir kapıları bağlıyor Allah.
11. Belki de bu saatte bana bakarak,
12. Gökte hüngür hüngür ağlıyor Allah.

13. Dostlar bağışlasın başka ne yazayım?
14. Ben sahte tebessüm edemiyorum.
15. Benim gibi dost neye yarar?
16. Bir tersi düze dönderemiyorum.

17. Zalim ayrılığı bunca sevmeyin,
18. Derdi toprak ile bölmeyin dostlar.
19. Benden nefret edin, bana taş atın, sövün,
20. Ama yalvarırım, ölmeyin dostlar.

21. Ben yokum… Bul beni, kendinde sakla,
22. Bırak öylece senden gizleneyim, gülüm.
23. Çetindir yaşamak bu kadar ahla,
24. Bırakma ölümleri özleyim, gülüm.

**AZATLIĞIN DÜSTURU**

1. Allah'ın yasak etmediğini
2. Devlet yasaklıyor.
3. Devletin yasak etmediğini

*4. Millət yasaqlayır.*
*5. Millətin yasaq etmədiyini*
*6. Külfət yasaqlayır.*
*7. Külfətin yasaq etmədiyini*
*8. İçindəki Şəxsiyyət yasaqlayır...*

4. Millet yasaklıyor.
5. Milletin yasak etmediğini
6. Aile yasaklıyor.
7. Ailenin yasak etmediğini
8. İçindeki şahsiyet yasaklıyor.

### *XOCALI (313)*

*1. Sənin birmi, beşmi, onmu dərdin var...*
*2. Bunca könül vermə dərdə, canciyər.*
*3. Suxumda ölərsən, Şuşa qan damar,*
*4. Şuşada ölərsən, Suxum inciyər.*

*5. Ağlaya-ağlaya hayana çıxaq? –*
*6. Düşməndən intiqam, ya bac alınır.*
*7. ...Ay adam, sinənə, gəl, orden taxaq,*
*8. Gözəl ağlayırsan sən Xocalını!..*

*9. Mən də Xocalıya çox şeir yazdım,*
*10. Çox adam topladım... xeyli ağladıq.*
*11. Şuşadan, Suxumdan uzaq səhraya*
*12. Hər il düz qırx sutka matəm saxladıq.*

*13. ...Bizi ağlatmasın dərd gülə-gülə,*
*14. Dərdimiz dağlara, düzlərə dəysin.*
*15. Səngərdə əsgərə tuşlanan güllə*
*16. Yalandan ağlayan gözlərə dəysin!*
*17. Kilsəni İsadan ayıranlara,*
*18. Məzlum görkəm alan üzlərə dəysin!..*

### HOCALI

1. Senin bir mi, beş mi, on mu derdin var…
2. Bu kadar gönül verme derde, can ciğer.
3. Suhum'da ölürsen, Şuşa kan ağlar.
4. Şuşa'da ölürsen, Suhum incinir.

5. Ağlaya ağlaya ne yana gidelim?
6. Düşmandan intikam ya da haraç alınıyor.
7. Ey insan, sinene, gel, madalya takalım,
8. Güzel ağlıyorsun sen Hocalı'ya.

9. Ben de Hocalı'ya çok şiir yazdım.
10. Çok insan topladım… Hayli ağladık.
11. Şuşa'dan, Suhum'dan uzak sahraya
12. Her yıl kırk gün madem tuttuk.

13. Bizi ağlatmasın dert güle güle,
14. Derdimiz dağlara, ovalara değsin.
15. Siperde askere atılan mermi
16. Yalandan ağlayan gözlere değsin!
17. Kiliseyi İsa'dan ayıranlara,
18. Sahtekâr mazlumlara değsin.

### *CAN DOSTUM, İSTANBULUM (314)*

*1. İki qitə İxtiyarı –*
*2. Qan dostum, İstanbulum ,*
*3. Sevgili canım!*

*4. Səndən xəbər gözləyirəm,*
*5. Müjdəli bir xəbər ver.*
*6. Ürəyimi qorumağa sipər ver!*

*7. Qız qülləsi – Qız bürcü*
*8. Həyalı ulduz bürcü*
*9. İşıq saçır, de!*

### CAN DOSTUM, İSTANBUL…

1. İki kıta büyüğü
2. Kan dostum, İstanbul'um,
3. Sevgili canım!

4. Senden haber bekliyorum,
5. Müjdeli bir haber ver.
6. Yüreğimi korumaya siper ver!

7. Kız kulesi, kız burcu
8. Hayali yıldız burcu
9. Işık saçıyor, de!

*10. Yorulmuş qol-budaqlar,*
*11. Üşümüş tumurcuqlar*
*12. Çiçək açır, de!..*

*13. Övliyaların şəhəri,*
*14. Min bir gecənin səhəri –*
*15. Can dostum, İstanbulum...*

10. Yorulmuş dallar budaklar,
11. Üşümüş tomurcuklar
12. Çiçek açıyor, de!

13. Evliyaların şehri,
14. Bin bir gecenin sabahı
15. Can dostum, İstanbul'um.

***TİFLİSİM (315)***

*(Mirzə Məmmədoğluna)*

*1. Vuranlar, tutanlar ilə,*
*2. Bu qədər nadanlar ilə,*
*3. Daşüzlü adamlar ilə,*
*4. Sarma məni, Tiflisim.*

*5. Bu sevgi olmaz ki, hədər...*
*6. Bir işrətdə min bir kədər.*
*7. Məndən yorulma bu qədər,*
*8. Yorma məni, Tiflisim.*

*9. Gülü, gülşəni qırmadım,*
*10. Şamlı meşəni qırmadım,*
*11. Bircə şüşəni qırmadım,*
*12. Qırma məni, Tiflisim.*

*13. Bir gün gözlərin dolarsa,*
*14. Gülün gülşəndə solarsa,*
*15. Yolların mənsiz qalarsa,*
*16. Sorma məni, Tiflisim...*

*2015*

**TİFLİS'İM**

(Mirze Memmedoğlu'na)

1. Atan tutanlar ile,
2. Bu kadar cahiller ile,
3. Taş yüzlü adamlar ile,
4. Sarma beni Tiflis'im.

5. Bu sevgi olmaz ki, heder…
6. Bir lezzette bin bir keder.
7. Benden yorulma bu kadar,
8. Yorma beni, Tiflis'im.

9. Gülü, gülşeni kırmadım,
10. Çamlı ormanı yıkmadım,
11. Bir tek şişeni kırmadım,
12. Kırma beni, Tiflis'im.

13. Bir gün gözlerin dolarsa,
14. Gül gülşen de solarsa,
15. Yolların bensiz kalırsa,
16. Sorma beni, Tiflis'im.

***SƏNƏ (316)***

*1. Dünya gözlərimdə boza boyanır,*
*2. Adamlar çevrilib olur daş-qaya.*
*3. Mən sənsiz olanda zaman dayanır,*
*4. Nə ölə bilirəm, nə də yaşaya.*

*5. Hər an, hər saniyə dəyişir halım,*
*6. Gözüm inciyəni, küsəni görmür –*
*7. İstər açıq olsun, istər qapalı,*
*8. Yenə səndən başqa kimsəni görmür.*

*9. Dili lal bir sükut çökür üzümə,*

**SANA**

1. Dünya gözlerimde boza boyanır,
2. İnsanlar dönüşüp oluyor taş, kaya.
3. Ben sensiz olduğumda zaman duruyor,
4. Ne ölebiliyorum ne de yaşayabiliyorum.

5. Her an, her saniye değişiyor hâlim,
6. Gözüm inciyeni, küseni görmüyor
7. İster açık olsun, ister kapalı,
8. Yine senden başka kimseyi görmüyor.

9. Dili lâl bir sükut çöküyor yüzüme,

*10. İçim qan ağlayır, çölüm kiriyir.*
*11. Azca toxunanda sözün sözümə,*
*12. Ruhum cəhənnəm tək yanır, əriyir.*

*13. Mən sənin ömrünün lal keşikçisi,*
*14. Sən – Tanrı göndərən hurisən, gülüm.*
*15. Sənsən hər misrası, hər qafiyəsi,*
*16. Ömrümün yeganə şeirisən, gülüm...*

***EŞK (317)***

*1. Səndə də olurmu bu hallar, adam, –*
*2. Sən də susursanmı bəxtə, gərdişə?*
*3. Gözünə görünmür bu dünya, ya da*
*4. Dilin sözə yatmır, əllərin işə?*

*5. Heç lal xəstə kimi inləyirsənmi,*
*6. Dilinin altında söz hönkürürmü?*
*7. Sükutun dərdini dinləyirsənmi,*
*8. Yaşı buxarlanmış göz hönkürürmü?*

*9. Səndə də olurmu bu hallar, adam, –*
*10. Doğru ola-ola doğranırsanmı?*
*11. Sənə də dəyirmi güllə arxadan,*
*12. Amma nişançını sən danırsanmı?*

*13. Heç sən də bir anın içində nar tək,*
*14. Həkimsiz, cərrahsız yarılırsanmı?*
*15. O səni vurana vurulduğuntək,*
*16. Ölümə ürəkdən vurulursanmı?*

*17. ...Amma, geri dönər yol-izlər, lələm,*
*18. Yaxından uzaqlar göyçək görünər.*
*19. Yatdığın yerdəcə bir gün zəng gələr:*
*20. – Qalın gey, bu gün çən-çisək görünür.*

*21. ...Səndə də olurmu bu hallar, adam, –*
*22. Ağlına gəlirmi sənin də hər şey?*
*23. Sevgilin gəlirmi qəfil uzaqdan,*
*24. Üzünə gülürmü qəfildən hər şey?..*

*2015*

***HƏSRƏTİN QOYMUR Kİ, BIR ÇİMDİK YATAM (318)***

10. İçim kan ağlıyor, çölüm susuyor.
11. Azcık dokununca sözün sözüme,
12. Ruhum cehennem gibi yanıyor, eriyor.

13. Ben senin ömrünün lâl nöbetçisi,
14. Sen Tanrı'nın gönderdiği hurisin, gülüm.
15. Sensin her mısrası her kafiyesi,
16. Ömrümün yegane şiirisin, gülüm.

**AŞK**

1. Sende de olur mu bu hâller, insan,
2. Sen de susar mısın bahta, devrana?
3. Gözüne görünmüyor bu dünya, ya da
4. Dilin söze gitmiyor, ellerin işe?

5. Hiç lâl hasta gibi inildiyor musun,
6. Dilinin altında söz bağırıyor mu?
7. Sükutun derdini dinliyor musun,
8. Yaşı buharlanmış göz bağırıyor mu?

9. Sende de olur mu bu hâller, insan,
10. Doğru ola ola doğranıyor musun?
11. Sana atılıyor mu mermi arkadan,
12. Ama nişan alanı sen tanıyor musun?

13. Hiç sen de bir anın içinde nar gibi,
14. Hekimsiz, cerrahsız yarılıyor musun?
15. O seni vurana vurulduğun gibi,
16. Ölüme yürekten vuruluyor musun?

17. Ama geri döner yollar, izler,
18. Yakından uzaklar güzel görünür.
19. Yattığın yerde bir gün telefon gelir:
20. Kalın giy, bu gün yağış görünüyor.

21. Sende de olur mu bu hâller, insan,
22. Aklına geliyor mu senin de her şey?
23. Sevgilin gelir mi aniden uzaktan,
24. Yüzüne gülüyor mu aniden her şey?

**HASRETİN BIRAKMIYOR Kİ BİR AN YATAYIM**

*1. Güvənim sevgimlə qoşalaşıbdır,*
*2. Gülüm, heç sanma ki, mən narahatam.*
*3. Sənsizlik sel kimi aşıb-daşıbdır,*
*4. Həsrətin qoymur ki, bir çimdik yatam.*

1. Güvenim sevgimle yan yanadır,
2. Gülüm, hiç sanma ki ben rahatım.
3. Sensizlik sel gibi aşıp taşmış,
4. Hasretin bırakmıyor ki bir an yatayım.

*5. Heç bir iş başımı qatammır sənsiz,*
*6. Gah tamam bərbadam, gah da babatam.*
*7. Yuxumun özü də yatammır sənsiz,*
*8. Həsrətin qoymur ki, bir çimdik yatam.*

5. Hiçbir işi yapamıyorum sensiz,
6. Bazen tamamen berbatım bazen de orta hâlli.
7. Uykumun kendisi de yatamıyor sensiz,
8. Hasretin bırakmıyor ki bir an yatayım.

*9. Gün ilə ölçmürəm təqvimi daha,*
*10. Vallah, anları da sayan saatam.*
*11. Sıx-sıx bürünsəm də çəkdiyim aha,*
*12. Həsrətin qoymur ki, bir çimdik yatam.*

9. Gün ile ölçmüyorum takvimi artık,
10. Vallahi, anları da sayan saatim.
11. Sık sık bürünsem de çektiğim aha,
12. Hasretin bırakmıyor ki bir an yatayım.

*13. ...Mənə gülüş gətir bir gözdolusu,*
*14. Demirəm qoynunda ömürlük yatım.*
*15. Gəl, gəl, ürəyinin qurbanı olum,*
*16. Gəl, ürəyin üstə bir çimdik yatım...*
*2015*

13. Bana neşe getir yığınla
14. Demiyorum koynunda ömürlük yatayım.
15. Gel, gel yüreğinin kurbanı olayım,
16. Gel, yüreğinin üstünde bir an yatayım.

***KÜS (319)***

*1. Mən təkcə Tanrıma suallar verdim,*
*2. Rastıma kim çıxdı – deyişəmmədim.*
*3. Bu zulum dünyada mən nələr gördüm,*
*4. Yenə öz yolumu dəyişəmmədim.*

*5. Dostlar da çəkildi... tək-tənha qaldım,*
*6. Bu yolun sonuna vardığımda mən.*
*7. Min kərə qırıldım, min kərə qırdım,*
*8. Qırılan da məndim, qırdığım da mən.*

*9. Günəştək yanıram, Aytək donuram,*
*10. Uzaqdan görənlər bəxtəvər deyir.*
*11. Mən ki tikə-tikə, parça-parçayam,*
*12. Hər tikə-parçamı min namərd yeyir.*

*13. İsa peyğəmbəri, İmam Hüseyni*
*14. Döyənlər mənə də yumruq qıcadı.*
*15. İstədim ruhumu eyləyəm təslim,*
*16. Əllərim çatmadı – ruhum ucadı.*

*17. Özüm budaq oldum, özüm kök oldum,*
*18. Mindiyim budağı niyə kəsim ki.*

**KÜS**

1. Ben bir tek Tanrı'ma sorular sordum,
2. Kiminle karşılaşsam değişemedim.
3. Bu zalim dünyada ben neler gördüm,
4. Yine kendi yolumu değişemedim.

5. Dostlar da çekildi… Tek başıma kaldım,
6. Bu yolun sonuna vardığımda ben.
7. Bin kere kırıldım, bin kere kırdım,
8. Kırılan da bendim, kıran da ben.

9. Güneş gibi yanıyorum, ay gibi donuyorum,
10. Uzaktan görenler mutlu diyor.
11. Ben ki dağılmışım, parça parçayım,
12. Her parçamı bin namert yiyor.

13. İsa peygamberi, İmam Hüseyin'i
14. Döğenler de bana yumruk kaldırdı.
15. İstedim edeyim ruhumu teslim,
16. Ellerim ulaşmadı, ruhum yükseldi.

17. Kendim dal oldum, kendim kök oldum,
18. Bindiğim dalı neden keseyim ki.

*19. Hər gecə Tanrımla üz-üzə qaldım,*
*20. Adi bəndələrdən niyə küsüm ki.*

*21. Ölsəm də, itsəm də saçlarımda dən,*
*22. Alqış istəmirəm, ura bilmirəm.*
*23. ...Amma bir tək onun bir tərs sözündən*
*24. Yıxıldım, ay Allah, dura bilmirəm...*

### *SƏNDƏN AYRI KÜSMƏYƏ BIR ADAM YOX (320)*

*1. Soyuq yağmur. Barı külək əsməyə,*
*2. Əynim yuxa. Üşüyürəm. Həm də çox.*
*3. Kim qaldı ki, inciməyə, küsməyə?–*
*4. Səndən ayrı küsməyə bir həmdəm yox.*

*5. Əynim yuxa. Üşüyürəm. Həm də çox.*
*6. Sənsizlik də məni ayrı üşüdür.*
*7. Özümə yox, sən məndəki səbrə bax –*
*8. Mənim səbrim Tanrının əl işidir.*

*9. Kim qaldı ki, inciməyə, küsməyə?*
*10. Amma çoxdu inciyənim, küsənim.*
*11. Amma çoxdu "canım-ciyərim" deyən,*
*12. Amma çoxdu pambıqla baş kəsənim.*

*13. Səndən ayrı küsməyə bir adam yox.*
*14. Cezvəli qız... Sən də məndən küsürsən...*
*15. ...İslaq saçım dalğalanır dəniztək,*
*16. Yəqin sənsən... Başım üstə əsirsən.*

*17. Soyuq yağmur. Soyuq külək. Soyuq baş...*
*18. Yoxsa ürək tab gətirməz yanğına.*
*19. Çox soyuqdu girişdiyim bu savaş,*
*20. Bacarırsan məni bir az çox qına...*
*2016*

### *İNCİMƏRƏM – MƏN ÖLƏNDƏ AĞLAMA (321)*

*1. Dünya ilə salamımı kəsmirəm,*
*2. Özüm yoxam... Gözüm baxır aynadan.*
*3. Allah da var, sən də varsan... küsmürəm*
*4. Dost donunda düşmən olan dünyadan.*

19. Her gece Tanrı'mla yüz yüze kaldım,
20. Adi insanlarla neden küseyim ki.

21. Ölsem de, yok olsam da saçlarımda ak,
22. Alkış istemiyorum, övülmek de.
23. Ama bir tek onun tek bir sözünden ,
24. Yıkıldım, ay Allah, duramıyorum…

### SENDEN BAŞKA KÜSMEYE İNSAN YOK

1. Soğuk yağmur. Bari rüzgar esmese,
2. Kıyafetim ince. Üşüyorum. Hem de çok.
3. Kim kaldı ki, incinmeye, küsmeye?
4. Senden başka küsmeye bir dostum yok.

5. Kıyafetim ince. Üşüyorum. Hem de çok.
6. Sensizlik de beni ayrı üşütüyor.
7. Bana değil, sen bendeki sabra bak
8. Benim sabrım Tanrı'nin el işidir.

9. Kim kaldı ki, incinmeye, küsmeye?
10. Ama çoktur incinenim, küsenim.
11. Ama çoktur canım, ciğerim diyen,
12. Ama çoktur pamukla baş kesenim.

13. Senden başka küsmeye insan yok.
14. Deli kız… Sen de bana küsüyorsun…
15. Islak saçların dalgalanıyor deniz gibi,
16. Şüphesiz sensin… Başımın üstüne esiyorsun.

17. Soğuk yağmur, soğuk rüzgar, soğuk baş…
18. Yoksa yürek dayanmaz yangına.
19. Çok soğuk girdiğim bu savaş,
20. Becerirsen beni biraz çok kına….

### İNCİNMİYORUM, BEN ÖLDÜĞÜMDE AĞLAMA

1. Dünya ile selamımı kesmiyorum,
2. Kendim yokum. Gözüm bakıyor camdan.
3. Allah da var, sen de varsın… Küsmüyorum
4. Dost kılığında düşman olan dünyadan.

*5. Saçlarımmı bəyazlayıb? Qəm yemə,*
*6. Ağ səpərəm zirvəsinə dağların.*
*7. Elə axıb göz yaşların sinəmə,*
*8. Su altında qalıb sinə dağlarım.*

*9. Göz yaşların dəniz olsa, bil, səni*
*10. O dənizdə boğulmağa qoymaram.*
*11. Tək bayraqlı tək ölkəmsən sən mənim,*
*12. O ölkəni dağılmağa qoymaram.*

*13. Heç çəkinmə, İsan ki var mən adda,*
*14. Ağla, danış... bircə sirr də saxlama.*
*15. Sən o qədər ağlamısan həyatda,*
*16. İncimərəm – mən öləndə ağlama.*

*17. Mən öləndə bir içim də ağlama,*
*18. Sən ağlasan, bilərəm ki, ölmüşəm.*
*19. ...Qəfildəncə gözün baxar aynana,*
*20. Görərsən ki, dönüb sənə gəlmişəm...*
*2016*

5. Saçlarım mı beyazlamış? Dert etme,
6. Ak serperim zirvesine dağların.
7. Öyle akmış gözyaşların sineme,
8. Su altında kalıp sine dağlarım.

9. Gözyaşların deniz olsa, bil, senin
10. O denizde boğulmana izin vermem.
11. Tek bayraklı, tek ülkemsin sen benim
12. O ülkenin dağılmasına izin vermem.

13. Hiç çekinme, İsa gibi azap çeken bir ben var.
14. Ağla, konuş… Bir tek sır saklama.
15. Sen o kadar ağlamışsın hayatta,
16. İncinmiyorum, ben öldüğümde ağlama.

17. Ben öldüğümde hiç ağlama
18. Sen ağlarsan bilirim ki ölmüşüm.
19. Aniden gözün ilişir cama,
20. Görürsün ki dönüp sana gelmişim.

***BEŞ ARŞIN SİBİR (322)***

*1. ...Sanki adamlar sözləşib,*
*2. Hamı tək səbir gətirir,*
*3. Sevgilim qucaq yerinə*
*4. Mənə boş qəbir gətirir...*
*5. O qəbirdə titrəməyə*
*6. Beş arşın Sibir gətirir...*
*7. Dağıl dünya! – çaqqala bax,*
*8. Dişində bəbir gətirir!..*
*2016*

**BEŞ ARŞIN SİBİRYA**

1. Sanki insanlar sözleşmiş
2. Hepsi sabır çekiyor,
3. Sevgilim kucak yerine
4. Bana boş kabir getiriyor…
5. O kabirde titremeye
6. Beş arşın Sibirya getiriyor.
7. Dağıl dünya, çakala bak,
8. Dişinde kaplan getiriyor.

***MƏN SƏNSİZ ÖLMƏSƏM (323)***

*1. Dünya elə də çox çirkin deyildir,*
*2. Boldur dualarım hər səhər-axşam.*
*3. Nartək dənələrim dağılır bir-bir,*
*4. Mən sənsiz ölməsəm, yüz yaşayacam.*

*5. Canımın içisən, gözümün çölü,*
*6. Mən sənə çölümdə heykəl qoyacam.*
*7. Unutma: sən diri, mən isə ölü,*
*8. Mən sənsiz ölməsəm, yüz yaşayacam.*

*9. Burda quldurum çox, orda xainim,*

**BEN SENSİZ ÖLMEZSEM…**

1. Dünya öyle de çok çirkin değil,
2. Boldur dualarım her sabah her akşam.
3. Nar gibi tanelerim dağılıyor bir bir,
4. Ben sensiz ölmezsem, yüz yıl yaşayacağım.

5. Canımın içisin, gözümün çölü,
6. Ben sana çölümde heykel dikeceğim.
7. Unutma: Sen diri, ben ise ölü,
8. Ben sensiz ölmezsem, yüz yıl yaşayacağım.

9. Burada eşkıyam çok, orada hainim,

*10. Şükür, salamatam, taxtında tacam.*
*11. Tanrı məndən silib nifrəti, kini,*
*12. Mən sənsiz ölməsəm, yüz yaşayacam.*

*13. Qoy, bir də başını sındırsın əğyar,*
*14. Sevgi tüstüləyir pəncərəm, bacam.*
*15. Sən min bir gecəmin nağılısan, yar,*
*16. Mən sənsiz ölməsəm, yüz yaşayacam.*

*17. ...Bir az sənsiz idim, dəlilənmişdim,*
*18. Ruh yarım, nə qədər sənə möhtacam.*
*19. Qəfildən beynimdə rəqs etdi səsin:*
*20. – Qorxma, mən səninlə yüz yaşayacam!..*
*2016*

10. Şükür, selametim, tahtında tacım.
11. Tanrı benden silmiş nefreti, kini,
12. Ben sensiz ölmezsem, yüz yıl yaşayacağım.

13. Bırak, bir de düşman düşünsün,
14. Sevgi tütüyor pencerem, bacam.
15. Sen bin gecemin masalısın, yar,
16. Ben sensiz ölmezsem, yüz yıl yaşayacağım.

17. Biraz sensiz idim, delirmiştim,
18. Ruh yarım, ne kadar sana muhtacım.
19. Aniden beynimde çınladı sesin:
20. Korkma, ben seninle yüz yıl yaşayacağım.

## *SƏNİN ÜÇÜN (324)*

*1. Bir az ağlım ilə, bir az dəlisov,*
*2. Neyniyim, belədə sevirəm səni.*
*3. Sən iki balanı necə sevirsən,*
*4. Bax mən də eləcə sevirəm səni.*

*5. Bir az vəkilinəm, bir az şahınam,*
*6. Eşqinin önündə kölə, əsirəm.*
*7. Sən iki balana necə əsirsən,*
*8. Mən də sənin üçün elə əsirəm.*

*9. Eşqimi ömrünə saray etmişəm,*
*10. Öyünə bilmərəm dövlət-varımla.*
*11. Sən iki balanı qoruyan kimi,*
*12. Səni qoruyuram dualarımla.*

*13. Aylar ilə döndü. Və... anladım ki,*
*14. Ömrümün özülü, özəyisən sən.*
*15. Bu əlli yaşımın astanasında*
*16. Bu şair ömrümün bəzəyisən sən.*
*2014*

## SENİN İÇİN

1. Biraz aklım ile biraz delice,
2. Neyleyim, böyle seviyorum seni.
3. Sen iki çocuğunu nasıl seviyorsan,
4. Bak ben de öyle seviyorum seni.

5. Biraz vekilinim, biraz şahınım,
6. Aşkının önünde köle, esirim.
7. Sen iki çocuğuna nasıl esirsen,
8. Ben de senin için öyle esirim.

9. Aşkımı ömrüne saray etmişim,
10. Övünemem varlığımla.
11. Senin iki çocuğunu koruduğun gibi,
12. Seni koruyorum dualarımla.

13. Aylar yıla döndü ve anladım ki,
14. Ömrümün temeli, özüsün sen.
15. Bu elli yaşımın eşiğinde
16. Bu şair ömrümün süsüsün sen.

## *HƏR SƏHƏR TƏZƏDƏN SEVİRƏM SƏNİ (325)*

*1. Hər axşam, hər gecə, hər səhər, hər gün*
*2. Saçımda təzə dən... sevirəm səni.*
*3. Hər gecə oluram yuxuya sürgün,*
*4. Hər səhər təzədən sevirəm səni.*

## HER SABAH YENİDEN SEVİYORUM SENİ

1. Her akşam, her gece, her sabah, her gün
2. Saçımda yeni aklar… Seviyorum seni.
3. Her gece oluyorum uykuya sürgün,
4. Her sabah yeniden seviyorum seni.

*5. Tənhasan... di gəl ki qüdrətim çatmır*
*6. Sultanlıq taxtından devirəm səni.*
*7. Hər gecə yuxu da başımı qatmır,*
*8. Hər səhər təzədən sevirəm səni.*

*9. Yüz də dərd-qəminlə rəssamsayağı*
*10. Dərdimi bəzə sən... sevirəm səni.*
*11. Hər gecə əriyir ruhumun yağı,*
*12. Hər səhər təzədən sevirəm səni.*

*13. Sən mənim bütümsən...*
*14. az qala, gülüm,*
*15. Ehrama, məbədə çevirəm səni...*
*16. Hər gecə sükutdan lal olur dilim,*
*17. Hər səhər təzədən sevirəm səni...*
*2015*

5. Yalnızsın… Gel ki kudretim yetmiyor
6. Sultanlık tahtından indireyim seni.
7. Geceleri uykum da gelmiyor,
8. Her sabah yeniden seviyorum seni.

9. Yüz defa dertle, gamla ressam gibi
10. Derdimi süsle sen… Seviyorum seni.
11. Her gece eriyor ruhumun yağı,
12. Her sabah yeniden seviyorum seni.

13. Sen benim putumsun…
14. Az kaldı, gülüm,
15. İhrama, mabede çevireyim seni…
16. Her gece sükuttan lal oluyor dilim,
17. Her sabah yeniden seviyorum seni.

### *SÖZGƏLİŞİ (326)*

*1. Bunca göz yaşınla sulama məni,*
*2. Mən leysan altında bitmiş çiçəyəm.*
*3. Bir sual verəcəm, qınama məni:*
*4. Bircə yol sordunmu bəs mən necəyəm?*

*5. Nə olar, Günəşli səhərdən danış,*
*6. Özün görürsən ki, Aysız gecəyəm.*
*7. Gəzdin ürəyimi sən qarış-qarış,*
*8. Bircə yol sordunmu bəs mən necəyəm?*

*9. Hamı ürəyimdə dincəlib, köçür,*
*10. Mən kəsə gedilən yolam, küçəyəm.*
*11. Mənim hər saniyəm dərdinlə keçir,*
*12. Bircə yol sordunmu bəs mən necəyəm?*

*13. Nə olsun, görüntüm sarp qaya kimi...*
*14. İpəkdən yumşağam, teldən incəyəm.*
*15. Ruhumda oxundun sən ayə kimi,*
*16. Bircə yol sordunmu bəs mən necəyəm?*

*17. ...Nə yaxşı, Tanrısa eşidir məni,*
*18. Nə yaxşı, O bilir kiməm, nəçiyəm.*
*19. Qorxma, ağrılarım öldürməz səni,*
*20. Hərdən sən də soruş bəs mən necəyəm?..*
*2015*

### SÖZ GELİŞİ

1. Bu kadar gözyaşınla sulama beni,
2. Ben nisan yağmuru altında bitmiş çiçeğim.
3. Bir soru soracağım, kınama beni:
4. Bir defa sordun mu hâlimi?

5. Ne olur, güneşli sabahtan bahset,
6. Kendin görüyorsun ki, aysız geceyim.
7. Gezdin yüreğimi sen karış karış,
8. Bir defa sordun mu hâlimi?

9. Hepsi yüreğimde dinleniyor, gidiyor,
10. Ben en yakın yolum, sokağım.
11. Benim her saniyem derdinle geçiyor,
12. Bir defa sordun mu hâlimi?

13. Ne olsun, görüntüm sarp kaya gibi…
14. İpekten yumuşağım, telden inceyim.
15. Ruhumda okundun sen ayet gibi,
16. Bir defa sordun mu hâlimi?

17. Ne güzel, Tanrı işitiyor beni,
18. Ne güzel, o biliyor kimim, neciyim.
19. Korkma, ağrılarım öldürmez seni,
20. Bazen sen de sor yeter, benim hâlimi?

### *RUH HALI (327)*

### RUH HÂLİ

| | |
|---|---|
| *1. Gülüm, bu zinrik gecəni –* | 1. Gülüm, bu zifiri gece için |
| *2. Heç darıxma... – paralar dan.* | 2. Hiç üzülme, parlar tan. |
| *3. Günəş doğar, silkinərik* | 3. Güneş doğar silkeleniriz |
| *4. Tabut rəngli qaralardan.* | 4. Tabut renkli karalardan. |
| | |
| *5. Boşuna əriyir o şam,* | 5. Boşuna eriyor o mum, |
| *6. Gecə-gündüz, səhər-axşam...* | 6. Gece gündüz, sabah akşam… |
| *7. Vallah, yaman yorulmuşam* | 7. Valla, fena yorulmuşum |
| *8. Alqışlardan, uralardan.* | 8. Alkışlardan, naralardan. |
| | |
| *9. Gəl. Gəl, dərdimizi bölək,* | 9. Gel. Gel, derdimizi bölelim, |
| *10. Canımız yansa da, gülək.* | 10. Canımız yansa da gülelim. |
| *11. Kim ölüb ki, biz də ölək* | 11. Kim ölmüş ki, biz de ölelim |
| *12. Sızıldayan yaralardan?!* | 12. Sızlayan yaralardan?! |
| | |
| *13. İçi – məzar, üzü – şənlik,* | 13. İçi mezar, yüzü şenlik, |
| *14. Bu dünya deyilmiş mənlik.* | 14. Bu dünya değilmiş benlik. |
| *15. ...Gəl, nə olar, min bir günlük* | 15. Gel ne olur, bin bir günlük |
| *16. Çıxaq gedək buralardan...* | 16. Çıkalım gidelim buralardan. |
| *2015* | |
| ***SƏN GƏLƏNDƏ (328)*** | **SEN GELDİĞİNDE** |
| | |
| *1. Sən gedəndə bütün yollar qapanır,* | 1. Sen gittiğinde bütün yollar kapanıyor, |
| *2. Bürcüm, türbəm, qalalarım uçulur.* | 2. Kulem, türbem, kalelerim dağılıyor. |
| *3. Sən gəlirsən... – sönmüş işıqlar yanır,* | 3. Sen geliyorsan sönmüş ışıklar yanıyor, |
| *4. Yeddi yerdən yeddi qapı açılır.* | 4. Yedi yerden yedi kapı açılıyor. |
| | |
| *5. Sən gedəndə sanki qopur qiyamət,* | 5. Sen gittiğinde sanki kopuyor kıyamet, |
| *6. Can dediyim canlar canımı alır.* | 6. Can dediğim canlar canımı alıyor. |
| *7. Sən gəlirsən... – abırlanır bu həyat,* | 7. Sen geliyorsan, şerefleniyor bu hayat, |
| *8. Alçaqlar da gözlərimdə ucalır.* | 8. Alçaklar da gözümde yüceliyor. |
| | |
| *9. Sən gedəndə aldanıram çox asan,* | 9. Sen gittiğinde aldanıyorum çok kolay, |
| *10. Alacağım verəcəyə çevrilir.* | 10. Alacağım vereceğe dönüşüyor. |
| *11. Sən gəlirsən... – bərəkətli butasan –* | 11. Sen geliyorsan, bereketli goncasın |
| *12. Yoxsulluğun səltənəti devrilir.* | 12. Yoksulluğun saltanatı devriliyor. |
| | |
| *13. Sən gedəndə...sən gedəndə...gedəndə...* | 13. Sen gittiğinde… Sen gittiğinde… Gittiğinde |
| *14. Gülüm, dünya mənə qənim kəsilir.* | 14. Gülüm, dünya bana düşman kesiliyor. |
| *15. Sən gələndə... sən gələndə... gələndə... –* | 15. Sen geldiğinde… Sen geldiğinde… Geldiğinde… |
| *16. Tanrı baxır, xoşallanır və... gülür...* | 16. Tanrı bakıyor, hoşuna gidiyor ve… Gülüyor. |
| *2015* | |

## *QOY BİRCƏ O OLSUN MƏNİM GÜNAHIM (329)*

*1. Qoy bircə o olsun mənim günahım,*
*2. Sən onu sevdirmə bir özgəsinə.*
*3. Başqası sevməsin onu, Allahım,*
*4. Ona sığınmasın bir özgə sinə.*

*5. Özgəsi, o nələr çəkir, anlamaz,*
*6. Bir gün, beş gün sevər...bezər, yorular.*
*7. Özgəsi çox onun halına yanmaz,*
*8. O ayna könüllüm sınar, qırılar.*

*9. Özgəsi çəkəmməz onun nazını,*
*10. Başqası dözəmməz onun dərdinə.*
*11. Qoy, onu mən sevim ömür uzunu,*
*12. Qoy, onun bircə mən yanım dərdinə.*

*13. Nə olar, ayırma bizi, ay Allah,*
*14. Demirəm dözüm ver, səbir ver mənə;*
*15. Yox əgər ayırsan, bircə gün qabaq*
*16. Sığınıb yatmağa qəbir ver mənə...*

*2015*

## BIRAK BİR TEK O OLSUN BENİM GÜNAHIM

1. Bırak bir tek o olsun benim günahım,
2. Sen onu sevdirme bir başkasına.
3. Başkası sevmesin onu, Allah'ım,
4. Ona sığınmasın bir başka sine.

5. Başkası, o neler çekiyor, anlamaz,
6. Bir gün, beş gün sever… Bezer, yorulur.
7. Başkası onun hâline yanmaz,
8. O cam gönüllüm incinir, kırılır.

9. Başkası çekemez onun nazını,
10. Başkası dayanamaz onun derdine.
11. Bırak, onu ben seveyim ömür boyunca,
12. Bırak, onun bir defa ben yanayım derdine.

13. Ne olur, ayırma bizi, ey Allah,
14. Demiyorum tahammül ver, sabır ver bana;
15. Eğer ayıracaksan, bir gün öncesinden
16. Sığınıp yatmaya kabir ver bana…

## *AD GÜNÜM (330)*

*1. Canından canıma can bağışladın –*
*2. Sən 13 fevralda yanıma gəldin.*
*3. Hamıdan birinci məni qutladın,*
*4. Canım çıxaçıxda canıma gəldin.*

*5. 12-si yatmadım bütün gecəni,*
*6. Ruhumla, canımla səni özlədim.*
*7. Hamı ad günümü gözlədi mənim,*
*8. Mən isə yatmayıb səni gözlədim.*

*9. Sən 13 fevralda dan qızarantək,*
*10. Uçundun yollarda, mənə tələsdin.*
*11. Mən səni gözlədim əlimdə çiçək,*
*12. Sən məni görəndə yarpaq tək əsdin.*

*13. ...Qopmadı boynumdan o bir cüt qol da,*
*14. Sevgidən təntidim, eşqdən boğuldum.*
*15. Biz elə sevindik 13 fevralda,*
*16. Mən 14 fevralda təzdən doğuldum...*

## DOĞUM GÜNÜM

1. Canından canıma can bağışladın
2. Sen 13 Şubat'ta yanıma geldin.
3. Herkesten önce beni kutladın,
4. Canım çıkacakken bana geldin.

5. 12'si yatmadım bütün gece,
6. Ruhumla, canımla seni özledim.
7. Herkes doğum günümü bekledi benim,
8. Ben ise yatmayıp seni bekledim.

9. Sen 13 Şubat'ta tan kızarana dek,
10. Titredin yollarda, benim için telaşlandın.
11. Ben seni bekledim elimde çiçek,
12. Sen beni gördüğünde yaprak gibi titredin.

13. Kopmadı boynumdan o bir çift kol da,
14. Sevginden yoruldum, aşktan boğuldum.
15. Biz öyle sevindik 13 Şubat'ta,
16. Ben 14 Şubat'ta yeniden doğdum.

*OLA (331)*

*1. Eşq ucundan sürgün düşəm,*
*2. Vətən mənə qənim ola;*
*3. Sənin bir anlıq gülüşün*
*4. Ömürlük vətənim ola.*

*5. Çıxam hamının yadından,*
*6. Kimsə qalmaya yadımda...*
*7. Ayrıca Tanrı qatında*
*8. Eşq adlı öz dinim ola.*

*9. Dərd ilməli naxışların,*
*10. Öpüşlərin, alqışların,*
*11. Ruhun, canın, baxışların*
*12. Sonsuzadək mənim ola.*

*13. Tutuşam od-ocağında,*
*14. Dincələm güllü bağında.*
*15. Can tapşıram qucağında,*
*16. Köynəyin kəfənim ola...*

**OLA**

1. Aşk elinden sürgün düşeyim,
2. Vatan bana düşman ola;
3. Senin bir anlık gülüşün
4. Ömürlük vatanım ola.

5. Çıkayım herkesin aklından,
6. Kimse kalmasın aklımda…
7. Ayrıca Tanrı katında
8. Aşk adlı kendi dinim ola.

9. Dert ilmekli nakışların,
10. Öpüşlerin, güzel sözlerin,
11. Ruhun, canın, bakışların
12. Sonsuza dek benim ola.

13. Yanayım ateşlerde,
14. Dinleneyim gül bağında.
15. Can bulayım kucağında,
16. Gömleğin kefenim ola.

***SƏN OLMASAN, BƏLKƏ DƏ MƏN ÖLMÜŞDÜM (332)***

*1. Yorulmuşdum... İncik idim hamıdan,*
*2. Dünya ilə bəhməzimi bölmüşdüm.*
*3. Səni mənlə görüşdürdü Yaradan,*
*4. Sən olmasan, bəlkə də mən ölmüşdüm.*

*5. İnanmazsan... yaralı bir küçüyün*
*6. Əllərimlə göz yaşını silmişdim...*
*7. Çəkilmirdi sinəmdəki dərd-düyün,*
*8. Sən olmasan, bəlkə də mən ölmüşdüm.*

*9. İnanmışdım daşüzlü adamlara,*
*10. Düşməni də dost olaraq bilmişdim.*
*11. Dağılırdım... Sığammırdım heç hara,*
*12. Sən olmasan, bəlkə də mən ölmüşdüm.*

*13. Ərköyünüm, alyazmalım, cezvəlim,*
*14. Xatırladım – mən ki dünən ölmüşdüm.*
*15. Günü bu gün, ağ çiçəyim, al gülüm,*

**SEN OLMASAN BELKİ DE BEN ÖLMÜŞTÜM**

1. Yorulmuştum… İncinmiştim herkesten,
2. Dünya ile bağımı koparmıştım.
3. Seni benle görüştürdü Yaradan,
4. Sen olmasan, belki de ben ölmüştüm.

5. İnanmazsın, yaralı bir köpeğin
6. Ellerimle gözyaşını silmiştim…
7. Çekilmiyordu sinemdeki dert düğüm,
8. Sen olmasan, belki de ben ölmüştüm.

9. İnanmıştım taş yüzlü adamlara,
10. Düşmanı da dost olarak bilmiştim.
11. Dağılıyordum, sığamıyordum hiçbir yere,
12. Sen olmasan, belki de ben ölmüştüm.

13. Şımarığım, alyazmalım, delim,
14. Hatırladım ben ki dün ölmüştüm.
15. Günü bu gün, ak çiçeğim, al gülüm,

*16. Sən olmasan, bəlkə də mən ölmüşdüm...*

16. Sen olmasan, belki de ben ölmüştüm.

### *NİYƏ QISQANIRAM SƏNİ, BILIRSƏN? (333)*

*1. Niyə qısqanıram səni, bilirsən?*
*2. – Könlünü görənlər vurular sənə.*
*3. Niyə qısqanmıram səni, bilirsən?*
*4. – Yüz il, min il keçə, milyon il keçə,*
*5. Yenə Rafiq Hümmət yar olar sənə.*

*6. Niyə qısqanıram səni, bilirsən?*
*7. – Səndə Afrodita cazibəsi var.*
*8. Niyə qısqanmıram səni, bilirsən?*
*9. – Eşqimi, sevgimi, dualarımı*
*10. Sənə əks etdirən göy qübbəsi var.*

*11. Niyə qısqanıram səni, bilirsən?*
*12. – Şeytanlar eşqi də çox görür mənə.*
*13. Niyə qısqanmıram səni, bilirsən?*
*14. – Adi gülüşünü, kiçik sancını*
*15. Mənlə bölüşürsən – ruh verir mənə.*

*16. Niyə qısqanıram səni, bilirsən?*
*17. – Mənim sevdiyimi sevən çox olur.*
*18. Niyə qısqanmıram səni, bilirsən?*
*19. – Mən qaynar Günəşəm, odum tükənməz,*
*20. Çevrəndə ulduzlar yanır, yox olur...*
*2015*

### NİYE KISKANIYORUM SENİ, BİLİYOR MUSUN?

1. Niye kıskanıyorum seni, biliyor musun?
2. Gönlünü görenler vuruluyor sana.
3. Niye kıskanmıyorum seni, biliyor musun?
4. Yüz yıl, bin yıl geçse, milyon yıl geçse,
5. Yine Rafig Hümmet yar olur sana.

6. Niye kıskanıyorum seni, biliyor musun?
7. Sende Afrodit cazibesi var.
8. Niye kıskanmıyorum seni, biliyor musun?
9. Aşkımı, sevgimi, dualarımı
10. Sana aksettiren gök kubbesi var.

11. Niye kıskanıyorum seni, biliyor musun?
12. Şeytanlar aşkı da çok görüyor bana.
13. Niye kıskanmıyorum seni, biliyor musun?
14. Basit gülüşünü, küçük sancını
15. Benle bölüşüyorsun, ruh veriyor bana.

16. Niye kıskanıyorum seni, biliyor musun?
17. Benim sevdiğimi seven çok oluyor.
18. Niye kıskanmıyorum seni, biliyor musun?
19. Ben kızgın güneşim, ateşim tükenmez,
20. Çevrende yıldızlar yanıyor, yok oluyor…

### *İNAN, TANRI SƏNİ ÖZÜ GÖNDƏRİB (334)*

*1. Gücüm ha qalmayıb uzaq durmağa,*
*2. Eşq mənə üzünü özü döndərib.*
*3. Səni qorumağa, ovundurmağa,*
*4. İnan, Tanrı məni özü göndərib.*

*5. Hər gün şeir yazır gözlərim göyə,*
*6. Göy mənə pay kimi sözü göndərib.*
*7. Bir az daha artıq yaşayım deyə,*
*8. İnan, Tanrı səni özü göndərib.*

*9. Gözlərin dolanda canım əriyir,*
*10. Kim bunca gözündən məntək qəm dərib?*

### İNAN, TANRI SENİ KENDİ GÖNDERMİŞ

1. Gücüm kalmamış uzak durmaya,
2. Aşk bana yüzünü döndürmüş.
3. Seni korumaya, avundurmaya,
4. İnan, Tanrı beni kendi göndermiş.

5. Her gün şiir yazıyor gözlerim göğe,
6. Gök bana hediye gibi sözü göndermiş.
7. Biraz daha yaşayayım diye,
8. İnan, Tanrı seni kendi göndermiş.

9. Gözlerin dolduğunda canım eriyor,
10. Kim gözünden benim kadar dert siler?

*11. Ruhum sənə doğru uçur, yeriyir,*
*12. İnan, Tanrı məni özü göndərib.*

*13. Sinəmdə, belimdə qılınc izi çox,*
*14. Qan daman ağrımı dərən kəm dərib.*
*15. Vallahi-billahi, iblis özü yox,*
*16. İnan, Tanrı səni özü göndərib.*

*17. İnan, Tanrı məni özü göndərib,*
*18. İnan, Tanrı səni özü göndərib...*
*2015*

11. Ruhum sana doğru uçuyor, yürüyor,
12. İnan, Tanrı beni kendi göndermiş.

13. Sinemde, belimde kılıç izi çok,
14. Kan damlayan yaramı deşen fena deşti.
15. Vallahi billahi, iblisin kendi değil,
16. İnan, Tanrı seni kendi göndermiş.

17. İnan, Tanrı beni kendi göndermiş.
18. İnan, Tanrı seni kendi göndermiş.

## *QIZDIRMALI ŞEİR (335)*

*1. Ahımdan ağ üfüq ucalır göyə,*
*2. Canım sızıldayır... ruhumsa yalqız.*
*3. Sən elə bilirsən, ağrıdım deyə,*
*4. Səni unutdummu, a cezvəli qız?*

*5. Mən bir az ağrıya aşiq adamam,*
*6. Hərdən ruhum yanır... canım kəsir buz.*
*7. Nə olsun, özümü unutdum tamam,*
*8. Səni unutdummu, a cezvəli qız?*

*9. Mənim günəşimsən, mənim ayımsan,*
*10. Nə olsun, üstümə çox qonur ulduz.*
*11. Mən səni sevəndən gün nədi... bir an*
*12. Səni unutdummu, a cezvəli qız?*

*13. Mərdcə dayanıram min dərd önündə,*
*14. Dostlarım susqundur, düşmənim quduz.*
*15. Ən ağır günümdə, ən dar günümdə*
*16. Səni unutdummu, a cezvəli qız?*

*17. Bu eşq Tanrıdandır: bu barat, bu qol...*
*18. Gözümün, könlümün tək əzbəri qız...*
*19. Min yol həsrətindən öldüm... bircə yol*
*20. Səni unutdummu, a cezvəli qız?*
*2015*

## HARARETLİ ŞİİR

1. Ahımdan ak ufuk yüceliyor göğe,
2. Canım sızlıyor… Ruhumsa yalnız.
3. Sen öyle sanıyorsun, canım acıdı diye
4. Seni unuttun mu, a deli kız?

5. Ben biraz derde âşık insanım,
6. Bazen ruhum yanıyor. Canım kesiliyor buz.
7. Ne olsun, kendimi unuttum tamamen,
8. Seni unuttum mu, a deli kız?

9. Benim güneşimsin, benim ayımsın,
10. Ne olsun, üstüme çok konuyor yıldız.
11. Ben seni sevdiğimde gün neydi… Bir an
12. Seni unuttum mu, a deli kız?

13. Mertçe duruyorum bin dert önünde,
14. Dostlarım suskun, düşmanım kuduz.
15. En zor günümde, en dar günümde
16. Seni unuttum mu, a deli kız?

17. Bu aşk Tanrı'dandır: Bu mühür, bu imza…
18. Gözümün, gönlümün tek ezberi kız…
19. Bin defa hasretinden öldüm… Bir defa
20. Seni unuttum mu, a deli kız?

## *BU DA KEÇƏR-GEDƏR (336)*

*1. Dolur xatirəmə unutduqlarım,*
*2. İlahi, çevirmə naqqala məni.*
*3. Əlim kasadlaşdı... əl tutduqlarım*
*4. Yüyürüb dəyişdi baqqala məni.*

## BU DA GELİR GEÇER

1. Geliyor hatrıma unuttuklarım,
2. İlahi, döndürme boşboğaza beni.
3. Elim daraldı diye, el tuttuklarım
4. Gittiler, değiştiler bakkala beni.

*5. Hər yerdə izləri izim ötüb hey,*
*6. Dilim lal olsa da, gözüm ötüb hey.*
*7. Tanrım, saqqalsız da sözüm ötüb hey,*
*8. Döndərmə bir yüngülsaqqala məni.*

*9. Giley etmirəm ki – nə işdir, Allah?!*
*10. Yaşamaq ən çətin döyüşdür, Allah.*
*11. Qurdam, qurdlar ilə döyüşdür, Allah,*
*12. Tuş etmə tülküyə, çaqqala məni.*

*13. ...Bu da keçər-gedər... qəm etmə, gülüm,*
*14. Bu ara sevgini kəm etmə, gülüm.*
*15. Bezdinsə, özgəyə yem etmə, gülüm,*
*16. Vur, yeddi yerimdən şaqqala məni!..*
*2015*

5. Her yerde izlerim kalmış hey,
6. Dilim lal olsa da gözüm görüyor hey,
7. Tanrım sakalsız da sözüm geçiyor hey,
8. Döndürme bir itibarsıza beni.

9. Şikâyet etmiyorum ki ne iştir, Allah?
10. Yaşamak en çetin dövüştür, Allah.
11. Kurdum, kurtlar ile dövüştür, Allah,
12. Denk getirme tilkiye, çakala beni.

13. Bu da gelir geçer… Gam çekme, gülüm,
14. Bu ara sevgini eksik etme, gülüm.
15. Bezdiysen, başkasına yem etme, gülüm,
16. Vur, yedi yerimden parçala beni!..

### *DƏLİ KİMİ (337)*

*1. Qədərdimi, hədərdimi? Bilmirəm,*
*2. Sevdiyimi dəli kimi sevirəm.*
*3. Dəli martın can qızdıran şüası,*
*4. Avqustun ağ yeli kimi sevirəm.*

*5. Bu eşq sısqa qalaları uçurdu,*
*6. Topdağıtmaz saray tikdi, bürc qurdu.*
*7. İndi onu ürəyimin tək yurdu,*
*8. Tək obası-eli kimi sevirəm.*

*9. Bu sevdada çatlasa da ürəyim,*
*10. Boğazımda tıxansa da çörəyim,*
*11. O günahsız, o günahkar mələyi*
*12. Eşq sultanı Əli kimi sevirəm.*
*2015*

### DELİ GİBİ

1. Kader mi, heder mi? Bilmiyorum,
2. Sevdiğimi deli gibi seviyorum.
3. Deli martın ısıtan ışığı,
4. Ağustosun ak yeli gibi seviyorum.

5. Bu aşk sıska kaleleri uçurdu,
6. Yıkılmaz saray dikti, burç kurdu.
7. Şimdi onu yüreğimin tek yurdu,
8. Tek obası gibi seviyorum.

9. Bu sevdadan çatlasa da yüreğim,
10. Boğazıma tıkansa da ekmeğim,
11. O günahsız, o günahkâr meleği
12. Aşk sultanı Ali gibi seviyorum.

### *MƏN SƏNİ BELƏCƏ SEVDİM (338)*

*1. Mən səni beləcə sevdim:*
*2. Öz bürcüm, qalam kimi;*
*3. Ananı öz anam kimi,*
*4. Balanı balam kimi.*

*5. Sevdim,*
*6. Sevdim,*
*7. Sevdim səni –*
*8. Zülmət, şam sevən kimi;*

### BEN SENİ BÖYLE SEVDİM

1. Ben seni böyle sevdim:
2. Kendi burcum, kalem gibi;
3. Ananı öz anam gibi,
4. Yavrunu yavrum gibi.

5. Sevdim
6. Sevdim
7. Sevdim seni
8. Zulüm, ateş sever gibi;

*9. Gözlə qaş arasındakı*
*10. Ölüm, can sevən kimi.*

*11. Sevdim səni...*
*12. Sənin eşqin*
*13. Yaradandan mirasdı.*
*14. Niyə getdin?*
*15. Bu şəhəri*
*16. Göz yaşımdan sel basdı...*

*17. Tezcə qayıt... Qoyma məni*
*18. Tənhalıq çəkib yeyə;*
*19. Tanrıya yalvarıram –*
*20. Sənsiz ölməyim deyə...*
*2015*

***MƏNİ ÖZLƏYƏN VAR... SƏNMİ ÖZLƏDIN? (339)***

*1. Yatsam, unuduram və... sökülür dan,*
*2. Gözümü açantək sənlə doluram.*
*3. Sən də səhər ayılanda yuxudan,*
*4. İlk ağlına gələn mənmi oluram?*

*5. Yol getsəm, rastıma çıxan qadınlar*
*6. Nədənsə hamısı sənə bənzəyir.*
*7. Sənin də rastına çıxır adamlar,*
*8. Söylə, o adamlar mənə bənzəyir?*

*9. İncisəm hamıdan, küssəm dünyadan,*
*10. Adi xəyalın da dincəldər məni.*
*11. Söylə, mənim bir cüt qolum olmadan,*
*12. Kimsə zərifləadər, incəldər səni?*

*13. Hər udum çayımda sənin dadın var,*
*14. Hər baxdığım yerdə – qəmli gözlərin.*
*15. Bu gün tez-tez sönür əlimdə siqar –*
*16. Məni özləyən var... Sənmi özlədin?*

*17. ...Düzdür, yan göz ilə baxmazdım, amma,*
*18. Mənim olmasan da, səni sevərdim.*
*19. Sən Allah, doğru de, gizləmə, danma: –*
*20. Mən şair olmasam, məni sevərdin?..*
*2015*

***O MƏNƏ BAXDI, MƏN AYA (340)***

9. Gözle kaş arasındaki
10. Ölüm, can sever gibi.

11. Sevdim seni…
12. Senin aşkın
13. Yaradan'dan mirastı.
14. Niye gittin?
15. Bu şehri
16. Gözyaşımdan sel aldı…

17. Tez dön… Bırakma beni
18. Yalnızlık çekip;
19. Tanrı'ya yalvarıyorum
20. Sensiz ölmeyeyim diye…

**BENİ ÖZLEYEN VAR… SEN Mİ ÖZLEDİN?**

1. Yatsam, unutuyorum ve… sökülüyor tan,
2. Gözümü açana dek senle doluyorum.
3. Sen de sabah uyanınca uykundan,
4. İlk aklına gelen ben mi oluyorum?

5. Yola çıksam, rastlıyorum kadınlara
6. Nedense hepsi sana benziyor.
7. Sen de rastlıyorsun erkeklere,
8. Söyle, o erkekler bana mı benziyor?

9. İncinsem herkesten, küssem dünyadan,
10. Hayalin avundurur beni.
11. Söyle benim bir çift elim olmadan,
12. Kim yumuşatır, inceltir seni?

13. Her yudum çayımda senin tadın var,
14. Her baktığım yerde gamlı gözlerin.
15. Bugün çabucak sönüyor elimde sigara
16. Beni özleyen var… Sen mi özledin?

17. Doğrudur, yan göz ile bakmazdım ama,
18. Benim olmasan da, seni severdim.
19. Sen Allah, doğruyu de, gizleme, saklama:
20. Ben şair olmasam da beni sever miydin?

**O BANA BAKTI, BEN AYA**

*1. Sevgi də dostlar kimidir,*
*2. Gərək ola tən... neyniyim?*
*3. O qadının göz yaşını*
*4. Tutmaz bir vətən... neyniyim?*

*5. Gəlib, yel kimi uçunur,*
*6. Önümə sərir saçını.*
*7. İllər öncənin suçunu*
*8. O, eşq sanır... mən neyniyim?*

*9. Yüz olsa da can həkimi,*
*10. Bir olur ruhun hakimi.*
*11. Artır hüceyrələr kimi*
*12. Saçlarımda dən...neyniyim?*

*13. Dözdüm çox şeyin kəminə,*
*14. Əhd qoydum bir eşq himinə.*
*15. Məni salıb tilsiminə*
*16. Bir can, bir bədən... neyniyim?*

*17. ...Gəldi...O – gül, mən – daş-qaya,*
*18. O mənə baxdı, mən Aya.*
*19. Allah, ulaya-ulaya,*
*20. Odur o gedən... neyniyim?..*
*2016*

1. Sevgi de dostlar gibidir,
2. Bana eş lazım.. Neyleyim?
3. O kadının gözyaşını
4. Tutmaz bir vatan… Neyleyim?

5. Gelmiş, yel gibi titriyor,
6. Önüme seriyor saçını.
7. Yıllar öncenin suçunu
8. O, aşk sanıyor… Ben neyleyim?

9. Yüz tane olsa da can hekimi,
10. Bir tane olur ruhun hâkimi.
11. Artıyor hücreler gibi
12. Saçlarımda ak… Neyleyim?

13. Dayandım çok şeyin derdine,
14. Ahdettim bir aşkın bakışına.
15. Beni salmış tılsımına
16. Bir can, bir beden… Neyleyim?

17. Geldi… O gül, ben taş kaya,
18. O bana baktı, ben aya.
19. Allah, uluya uluya,
20. Odur o giden… Neyleyim?

### *BİR İL, ON İL, YÜZ İL SONRA (341)*

*1. Heç kimə də heç nə demə,*
*2. Lallar köçündə yaşa.*
*3. Çölündə yer qoymadılar,*
*4. Domuş, içində yaşa.*

*5. Qanqallar yaman çoxalıb,*
*6. Tez solur sevgi gülü.*
*7. Hamı it-qurd dili bilir,*
*8. Sənsə tək sevgi dili.*

*9. Qəti özünü sındırma,*
*10. Üzmə özünü bunca.*
*11. Hələ vaxt var – düşün, ah çək,*
*12. Və köks ötür doyunca.*

*13. Bir il, on il, yüz il sonra*

### BİR YIL, ON YIL, YÜZ YIL SONRA…

1. Hiç kimseye hiçbir şey deme,
2. Lallar göçünde yaşa.
3. Çölünde yer bırakmadılar,
4. Çömel, içinde yaşa.

5. Dikenler fena çoğalmış,
6. Tez soluyor sevgi gülü.
7. Hepsi it, kurt dili biliyor,
8. Sense tek sevgi dili.

9. Sakın kendini kırdırma,
10. Üzme kendini bunca.
11. Hâla vakit var, düşün, ah çek,
12. Ve iç çek fazlasıyla.

13. Bir yıl, on yıl, yüz yıl sonra

*14. Kim qalacaq dünyada?*
*15. Söykən uca bir sevgiyə*
*16. Sən bu alçaq dünyada!*

*17. Nə olsun ki, aldadan çox,*
*18. Yalanlar səni yıxır.*
*19. Ayağa dur, mağmın adam,*
*20. Tanrın dördgözlə baxır.*

*21. Vallah-billah, gün gələcək –*
*22. Hər ehtiras sönəcək.*
*23. Bu gördüyün halqa dünya*
*24. Barmağınla dönəcək.*

*25. Nə boyuna vurulublar,*
*26. Nə də qələm qaşına –*
*27. Şükür eylə, doğmaların*
*28. Dolanırlar başına.*

*29. ...Get xına qoy əllərinə,*
*30. Ay inciyən, küsəyən.*
*31. Bəlkə ölür səndən ötrü*
*32. Sənsiz qalmaq istəyən?..*
*2015*

14. Kim kalacak dünyada?
15. Yaslan yüce bir sevgiye
16. Sen bu alçak dünyada!

17. Ne olsun ki, aldatan çok,
18. Yalanlar seni yıkıyor.
19. Ayağa kalk, aldatılmış insan.
20. Tanrı'n dört gözle bakıyor.

21. Vallahi billahi, gün gelecek
22. Her ihtiras sönecek.
23. Bu gördüğün halka dünya
24. Parmağınla dönecek.

25. Ne boyuna vurulmuşlar,
26. Ne de kalem kaşına
27. Şükür et, çocukların
28. Dolanıyorlar başına.

29. Git kına yak ellerine,
30. Ey inciyen, küsen,
31. Belki ölüyor senin yüzünden
32. Sensiz kalmak isteyen?

### *MƏN DƏLİYƏM (342)*

*1. Mən dəliyəm... qısqanıram dəlitək,*
*2. Bəs neyniyim – sən hamıdan gözəlsən.*
*3. Kədərlənsən, ruhum sönür ölütək,*
*4. Mənim üçün Tanrı qədər əzəlsən.*

*5. Mən dəliyəm... elə-belə dəli yox,*
*6. Ağıllansam, vallah, mənə gəlməzsən.*
*7. Zərrəbinlə istər yüz il mənə bax –*
*8. Eşqdən özgə bir şey görə bilməzsən.*

*9. Mən dəliyəm... nar odunda yanıram,*
*10. Sən – cənnətin sərin əsən küləyi.*
*11. Yer üzündə tək sən varsan, mən varam,*
*12. Bu dünyanın bəyaz üzlü mələyi...*

### BEN DELİYİM

1. Ben deliyim… Kıskanıyorum deli gibi,
2. Yeter neyleyim sen hepsinden güzelsin.
3. Kederlensen ruhum sönüyor ölü gibi,
4. Benim için Tanrı kadar ezelsin.

5. Ben deliyim, öyle böyle deli değil,
6. Akıllansam, vallahi, bana gelmezsin.
7. Mikroskopla istersen bana yüz yıl bak
8. Aşktan başka bir şey göremezsin.

9. Ben deliyim… Nar odunda yanıyorum,
10. Sen cennetin serin esen rüzgarı.
11. Yeryüzünde tek sen varsın, ben varım,
12. Bu dünyanın beyaz yüzlü meleği…

### *SIX QOYNUNA BALAN KİMİ (343)*

*1. Salam, gülüm. Günün gülsün,*

### BAS KOYNUNA YAVRUN GİBİ…

1. Selam, gülüm. Güneşin gülsün,

*2. Xeyir olsun sabahların.*
*3. Axar sulara qarışsın*
*4. Dərdin, azarın, ahların.*

*5. Keçib-gəldim neçə səddən,*
*6. Sənindir bu ruh, bu bədən.*
*7. Sən mənimsən... qoy həsəddən*
*8. Canı çıxsın padşahların.*

*9. Sən mənim öz qalam kimi,*
*10. Cüt balan cüt balam kimi.*
*11. Sıx qoynuna balan kimi,*
*12. Sən bu suçsuz günahkarı...*

*2015*

***DƏLI SEVGİLƏRİN ÖMRÜ ÇOX OLAR (344)***

*1. Hərdən qınayıram bir anlıq səni,*
*2. Hərdən özümü də qınayıram çox –*
*3. Nə qədər gözəllik çağırır məni,*
*4. Nəfsimi zorlayıb sınayıram çox!..*

*5. Hərdən qınayıram və... ayılıram –*
*6. Sən axı lütfüsən Allahın mənə.*
*7. Gözündə yaş görsəm, mən bayılaram,*
*8. Min günah yazdırar hər ahın mənə.*

*9. Heç mən qıyarammı mənim ucumdan*
*10. Köksünü ötürüb sən ah çəkəsən.*
*11. Sonra da gecələr sökülüncə dan,*
*12. İçində ah-ufla günah çəkəsən...*

*13. Köhnə dərdlərimi bir-bir pozuram,*
*14. Məndə yaşayırsan – sən elə mənsən.*
*15. Səni oxuyuram, səni yazıram –*
*16. Dünyanın ən gözəl şeiri sənsən.*

*17. Sən necə gözəlsən – bəd göz yan olsun,*
*18. Hərdən çox qorxuram – bəlkə məhşərsən!?*
*19. Allaha and olsun, dinə and olsun,*
*20. Mən səni sevməsəm çirkinləşərsən.*

*21. Hamıya ağıllı, sənə dəliyəm,*
*22. Dəli sevgilərin ömrü çox olar.*

2. Hayır olsun sabahların.
3. Akarsulara karışsın
4. Derdin, tasan, ahların.

5. Geçip geldim ne kadar engelden,
6. Senindir bu ruh, bu beden.
7. Sen benimsin… Bırak hasetten
8. Canı çıksın padişahların.

9. Sen benim kendi kalem gibi,
10. İki yavrun, iki yavrum gibi,
11. Bas koynuna yavrun gibi,
12. Sen bu suçsuz günahkârı.

**DELİ SEVGİLERİN ÖMRÜ UZUN OLUR**

1. Bazen kınıyorum bir an seni,
2. Bazen kendimi de kınıyorum çok
3. Ne kadar güzellik çağırıyor beni,
4. Nefsimi zorlayıp sınıyorum çok!..

5. Bazen kınıyorum ve ayılıyorum
6. Sen lütfüsun Allah'ın bana.
7. Gözünde yaş görsem, ben bayılırım,
8. Bin günah yazıdırır her ahın bana.

9. Hiç ben kıyabilir miyim benim yüzümden
10. İçini çekip ah çekmene
11. Sonra geceleri sökünce tan,
12. İçinde ahla vahla günah çekmene…

13. Eski dertlerimi bir bir bozuyorum,
14. Bende yaşıyorsun sen sanki bensin.
15. Seni okuyorum, seni yazıyorum
16. Dünyanın en güzel şiiri sensin.

17. Sen nasıl güzelsin, kötü göz defolsun,
18. Bazen çok korkuyorum, belki mahşersin!?
19. Allah'a and olsun, dine and olsun,
20. Ben seni sevmesem çirkinleşirsin.

21. Herkese akıllı, sana deliyim,
22. Deli sevgilerin ömrü uzun olur.

*23. Sən də dəli... dəli qızlar dəlitək*
*24. Sevilməsə, günsüz gültək tez solar.*

*25. Şahınam... sevginlə qul eylə məni,*
*26. Mən kəniz bilmirəm, kölə bilmirəm.*
*27. Bəlkə də min ildi sevirəm səni,*
*28. Niyə sevdiyimi hələ bilmirəm...*
*2015*

***MƏN – YERƏM, SƏN – GÜNƏŞ (345)***

*1. Mən öz ətrafımda dönürəm hələ,*
*2. Sənin ətrafında dönürəm... nə qəm?*
*3. On il, yüz il, min il, milyon il belə*
*4. Mən sənin başına hərlənəcəyəm.*

*5. Mən – Yerəm, sən – Günəş... sənin çevrənə,*
*6. Tək mən yox, yüzlərlə ulduz dolanar.*
*7. Qısqansam, Tanrıdan səs gəlir mənə:*
*8. – Şair, Yerdən başqa harda həyat var!?*

*9. Nə olsun, çox ulduz mənsiz ağlayır...*
*10. Sənin orbitindən çıxa bilmirəm.*
*11. İşığın gözümü elə bağlayıb –*
*12. Heç kimə, heç yana baxa bilmirəm.*
*2015*

***SƏNİ ALLAH UNUTDURMAQ İSTƏMİR (346)***

*1. Gecə keçdi. Şükür, quşlar oxudu,*
*2. Səhərədək səssizliyi dinlədim.*
*3. Biləndə ki sənli günlər yuxudu,*
*4. Nitqi batmış iflic kimi inlədim.*

*5. Gecə keçdi... düşmən kimdi, dost kimdi...*
*6. Dünya çoxdan alçaqların bağıdır.*
*7. Şairlər də elə tiran kimidi,*
*8. Özgəni yox, öz içini dağıdır.*

*9. Nəğmə çoxdu, amma birdi nəqərat,*
*10. Az ha deyil yaşamanın nədəni.*
*11. Səhərədək yandı-söndü siqaret,*
*12. Zülüm çəkdi külqabının bədəni.*

*13. Gecə keçdi. Günəş qondu torpağa,*

23. Sen de deli… Deli kızlar deli gibi
24. Sevilmese, güneşsiz gül gibi solarlar.

25. Şahınım… Sevginle kul eyle beni,
26. Ben cariye bilmiyorum, köle bilmiyorum.
27. Belki de bin yıldır seviyorum seni,
28. Niye sevdiğimi hâlâ bilmiyorum…

**BEN YERİM, SEN GÜNEŞ**

1. Ben kendi etrafımda dönüyorum hâlâ
2. Senin etrafında dönüyorum… Ne gam?
3. On yıl, yüz yıl, bin yıl, milyon yıl böyle
4. Ben senin başının etrafında döneceğim.

5. Ben yerim, sen güneş… Senin etrafında,
6. Tek ben değil, yüzlerce yıldız dolanır.
7. Kıskansam seni Tanrı’dan ses geliyor bana:
8. Şair, yerden başka nerede hayat var.

9. Ne olsun, çok yıldız bensiz ağlıyor…
10. Senin yörüngenden çıkamıyorum.
11. Işığın gözümü öyle bir bağlamış
12. Hiç kimseye, hiçbir tarafa bakamıyorum.

**SENİ ALLAH UNUTTURMAK İSTEMİYOR**

1. Gece geçti. Şükür, kuşlar öttü,
2. Sabaha kadar sessizliği dinledim.
3. Farkettim ki senli günler uykuymuş,
4. Nutku tutulmuş şeytan gibi inledim.

5. Gece geçti… Düşman kimdi, dost kimdi…
6. Dünya çoktan alçakların bağıdır.
7. Şairler de öyle tiran gibidir,
8. Başkasını değil, kendi içini dağıtıyor.

9. Türkü çoktur ama birdir nakarat,
10. Az değil yaşamanın nedeni.
11. Sabaha dek yandı söndü sigara,
12. Zulüm çekti kül tablanın bedeni.

13. Gece geçti. Güneş kondu toprağa,

*14. Yer-göy içi yüz min rəngə boyandı.*
*15. Füzulilər gecə çıxdı "yaylağa",*
*16. Bəndələrlə yatan dərdlər oyandı.*

*17. Gecə keçdi... ömür qısa, yol uzun,*
*18. Yatmırıqsa, yaşayırıq gecələr.*
*19. Sual çoxdu... hər tələdə bir arzun,*
*20. Üstəgəl də bu "niyələr", "necələr".*

*21. ...Səndən küsüb, ya da səni küsdürüb,*
*22. Bircə çimir xoş yatmağım çətindir.*
*23. Səni Allah unutdurmaq istəmir,*
*24. Özümün də unutmağım çətindir.*
*2016*

14. Yer, gök yüz bin renge boyandı.
15. Fuzuliler gece çıktı yaylağa,
16. İnsanlarda uyuyan dert uyandı.

17. Gece geçti… Ömür kısa, yol uzun,
18. Yatmıyorsak, yaşıyoruz geceleri.
19. Sual çoktur… Her kapanda bir arzun,
20. Üstesinden gel de bu niyeler, nasıllar.

21. Sana küsmüş ya da seni küstürmüş,
22. Bir an rahat yatmam zordur.
23. Seni Allah unutturmak istemiyor,
24. Benim de unutmam zordur.

## *AYÜZLÜM (347)*

*1. Bu nəğməni oxuyacaq aşiqlər,*
*2. Hər gecəmin sabahısan, ayüzlüm!*
*3. Ürəyimin son istəyi, son eşqi,*
*4. Sən sinəmin son ahısan, ayüzlüm!*

*5. Üzrlü say, səni haqsız qınadım,*
*6. Sədaqətdir son möhürün, son adın.*
*7. Sən ən böyük yaxşılığın, savabın*
*8. Vazkeçiməz günahısan, ayüzlüm!*

*9. Tanrı özü mənə verib bu payı,*
*10. Sən könlümün son sirdaşı, son tayı.*
*11. Duyursanmı canımdakı harayı? –*
*12. Sən bu canın ağ ruhusan, ayüzlüm!*

*13. Elə sevdim... Tanrı məni məhv etməz,*
*14. Belə eşqə xəyanəti əfv etməz,*
*15. Bu sevgiyə əl uzanmaz, ün yetməz,*
*16. Son sevginin son şahısan, ayüzlüm!*

*17. İnsan varsa, zaman-zaman ağrı var,*
*18. Xeyli vaxtdır həmdəmindir ağrılar.*
*19. Bir pak dua yüz ağrını uğurlar,*
*20. Sən uğurlar ilahısan, ayüzlüm!*
*2016*

## AY YÜZLÜM

1. Bu şarkıyı okuyacak âşıklar,
2. Her gecemin sabahısın, ay yüzlüm!
3. Yüreğimin son isteği, son aşkı,
4. Sen sinemin son ahısın, ay yüzlüm!

5. Özrümü kabul et, seni haksız yere kınadım,
6. Sadakâttir son mührün, son adın.
7. Sen en büyük güzelliğin, sevabın
8. Vazgeçilmez günahısın, ay yüzlüm!

9. Tanrı kendisi bana vermiş bu hediyeyi,
10. Sen gönlümün son sırdaşı, son dengi.
11. Duyuyor musun canımdaki feryadı?
12. Sen bu canın ak ruhusun, ay yüzlüm!

13. Öyle sevdim… Tanrı beni mahvetmez,
14. Böyle aşka ihaneti affetmez,
15. Bu sevgiye el uzanmaz, ses yetmez,
16. Son sevginin son şahısın, ay yüzlüm!

17. İnsan varsa, zaman zaman acı var,
18. Hayli vakittir seninledir acılar.
19. Bir pak dua, yüz acını uğurlar,
20. Sen uğurlar ilahısın, ay yüzlüm!

## *SEVDİRMƏ ÖZÜNÜ (348)*

*1. Bir könül çaldınsa, sahibi ol sən,*

## SEVDİRME KENDİNİ

1. Bir gönül çaldıysan, sahibi ol sen,

*2. Sevsə, qul olacaq o könül sənə.*
*3. Səhv eylə, suç işlə... tövbə edərsən,*
*4. Amma ah çəkdirmə səni sevənə.*

2. Sevse, kul olacak o gönül sana.
3. Yanlış yap, suç işle… Tövbe edersin.
4. Ama ah çektirme seni sevene.

*5. Amma ah çəkdirmə səni sevənə,*
*6. Sevdirmə özünü sevmədiyinə,*
*7. Qaşını-gözünü sevmədiyinə,*
*8. Gapını-sözünü sevmədiyinə*
*9. Sevdirmə özünü, sevdirmə, adam.*

5. Ama ah çektirme seni sevene,
6. Sevdirme kendini sevmediğine,
7. Kaşını gözünü sevmediğine,
8. Lafını sözünü sevmediğine
9. Sevdirme kendini, sevdirme, insan.

*10. Yanlışmı eylədin, suçmu işlədin,*
*11. Hikkəni səyirdib, ağlama zar-zar.*
*12. Ömürlük ah çəkmək istəmirsənsə,*
*13. Yanlışda etiraf, suçda tövbə var.*

10. Yanlış mı yaptın, suç mu işledin,
11. Hiddetlenip ağlama zır zır.
12. Ömürlük ah çekmek istemiyorsan,
13. Yanlışta itiraf, suçta tövbe var.

*14. Sakini olduğun könlü dağıtma,*
*15. Hücrən viran olar, hovuzun al qan.*
*16. Nə təzdən qurarsan könül evini,*
*17. Nə çıxa bilərsən xarabalıqdan...*

14. Sakini olduğun gönlü dağıtma,
15. Evin viran olur, havuzun al kan.
16. Ne yeniden kurabilirsin gönül evini,
17. Ne çıkabilirsin harabelikten…

### *YA SƏN YABANÇISAN, YA DA BU DÜNYA (349)*

### YA SEN YABANCISIN, YA DA BU DÜNYA

*1. Elə də, belə də – hamısı birdir,*
*2. Ya sən yabançısan, ya da bu dünya.*
*3. Beləmi olmalı, yoxsa bir sirdir –*
*4. Getdikcə əyilir yada bu dünya.*

1. Öyle de böyle de hepsi birdir,
2. Ya sen yabancısın, ya da bu dünya.
3. Böyle mi olmalı, yoksa bir sır mı
4. Gittikçe eğiliyor düşmana bu dünya.

*5. Lələnin yerində yüz keşiş durur,*
*6. Kül olsun başına – Kərəmdir, yanır.*
*7. Gedən də, gələn də Əslini sorur,*
*8. Sultan sarayında Hürrəmdir, yanır.*

5. Hükümdarın yerinde yüz keşiş duruyor,
6. Kül olsun başına Kerem'dir yanıyor.
7. Giden de gelen de Aslı'yı soruyor,
8. Sultan sarayında Hürrem'dir, yanıyor.

*9. Nə umaq-küsək belə dünyadan,*
*10. Vur-tut beş arşındır qoynu-qucağı.*
*11. Evinə od düşər, yanar, ay adam,*
*12. Niyə söndürüsən yanan ocağı?!*

9. Ne umalım bekleyelim böyle dünyadan,
10. Altı üstü beş arşındır boyu bucağı.
11. Evine od düşer, yanar, ey insan,
12. Niye söndürüyorsun yanan ocağı?!

*13. Tanrının qisası çox ağır olur,*
*14. Zülümdü bəndənin ahını almaq.*
*15. Can çəkən bədənlər çox fağır olur,*
*16. Çalış can çəkənin ahını alma.*

13. Tanrı'nın kıssası çok ağır oluyor,
14. Zulümdür insanın ahını almak.
15. Hassas bedenler çok fakir oluyor,
16. Çabala hassas insanların ahını alma.

*17. Rafiq eşqin özü – kinsiz, kifirsiz,*

17. Rafig, aşkın özü kinsiz, küfürsüz,

*18. Nə göydən inciyir, nə yerdən küsür.*
*19. Yəqin bu düsturu siz də bilirsiz:*
*20. Tanrı öz şərtini son sirdə kəsir.*

*21. Əlimi qoynuma qoya bilərəm,*
*22. Bu bənd bu şeirimdə sonuncu bənddir.*
*23. Tanrı dəftərinə baxıb gülürəm:*
*24. Bu – mənim getdiyim sonuncu kənddir...*

18. Ne gökten inciniyor, ne yerden küsüyor.
19. Şüphesiz bu düsturu siz de biliyorsunuz:
20. Tanrı hiçbir sırrı gizli bırakmıyor.

21. Elimi koynuma koyabilirim,
22. Bu bent bu şiirimde sonuncu benttir.
23. Tanrı defterine bakıp gülüyorum:
24. Bu benim gittiğim sonuncu köydür.

### *ÖZLƏM (350)*

*1. Aylar ilə döndü, il uçub getdi,*
*2. Dərdə sığal çəkdim, söz əzizlədim.*
*3. Hamı nifrətini ört-basdır etdi,*
*4. Mən isə sevgimi dandım, gizlədim.*

*5. Həsrət məzhəbində, sevgi dinində,*
*6. Sükut şahlığında, qəm sürgünündə,*
*7. Durdum saatlarla ayna önündə,*
*8. Bildim bu gün gəlmir... yenə gözlədim.*

*9. Ən adi sualdan çaşdım, karıxdım,*
*10. Səsdən anlamadım, baxdım, duruxdum.*
*11. Ay Allah, hoy elə, vallah, darıxdım,*
*12. Vallah, billah, onu zulum özlədim...*

*2014*

### ÖZLEM

1. Aylar yıla döndü, yıl uçup gitti,
2. Derdi cilaladım, söze döktüm.
3. Herkes nefretini ört bas etti,
4. Ben ise sevgimi inkâr ettim, gizledim.

5. Hasret mezhebinde, sevgi dininde
6. Sükut şahlığında, gam sürgününde,
7. Durdum saatlerce pencere önünde,
8. Bildim bu gün gelmiyor... Yine bekledim.

9. En basit sualde şaşırdım, bocaladım,
10. Sesten anlamadım, baktım durakladım.
11. Ey Allah, yardım et, vallahi, sıkıldım,
12. Vallahi billahi onu çok özledim...

### *İNTİZAR (351)*

*1. Birdən elə olur ki,*
*2. Açılmır dərdin donu,*
*3. Dünya səni gözləyir,*
*4. Sənsə anbaan onu.*

*5. Gündüz-gecə seçilmir,*
*6. Gecə gündüzə dönür,*
*7. Qurduğun uca saray*
*8. Dağılır, düzə dönür.*

*9. Heç nəyin fərqi qalmır –*
*10. Kim ağlayır, kim gülür...*
*11. Dərdini tək bir bəndə,*
*12. Bircə də Allah bilir.*

*13. Allah da uzaqlaşır,*

### İNTİZAR

1. Birden öyle olur ki,
2. Çözülmüyor dert.
3. Dünya seni bekliyor,
4. Sense anbean onu.

5. Gündüz geceden ayrılmıyor
6. Gece gündüze dönüyor,
7. Kurduğun yüce saray
8. Dağılıyor, düzlüğe dönüyor.

9. Hiçbir şeyin farkı kalmıyor
10. Kim ağlıyor, kim gülüyor…
11. Derdini tek bir insan
12. Bir de Allah biliyor.

13. Allah da uzaklaşıyor,

*14. Uçur, çəkilir göyə,*
*15. Şeytana yalvarırsan,*
*16. Rədd olub getsin deyə.*

*17. Səni qanmır dünyanın*
*18. Terapevti, həkimi,*
*19. Ağlayırsan məscidə*
*20. Atılmış körpə kimi.*

*21. ...Qəfildən oyanırsan,*
*22. Qədim bir Eşq "gəl" deyir,*
*23. Allah – ustadın kimi –*
*24. Üzünə gülümsəyir...*

## *SEVİNƏ BİLMİRƏM, O QIZ XƏSTƏDİR (352)*

*1. Gah yağmur çiləyir, gah Günəş gülür,*
*2. Həyətdə gül-çiçək dəstə-dəstədir.*
*3. Nə olsun, üstümə şad xəbər gəlir, –*
*4. Sevinə bilmirəm – o qız xəstədir.*

*5. Qonşunun körpəsi minir çiynimə,*
*6. Özünü min yolla mənə istədir.*
*7. ...Ağ köynək nə gözəl oldu əynimə,*
*8. Sevinə bilmirəm – o qız xəstədir.*

*9. Tezdən dəli qonşum şən güldü mənə,*
*10. Yalvarıb siqaret, kibrit istədi.*
*11. Ən əziz dostumdan zəng gəldi mənə,*
*12. Sevinə bilmirəm – o qız xəstədir.*

*13. İllərdir anama dua edirəm,*
*14. Görməyən gözləri hey yol üstədir.*
*15. Bu axşam yenə də kəndə gedirəm,*
*16. Sevinə bilmirəm – o qız xəstədir.*

*17. Onu vaqiflərtək tərif eləyim,*
*18. Gözləri ağıllı, ləbi püstədir.*
*19. Şükür, hələ sağam, var duz-çörəyim,*
*20. Sevinə bilmirəm – o qız xəstədir.*

*21. ...Bu şeiri yüz dəfə oxuyun, yozun,*
*22. Onsuz da açarı bircə səsdədir.*

14. Uçuyor, çekiliyor göğe,
15. Şeytana yalvarıyorsun
16. Def olup gitsin diye.

17. Seni anlamıyor dünyanın
18. Terapisti, hekimi,
19. Ağlıyorsun camiye
20. Bırakılmış bebek gibi.

21. Aniden uyanıyorsun,
22. Kadim bir aşk gel diyor,
23. Allah üstadın gibi
24. Yüzüne gülümsüyor.

## SEVİNEMİYORUM, O KIZ HASTA

1. Kâh yağmur çiseliyor kâh güneş gülüyor,
2. Hayatta gül, çiçek deste destedir.
3. Ne olsun, bana mutlu haber geliyor,
4. Sevinemiyorum o kız hasta.

5. Komşunun çocuğu biniyor omzuma,
6. Kendisini bin şekilde bana sevdirtiyor.
7. Ak gömlek ne güzel oldu üzerime,
8. Sevinemiyorum o kız hasta.

9. Aniden deli komşum şen güldü bana,
10. Yalvarıp sigara, kibrit istedi.
11. En aziz dostumdan telefon geldi bana,
12. Sevinemiyorum, o kız hasta.

13. Yıllardır anama dua ediyorum,
14. Görmeyen gözleri yoldadır.
15. Bu akşam yine de köye gidiyorum,
16. Sevinemiyorum, o kız hasta.

17. Onu Vagıf gibi tarif edeyim
18. Gözleri bilge, dudağı fıstıktır.
19. Şükür, hâlâ sağım, var tuzum, çöreğim,
20. Sevinemiyorum, o kız hasta.

21. Bu şiiri yüz defa okuyun, yorumlayın,
22. Onsuz da kilidi bir tek sestedir.

*23. Kaş səhər ayılım, bir misra pozum:*
*24. "Sevinə bilmirəm – o qız xəstədir"...*
*2016*

23. Sabah uyansam bir mısra dizsem:
24. Sevinemiyorum, o kız hasta.

## *QURDLAR VADİSİNDƏ (353)*

*1. Dözülməzdir daha qurdlar vadisi,*
*2. Tanrı susub, qarğa-quzğun ulaşır.*
*3. Aslan yatıb yarasını sağaldır,*
*4. O sürgün qurd bir sonuncu yal aşır.*

*5. Heç darıxma – göylər hələ buluddu,*
*6. Elə bilmə, kimsə səni unutdu.*
*7. Bu vadidə hər yer yaddaş, anıtdı,*
*8. Anıtsızlar anıt ilə dalaşır.*

*9. Ağrın da bol, dərdin də bol yanında,*
*10. Ürək üçün cəza varmı qanunda?*
*11. Sən ruhumu aparmısan canımdan,*
*12. Harda varsan, ruhum orda dolaşır.*

*13. Aprel günü... yağış ha yox, yağır daş,*
*14. Aman Tanrım, sona çatsın bu savaş!*
*15. O şəhərdə bir cüt gözdən axan yaş*
*16. Bu şəhərdə yanağıma bulaşır...*

## KURTLAR VADİSİNDE

1. Dayanılmaz artık kurtlar vadisi,
2. Tanrı susmuş, karga, kuzgun uluyor.
3. Aslan yatmış yarasını sarıyor,
4. O sürgün kurt, son bir engeli aşıyor.

5. Hiç üzülme gökler hâlâ bulutlu,
6. Sanma herkes seni unuttu.
7. Bu vadide her yer hatıra, anıtdı,
8. Anıtsızlar anıt ile dalaşıyor.

9. Acın da bol, derdin de bol yanında,
10. Yürek için ceza var mı kanunda?
11. Sen ruhumu götürmüşsün canımdan,
12. Nerede olsan, ruhum orada dolaşıyor.

13. Nisan günü… Yağmur değil, yağıyor taş,
14. Aman Tanrı'm son bulsun bu savaş!
15. O şehirde bir çift gözden akan yaş
16. Bu şehirde yanağıma bulaşıyor.

## *MƏN SƏNSİZ OLANDA (354)*

*1. Hərdən ah çəkirəm, hərdən gülürəm,*
*2. Nə səhər yeməyi, nə nahar, nə şam!?*
*3. Mən sənsiz olanda elə bilirəm,*
*4. Qaranlıq meşədə tənha qalmışam.*

*5. Nə aciz deyiləm, nə də bəxti kəm,*
*6. Nəyim var günahsız günahdan başqa?!*
*7. Mən sənsiz olanda elə bilirəm,*
*8. Hamı ölüb gedib, Allahdan başqa.*

*9. Bir anda yüz dəfə ölə bilirəm,*
*10. Günəşin özü də yanıb ağlayır.*
*11. Mən sənsiz olanda elə bilirəm,*
*12. Anam öldüyümü sanıb, ağlayır.*

*13. Ölüb qısqanclığım, kinim yox daha,*
*14. Görüş saatını heç sayırsanmı?*

## BEN SENSİZ OLDUĞUMDA

1. Bazen ah çekiyorum bazen gülüyorum,
2. Ne kahvaltı ne öğle yemeği ne akşam!?
3. Ben sensiz olduğumda sanki
4. Karanlık ormanda yalnız kalmışım.

5. Ne acizim, ne de bahtı kötü,
6. Neyim var günahsız, günahtan başka?!
7. Ben sensiz olduğumda sanki
8. Herkes ölüp gidiyor, Allah'tan başka.

9. Bir anda yüz defa ölebilirim,
10. Güneşin kendisi de yanıp ağlıyor.
11. Ben sensiz olduğumda sanki
12. Annem öldüğümü sanıp ağlıyor.

13. Ölmüş kıskançlığım, kinim yok artık,
14. Buluşma saatini hiç sayıyor musun?

*15. Mən sənsiz olanda yaşamıram ha,*
*16. Sən mənsiz olanda yaşayırsanmı?*

15. Ben sensiz olduğumda yaşayamıyorum ha,
16. Sen bensiz olduğunda yaşıyor musun?

## *NƏ YAXŞI TANRI VAR (355)*

*1. Səhərə az qalıb... can verir gecə,*
*2. Yəqin çoxdan yatır qohumum, yadım.*
*3. Hər şeyi unudub, elə indicə*
*4. Durduğum yerdəcə sənsiz ağladım.*

*5. Elə bil sinəmi dağladı mərmi,*
*6. Kiritdim ağrımı... səssiz ağladım.*
*7. Səni üzdülərmi, incitdilərmi? –*
*8. Durduğum yerdəcə sənsiz ağladım.*

*9. Səbəb aramağa qalmadı halım,*
*10. Unutdum özümü... mənsiz ağladım.*
*11. Səni belə sevmək eşqmi, bəlamı?! –*
*12. Durduğum yerdəcə sənsiz ağladım.*

*13. Söykəndim Tanrıya – nə yaxşı O var –*
*14. Bircə ümidimi Ona bağladım.*
*15. İçimdən çölümə axdı dualar,*
*16. Durduğum yerdəcə sənsiz ağladım...*

## İYİ Kİ TANRI VAR

1. Sabaha az kaldı, can veriyor gece,
2. Çoktandır yatıyor akrabam, komşum.
3. Her şeyi unutup öylece
4. Durduğum yerde sensiz ağladım.

5. Sanki sinemi dağladı mermi,
6. Susturdum acımı… Sessizce ağladım.
7. Seni üzdüler mi, incittiler mi?
8. Durduğum yerde sensiz ağladım.

9. Sebep aramaya kalmadı hâlim,
10. Unuttum kendimi… Bensiz ağladım.
11. Seni böyle sevmek aşk mı, bela mı?
12. Durduğum yerde sensiz ağladım.

13. Dayandım Tanrı'ya, ne güzel o var
14. Bir tek umudumu ona bağladım.
15. İçimden çölüme aktı dualar,
16. Durduğum yerde sensiz ağladım.

## *CANIMIN İÇİ (356)*

*1. İlk görüş... soyuq oda,*
*2. İşləmirdi qaz peçi.*
*3. Dedim, gəl mənə sığın,*
*4. İsin, canımın içi.*

*5. Yaxşı ki, işləmirdi*
*6. O danqalaq qaz peçi –*
*7. Sən mənə "can", mən sənə*
*8. Dedim "canımın içi".*

*9. Yüz şeirimdə sordular:*
*10. – O bəxtəvər kim, nəçi?*
*11. Dedim, mən ona canam,*
*12. O da canımın içi.*

*13. ...Elə soyuyub, gülüm,*
*14. Qanım, qanımın içi –*

## CANIMIN İÇİ

1. İlk bakış, soğuk oda,
2. Çalışmıyordu gaz sobası.
3. Dedim, gel bana sığın,
4. Isın, canımın içi.

5. İyi ki çalışmıyordu
6. O dangalak gaz sobası.
7. Sen bana can, ben sana
8. Dedim canımın içi.

9. Yüz şiirimde sordular:
10. O bahtiyar kim, neci?
